Azərbaycan Milli Elmlər Akademiyası

# ELM və HƏYAT

Elmi-populyar jurnal

ISSN: 2710-0944 №1 (483), 2024

*Jurnal 1961-ci ildən nəşr olunur*

## REDAKSİYA HEYƏTİ

**BAŞ REDAKTOR**

**İsa Həbibbəyli** - AMEA-nın prezidenti, akademik

**BAŞ REDAKTORUN MÜAVİNİ**

**Ağahüseyn Şükürov** - AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru

**ÜZVLƏR**

**Anar Rzayev** - Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı
**Arif Həşimov** - AMEA-nın I vitse-prezidenti v.i.e., akademik-katib, akademik
**Dilqəm Tağıyev** - AMEA-nın vitse-prezidenti, akademik
**İbrahim Quliyev** - AMEA-nın vitse-prezidenti, akademik
**Ömər Eldarov** - Akademik
**Rasim Əliquliyev** - AMEA-nın vitse-prezidenti, akademik
**İradə Hüseynova** - AMEA-nın vitse-prezidenti, akademik
**Nərgiz Paşayeva** - AMEA-nın vitse-prezidenti, akademik
**Tofiq Nağıyev** - AMEA-nın vitse-prezidenti, akademik
**Gövhər Baxşəliyeva** - AMEA-nın vitse-prezidenti v.i.e., akademik
**Cəmil Əliyev** - AMEA Rəyasət Heyətinin üzvü, akademik
**Əhliman Əmiraslanov** - Milli Məclisin Səhiyyə Komitəsinin sədri, akademik
**İsmayıl Hacıyev** - AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik
**Fuad Əliyev** - AMEA-nın Gəncə Bölməsinin sədri, akademik
**Fərhad Xəlilov** - Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı
**Firəngiz Əlizadə** - Azərbaycan Bəstəkarlar İttifaqının sədri
**Oktay Qasımov** - AMEA-nın müxbir üzvü

**BEYNƏLXALQ HEYƏT**

**Se Fuçjan** - Çin İctimai Elmlər Akademiyasının prezidenti, akademik
**Dərya Örs** - Türkiyə, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumunun rəhbəri, professor
**Müzəffər Şəkər** - Türkiyə Elmlər Akademiyasının prezidenti, professor, doktor
**Behzad Yuldaşev** - Özbəkistan Elmlər Akademiyasının prezidenti, akademik
**Kunsulu Zakarya** - Qazaxıstan Milli Elmlər Akademiyasının prezidenti, professor
**Taliya Xabriyeva** - Rusiya Elmlər Akademiyası prezidentinin müavini, akademik
**Nikolay Sokolovski** - Polşa Elmlər Akademiyasının Ədəbi Tədqiqatlar İnstitutunun əməkdaşı, professor
**Boris Nikolov** - Bolqarıstan Elmlər Akademiyasının vitse-prezidenti, akademik
**Stefani Sini** - İtaliya (professor)

**MƏSUL KATİB**

**Sərvan Kərimov** - AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Dövri nəşrlər sektorunun baş mütəxəssisi

# BƏLƏDÇİ


**YENİ TARİXİ DÖVR**
**İsa Həbibbəyli** - "Dəmir yumruq"lu və Zəfər bayraqlı Lider ....5
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI-100**
**İsmayıl Hacıyev** - Naxçıvan Muxtar Respublikası: muxtariyyətdən respublikaya ....9
**YENİLƏŞƏN AKADEMİYA**
**Füzuli Qurbanov** - AMEA - Azərbaycanın elmi yaddaş və intellektual məkanı ....14
**MƏHƏMMƏD ƏMİN RƏSULZADƏ - 140**
**Mübariz Ağalarlı** - Rəsulzadənin elmi irsində Azərbaycan tarixi məsələləri ....20
**АКАДЕМИК АКИФ АЛИЗАДЕ - 90**
**Назмин Джафарова** - Прекрасный организатор науки и реформатор....24
**YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ**
**Günel Məmmədova** - "Yaşıl dünya naminə həmrəylik ili"ndən gözləntilər - dayanıqlı, "yaşıl" və "ağıllı" səhiyyənin perspektivləri ....29
**QARABAĞ**
**Sədaqət Adıgözəlova, Aygün Babayeva** - İşğaldan azad olunmuş ərazilərdə müasir texnologiyaların tətbiqi .... ....32
**Rəşid Fətəliyev** - Böyük Qayıdışa dəyərli dəstək: Qarabağın qızıl yataqları ....37
**Məmməd Sadıqov, Şahvələd Əliyev** - Ağdamda kəndlərin tipoloji, morfoloji və genetik quruluşunun formalaşması....41
**Nərminə Hüseynova** - Şuşa - Vesprem qardaşlaşmış şəhərlər ....44
**SOYQIRIMI**
**Sübhan Talıblı** - Meşəli soyqırımı ....47
**Mehman Qaraxanoğlu** - Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsərində 31 Mart soyqırımı fəryadlarının əks-sədası ....51
**QƏRBİ AZƏRBAYCAN**
**Fəridə Mir-Bağırzadə** - İrəvan xanlığının tarixi abidələri....55
**Faiq İsmayılov** - Qərbi Zəngəzur abidələri: Qarakilsə Məbədi ....58
**DÜNYA ELM ALƏMİNDƏ**....60
**TARİX VƏ NƏZƏRİYYƏ**
**Vaqif Abışov** - Tarixin nəzəriyyələri haqqında təhlillər ....62
**Arzu Hacıyeva** - Millət və insaniyyət naminə ....65
**DİLÇİLİK**
**Məsud Mahmudov** - Milli dil korpusları ....69
**Sima Cəfərova** - "Xavərnamə" dastanında samit səslərin müasir dilimizdə fərqli işlənmə məqamları ....72
**İQTİSADİYYAT**
**Tanrıverdi Paşa** - Nobel mükafatçısının töhfələri ....76
**MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT**
**Səmirə Mir-Bağırzadə** - Sumer/ Şumer sivilizasiyası prototürk mədəniyyəti kimi ....79
**Fəridə Quliyeva** - Hüseyn Cavid pyeslərinin səhnəqrafiyasının tərəqqisi ....84
**Эллада Аббасова** - Архитектура средневекового Азербайджана в исследованиях Рены Эфендизаде ....87
**NOVRUZ BAYRAMINIZ MÜBARƏK**
**Şakir Albalıyev** - İlaxır çərşənbə ....91
**ELMDƏ QADINLAR**
**Sadıx Nəbiyev** - Azərbaycanın ilk qadın akademikləri ....94
**TİBBİ COĞRAFİYA**
**Ayşən Məmmədova** - Azərbaycanda gələcək vəd edən elm sahəsi ....97
**MƏNTİQ**
**Nəzakət Məmmədova** - Hilbert probleminin yaratdığı suallar və Gödel teoremi ....101
**МУЗЕЙНАЯ ПЕДАГОГИКА**
**Нигяр Ахмедли** - Проблемы музейного образования в обучении студентов....107
**DENDROLOGİYA**
**Tofiq Sadiqov, Xəyalə Əlibəyli** - Ruta graveolens l. növündən alınan efir yağı ....110
**MERİDİAN**....112
**SAĞLAMLIQ DÜNYASI** ....114



Azərbaycan Respublikasının
Prezidenti İlham Əliyev
Xankəndi şəhərində Novruz
tonqalını alovlandırıb.

*18 Mart 2024-cü il*



**İsa HƏBİBBƏYLİ,**
*AMEA-nın prezidenti,*
*Milli Məclisin deputatı, akademik*

# "Dəmir yumruq"lu və Zəfər bayraqlı lider

**Bu gün artıq böyük qürur hissi ilə, demək olar ki, 7 fevral 2024-cü ilin növbədənkənar prezident seçkiləri Azərbaycan tarixinə Zəfər seçkisi kimi daxil olmuşdur. Xalqımızı 2020-ci ildəki 44 günlük Vətən müharibəsində və 2023-cü ilin sentyabr ayındakı bir günlük lokal xarakterli antiterror tədbirlərində qazandığı tarixi Zəfəri böyük birlik və mütəşəkkillik şəraitində başa çatdırdığı 7 fevral prezident seçkiləri ilə qəti şəkildə möhkəmləndirmişdir.**

XXI əsrin dünya liderləri arasında xüsusi yeri və mövqeyi olan, öz xalqına tarixi zəfərlər qa-zandırmış cənab İlham Əliyevin 2024-cü il fevralın 7-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə müstəqil dövlətimiz həm də Zəfərdən - Zəfərlərə doğru yeni və etibarlı təminat almışdır. Bu mənada xalqımız və ölkəmiz 7 fevral 2024-cü ilin növbədənkənar prezident seçkiləri ilə müstəqillik tariximizin indiyə qədərki möhtəşəm tarixi inkişaf yoluna yekun vurmuş və daha böyük inkişafın geniş üfüqlərini nümayiş etdirən yeni dövrə qədəm qoymuşdur.

Azərbaycan Respublikasına uğurla rəhbərlik edən, ölkəmizi və xalqımızı yeni tarixi inkişaf mərhələsinə çatdırmış, 7 fevral seçkilərində qazandığı möhtəşəm qələbə ilə tariximizə silinməz izlər salmış, 20 illik inkişafın möhtəşəm hesabatını təqdim edən İlham Əliyev həm də daha böyük gələcəyə təminat verə bilən lider olduğunu da təsdiqləmişdir.

Azərbaycan tarixində xüsusi mərhələ olan 2003-2023-cü illər Prezident İlham Əliyevin siyasi hakimiyyətinin birinci dövrünün epopeyası, 7 fevral 2024-cü il seçkilərində qazanılmış tarixi qələbə isə Ali Baş Komandanın daha böyük gələcəyə çağırışlarını ifadə edən manifestidir. Bu, müstəqil dövlətçilik manifestinin ideya müəllifi uzaqgörən dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev, baş qəhrəmanı və böyük sükançısı isə müzəffər Ali Baş Komandanımız İlham Əliyevdir. Bütün bunlara görə 7 fevral 2024-cü il prezident seçkiləri müstəqillik tariximizin möhtəşəm yekunu, yeni tarixi epoxanın böyük başlanğıcı və paroludur. Dünyanın gözü qarşısında 7 fevral seçkilərində mühüm tarixi qələbə qazanmış Azərbaycan xalqı böyük qürur hissi ilə İlham Əliyevə səs verməklə özünün yeni zəfərlər vəd edən daha böyük gələcəyinə mandat almışdır.

Daşıdığı dərin mənaya və zərurətə görə 7 fevral 2024-cü il prezident seçkilərini Azərbaycan tarixində yalnız ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 3 oktyabr 1993-cü il seçkiləri ilə müqayisə etmək olar. Azərbaycanda dərin böhranların yaşandığı, müstəqilliyin itirilmək təhlükəsinin mey-



danda olduğu həmin məsuliyyətli sınaq dövründə xalqımız birmənalı şəkildə zəngin təcrübəyə malik olan, dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizi xilas edəcəyinə böyük ümid və inam bəsləmişdir. Bu baxımdan 3 oktyabr 1993-cü il seçkilərində xalqımız Heydər Əliyevin simasında öz taleyinə, sabahına səs vermişdi. Tarix Heydər Əliyevin xilaskarlıq missiyasının timsalında xalqımızın nə qədər müdrik olduğunu sübut etmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyev dövlət müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etmək və inkişafın növbəti mərhələsinin möhkəm təməllərini yaratmaqla tarixin gedişatını dəyişdirməyi bacardığını isbat etmişdir.

Məlum olduğu kimi, hazırkı 7 fevral 2024-cü il seçkiləri isə 3 oktyabr 1993-cü il seçkilərindən fərqli olaraq, müstəqil dövlətimizin böyük sürətlə inkişaf etdiyi, ölkəmizin Qarabağ müharibəsində tarixi Zəfər qazandığı, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təsdiq olunduğu bir şəraitdə keçirilmişdir. Xalqımız 3 oktyabr 1993-cü il seçkilərində dövlət müstəqilliyimizi itirməmək və möhkəmləndirmək üçün Heydər Əliyevlə müqayisə oluna bilən digər bir lider görmədiyi kimi, 7 fevral 2024-cü il seçkilərində də ölkəmizi gəlib çatdığı Zirvədə qoruyub saxlamaq və yeni zirvələrə doğru aparmaq bacarığında da İlham Əliyevdən başqa heç bir alternativ namizəd haqqında fikirləşməli olmamışdır. Bu mənada Azərbaycan xalqı 3 oktyabr 1993-cü ildə hansı böyük inamla prezident seçkilərinə getmişdisə, 7 fevral 2024-cü il seçkilərində də həmin qətiyyətlə və eyni qürur hissi ilə seçkilərdə öz sözünü demişdir. Ona görə də 3 oktyabr 1993-cü il prezident seçkilərində görkəmli dövlət xadimi Heydər Əliyevin ölkə rəhbəri seçilməsi ilə müstəqilliyini itirmək təhlükəsinin aradan qalxmasını bayram edən xalqımız 7 fevral 2024-cü il seçkilərində də müzəffər Ali Baş Komandan İlham Əliyevə mandat verməklə müstəqil




dövlətimizin Zəfərdən-Zəfərlərə doğru inkişaf edəcəyinə böyük inamının real təntənəsini yaşamısdır. Bu cəhətdən dövlətçilik baxımından Heydər Əliyevin dəmir iradəsi ilə İlham Əliyevin "dəmir yumruğ"u bir-birini tamamlayır və daha da gücləndirir. Bütün bunlar isə Heydər Əliyev - İlham Əliyev epoxasının Azərbaycan çoxəsrlik tarixində yeni bir tarixi dövr olduğunu əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyev XXI əsrin dünya liderlərindən biridir. Müstəqillik dövründə yaranmış yeni dövlətlərdən heç biri Prezidenti İlham Əliyev qədər öz xalqına böyük tarixi zəfərlər qazandıra bilməmişdir. Belə ki, bəzi ölkələrdə iqtisadiyyat, digərlərində turizm və nəqliyyat, başqa birində aqrar sahə, yüngül sənaye sahələrindən ikisi, üçü üstünlük qazandığı halda, Azərbaycan Respublikasında Prezident İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün sahələri yüksək templərlə inkişaf etməkdə davam edir. Qədim neft ölkəsi olan Azərbaycan da bu gün dövlət büdcəsinin formalaşmasında qeyri-neft sahələri: aqrar sektor, nəqliyyat - logistika, turizm, xidmət sahələri xüsusi çəkiyə malikdir. Həm də ölkəmizdə bütün sahələr dəqiq proqnozlaşdırılmış Dövlət proqramları və özəl sektorun birgə iştirakı ilə məqsədyönlü şəkildə inkişaf etdirilir.

Prezident İlham Əliyev uzaqgörən rəhbər kimi bu günün reallıqlarını obyektiv şəkildə qiymətləndirdiyi kimi, sabahın üfüqlərini də doğru-düzgün proqnozlasdıran liderdir. Ona görə də Azərbaycan Respublikasında bütün sahələr üzrə davamlı və dayanıqlı inkişaf təmin olunmusdur. Müstəqil Azərbaycan dövlətinin irəliyə doğru inkişafının əsasında Prezident İlham Əliyevin yüksək idarəetmə bacarığı dayanır. Çoxillik uğurlu dövlətçilik təcrübəsi ilə, o, sözün əsl mənasında, böyük siyasətdə olduğu kimi, böyük idarəetmə sahəsində də məharətli bir qrosmeystr olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyev müstəqil siyasət həyata keçirən liderdir. "Sözümüz imzamızdır" devizi İlham Əliyevin sözü ilə özünün, ideyası ilə iradəsinin möhkəm bir vəhdət təşkil etməsinin təsdiq olunmuş tezisidir. Dövlət başçısının

möhkəm daxili-mənəvi müstəqilliyi onun siyasi müstəqilliyinin möhkəm bünövrəsidir. Bu mənada Prezident İlham Əliyevin müstəqil siyasət həyata keçirməsi Azərbaycan Respublikasının müstəqil dövlətçiliyinin əsas təminatıdır. Müstəqil Azərbaycan dövləti dünyanın heç bir blokundan və ya dövlətindən asılı deyildir. Prezident İlham Əliyevin hesabat verdiyi yalnız bir ünvan vardır ki, o da dərin sədaqətlə və böyük bacarıqla rəhbərlik etdiyi Azərbaycan xalqıdır. Xalqın dönməz dəstəyini qazanmaq İlham Əliyevin müstəqil dövlətçilik siyasətinin əsasını təşkil edir.

Ölkədaxili siyasətlə xarici siyasəti üzvü surətdə əlaqələndirmək baxımından da İlham Əliyev mahir dövlət xadimidir. Çünki Prezident İlham Əliyevin xarici siyasətdə də, daxili siyasi gedişatda da müqəddəs hesab etdiyi yalnız bir marağı vardır ki, o da Azərbaycan xalqının milli maraqlarından və müstəqil ölkəmizin dövlətçilik mənafelərindən ibarətdir. Ölkəmizin daxili və xarici siyasəti bir yerdə, bütövlükdə, Azərbaycan idealına həsr olunmuşdur. Prezident İlham Əliyev Azərbaycan idealının şərəfini Birləşmiş Millətlər Təşkilatının mötəbər xitabət kürsüsü, beynəlxalq təşkilatların tribunaları, dünya dövlətləri liderlərinin danışıqlar masası səviyyəsinə qaldırmışdır. İlham Əliyevin daxili siyasətinin baş qəhrəmanı, xarici siyasətinin isə əsas strategiyası Azərbaycan idealından ibarətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqımızın gözündə ən uca məqam olan müzəffər Ali Baş Komandan statusu qazanmışdır. Məlum olduğu kimi, müzəffər Ali Baş Komandan statusunu, o, 44 günlük Vətən müharibəsindəki, sözün əsl mənasında, təkrarsız qəhrəmanlığı ilə qazanmışdır. Sərkərdəsi olduğu Azərbaycan Ordusunu hərbi cəhətdən düzgün istiqamətləndirən Ali Baş Komandan İlham Əliyev informasiya cəbhəsində təkbaşına apardığı müharibənin də yenilməz qəhrəmanıdır. Bu mənada "dəmir yumruq" Ali Baş Komandanın həm müharibə cəbhəsindəki və həm də informasiya müharibəsindəki dəmir iradəsinin simvoludur. Ali Baş Komandan İlham Əliyev hər iki cəbhənin: real döyüş cəbhəsinin və həm də informasiya müharibəsinin qalibidir. Prezident İlham Əliyev beynəlxalq münasibətlərdə də, ölkədaxili siyasətdə də qalibdir. Müzəffər sözü - qalib sözünün sinonimidir. Bu vaxta qədər ki, çoxcəhətli fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, 7 fevral 2024-cü il seçkilərində də İlham Əliyev, sözün əsl mənasında, qalibiyyət nümunəsi göstərmişdir. Bu isə artıq Azərbaycan Respublikasının bütün ərazisində dalğalanmaqda olan Zəfər bayraqlarının ədəbiyyət qazanmasının təntənəsidir.

Dünya şöhrətli görkəmli qırğız yazıçısı Çingiz Aytmatov hələ XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdə yüksək liderlik xüsusiyyətlərinin olduğunu aşağıdakı kimi ifadə etmişdir: "İlham Əliyev XXI əsrin lider etalonudur".

Doğrudan da İlham Əliyev özünün çoxcəhətli uğurlu fəaliyyəti, ölkəsinə və xalqına qazandırdığı böyük qələbələri, xarakterindəki müstəqil mövqeyə malik olmaq xüsusiyyəti, möhkəm siyasi iradəsi etibarilə yeni tarixi epoxanın liderlik missiyasına nümunədir. Bu cəhətdən 7 fevral 2024-cü ildə Azərbaycan xalqının dünyaya nümayiş etdirdiyi birlik və mütəşəkkillik qalib liderə bəslənilən möhkəm inamın canlı təntənəsidir. 7 fevral 2024-cü ildə seçki məntəqələrinin qarşısındakı sıralar və növbələr dərin mahiyyəti etibarilə xalqımızın Prezident İlham Əliyevə bəslədiyi sarsılmaz inamla böyük ümumxalq vəhdətinin ifadəsidir.

Prezident İlham Əliyev "dəmir yumruq"lu və Zəfər bayraqlı Azərbaycan lideridir.

Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanımız İlham Əliyevi növbədənkənar seçkilərdə qazandığı qanunauyğun növbəti böyük qələbə münasibəti ilə ürəkdən təbrik edir, müstəqil Azərbaycan dövlətinin, xalqımızın daha xoşbəxt gələcəyi yollarında möhtərəm liderimizə yeni-yeni uğurlar arzulayıram.



**İsmayıl HACIYEV**
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

# Naxçıvan Muxtar Respublikası: muxtariyyətdən respublikaya

**"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq."**

***Heydər ƏLİYEV***
***Ümummilli Lider***

**Azərbaycan Prezidenti İlham Əliyev 2023-cü il dekabrın 30-da Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır... Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir".**

Naxçıvan Muxtar Respublikası çətin, mürəkkəb və eyni zamanda parlaq inkişaf yolu keçmişdir. Naxçıvanşahlıqdan başlanan idarəetmə qurumu Azərbaycanın tərkibində Naxçıvan Muxtar Respublikasının yaranması və 100 illik inkişafı ilə diqqəti cəlb etmişdir. Müstəqil Naxçıvan xanlığı, İrəvan quberniyasının tərkibində Naxçıvan qəzası XX əsrin 20-ci illərinədək Rusiyanın tərkibində olsa belə, inkişafa nail olmuşdur. Xüsusilə, XX əsrin çətin sınağında, məkrli erməni daşnaklarının ərazi iddiaları ilə mübarizədə qalib gəlmiş, əhalisinin 38 faizini itirsə belə Naxçıvan ərazisi qorunub saxlanılmışdır.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası vaxtı ilə, hələ muxtariyyət əldə etməmişdən təqribən iki əsr əvvəl coğrafi cəhətdən ölkəmizin mərkəzi ərazilərindən olmuşdur. Rusiya - Qacarlar İranı arasında olan 1804-1813, 1826-1828-ci illər müharibələri Azərbaycanın bölünməsi və işğalı ilə nəticələnmişdir. XX əsrin əvvəllərinə kimi, çar Rusiyasının süqutuna qədər Naxçıvan diyarı müxtəlif formalarda idarə olunmuşdur.

Fevral inqilabı keçmiş Rusiya imperiyasının bütün ərazilərində, o cümlədən Naxçıvanda da tamamilə yeni siyasi şərait yaratdı. 1917-ci il martın 9-da diyarda Xüsusi Zaqafqaziya Komitəsi (XZK) yaradıldı. Azərbaycandan M.Y.Cəfərov komitənin üzvü təyin edildi. XZK-nın qərarı ilə B.Maqsudov və Mxitaryans Naxçıvana müvəkkil təyin edildilər.

Naxçıvan, Culfa və Ordubad şəhərlərində müsəlman və erməni Milli Komitələri yaradıldı.

1917-ci il noyabrın 11-də Tiflisdə keçirilən müşavirədə gürcü menşevikləri, Azərbaycan müsavatçıları, erməni daşnakları və sağ eserlərin nümayəndələri Rusiya bolşevik hökumətini tanımaqdan imtina etdilər. Noyabrın 15-də Zaqafqa-



Kazım Qarabəkir paşa

ziya Komissarlığı yaradıldı. Bu komissarlığın yaradılması ilə Naxçıvanın inzibati idarəçiliyində əsaslı dəyişiklik baş vermədi. Naxçıvanda Qarışıq Komitə fəaliyyət göstərirdi.

Ərzincan barışığına görə (1917, 18 dekabr) rus qoşunları Naxçıvanı tərk etdi. Onların silah-sursatlarını erməni daşnakları ələ keçirdi. 1918-ci ilin əvvəllərindən başlayaraq daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini öldürmüşdü.

Osmanlı komandanlığı ermənilərə ciddi xəbərdarlıq etdi. Türkiyə silahlı qüvvələrinin Qafqaz ordusu baş komandanı Mehmed Vehib paşa öz ordusuna hücum əmri verdi. Osmanlı ordusunun bütün cəbhə boyu irəliləməsi fevralın 23-də Zaqafqaziya Seyminin açılmasına kimi davam etdi. Fevralın 23-də Zaqafqaziya Seymi yaradıldı. Aprelin 22-də isə müstəqil Zaqafqaziya Federativ Respublikasının yaradılması haqqında qərar qəbul edildi.

Cənubi Qafqaz bölgəsində baş vermiş hadisələr son nəticədə Zaqafqaziya Federasiyasının süqutu ilə nəticələndi və üç müstəqil dövlət - Azərbaycan, Gürcüstan və Ermənistan respublikaları yaradıldı. Azərbaycanın müstəqil dövlət elan edilməsi Naxçıvan əhalisində müəyyən ümidlər yaratdı. Naxçıvan bölgəsinin qarşılaşdığı problemləri həll etmək və çətinlikləri aradan qaldırmaq üçün istər yerli əhali və onun başçıları, istərsə də Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən müəyyən işlər görülmüş, ermənilərin ərazi iddialarının və etnik təmizləmə siyasətinin reallaşdırılması istiqamətində ilkin cəhdlər dəf edilmişdi.

Ermənistanın Azərbaycana olan iddialarının artdığı bir dövrdə - 1918-ci il iyulun 7-də **Kazım Qarabəkir paşa**nın başçılığı ilə türk ordusunun bir qrupu Naxçıvana gəldi və erməni basqınlarının qarşısını aldı. Lakin Mudros müqaviləsinin şərtlərinə görə Naxçıvanı tərk etməli oldu.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ingilislərin və amerikalıların dəstək və yardımlarından istifadə edən erməni silahlı qüvvələri Naxçıvanı işğal etməyə cəhd etmişlər. Lakin qəhrəman naxçıvanlıların mərdlik və igidliklə apardığı mübarizə məkrli düşmənlərin niyyətlərinin reallaşmasına imkan verməmişdir. Naxçıvanın qəhrəman əhalisi bu diyarı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorumuş, Ana Vətənə birləşdirmək uğrunda inadla mübarizə aparmışdır.

Naxçıvanlıların qəhrəmanlıqlarından bəhs edən Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Nəsib bəy Yusifbəyli Azərbaycan parlamentindəki çıxışında demişdir: "İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll etdilər. Onlar həyatlarını, ailələrinin şərəfini və var dövlətlərini riskə qoyaraq doğma torpağa - Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi görəndən sonra onların qanuni hüquqlarını danmayacaqlar".

Naxçıvan əhalisinin igidliklə ərazilərini qorumalarını Ermənistanın baş naziri O.Kaçaznuni 1923-cü ildə açıq etiraf etmişdir: "Müsəlman bölgələrin idarə edilməsində düzən təmin edə bilmədik; silah tətbiq etmək, ordu yeritmək, yıxmaq və qətliam törətmək zorunda qaldıq, hətta bu məsələlərdə də başarıqsız olduq ki, bu da heç şübhəsiz iqtidarın nüfuzunu sarsıtdı. Vedibasar, Şərur, Naxçıvan kimi önəmli məntəqələrdə öz iqtidarımızı silah gücüylə belə qura bilmədik, məğlub olduq və geri çəkildik".

Naxçıvanlılar bu diyarı erməni işğalından qorumaq üçün 1918-ci ilin noyabrında Araz-Türk Cümhuriyyəti adlı hökumət yaratdılar. Araz-Türk Cümhuriyyəti hökumətinin tərkibi 6 üzvdən ibarət idi. Hökumətin sədri Əmir bəy Nərimanbəyov olan bu respublikanın ərazisi 8,7 min kv. km, əhalisi isə 1 milyon nəfərdən artıq olmuş, mərkəzi Naxçıvan şəhəri idi. Araz-Türk Cümhuriyyətinin ərazisinə Naxçıvan, Şərur-Dərələyəz qəzaları, Ordubad mahalı, Sərdarabad, Uluxanlı, Vedibasar, Qəmərli, Mehri və b. ərazilər daxil idi. Araz-Türk Cümhuriyyətinin yaradılmasında başlıca məqsəd bölgənin erməni işğalı altına düşməsinə imkan verməmək idi. Bunun üçün silahlı qüvvələr təşkil edilmiş, 500 nəfərlik süvari alayı yaradılmışdı. Könüllü xalq dəstələri təxminən 20 tabordan ibarət idi. Araz-Türk Cüm-

huriyyətinin hərbi qüvvələri ilə yanaşı, Naxçıvanın müdafiəsində Cəfərqulu xan, Kəlbalı xan, Kərim xan, Rəhim xan, Bəhram xan və b. çox böyük xidmətlər göstərmişlər.

İngilislərin və amerikalıların Naxçıvana gəlmələri Mudros müqaviləsinin şərtlərinə görə idi. Həmin müqaviləyə görə Cənubi Qafqaz bunların təsir dairəsinə verilmişdi. Hər iki qüvvələrin məqsədi Naxçıvan və Şəruru Ermənistana vermək idi. Bunu Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri və Naxçıvanı idarə edənlər də başa düşmüşdülər. Ona görə də onların niyyətlərinin qarşısını almaq üçün Azərbaycan Xalq Cümhuriyyəti 1919-cu ilin fevralında Naxçıvan general-qubernatorluğu yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti Naxçıvana siyasi dəstək verməklə yanaşı, maddi vəsaitlə də kömək edirdi.

**Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xan** Azərbaycan Respublikası xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi məktubda yazırdı ki, biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, Azərbaycan bizə kömək edəcəkdir. Erməni daşnaklarına layiqli cavab verən naxçıvanlılar onlardan çoxsaylı silah-sursatı qənimət kimi ələ keçirdi, 800 erməni əsgəri və 8 zabiti əsir alındı.

1920-ci ilin aprelində Azərbaycan XI Qırmızı Ordu tərəfindən işğal olundu, Azərbaycan Xalq Cümhuriyyəti devrildi və Azərbaycanda Sovet hakimiyyəti yaradıldı. Naxçıvanda sovet hakimiyyəti iyulun 28-də elan edildi və Hərbi İnqilab Komitəsi yaradıldı. Bir neçə gündən sonra - avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri - M.Bektaşov Azərbaycan SSR XKS-in sədri N.Nərimanova məktubla müraciət etdi: "Naxçıvan əhalisinin böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan SSR-in ayrılmaz hissəsi hesab edir".

Çox qəribə idi ki, Naxçıvanda olan bolşevik ordusu həm Ermənistanla müharibə aparır, həm də onlarla siyasi və diplomatik danışıqları davam etdirirdi. Bu danışıqlarda Azərbaycanın hətta mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bundan xəbər tutan N.Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin, eyni zamanda, həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir...".


Cəfərqulu xan

Naxçıvanın azərbaycanlı əhalisinin qətiyyətli mövqeyi və mübarizəsi ermənilərin Naxçıvanla bağlı planlarını pozdu. Bu işdə böyük dövlətlər də onlara kömək göstərə bilmədilər.

Beləliklə, Naxçıvan diyarının əhalisi 1918-1920-ci illərdə misilsiz çətinliklərə, təqiblərə, hərbi təcavüzə sinə gərərək milli ləyaqəti uca tutdular, diz çökmədilər, erməni silahlı quldur dəstələrinə layiqli cavab verməklə bölgə əhalisini qorudular.

Sovet Rusiyası Ermənistanı öz tərəfinə çəkmək, nüfuz dairəsinə almaq üçün Azərbaycanın əzəli torpaqları olan Naxçıvan və Zəngəzuru Ermənistana verməyi planlaşdırırdı. Bu yolla Ermənistanı həm də sovetləşdirmək istəyirdi. Ermənistanın bolşeviklərin nəzarəti altına keçməsi ilə əlaqədar Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi. Bəyanatda Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsi hesab edilirdi. Bəyanat Rusiyanın diktəsi ilə yazılmışdı. Bəzən belə bir fikir söylənir ki, Zəngəzuru N.Nərimanov Ermənistana verib. Əslində Zəngəzur (onun qərb hissəsi) Azərbaycan Kommunist Partiyasının qərarı ilə ermənilərə verilib. N.Nərimanov orada çalışan 11 nəfərdən biri idi. Ona sadəcə çıxarılan qərarı bəyan etmək tapşırılmışdı.

Naxçıvan əhalisi isə bəyanatla razılaşmadı və etirazlarını bildirdilər. Əhalini sakitləşdirmək üçün Behbud bəy Şahtaxtinski Naxçıvana göndərildi. 1921-ci ilin yanvarında Naxçıvanda rəy sorğusu keçirildi. Naxçıvanın 90 faiz əhalisi diyarın Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında Behbud bəy Şahtaxtinskinin Leninə yazdığı məktubların böyük rolu oldu. Bu zaman Türkiyə nümayəndələri də Moskvaya getmişdi və Rusiya ilə danışıq aparmaq və müqavilə bağlamaq istəyirdilər. 1921-ci ilin martın 16-da Siyasi Büro Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikasının təşkili barədə qərar qəbul etdi və həmin gün imzalanan Moskva müqaviləsinin 3-







cü maddəsində bu cəhət öz əksini tapdı: "Naxçıvan vilayəti bu müqavilənin I (S) əlavəsində göstərilən sərhədlərdə Azərbaycanın protektoratı altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir". Naxçıvanın ərazisi Ararat stansiyasından başlayaraq keçmiş Naxçıvan qəzasının Şərq inzibati sərhədində qurtarırdı və sahəsi 6038 kv. km idi.

1921-ci il oktyabrın 13-də RSFSR-in nümayəndəsinin iştirakı ilə Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsinə əsasən Naxçıvanın ərazisi, sərhədləri daha da dəqiqləşdirildi. Müqavilənin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi.

Burada göstərilirdi ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilmiş sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar bir ərazi olduğu məsələsində müttəfiqdirlər. Müqavilə maddəsindən göründüyü kimi, burada Moskva müqaviləsinin 3-cü maddəsinin müəyyən bir hissəsi, yəni "Azərbaycan bu himayəçilik haqqını üçüncü bir dövlətə heç bir zaman güzəştə gedə bilməməsi" öz əksini tapmamışdı.

Qeyd etməliyik ki, Moskva müqaviləsindən sonra Rusiya nümayəndələri peşmançılıq hissi keçirmiş, belə qənaətə gəlmişlər ki, Naxçıvana böyük hüquqlar verilmiş, sərhəd məsələlərində də güzəşt edilmişdir. Ona görə də Qars müqaviləsində qeyd olunan məsələ öz əksini tapmamış, Naxçıvanın ərazisinə Dəvəli və Vedibasar daxil edilməmiş və ərazisi 5753 kv.km saxlanılmışdır. Bu müqaviləyə görə Naxçıvanın sərhədi Urmiya kəndindən başlayır və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədində qurtarır.

Qars müqaviləsinin mühüm əhəmiyyətindən biri Moskva müqaviləsi kimi, müddətsiz imzalanması və Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflərin müəyyən edilməsidir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri idi. Ermənistan da Naxçıvanın Azərbaycan ərazisi olduğunu rəsmən təsdiq etdi.

Ümummilli lider Heydər Əliyev beynəlxalq Qars müqaviləsinin tarixdəki yerini yüksək qiymətləndirərək demişdir: "Naxçıvan əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın, Azərbaycanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".

Naxçıvanla bağlı 1921-1924-cü illərdə bir sıra müzakirələr getmiş, müxtəlif hakimiyyət strukturları formalaşmış, bəzən də ləğv edilmişdir. 1921-ci ilin sentyabrında Naxçıvan SSR XKS təşkil edilmişdir. 1922-ci ilin sentyabrında Ölkə İnqilab Komitəsi ləğv edilib yerində Naxçıvan SSR Mərkəzi İcraiyyə Komitəsi yaradılmışdır. Müxtəlif səbəblərdən Naxçıvanda muxtariyyətin yaradılması ləngimiş, 27 fevral 1923-cü ildə Naxçıvan Muxtar Diyarı yaradılmışdır. Nəhayət, 9 fevral 1924-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekreti ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldı.

Beləliklə, Naxçıvan əhalisinin igidliyi, qəhrəmanlığı, vətənpərvərliyi sayəsində çox çətin

və mürəkkəb şəraitdə Azərbaycanın ərazi bütövlüyü qorunub saxlanılmış və burada Naxçıvan MSSR yaradılmışdır. Tarixi və şərəfli inkişaf yolu keçən Naxçıvan Muxtar Respublikası 100 illik yubileyini yüksək göstəricilərlə keçirmək əzmi ilə yaşayır. Çünki Naxçıvan Muxtar Respublikasının yubileyləri həmişə ən yüksək və dövlət səviyyəsində dəyərləndirilmiş və qeyd edilmişdir.

Ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin siyasi fəaliyyətlərində Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan Muxtar Respublikasına da diqqət və qayğı mühüm yer tutur. Naxçıvan Muxtar Respublikası həyatının elə bir sahəsi tapılmaz ki, orada onların izi olmasın. Muxtar respublikanın yaranmasına tarixi hadisə kimi dəyər verən Ümummilli lider Heydər Əliyev demişdir: "Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan xalqının, respublikanın həyatında tarixi hadisədir. Bu respublikanı vaxtilə yaradanlar çox müdrik, uzaqgörən insanlar olublar, Azərbaycan torpaqlarının ayrı-ayrı iddiaçılar tərəfindən parçalanmasının qarşısını alıblar".

Azərbaycan Prezidenti İlham Əliyev də Naxçıvan Muxtar Respublikasına daim diqqət və qayğı ilə yanaşmış, Azərbaycan Prezidenti olduğu 20 il ərzində bura 15 dəfə səfər etmişdir. Bu səfərlərin bir neçəsi özünün sərəncamları ilə keçirilən muxtar respublikanın yubileyləri ilə əlaqədar olmuşdur. Muxtar respublikanın 90 illik yubiley mərasimində nitq söyləyən İlham Əliyev Naxçıvana muxtariyyət statusu verilməsini "tarixi hadisə", "Naxçıvanın rolunu, bu diyarın strateji əhəmiyyətini əks etdirən bir qərar" kimi dəyərləndirmişdir.

Prezident İlham Əliyevin 2022-ci il dekabrın 22-də "Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin təsis edilməsi haqqında" fərman imzalaması bu qədim diyarda mühüm hadisəyə çevrildi. Bu tarixi əhəmiyyətli sənəd Naxçıvan Muxtar Respublikasında dövlət idarəçiliyi sistemində yeni mərhələyə keçid idi.

Hazırda Naxçıvan Muxtar Respublikasında dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirilməsi, idarəetmənin təkmilləşdirilməsi, şəffaflığın artırılması, iqtisadi resurslardan səmərəli istifadə edilməsi, özəl bölmənin təkmilləşdirilməsi və inkişafı kimi sahələrə diqqət yetirilir. Bir sözlə, bu istiqamətlərdə fəaliyyət və təşəbbüslərin dəstəklənməsi ilə muxtar respublika yeni inkişaf dövrünü yaşayır.



Prezident İlham Əliyev muxtar respublikanın möhtəşəm inkişafının mükəmməl strategiyasını müəyyənləşdirmiş və bunun reallaşması üçün 2023-cü il iyunun 5-də "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb.

Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasını uğurla davam etdirən Prezident İlham Əliyev Azərbaycanın bütün regionları kimi, Naxçıvanın da inkişafını hər zaman xüsusi diqqətdə saxlayıb. İndi isə olduqca əhatəli və geniş spektrə malik dövlət proqramının həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsində, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasında, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsində mühüm rol oynayacaqdır.

Beləliklə, aydın olur ki, XX əsr Naxçıvan bölgəsini sınağa çəkmiş, onu məkrli düşmənlə üz-üzə qoymuşdur. Lakin bu diyarın qəhrəman əhalisi bölgəni qoruyub saxlamış, Azərbaycandan ayrı düşməməsi üçün siyasi mübarizə yolu ilə yanaşı, hərbi mübarizə yolundan da istifadə etmişdir. Naxçıvanlıların mübarizə şüarı belə idi: "Biz mədəni dövlətlərin alovlarında məhv olarıq, lakin ərazimizi düşmənə təslim etmərik!".



**Füzuli QURBANOV**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "İdrak nəzəriyyəsi və məntiq" şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru*

# AMEA - Azərbaycanın elmi yaddaş və intellektual məkanı

**Azərbaycan Milli Elmlər Akademiyası xalqın ümumi zəkasını, ağlını birləşdirən böyük bir sərvətdir. ...Elmlər Akademiyasının yaranması Azərbaycanın çoxəsrlik tarixində mühüm bir hadisədir.**

**Heydər ƏLİYEV**
**Ümummilli Lider**

## I məqalə

**Ümumiyyətlə, "elmi yaddaş" anlayışını Pyer Noranın daxil etdiyi "yaddaş məkanı" anlayışının tərkib hissəsi kimi qəbul edirik. Fransa tarixşünaslığının canlı əfsanələrindən olan Pyer Nora "yaddaş məkanı" dedikdə toplumun tarixində xüsusi mədəni rol oynayan məkanları, böyük şəxsiyyətlərin, o cümlədən elm adamlarının fəaliyyətlərinin yaddaşda qalması üsulunu nəzərdə tuturdu.**

Bu baxımdan hər bir xalqın mədəni, incəsənət, elmi, tarixi, siyasi və digər yaddaş yerləri (və ya məkanları mövcud olur). Bu, konkret xalqın keçdiyi tarixi təkamül yolu ilə bağlıdır. Daha əhəmiyyətlisi odur ki, "yaddaş məkanları" tarixin sınağından keçərək, kollektiv şüurda yerini tutmalıdır. Burada həm xalqın öz tarixinə, həm də özünə münasibəti sintez halında özünü göstərir. Xalqın zəkası "yaddaş məkanları"nı müəyyənləşdirir və onlara uyğun olaraq, inkişaf və tərəqqi yolunu seçir.

Aydındır ki, xalqın hansı dəyərləri tarixinin, elminin və mədəniyyətinin yaddaşı kimi görmək istəməsindən çox məqamlar asılıdır. AMEA-nın müasir mərhələdə vacibliyi baxımından bunun böyük əhəmiyyəti vardır. Bu məsələyə daha geniş aydınlıq gətirmək üçün Azərbaycanda elmi ənənənin nə dərəcədə "yaddaş məkanı" olaraq cəmiyyətdə və dövlət quruculuğunda yer aldığına baxaq.

## Azərbaycanda intellektin fəzilətliliyi və yaddaş

Ulu öndər Heydər Əliyev məsələnin bu aspekti ilə bağlı dahiyanə fikirlər söyləmişdir. Ümummilli liderin çox sayda fikirlərindən görünür ki, Azərbaycan xalqı daim zəkaya, elmə və təhsilə böyük önəm vermişdir. Azərbaycanda elm və təhsil adamlarına həmişə diqqət çox olmuşdur, onların el arasında nüfuzu yüksəlmişdir.

Ulu öndər öyrədirdi ki, azərbaycanlılar həmişə elmi cəmiyyətin ali dəyəri hesab etmişlər, ən qə-

dim zamanlardan başlayaraq, elmi yüksək qiymətləndirmişlər: "Azərbaycan xalqı yüksək elmə, biliyə, savada malik olan xalqdır". "Hansı iqtisadiyyat olursa-olsun, elm inkişaf etməlidir". "Azərbaycan xalqı inkişaf etmiş xalqdır. Azərbaycan xalqı öz köklərinə görə zehni inkişaf etmiş xalqdır. Biliyə, inkişafa həmişə diqqət vermiş və bu yolla getmiş xalqdır."

Ulu öndərin Azərbaycan xalqı və dövləti üçün elmin yüksək dərəcədə vacib olduğunu konkret ifadə edən bu fikirləri tədqiqatlar üçün mayak rolunu oynamalıdır. Çünki burada həm tarixi həqiqət vardır, həm də bu həqiqətin adekvat dərki üçün çox əhəmiyyətli tövisyələr mövcuddur.

Heydər Əliyev, bütövlükdə, Azərbaycan xalqının tarixi təşəkkülünün elmi tərəfinə diqqət yetirməyi tövsiyə edir. Deyir ki, bu xalq kökündən ziyalıdır, qədimdən ziyalılıq onun tarixi təkamülündə aparıcı yer tutmuşdur. Bu, böyük tezisdir, həm də səsləyişdir, anlatmaqdır. Ulu öndər anladır ki, qədimdən Azərbaycanın müxtəlif sivilizasiyaların və mədəniyyətlərin kəsişmə məkanı olması, onu mədəniyyətinə, həyat tərzinə və düşüncə üsuluna o dərəcədə hopmuşdur ki, bütövlükdə, cəmiyyət elmi dünyagörüşü ilə formalaşmışdır. Burada, təbii ki, dinin təsiri inkar edilmir. Əksinə, dinin də rolunu elmi müəyyənləşdirməyə bir dəvət hiss olunur.

Digər məqam ondan ibarətdir ki, Azərbaycan xalqı inkişafı naminə daim elmə maraq göstərmişdir. Bunun üçün də azərbaycanlı təfəkkürü elmi-mədəni aspektdə başqa biliklərə həmişə açıq olmuşdur. Təfəkkürün açıqlığı müasir filosoflar tərəfindən intellektin fəzilətliliyinin əsas göstəricilərindəın biri kimi təqdim edilir. Deməli, qədimdən azərbaycanlı ların təfəkkürləri fəzilətli olmuş, özündə mənəvi-əxlaqi fəzilətlə intellektual fəziləti sintez etmişdir. Bu məsələnin fəlsəfi əhəmiyyəti çox böyükdür və xüsusi araşdırılmalıdır. Onu vurğulayaq ki, azərbaycanlı təfəkkürünün fəzilətliliyi Ulu öndərin ifadə etdiyi fikirlərin əsasında tədqiq olunmalıdır.

Heydər Əliyevin fikirlərində intellektin fəzilətliliyi əlaməti kimi başqa bir keyfiyyət yer almışdır. Bu, Azərbaycan fəlsəfi-elmi təfəkkür ənənəsində intellektin daim birləşdirici və inkişafetdirici rol



oynaması ilə bağlıdır. Diqqət etsək, görərik ki, Ulu öndər daim cəmiyyətin inkişafını elmlə əlaqələndirir. Bütün fikirlərində elm bütövlükdə toplumun və dövlətçiliyin tərəqqisi kontekstində qiymətləndirilir. Burada hansısa şəxsin özü üçün elm öyrənməsi arxa plana atılır.

Bundan başqa, Heydər Əliyev elmi fəaliyyəti həmişə cəmiyyət və dövlət üçün strateji dəyər kimi təqdim edir. Və bu zaman elmi düşüncənin birliyə, inkişafa və bəşəriliyə dəvətini ayrıca vurğulayır. Azərbaycan fəlsəfi-elmi təfəkkürü buna görə ənənəvi olaraq humanist, bəşəri və sülhpərvər istiqamətli olmuşdur. Bu, ümumiyyətlə, azərbaycanlı intellektinin fəzilətliyinin, onun zehni faktor kimi "xeyirxahlığı"nın maraqlı əlamətlərindən biridir. Bu problem də ciddi araşdırılmalıdır.

Məsələnin fəlsəfi-nəzəri təhlili üzərində çox geniş dayanmaq imkanı yoxdur. Ancaq aydındır ki, elmi təfəkkür və onun əsas funksiyası olan elmi araşdırma mədəniyyəti qədimdən Azərbaycan toplumunun həyat fəaliyyətinin atributu olmuşdur! Ulu öndər öz fikirləri ilə bunu dolğun ifadə etmişdir.

Bunlardan Azərbaycanda akademik elmi tədqiqatların tarixinə qısa nəzər salmaq üçün təbii maraq yaranır. Bu məsələnin üzərində bir qədər geniş dayanaq.

## Azərbaycan - zəngin akademik tədqiqatlar ölkəsi

VI əsrdə artıq Yunanıstanda "Beşinci akademiya" (neoplatonizim dönəmi) mövcud idi. Lakin 529-cu ildə Bizans imperatoru Yustinian Afinada bütün fəlsəfi məktəbləri bağladı. İoann Malala bu prosesi belə təsvir edir: "529-cu ildə... Afinaya əmr göndərildi ki, fəlsəfəni heç kəs tədris etməsin, qanunu izah etməsin...". 531-ci ilin sonu 532-ci ilin əvvəllərində Afina Akademiyasının rəhbəri Dəməşqin başçılığı ilə 7 filosof indiki Azərbaycanın da daxil olduğu siyasi-coğrafi və mədəni məkana qaçdı. Lakin 532-ci ilin sonunda yenidən Roma imperiyası ərazisinə qayıtdılar.

Qısa müddətdə olmasına baxmayaraq, yunan fəlsəfə və elm adamlarının Azərbaycanın yerləşdiyi coğrafi və mədəni məkana gəlməsi və özləri ilə özəl fəlsəfi düşüncəni, məntiqi və elmi yunan yanaşmasını gətirməsi tarixi bir dönüşə - geniş ərazidə akademik tədqiqatlar ənənəsinin yaranmasına təkan verdi! Faktlar bunu sübut edir.

"Akademikləşmə" prosesinin özünün "yeni coğrafi və mədəni" məkanında sürətlə getməsi təsadüfi deyildi. Məsələ ondan ibarətdir ki, həmin dövrdə də Şərqdə ciddi elmi ənənə və ondan qaynaqlanan təfəkkür tərzi mövcud idi. Hətta xristian fəlsəfi təfəkkürünün qaynaqlarından olan Müqəddəs Avqustin elmi fəaliyyətinə maniçi kimi başlamışdır. Maniçilik III əsrdə meydana gəlmiş və geniş yayılmış bir fəlsəfi-dini cərəyan idi. Hər bir halda Şərqin və o cümlədən, Yaxın Şərq və Qafqazın yunan akademik məktəblərinə həssaslığı öncədən bu ərazilərdə elmə böyük canatmanın və regionun zəngin fəlsəfi, dini və elmi araşdırma ənənəsinə malik olması ilə sıx bağlıdır.

Bu əlamət özünü Azərbaycan da daxil olmaqla geniş ərazidə akademik araşdırmalarda yunan fəlsəfi-elmi məntiqi ilə Şərq araşdırma özəlliyinin sintezində tapdı. O cümlədən, indiki Azərbaycan ərazilərində meydana gələn akademik məktəblərdə humanitar və təbiət elmlərinin həm tədqiqində, həm də tədrisində özünü göstərmişdir. Bu bağlılıqda Heydər Əliyevin ifadə etdiyi aşağıdakı fikirlər çox maraqlı və əhəmiyyətlidir. Ulu öndər III minilliyin gəlişi ilə bağlı xalqa müraciətində vurğulamışdır: "...Yunan-Roma mədəniyyətinin, bütün antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Bununla yanaşı, sözsüz ki, bizim zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştlik, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur...".

Bu fikirlərin çox mənaları vardır. O cümlədən, Ulu öndər ifadə edir ki, Azərbaycanda elmi tədqiqatların tarixi çox qədimdir və onun bir qolu yunan-Roma fəlsəfi-elmi xüsusiyyətlərinə gedib çıxır. Digər qolu isə Azərbaycanın mədəniyyət və elm məkanı kimi özəllikləri ilə əlaqəlidir. Buna görə də tədqiqatçılar yazırlar ki, qədim dövrlərdən Azərbaycanda təbiət elmləri ilə humanitar və tibb elmi qarşılıqlı əlaqədə araşdırılmışdır. Bu isə müasir akademik tədqiqatlar üçün xarakterik olan xüsusiyyətdir.

Yunan akademik düşüncə tərzinin Azər baycanın ərazisinə sirayət etməsi ilə VI-IX əsrlərdə elmin sürətli inkişafı üçün münbit şəraitin formalaşmasına səbəb olmuşdur. Və artıq IX əsrdə yeni elmi mərkəzlər şəbəkəsi yaranmağa başlamışdır. Bu prosesi ümumiləşdirsək, deyə bilərik ki, Orta əsrlərdə İsfahan, Təbriz, Şamaxı, Marağa, Naxçıvan, Həmədan, Ərdəbil, Xoy, Urmiyə və digər yerlərdə çox sayda elmi tədqiqat mərkəzləri formalaşmışdır. Həmin mərkəzlər arasında elmi təcrübə mübadiləsi də mövcud olmuşdur. Bunu tarixi mənbələrdəki faktlar göstərir.

Nəticədə, Azərbaycanda akademik araşdırma mədəniyyəti yeni səviyyəyə yüksəlmiş və bu, bütövlükdə, elmi istiqamətlərin strukturlaşması, təşkili və inkişaf etdirilməsinə ciddi təkanlar vermişdir. Bununla demək olar ki, artıq XII-XIV əsrlərə vahid Azərbaycan akademik araşdırma şəbəkəsi formalaşmış idi.

Vurğulanmalıdır ki, XIII əsrdə Təbrizdə "Rübi-Rəşidi" Akademiyası təşkil edilmişdir. Burada

təbiət elmləri, riyaziyyat, tibb, həndəsə və humanitar elmlər üzrə elmi tədqiqatlar aparılmışdır. Bu struktur müasir akademiyaların strukturuna çox bənzəyir.

Çox əhəmiyyətlidir ki, həmin dövr Azərbaycan elmi mərkəzləri yalnız regioal miqyasda deyil, dünya miqyasında diqqəti cəlb etmişdir. Nəsirəddin Tusinin məktəbində hətta uzaq Çindən gəlmiş alimlər tədqiqat aparmışlar. Sonra onlar vətənlərinə qayıdaraq Tusi modelinə uyğun tədqiqat məktəbləri yaratmışlar.

Sonrakı əsrlərdə Azərbaycanda akademik araşdırma mədəniyyəti daha da inkişaf etmiş və tendensiyadan davamlı inkişaf edən yaradıcılıq üsuluna çevrilmişdir.

## AMEA elmi yaddaşın milli sərvətə çevrilməsi yolunda: müasir mərhələ

Bütün bu faktlar nəyi ifadə edir? Hər şeydən öncə, Azərbaycanda qədimdən akademik tədqiqatların aparıldığını fakt kimi qəbul etməklə yanaşı, yaradıcılıqda xüsusi ənənə olaraq dərk etmək zərurətini ortaya qoyur. Bunun elmin təşkili və idarəedilməsi aspektində anlamlarından biri ondan ibarətdir ki, AMEA-nı bağlamaq fikrinə düşənlər və "bu struktur nə etmişdir ki?" kimi sual verənlər nəyi baltaladıqlarının fərqinə varsınlar. Azərbaycan elə bir elmi-mədəni məkandır ki, akademik araşdırmalar onun yaradıcılıq potensialının nüvəsini təşkil edir. Bu nüvəni məhv etmək, özünü məhv etməkdir! Və burada heç bir bəhanə keçərli deyil - nə liberalizm nağılı, nə antisovetizm radikal mövqeyi, nə Qərb nümunəsində elmi fəaliyyəti "müasirləşdirmək" bəhanəsi ilə olanı da dağıtmaq aqressivliyi, arqument deyildir. Təbii ki, elmi fəaliyyətin səmərəsini artırmaq üçün islahatlar zəruridir, lakin bunu ölkədə akademik tədqiqat ənənəsinə zərər verməklə etmək qətiyyən olmaz. Həm də AMEA indiki fəaliyyəti ilə sübut edir ki, müstəqil dövlətin inkişafı üçün çox böyük işlər görə bilər və elmi müasirləşmə hər kəsdən öncə bu strukturun çiyinləri üzərində mümkündür.

# II məqalə

## AMEA elmi yaddaşın milli sərvətə çevrilməsi yolunda

Biz, I məqalənin sonlarında qeyd etmişdik ki, AMEA müstəqil dövlətin inkişafı üçün çox böyük işlər görə bilər və elmi müasirləşmə hər kəsdən öncə bu strukturun çiyinləri üzərində mümkündür.

Bəli, hazırda AMEA-nın rəhbərliyi prosesləri məhz bu istiqamətdə aparır. Bu qurumun rəhbəri akademik İsa Həbibbəyli bütün intellektual potensialı, praktiki fəaliyyət imkanları ilə AMEA-nın Azərbaycan müstəqil dövlətçiliyinin inkişafı naminə intensiv çalışması xəttini həyata keçirir. Bu, pafoslu ritorika deyildir - hazırda AMEA-da gedən proseslərin təhlilindən yaranmış fəlsəfi-sinergetik qənaətdir.

Həmin tezisin doğruluğunu sübut etmək üçün kifayət qədər faktlarımız vardır. Akademik İsa Həbibbəyli məsələyə sırf müstəqil dövlətçiliyi, Ulu öndərin dövlət quruculuğu konsepsiyası və onun siyasi varislik prinsipi üzrə Prezident İlham Əliyevin böyük uğurla inkişaf etdirilməsi kontekstində yanaşdığından, irəli sürülən hər bir fikrin də fəlsəfi-elmi sübutu olmalıdır.

Burada qeyri-elmi və ya dayaz yanaşma keçərli deyil. Digər tərəfdən, nəzərə almaq gərəkdir ki, AMEA rəhbərliyi dövlətçilik baxımından çox ciddi məsələlərlə məşğuldur və onların fəlsəfi-elmi (o cümlədən, sinergetik) dərki arxivacibdir! AMEA perspektivli olduğu qədər də ciddi təşkilatdır! Həm də ona görə ki, Ulu öndərin müəyyən etdiyi kimi, AMEA Azərbaycanda "elmi varisliyin" daşıyıcısı olmalıdır. "Elmi varislik" anlayışı Prezidentin tam əməl etdiyi siyasi varisliyin tərkib hissəsidir. Elmi varisliyin başlıca prinsiplərini Prezident İlham Əliyev müəyyən edir və onun icrası baş təşkilat kimi AMEA-nın üzərinə düşür! Bu, şərəfli olduğu qədər, həm də məsuliyyətli bir işdir!

Burada təhlillər AMEA-nın elmi-mədəni yaddaş fenomeni kimi yaradıcı aspektdə milli sərvətə çevrilməsinə prosessual, yəni daim özünüyeniləşdirən strukturun dərki fonunda aparılır. Eyni zamanda, obrazlı desək, AMEA intellektual poten-

sialın elm naminə əyaniləşən, aktuallaşan və reaktuallaşan (təkrar-təkrar elmi tədqiqatlarda əyaniləşən, predmetləşən) məkanıdır. Bu anlamda təşkilat Azərbaycan Respublikasının elmi gerçəkliklərinin mərkəzi, avanqardı və həm də intellektual məsuliyyətini dərindən dərk edən strateji strukturlarından biridir!

Düşünürük ki, məhz bu anlamlar kontekstində AMEA Azərbaycanın elmi yaddaşı olmaqla intellektual məkanı kimi mövcudluğunun sintezini özündə ehtiva edən yeganə təşkilatdır! Sonuncu tezisə Ulu öndər Heydər Əliyevin yuxarıda deviz kimi verdiyimiz dahiyanə fikrinin işığında baxmaq istərdik. Çünki o halda AMEA-nın indiki rəhbərliyinin elmimizin dövlətçilik naminə milli sərvətə çevrilməsi yolunda sərf etdiyi böyük zəhməti dərindən duymuş və soyuq məntiqlə də dərk etmiş olarıq!

## Ulu öndərin tezisinin iki aspekti

Yuxarıda gətirdiyimiz nümunədə iki fikir aspekti bir-biri ilə vəhdətdə ifadə edilmişdir. Birincisi, "Azərbaycan Milli Elmlər Akademiyası respublikanın dövlət müstəqilliyinə xidmət etməlidir", ikincisi, "Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır"!

Ulu öndərin fundamental əhəmiyyətli tezisinin birinci hissəsi AMEA-nın ümumi strateji missiyasını ifadə edir. Dövlətçilik ənənəsi ilə elmi ənənənin qarşılıqlı əlaqəsinin məzmunundan bu strateji istiqamət müəyyən edilir. Bunun əsası Ulu Öndərin bütövlükdə elm və mədəniyyətin tarixən Azərbaycan cəmiyyəti və dövlətlərinin həyatında oynadığı roldadır.

Heydər Əliyevin çox sayda fikirlərində ana xətt kimi belə bir məna keçir: Azərbaycan xalqı kökdən zəkidir, ziyalıdır və fəaliyyətinin kollektiv formasında, o cümlədən, dövlət quruculuğunda daima elmə, mədəniyyətə, təhsilə, azərbaycanlı ziyalılığının aydınlığına və fəzilətinə əsaslanmışdır. Elmə verilən bu qiymət dövlətçilik baxımından çox vacib bir özəlliyi aydınlaşdırır: Azərbaycanda dövlətçiliyin təməlində mədəniyyət, mənəvi-əxlaqi dəyərlər və ziyalılığın fəziləti dayanır! Bu, bütövlükdə, Azərbaycan dövlətçilik fəlsəfəsinə şər-böhtan atmağa cəhd edənlərə ən tutarlı cavabdır. Eyni zamanda, əhəmiyyətli məqamdır ki, Ulu öndər dövlətçilik kontekstində cəmiyyətin elmi vəziyyətinin formalaşmasında AMEA-nı başda görmüşdür. Məhz bu anlamda alimləri çox şərəfli bir xidmətə - Azərbaycanın dövlət müstəqilliyinə xidmət etməyə dəvət etmişdir və Prezident kimi tapşırıq vermişdir, qarşıya müqəddəs vəzifə olaraq qoymuşdur!

Tezisin ikinci hissəsi bu vəzifənin işığında olduqca aktual görünür. Ulu öndər AMEA üzərinə belə bir məsuliyyət qoymuşdur: AMEA Azərbaycan elminin inkişaf etməsində aparıcı rol oynamalıdır! Bu isə akademiya daxilində düzgün elm siyasəti yeritməyi özündə ehtiva edir. "Elm siyasəti" dedikdə elmi tədqiqatlarda yaradıcılığı, innovativliyi, elmi fəaliyyətin təşkilinin optimallaşdırılmasını təmin etmək (qabaqcıl təcrübələri öyrənmək kontekstində), AMEA-nın struktur-funksional mövcudluğunda islahatların aparılmasına və araşdırmalarda alınan nəticələrin çevik olaraq praktiki tətbiqinə nail olmaq nəzərdə tutulur (bizim anlamımızda). Təbii ki, həmin prosesin uğurlu olması üçün həm yüksək elmi yaradıcılıq mühitini yaratmaq, həm də təşkilatın struktur və funksional imkanlarını daim inkişaf etdirmək gərəkdir.

Bizcə, məhz bu şərtlər daxilində Ulu öndərin müəyyən etdiyi anlamda AMEA Azərbaycanın milli sərvəti kimi elm-mədəniyyət yaddaşı və intellektual məkan olaraq tarixi yerini tuta bilər! Hazırda AMEA-nən rəhbərliyi bütün imkanları bu istiqamətə yönlətmişdir. Bu prosesin məzmununu və məqsədini ifadə edən bir neçə faktor mövcuddur. Onların üzərində geniş dayanaq!

## "Öncə dövlət müstəqilliyinə xidmət!"

AMEA-nın indiki prezidentinin bütün çıxışlarında ifadə etdiyi ilk və ana tezis bundan ibarətdir. Akademik İsa Həbibbəyli öz elmi yaradıcı və təşkilati fəaliyyəti ilə bunun nümunəsini də göstərir. AMEA prezidentinin ictimai-humanitar elmlərin hər bir sahəsində aktual hesab etdiyi hər mövzu birbaşa müstəqil dövlətçiliklə əlaqəlidir.

Məsələn, Tarix İnstitutunda Azərbaycan dövlətçiliyinin keçmişi, bu günü və gələcəyi müstəqil dövlətçilik konseptinin Heydər Əliyev tərəfindən müəyyən edilmiş məna, məzmunu və strategiyası kontekstində araşdırılır.

Folklor İnstitutu aktiv şəkildə Azərbaycan folklorunun Ulu öndərin müəyyən etdiyi aspektlər üzrə müstəqil vətəndaş cəmiyyətinin formalaşmasında və dövlət quruculuğunda yeri və rolunu araşdırır. Bu zaman folklorun ictimai faktor kimi multikultural cəmiyyətdə birləşdirici rolu önə çəkilir.

Fəlsəfə və Sosiologiya İnstitutunda daha çox aktuallıq kəsb edən mövzular dövlətçiliyin tarixi, siyasi, fəlsəfi və ideoloji aspektlərinin Ulu öndərin müəyyən etdiyi müstəqillik fəlsəfəsi çərçivəsində müzakirə olunur. Bu zaman, AMEA prezidenti və institut rəhbərliyi Ulu öndərin "Bir millət, iki dövlət" kəlamı və azərbaycançılıq ideologiyası kontekstində araşdırmaların aparılmasına önəm verirlər. Həmin prizmada da Prezident İlham Əliyevin fəaliyyətinin müxtəlif aspektləri fəlsəfi və siyasi-nəzəri refleksiya edilir. Bu sırada AMEA-nın rəhbəri Prezident İlham Əliyevin daxili və xarici siyasətinin vəhdətdə tədqiq edilməsinə xüsusi önəm verir.

Burada akademik İsa Həbibbəyli "Bir millət, iki dövlət" kəlamı və azərbaycançılıq ideologiyasının qarşılıqlı əlaqəsi aspektində Prezidentin həyata keçirdiyi genişmiqyaslı proqramların tədqiq edilməsinə ayrıca diqqət göstərir və lazımi istiqamətləri müəyyənləşdirir.

Bunlarla yanaşı, AMEA-da Azərbaycan Prezidentinin "intellektin milli sərvətə çevrilməsi" tezisinin fəlsəfi-tarixi, etik, estetik, sosioloji, psixoloji, siyasi-nəzəri araşdırılması getdikcə daha geniş və dərin istiqamətlərdə həyata keçirilir.

Vurğulanan ruhda və istiqamətdə AMEA-nın digər tədqiqat institutlarının da fəaliyyətindən bəhs etmək olar. Bu mühiti yaradan və istiqamətləndirən birbaşa AMEA rəhbərliyidir!

AMEA rəhbərliyinin fəaliyyətinin digər tərəfi birbaşa ölkədə elmin inkişafında aparıcı rol oynamaqla bağlıdır. Burada da maraqlı və əhəmiyyətli saydığımız bir sıra məqamların üzərində geniş dayanmağa ehtiyac duyuruq.

## Elmdaxili potensial və xarici əlaqə sintezində

Öncə, onu vurğulayaq ki, bu məsələ heç də sadə və asan başa gələn proses deyildir. Ümumi səviyyədə problemə yanaşanda onun bütövlükdə dünya elmi üçün aktuallıq kəsb etdiyini anlamış olu ruq. Bununla bağlı Qərbdə, Rusiyada, Uzaq Şərq ölkələrində kifayət qədər ciddi elmi araşdırmalar mövcuddur. Onlarda ifadə edilən ideyaları elmin inkişafı kontekstində bir neçə qrupda cəmləşdirmək mümkündür. Bu, bizə baxılan problem kontekstində nəyi verəcəkdir?

Hər şeydən öncə, həmin problemlərin dünya üzrə mövcudluğu özəlliyi fonunda Azərbaycanda həyata keçirilən elmi araşdırmaların fəlsəfəsinin uğurlu olub-olmaması haqqında fikir formalaşar.

Bundan əlavə, dünyanın qabaqcıl ölkələrində nəzəri araşdırmalarla praktiki tətbiqin innovativlik kontekstində qarşılıqlı əlaqələri haqqında geniş təsəvvür yaranar.

Nəhayət, bu təsəvvürlər bizə AMEA-nın indiki rəhbərliyinin elmin inkişafında aparıcı rola necə nail olmaq istiqamətində apardığı axtarışların fəlsəfi-sinergetik dərkinə imkan verər.

Ayrıca, biz "sinergetik dərk" məsələsini gəlişi və səslənişi müasir kimi görünən ritorika statusunda işlətmirik. Sinergetik dərk keyfiyyətcə mürəkkəb prosesləri indiki mərhələdə elmi olaraq daha adekvat qavramağın səmərəli epistemoloji (ümumi və sadə halda epistemologiya - dərketmə nəzəriyyəsi, yəni idraketmə nəzəriyyəsi) sistemi kimi faydalıdır.

Təbii ki, məsələnin bu cür qoyuluşu bəri başdan Azərbaycan elminin inkişafında AMEA-nın aparıcı rol oynaması məsələsinin kompleks xarakterli olduğunun təsbitidir. Burada, da istər-istəməz, həm baxılan problemin ciddi elmi xarakterdə olmasını, həm də onun adekvat, çağdaş tələblərə cavab verən səviyyədə araşdırılması üçün fənlərarası (interdisiplinar) yanaşmaya ehtiyacın yaranmasını qəbul etmək lazım gəlir. Bu məqamdan da məsələnin daha aktual və maraqlı mərhələsi başlayır. ●



**Mübariz AĞALARLI**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Azərbaycan Cümhuriyyəti tarixi" şöbəsinin aparıcı elmi işçisi, dosent*

# Rəsulzadənin elmi irsində Azərbaycan tarixi məsələləri

**Azərbaycanın görkəmli ictimai-siyasi xadimlərindən biri, dahi mütəfəkkir Məhəmməd Əmin Rəsulzadənin elmi-ədəbi irsində Azərbaycan dövlətçiliyi, onun etnik tarixi və milli kimlik məsələləri ilə bağlı olan problemlər müstəsna yer tutur. Əksər əsərlərində tarix şüurunun əhəmiyyətini önə çəkən dahi mütəfəkkir Azərbaycanın etnik tarixi, etnogenez və Azərbaycan tarixinin inkişaf mərhələlərinin nəzəri-konseptual məsələlərini öz elmi irsində geniş şəkildə şərh etmişdir.**

Məhəmməd Əmin Rəsulzadənən istər doğma vətənində, istərsə də mühacirət dövründə qələmə aldığı əsərləri Azərbaycan və ümumtürk tarixinin öyrənilməsi üçün olduqca əhəmiyyət kəsb edir. Xüsusilə onun Azərbaycanın etnik tarixi ilə bağlı elmi dünyagörüşü tarix yazımı prosesində nəzəri-metodoloji baxımdan əhəmiyyətli rola malikdir.

Məhəmməd Əmin Rəsulzadə 1923-cü ildə nəşr olunan "Azərbaycan Cümhuriyyəti" əsərində Azərbaycanın qədim dövr etnik tarixi haqqında yazırdı ki, "Azəri türklərinin hal-hazırda oturduqları yerlər min ildir qədim türk xəlqi ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz və sairə kimi vilayətlər və gərək Muğan, Arran, Qarabağ kimi məmləkətlər daima türk elinin oturağı və türk xanlarının ovlağı olmuşdur. Bu yerlər, bir çox türk sülalərinin irili-xırdalı hökumətlər qurduğunu və illərlə səltənət sürdüklərini görmüşdür"[1].

M.Ə.Rəsulzadə 1925-ci ildə yazdığı "Əsrimizin Səyavuşu" əsərində Şumerlərin "Turani" irqə mənsub olduğunun şübhə doğurmadığını qeyd edirdi. O, həmçinin yazırdı ki, midiyalıların etnik mənsubiyyəti mübahisə doğursa da onların əski iranlı olduğunu inkar edənlər də vardır. Müəllif qeyd edirdi ki, "Fransız şərqşünaslarından Le Norman əski Şərq tarixinə aid nəşr etdiyi əsərində Midiyaya "Turan Midiya"sı deyir və buradakı qövmlərin türk olduqlarını irəli sürürdü.

M.Ə.Rəsulzadə həmçinin qeyd edirdi ki, İran tarixinin Midiyada axtardığı arilər (aryanilər) yerlilər deyildir. Onlar buraya Şərqdən gəlmiş və buradakı yerliləri sıxışdırmışlar. Arilər bu ərazilərdə yerləşdikdən sonra buralar təkrar Turanilərin hücumuna məruz qalmışdır. İran-Turan savaşlarının mühüm qismi Şimali İran ilə Cənub-Şərqi Qafqazda - Azərbaycanda cərəyan etmişdir. Turanlı Tomris xanım burada olmuş, iranlı Keyxosrovun faciəvi sonu Kür çayının sahilində baş vermişdir[2].

M.Ə. Rəsulzadənin 1928-ci ildə çap etdirdiyi "Qafqaz türkləri" əsərində Qafqazın etnosiyasi xəritəsi, Qafqazdakı qövmlər, buradakı, türk soyları haqqında maraqlı fikirlər səsləndirilmiş-

dir. Burada Xəzər sahillərinin qədim dövrlərdən başlayaraq türk soyları tərəfindən məskunlaşdırıldığı göstərilmişdir[3].

M.Ə.Rəsulzadə bu əsərində qeyd edirdi ki, "Miladdan sonra V yüzilliyin ortalarında hunlar, sabirlər və xəzərlər Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaza daxil olaraq, Azərbaycanın şimal torpaqlarında məskən salmış, bir sıra hallarda Arazın o biri tayına, Cənubi Azərbaycan ərazisinə keçərək, Azərbaycan xalqının formalaşmasında mühüm rol oynamışlar"[4].

M.Ə.Rəsulzadə "Azərbaycan Cümhuriyyəti" əsərində Azərbaycan xalqının formalaşması, onların yayılma arealı və dili haqqında maraqlı fikirlər söyləmişdir. O, bu əsərində azərbaycanlıları bütün dünyaya belə təqdim etmişdir: "Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyət etibarilə şərqlidirlər. Anadolu türkcəsinə yaxın bir şivə ilə danışan Azərbaycan türkü müxtəlif şivələrə malik böyük türk ağacının bir dalıdır[5].

Məhəmməd Əmin Rəsulzadə Cənubi Azərbaycanla Şimali Azərbaycanın eyni kökənli xalq olduğunu qeyd edərək yazırdı ki, "Bu türklər Azərbaycanı ikiyə bölən Əras nəhrinin iki tərəfində sakin olub və İranda yarımmüstəqil bir halda yaşadıqları zaman belə məhkum bir millət deyil hakim olaraq yaşamışdılar. Çünki əsrlərdən bəri İranın hakim sinfini türklər təşkil etmişdir"[6].

Qeyd edək ki, M.Ə.Rəsulzadə ifrat millətçilik dünyagörüşündən uzaq olmuş, daha çox milli-liberal dəyərlərə sadiq qalaraq Azərbaycan xalqının yaranması, təşəkkülü və təkamülündə iştirak etmiş bütün etnik qövmlərin rolunu, layiqincə qiymətləndirərək, doğma xalqına bütöv, inkişaf edən ictimai, mədəni gerçəklik kimi yanaşmışdı.

Məhəmməd Əmin Rəsulzadənin elmi irsində Azərbaycan Səfəvi dövlətinin etnik tarixi ilə bağlı da maraqlı fikirlər yer almışdır. Bu haqda Rəsulzadə yazırdı: "İllərdən bəri bütün türk ellərindəki dərin nüfuz və təsir sahibi olan Ərdəbildəki Şeyx Səfi ocağından zühur edən Şah İsmayıl yeni bir dövlət qurmaq üçün hərəkətə keçir.



Səfəvi dövlətinin banisi həqiqətdə bir türk sufisi və Azərbaycanlı şair idi. Arxalandığı hərbi qüvvələr də tamamilə türk boyları idi. Türkman qəbilələri, bu qüvvətin əsasını təşkil edirdi... Şah İsmayılın sarayı Azəri türk ədəbiyyatının yaradıcı ocağı və bir akademiyası idi... Şeirdə Xətai təxəllüsündən istifadə edən İsmayıl, xalqın vurulacağı sadə bir dillə yazırdı. Səfəvi sarayının rəsmi dili də türkcə idi. Qonşu dövlətlərə göndərdiyi notalar türkcə yazılırdı. Səfəvi dövlətinin Osmanlılara göndərdiyi notalar türkcə ikən, Osmanlı sarayının Səfəvilərə yazdıqları notalar farsca idi. Çevrəsindəki türkdilli şairlər Şah İsmayıla "Türki-tacdar" deyə xitab edirdilər"[7].

Davamlı olaraq yeniləşmənin tərəfdarı olmuş M.Ə.Rəsulzadə Azərbaycan xalqının özünə, əsrlərlə bağlandığı Şərq mədəni-mənəvi sisteminə istinad edərək tərəqqi edəcəyinə inanırdı və qeyd edirdi ki, "Sənin istiqbalın artıq Qərbdə deyil, Şərqdədir... Sənin istiqbalın nə Rum eli,

nə Hicaz, nə də İraqda-Türküstandadır, fəqət sənin, yolunun üzərində əski Turanın göbəyində Azərbaycan adında bir gənc igid, dəliqanlı var, yeni Turanın açarı ondadır"[8].

Qeyd edək ki, M.Ə.Rəsulzadənin Azərbaycanın, ümumilikdə türk xalqlarının etnik tarixi ilə bağlı olduqca dəyərli elmi xarakter daşıyan məlumatları tariximizin öyrənilməsində elmi baza rolunu oynamaqdadır.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda millətləşmə dövründə ilk növbədə Azərbavcan millətinin və ərazisinin həqiqi adi ilə bağlı ziyalı elitası arasında geniş müzakirələr başladı. Cümhuriyyət qurucuları hesab edirdilər ki, milli dövlətçiliyə gedən yolda ərazi və millət məfhumları təməl prinsiplər olaraq əsas amillərdəndir. Bu dövrdə milli aydınlarımız Azərbaycan türklərinə münasibətdə işlədilən, "tatar", "müsəlman", kmi ifadələr əvəzinə "Azərbaycan türkləri", "azərbaycanlılar" terminini işlətməyə başlamışdılar. Eləcə də, çar Rusiyasının müstəmləkəçilik siyasətinin təzahürü olaraq işlədilən "Şərqi Zaqafqaziya" coğrafi termini əvəzinə "Azərbaycan" terminindən daha tez-tez istifadə edilməyə başlanılmışdı[9].

Məhəmməd Əmin Rəsulzadə çar Rusiyasının ciddi senzura və qadağalarına rəğmən, digər milli düşüncə sahibləri kimi öz yazılarında Qafqazın cənub-şərq hissəsinin Azərbaycan, Qafqaz müsəlmanlarının milliyyətinin azərbaycanlı-türk, dilinin isə "Azərbaycan-türk dili" adlanmasını təklif edirdi.

Dahi mütəfəkkir mürəkkəb bir dövrdə, hətta Azərbaycan sözününü dilə gətirilməsinin nə qədər çətin olduğunu ürək ağrısı ilə qeyd edərək yazırdı ki, "Ah, Azərbaycan! Biz sənin haqqını tələb etmək deyil, yalnız adını söyləmək üçün... nə qədər töhmətlərə məruz qaldıq...".

Artıq bu dövrdə M.Ə.Rəsulzadənin təbirincə, yenilikçilərlə mühafizəkarların mübarizəsi son nəticədə birincilərin qələbəsi ilə başa çatmış, Şərqlə Qərbin sintezinə can atan böyük azərbaycanlı mütəfəkkirlərin sayəsində Azərbaycanda islam ümmətçiliyindən islam millətçiliyinə, daha sonra isə türk millətçiliyinə keçid baş vermişdi[10].

Azərbaycanda millətləşmə və milli dövlət sisteminə keçid prosesində milli dövlətçiliklə bağlı fərqli ideya və müxtəlif baxışlar mövcud olsa da bu dövrdə M.Ə.Rəsulzadənin rəhbərliyi ilə yeni bir xətt meydana çıxdı. Bu xəttin tərafdarları nə Osmanlı, nə İran, nə rus axınını qəbul etməyərək müstəqil Azərbaycan dövləti ideyasını irəli sürdülər ki, bu da Azərbaycanın istiqlaliyyətinə aparan ən düzgün və ləyaqətli yol idi.

Məhəmməd Əmin Rəsulzadənin elmi irsində milli kimlik, milliyyət, millət məsələləri də xüsusi yer tutmuşdu.

Məhəmməd Əmin Rəsulzadənin müxtəlif əsərlərində ümmət, milliyyət, millət, milli kimlik kimi siyasi-ideoloji məfhumlar geniş şəkildə təhlil olunsa da, onun "Milli Dirilik" başlığı altında çap etdirdiyi silsilə məqalələrini milli fikrin inkişafına töhfə verən ən gözəl ideoloji nümunələr saymaq olar[11].

Səkkiz məqalədən ibarət olan, bu məqalələr toplusunun ilk yazısını 1914-cü ilin sonlarında Dirilik jurnalında, Dirilik Nədir? adlı giriş məqaləsində çap etdirən müəllif, "dirilik" anlayışına aydınlıq gətirərək yazırdı ki, Avropalılar diriliyi "məhz qüvvətli olmaq" sayır, bu gücü artırmaq üçün daim mübarizə aparırlar. Güc uğrunda bu mübarizədə Avropalılar bir-biri ilə savaşı belə uyğun görürlər. İstədikləri gücə sahib olmaq üçün onlar "ölümü belə qəbul edir və dirilik üçün ölürlər".

Dahi mütəfəkkir Avropa ilə Müsəlman Şərqinin dirilik anlayışına fəlsəfi baxışını müqayisə edərək bildirirdi ki, Avropada dirilik, güclü olmaqdırsa, Şərqdə isə "biz müsəlmanların diriliyi, ölərək cənnətə düşməkdir"[12].

Diriliklərin ən qiymətlisinin milli dirilikdən ibarət olduğunu qeyd edən görkəmli ideoloq, milli diriliyin milli gücü formalaşdıran əsas amillərdən biri olduğunu göstərmişdi.

Dahi mütəfəkkirin fikrinə görə, bəşər mədəniyyətinə yalnız müstəqil millətlərin nümayəndələri böyük töhfə verə bilər. O, hələ də bu dövrdə yayğın olan "Müsəlman millətindənəm" zehniyyətinin doğru olmadığını bildirirdi.

Rəsulzadəyə görə, millət tarixi kateqoriyadır. Ondan əvvəl tayfalar, boylar, qövmlər. mövcud olmuşdur. Tayfaları səciyyələndirən yalnız nəsil və dil birliyidir. Qohum tayfaların birliyindən isə dil və mədəniyyət birliyinə dayalı milliyyətlər meydana gəlmişdir. Növbəti inkişaf mərhələsi olan millət isə "dil birliyi, adət və əxlaq birliyi, tarixi ənənələr və dini etiqad birliklərinin məcmuundan mütəşəkkil bir məhsuldur.".

M.Ə.Rəsulzadə millətin yaranmasında dil birliyinin fövqəladə rolunu vurğulayaraq qeyd edirdi ki, "millətlərin inkişafı milli şüurun formalaşması sayəsində mümkün olur və ancaq bu şüurun təsiri ilə milli ideala çatmaq mümükündür. ".

M.Ə.Rəsulzadənin elmi-nəzəri irsində tarix şüurunun olduqca önəmli rola malik olduğu dəfələrlə vurğulanmışıdır. Rəsulzadə dünyagörüşünə görə, tarix şüuru bütün millətlərdə fərdləri ümumiyə bağlayan zəruri bir amildir. "Vətən və millət tarixi" hər bir millətə haradan gəldiyini, tarixdə nələr etdiyini və hansı gücə malik olduğunu öyrədərək, gələcək haqqında onda ümid yaradır.

Rəsulzadə qeyd edirdi ki, "Tarix yazımı sahəsində Türk millətindən məzlumunu tapamazsınız. Türk tarixi tarixlərin ən az tədqiq olunmuşu, ən az öyrənilib yazılmışıdır." Bu, bir yana qalsın, bir zamanlar Türklərə məğlub olan millətlərin nümayəndələri Türklərin göstərdiyi qəhrəmanları "vəhşət və yağmakarlıq" kimi qələmə vermiş, öz hərəkətlərini isə daim tərifləmişlər. "İştə burasını Türk gəncliyi dərk etməli və düşünməlidir ki, bu gün Türk milləti böyük bir tarixə malik olduğu halda tarix şüuru olmadan yaşayır və dünyanın hər tərəfinə yayılıb böyük bir millət təşkil etsələr də, Türklər bir-birindən bixəbər, hətta biri digərinə düşmən olaraq ömür sürürlər"[13].

Ümumiyyətlə, Məhəmməd Əmin Rəsulzadənin elmi-nəzəri irsində etnik tarix, tarix şüuru kimi nəzəri konseptual məsələlər geniş şəkildə təhlil olunaraq, xalqdan, ümmətdən, millətə keçid prosesi dəqiq şəkildə izah olunmuşdur. Eyni zamanda onun dünyagörüşündə milli kimlik, milli istiqlalla bağlı məsələlər həmişə ön planda olmuş, bütün bu milli prinsiplərin fövqündə isə Azərbaycan dövləti və Azərbaycanın istiqlaliyyəti dayanmışdır.

Məhəmməd Əmin Rəsulzadənin elmi-ideoloji dünyagörüşü milli dövlətçiliyimizin təməl prinsiplərini təşkil etmişdir. Eyni zamanda, Cümhuriyyət qurucusu, dahi mütəfəkkir Əli bəy Hüseyinzadənin türkləşmək, islamlaşmaq, müasirləşmək kimi - üçlü formulunu siyasi gündəmə gətirərərək, üçrəngli, ay ulduzlu bayrağımıza çevirmiş, bununlada özünün və milli dövlətçiliyimizin şah əsərini yaratmışdır.

***Ədəbiyyat***


1. Məhəmməd Əmin Rəsulzadə, Azərbaycan Cümhuriyyəti, Bakı, Elm, 1990, s.11.
2. Məhəmməd Əmin Rəsulzadə. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, s. 28-29.
3. Məhəmməd Əmin Rəsulzadə, Qafqaz türkləri, Bakı, Təknur, 2012, s.15-16.
4. Məhmməd Əmin Rəsulzadə, Qafqaz türkləri, s.17.
5. Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan Cümhuriyyəti, Bakı, Elm, 1990, s.11.
6. Məhəmməd Əmin Rəsulzadə. Azərbaycan Cümhuriyyəti. Bakı, Elm, 1990, s.14.
7. Məhəmməd Əmin Rəsulzadə. Bolşeviklərin Şərq siyasəti. Bakı, Sabah, 1994, s.53.
8. M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı, Gənclik, 1991, s.35.
9. K. İsmayılov., A.Balayev. Azərbaycançılıq ideologiyası Bakı, 2013, s.38
10. M.Ə.Rəsulzadə. Azərbaycan Cumhuriyyəti. Bakı, Azərnəşr, 1990, s.21-22.
11. Nəsib Nəsibli. Azərbaycan tarixi. Millət-dövlət- siyasət. Bakı, Qanun. 2022, s.277.
12. Məhəmməd Əmin Rəsulzadə. Əsərləri, II cild. Bakı, 2001, s. 462.
13. Məhəmməd Əmin Rəsulzadə. Əsərləri, II cild. Bakı, 2001, s. 462.



# Прекрасный организатор науки и реформатор: *академику Акифу Ализаде - 90*

**Академик Акиф Ализаде... 11-й президент Национальной академии наук Азербайджана, генеральный директор Института геологии и геофизики Министерства науки и образования Азербайджанской Республики, прекрасный организатор науки и реформатор, с именем которого связаны кардинальные перемены в жизни НАНА, произошедшие в современный период истории развития главного научного храма страны. В год юбилея уважаемого Акиф муаллима хочу вспомнить период работы в команде академика (2013-2019), запомнившийся лично мне динамичностью событий, многочисленными мероприятиями, направленными, в том числе, и на популяризацию науки, расширением международных научных связей и т.д. Но обо всем по порядку.**

Начало октября 2013 года... Сотрудник Центральной научной библиотеки, с которой мы познакомились на республиканской конференции молодых ученых в Астаре, сообщила мне, что в аппарате Президиума НАНА создан Отдел по связям с общественностью, в который требуется переводчик. Особо не надеясь, все же решила попытать счастья - вдруг получится. На собеседовании мне предложили перевести тексты трех пресс-релизов, после чего их направили на проверку.

Прошли две недели, может, даже чуть больше. Честно говоря, я даже не предполагала, что вот так, можно сказать, абсолютно незнакомого человека примут на работу, да еще в аппарат Президиума Академии наук. И вдруг мне звонит заведующий отделом Саид Гусейнов и приглашает прийти с документами, так как тексты прошли проверку, и я принята.

Уже работая в Президиуме, я узнала, что наш отдел - это одно из новшеств в системе



НАНА, нацеленное на установление связей с общественностью, информирование широких слоев населения с научными достижениями и результатами проводимых исследований и, в конечном итоге, популяризацию самой науки, особенно среди молодежи.

Лично для меня шесть лет работы в команде академика Акифа Ализаде - светлый, плодотворный период жизни, когда стараниями нашего завотделом Саида Гусейнова, а затем и следующих руководителей отдела, с легкой руки вице-президента НАНА академика Ибрагима Гулиева и с разрешения тогдашнего президента НАНА академика Акифа Ализаде я получила возможность работать в дружном коллективе и быть в курсе всех событий, происходящих в научной жизни страны, и, в то же время, не упускать из виду своего сына и его обучение. Мне был дан просто потрясающий шанс совместить обе эти стороны жизни, и за этот шанс я навсегда благодарна всем вышеуказанным лицам. Сегодня, вспоминая тот период своей жизни, я даже не представляю, как сложилась бы моя судьба без того шанса. Воистину, Творец действует руками определенных людей, и каждый раз, когда случается убеждать кого-то в том, что вокруг нас - море хороших людей и уйма возможностей, я привожу в пример именно тот случай...

За годы работы под руководством академика Акифа Ализаде наш отдел, естественно, был в курсе всех событий, происходящих в научной жизни страны. В данном материале я говорю лишь о некоторых новшествах, которые были направлены на интеграцию науки и образования, популяризацию науки и налаживание связей с общественностью.

Одной из основных инициатив, нацеленных на популяризацию науки среди широких слоев населения, был двухдневный Бакинский фестиваль науки, который состоялся в ноябре 2014 года и стал первым подобным мероприятием не только в Азербайджане, но и во всем Южном Кавказе. В первый день Бакинского фестиваля науки были организованы экскурсии в музеи и научные уч-




реждения НАНА, а также в БГУ, АМУ и другие ВУЗы. В то же время, за программой фестиваля можно было проследить и в нескольких средних школах столицы. В программу второго дня фестиваля была включена выставка, отражающая научные открытия ученых страны, демонстрация занимательных научных шоу, а также проведение интересных лекций.

Запомнились слова, произнесенные академиком Акифом Ализаде на церемонии открытия фестиваля: "Сегодня наше государство всесторонне развивается. В основе данного развития лежит, в том числе, и кропотливый труд ученых и специалистов Азербайджана. Наука вносит свой вклад во все сферы жизни. Однако все чаще встречаются попытки разделения научных областей и специальностей. Это абсолютно неверно. Мировой опыт показывает, что для того, чтобы добиться важных достижений в науке, необходимо работать вместе, проводить исследования на стыке научных дисциплин".

Бакинский фестиваль науки произвел большой резонанс в жизни столицы. Неслучайно, что второй фестиваль уже проходил не только в Баку, но и в Нахчыване, Сумгаите, Шеки и Гяндже. Следует отметить, что в те годы для учащихся средних школ периодически организовывались мероприятия под названием "Занимательная наука", в ходе которых молодыми учеными демонстрировались интересные опыты, в основном в области физики и химии. Эти мероприятия, как и организованные по инициативе Совета молодых ученых и специалистов НАНА "Малые академии", способствовали интеграции науки и образования и популяризации науки среди школьников.

2014 год запомнился еще одним важным событием - в декабре при участии ученых-азербайджанцев, работающих не только в республике, но и в США, России, Германии,

Турции и других странах мира, прошел Первый съезд ученых Азербайджана. Сообщив в своей вступительной речи, что в утвержденной Президентом Ильхамом Алиевым Концепции развития "Азербайджан 2020: взгляд в будущее" основной стратегической линией развития нашей страны было принято формирование общества знаний, основывающегося на модель интеллектуального развития, академик Акиф Ализаде подчеркнул значение мобилизации сил ученых, работающих в государственном, гражданском и бизнес-секторах, для достижения единой цели в соответствии с призывами современности и интересами республики, и добавил, что идея проведения съезда исходит именно из этой необходимости.

В 2019 году шла подготовка ко Второму съезду ученых Азербайджана, однако, к сожалению, он так и не состоялся

А тремя годами позже, в декабре 2017 года состоялся Первый съезд молодых ученых Азербайджана. Он совпал по времени со знаменательным событием в жизни Академии наук и страны в целом - выпуском первых магистров НАНА. Следует отметить, что в научных учреждениях Академии наук всегда проводилось обучение в докторантуре и диссертантуре. А вот организация в головной научной структуре страны обучения на ступени магистратуры связана непосредственно с именем академика Акифа Ализаде. В одном из своих интервью академик с теплотой говорил о своем детище: "Для меня одним из приоритетов было создание магистратуры в НАНА, так как я отчетливо понимал, что и Академия наук, и ВУЗы республики нуждаются в подготовке квалифицированных кадров. Мы стремились создать в НАНА полный цикл научно-образовательного процесса, от бакалавриата до магистратуры и докторантуры...

Формулой привлекательности магистратуры в Академии наук для студентов является то, что в институтах НАНА они получают возможность проводить исследования непосредственно в научных лабораториях, оснащенных уникальными приборами и оборудованием, эксклюзивной аппаратурой. Это очень важно для подготовки специалистов, отвечающих требованиям современной науки. Благодаря исследованиям в оснащенных лабораториях Академии наук молодые специалисты сегодня защищают диссертации, используя современные приборы и методические приемы. Иными словами, понятно, что современная наука без соответствующего научного оборудования и приборов, без использования новейших технологий обречена на серьезное отставание. Именно это и привлекает талантливую молодежь в институты НАНА...

Преимущества обучения в Академии наук сегодня очевидны, и молодежь сама это понимает. К тому же, в свое время мы организовали в НАНА базовые кафедры, которые функционируют до сих пор...".

Как видно из вышесказанного, мероприятия, направленные на интеграцию науки и образования, составляли основное звено проводимых в Академии наук реформ. Помимо базовых кафедр республиканских ВУЗов, в различных научных учреждениях НАНА были организованы и международные лаборатории. Они функционируют по сей день, большинство из них после соответствующего Указа главы государства - уже в ведении Министерства науки и образования. Чего нельзя сказать о магистратуре - к сожалению, приема в магистратуру НАНА больше нет...

В период руководства академика Акифа Ализаде произошло еще одно значимое в общественной жизни страны событие - празднование 70-летнего юбилея НАНА, на котором с программной речью выступил глава

государства, определивший приоритеты дальнейшего развития науки в Азербайджане. Необходимо подчеркнуть, что и сегодня ученые страны осуществляют свою деятельность, исходя из указанных приоритетов. Это всегда подчеркивает в своих выступлениях нынешний президент НАНА академик Иса Габиббейли, под руководством которого реформы во имя обновления НАНА продолжаются.

Все вышеперечисленное - лишь малая толика тех инициатив, которые были реализованы в период руководства академика Акифа Ализаде. Создание Парка высоких технологий и агропарка и тем самым расширение сфер инновационной деятельности и высоких технологий, а также интеграции науки, производства и сельского хозяйства, вручение "Золотой медали имени Низами Гянджеви", учреждение премий НАНА, которые носили имена светил отечественной науки - Насреддина Туси, Гасан бека Зардаби, Аббасгулу ага Бакиханова, академиков Узеира Гаджибейли, Мирасадуллы Миргасымова, Юсифа Мамедалиева и Мусы Алиева, организация Дома ученых НАНА, в котором проходили лектории, презентации и различные мероприятия, направленные на агитацию и популяризацию науки, налаживание плодотворных связей с рядом научных и образовательных учреждений зарубежных стран, неустанные встречи и поездки с целью налаживания сотрудничества и обмена опытом, пресс-конференции и брифинги для СМИ и многое, многое другое - все эти события непосредственно связаны с именем юбиляра. Это еще без учета тех начинаний, которые пока лишь остаются на бумаге, среди которых - организация столь нужного обществу Музея истории науки Азербайджана, разработка Тематико-экспозиционного плана и Концепции деятельности которого была поручена мне. Но, несмотря на подготовленные документы, музей так и не был создан, пока лишь является частью моей диссертации...

Таким образом, пересматривая архив своей работы за те шесть лет, еще раз убеждаюсь в масштабе многогранной работы, которая была проделана в тот период, и меня переполняет чувство гордости за принадлежность к той команде и участие в освещении происходящих событий.

Материал завершаю словами из интервью самого академика: "Нужно помогать людям, молодым талантам, которые стремятся создать что-то для науки Азербайджана. Недавно построенные модели мировой динамики показывают, что критическими переменными как для отдельных цивилизаций, так и для человечества в целом являются число людей и уровень технологий. У Азербайджана, как нам представляется, нет возможности "брать числом". Наш путь в будущее связан с развитием человеческого капитала. Именно поэтому система образования и науки должна ориентироваться на поиск, обучение и подготовку талантливых людей в особенно важных для общества сферах и относиться к ним как к национальному достоянию.

Я считаю, что необходимо собрать консилиум известных ученых страны, имеющих богатый опыт работы в науке, и на этом консилиуме проанализировать, продиагностировать обстановку, связанную с интеграцией науки и образования, и определить ориентиры. Ведь на протяжении более чем 75-ти лет истории Академии наук ученые Азербайджана верно служили Отечеству и народу".

С юбилеем Вас, дорогой Акиф муаллим! Крепкого Вам здоровья, и пусть все задуманное Вами, в том числе и во имя развития науки и образования в Азербайджане, свершится!

***Назмин ДЖАФАРОВА,***
***доктор философии по искусствоведению***



**Günel MƏMMƏDOVA**
*"Akademik Mustafa Topçubaşov adına Elmi Cərrahiyyə Mərkəzi" publik hüquqi şəxsin şöbə müdiri*

# "Yaşıl dünya naminə həmrəylik ili"ndən gözlədiyimiz yeni uğurlar - dayanıqlı, "yaşıl" və "ağıllı" səhiyyənin perspektivləri

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi ölkəmiz üçün növbəti əlamətdar hadisədir.**

Eyni zamanda, "Yaşıl dünya naminə həmrəylik ili"ndə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-a bu il Azərbaycan Respublikasının ev sahibliyi etməsi özü-özlüyündə ölkəmizin beynəlxalq birlikdə tutduğu mühüm mövqeyindən, qlobal səviyyədə ard-arda qazandığı əvəzolunmaz uğurlardan xəbər verir.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası yaşıl enerji zonası elan olunub. Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması, "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmaların tətbiq edilməsi, ekosistemin bərpa olunması, bütün ölkə ərazisində radiasiya təhlükəsizliyinin təmin olunması qarşıda duran prioritet məsələlərdəndir.

## "Yaşil" səhiyyə "yaşil" xəstəxanalar

Müasir qlobal cəmiyyətin qarşısında duran ciddi təhlükə - iqlim dəyişikliyi elmin və sənayenin müxtəlif sahələrində olduğu kimi, səhiyyə və tibb elmində də ciddi narahatlıq doğurur. Çünki onun insan sağlamlığına göstərdiyi mənfi təsirlər bir çox yanaşı xəstəliklərin ortaya çıxmasına və artmasına zəmin yaradır.

Bu nöqteyi-nəzərdən, Ümumdünya Səhiyyə Təşkilatı davamlı ətraf mühitin təmin edilməsi üçün ictimai səhiyyə sistemlərinin, fövqəladə hallara cavab proqramlarının və əlaqəli tədqiqatların gücləndirilməsinin zəruriliyini dəfələrlə vurğulayıb. Xüsusilə, səhiyyə sektorunun iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərinin azaldılmasında mühüm rol oynaması gözlənilir.

Mütəxəssislər səhiyyə sənayesinin bəşəriyyətə və ətraf mühitə təsiri onun resurstutumlu xüsusiyyəti ilə əlaqələndirirlər.



Səhiyyə müəssisələri çox miqdarda birdəfəlik məhsullar və s. kimi ətraf mühitə zəhərli tullantılar istehlak edən müəssisələr kimi qəbul edilirlər. Bu kontekstdə Beynəlxalq Səhiyyə Təşkilatı "yaşıl" səhiyyə və "yaşıl" tibb konsepsiyalarını hazırlayıb.

Bir nüansı da unutmaq olmaz ki, "yaşıl" səhiyyə sistemi həm birbaşa, həm də dolayı yolla sağlamlığı qorumaq və inkişaf etdirmək potensialına görə çox cəlbedicidir.

Mütəxəssislərin qənaətincə, "yaşıl" səhiyyə eyni zamanda ətraf mühitə mənfi təsirləri minimuma endirmək və insan sağlamlığı ilə ətraf mühit arasında əlaqəni tanımaq və xəstəliklərin kökünü kəsmək məqsədini daşıyır. O, həmçinin özündə ekoloji təmizlik anlayışını ehtiva edir. Yəni, "yaşıl" səhiyyə təkcə şəxsi sağlamlığın möhkəmləndirilməsinə deyil, həm də cəmiyyətə müsbət təsir göstərmək məqsədinə yönəlmiş ekoloji cəhətdən təmiz tibbi xidmətlər göstərir.

"Yaşıl" səhiyyə sistemi sadəcə yaşıllaşma anlayışı deyil. O, səhiyyə sisteminin liderlik, zərərli kimyəvi maddələrin daha təhlükəsiz alternativlərlə əvəz edilməsi, tullantıların təhlükəsiz utilizasiyası, enerji səmərəliliyi, bərpa olunan enerji istehsalı, nəqliyyat strategiyaları, qida, "yaşıl" bina, daha təhlükəsiz əczaçılıq, satınalma və s. kimi bütün aspektlərini əhatə edən hüdudlardan kənara çıxır.

"Yaşıl" səhiyyə tibbi tullantıları və cərrahiyyə mərkəzlərinin əməliyyat xərclərini azaldaraq iqtisadi dəyər yarada, eyni zamanda dayanıqlı səhiyyənin inkişafını möhkəmləndirə bilər. O, həmçinin dayanıqlı ekosistemin yaradılmasını dəstəkləməklə daha böyük rifaha nail olmağı hədəfləyir.

## "Yaşıl" xəstəxanaların tarixi

Müasir tibb müəssisələri çox resursludur. Xəstələrinə yüksək keyfiyyətli xidmət göstərmək səyləri ilə ətraf mühitə zərər verirlər. Xəstəxanalar sutkanın 24 saatı fəaliyyət göstərir, mürəkkəb və qabaqcıl tibbi texnologiyadan istifadə edir, adekvat işıqlandırma və temperatur tələb edən mürəkkəb tibbi prosedurlar həyata keçirir. Elektrik enerjisinin miqdarını artırmadan buna nail olmaq mümkün deyil. Digər tərəfdən, qlobal səviyyədə içməli su ehtiyatlarının azalması fonunda xəstəxanaların təmizlik, camaşırxana, əl yuma, yemək bişirmək və içmək üçün daha çox suya ehtiyacı vardır. Qeyri-sabit və səmərəsiz binalar, xəstəxana tullantılarının və xam çirkab sularının təhlükəsiz şəkildə utilizasiyası, emal olunmuş qidalardan çox asılılıq və yanacaqla işləyən avtomobil parkları səhiyyə sektorunun karbon izini artıran və bununla da ətraf mühiti xəstə edən amillərdən yalnız bir neçəsidir. Bununla belə, yuxarıdakı misallar ssenarinin dəyişdiyinə və gələcəyin daha da parlaqlaşdığına kifayət qədər sübutdur. "Yaşıl" xəstəxana sadəcə olaraq qeyri-müəyyən bir anlayış deyil, təqlid etməyə layiq bir reallıqdır.

"Yaşıl" səhiyyənin tətbiqi səhiyyə və tibb müəssisələrinin "yaşıl" infrastruktur komponentləri və avadanlıqları ilə təmin olunmasını labüd edir.

"Yaşıl binalar" anlayışı Birləşmiş Millətlər Təşkilatının insan inkişafının bütün aspektlərində "davamlılıq" ideyasını ön plana çıxarmaq üçün uzun illər davam edən birgə səylərdən qaynaqlanır. Bu istiqamətdə ilk belə cəhd Stokholmda keçirilmiş BMT-nin Ətraf Mühit Konfransı olub. Adıçəkilən konfransın bəyannaməsində deyilir: "İnsan mühitinin qorunması və yaxşılaşdırılması bütün dünyada insanların rifahına və iqtisadi inkişafına təsir edən ciddi məsələdir, bu, dünya xalqlarının təcili istəyi və bütün hökumətlərin məsuliyyətidir".



İtaliyanın Venesiya şəhərində yerləşən "L'Ospedale Angela" (Angela xəstəxanası) dünyanın ilk "yaşıl" xəstəxanası hesab olunur. Bu, memarlıq və floranın erqonomik simbiozunun nümunəsi kimi dəyərləndirilir. "L'Ospedale Angela" yaşıl texnologiyadan istifadə olunaraq texniki cəhətdən ən qabaqcıl müəssisədir.

"Yaşıl" xəstəxana dedikdə, müasir qlobal cəmiyyət sağlam ətraf mühitin keyfiyyətli tibbi xidmətin vacib komponenti kimi qəbul edildiyi tibb müəssisələrini qəbul edir. "Yaşıl" xəstəxana strateji mövqedə yerləşməsi, yüksək keyfiyyətli materiallardan, həmçinin su, enerji və s. səmərəli istifadə ilə xarakterizə olunur. O, digər məhsullar istehsal edə, qapalı şəraitdə keyfiyyətini qoruya, yaxşı qida və "yaşıl" mühit təmin edə bilər. O, üzvi məhsullara, qeyri-toksik mühitə, "yaşıl" təmizliyə və tullantıların azaldılmasına diqqət yetirən şəfalı bağdır.

"Yaşıl" xəstəxana insan sağlamlığı və ətraf mühit arasındakı əlaqəni rəsmi olaraq tanıyır və təsdiqləyir, həmçinin qeyd edir ki, biz bunu yalnız idarəetmə, strategiya və onun əməliyyatları vasitəsilə dərk edə bilərik.

"Yaşıl" xəstəxana konsepsiyasının nailiyyətlərini təhlil edən amerikalı mütəxəssislərin rəyinə əsasən, Amerika Birləşmiş Ştatlarında istifadəyə verilmiş "yaşıl" xəstəxanalarda müayinə və müalicə xidməti alan vətəndaşların ümumi xəstə məmnuniyyəti ənənəvi inzibati binalara məxsus xəstəxanalardan 3,6% daha yüksəkdir. Bununla yanaşı, "yaşıl" xəstəxanaların pasiyrntlərinin öz tanışlarına, qohumlarına müalicə aldıqları tibb müəssisəsini tövsiyə etmək arzusu digər xəstəxanaların pasiyentlərinə nisbətən 5,6 % daha çoxdur.

Beləliklə, "yaşıl" xəstəxanalar texnologiya və ekoloji maarifləndirməni birləşdirən innovativ və yaradıcı layihələr təqdim etməklə, səhiyyə sənayesinin ekoloji cəhətdən təmiz həlləri təşviq edə biləcəyini sübut edərək və ətraf mühitin yaxşılaşdırılmasının arxasında iqtisadi və rəqabət imkanlarının dayandığını nümayiş etdirməklə getdikcə daha çox əhəmiyyət kəsb edir.



**Sədaqət ADIGÖZƏLOVA**
*ETN Aqrar Problemlər İnstitutunun direktoru*



**Aygün BABAYEVA**
*ETN Aqrar Problemlər İnstitutunun şöbə müdiri, biologiya üzrə fəlsəfə doktoru*

# İşğaldan azad olunmuş ərazilərdə müasir texnologiyaların tətbiqi

**Kənd təsərrüfatı sənayesi həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarında aparıcı rol oynayır. Qida istehsalı hər kəs üçündür və səmərəli və gəlirli istehsal hər hansı bir dövlətin, regional idarəetmə strukturlarının, eləcə də fərdi istehsalçıların hədəfidir. Torpağın əkininin vəziyyəti, gələcək məhsulun keyfiyyəti və miqdarının qiymətləndirilməsi və bunun nəticəsində kənd təsərrüfatı məhsullarının qiymətlərinin proqnozlaşdırılması həm müəyyən bir bölgənin iqtisadiyyatına, həm də bütövlükdə dünya ticarətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Kosmik görüntü materialları həm kənd təsərrüfatı ərazilərinin idarə olunmasında, həm də ali təhsil sahələrində mürəkkəb vəzifələrin həllində kömək edə bilər. Peyk monitorinqindən istifadə edərək əsas kənd təsərrüfatı işlərinin vaxtı və keyfiyyətinə nəzarət etmək və bununla da kənd təsərrüfatı istehsalının idarə edilməsini optimallaşdırmaq mümkündür.**

Son dövrlər peyk və aero şəkillərin istifadəsi dövlət təşkilatları və özəl sektorda bir çox elmi-tətbiqi və praktiki problemlərin həlli üçün effektli və etibarlı vasitə kimi özünü sübut etmişdir. Belə ki, ətraf mühitin idarə edilməsi və ekologiya, neft, qaz, kənd təsərrüfatı, meşə təsərrüfatı, su təsərrüfatı və su ehtiyatlarının idarə olunması, geologiya, faydalı qazıntı yataqlarının kəşfiyyatı, nəqliyyat, rabitə, istirahət, idman turizmi, üçölçülü modelləşdirmə, bələdiyyə idarəçiliyi, Geoinformasiya texnologiyalarının isqiqamətləri torpaq istifadəçiliyi, ərazi planlaşdırılması, layihələndirmə və digər sahələrdə bir çox vəzifələrin həlli, idarə edilməsi və effektiv nəticələrin alınması məqsədilə peyk təsvirlərində geniş şəkildə istifadə olunur. Son onilliklərdə məsafədən zondlama materiallarının həcmi, çeşidi və keyfiyyəti xeyli artmışdır. Bu günə qədər, yer kürəsinin bütün səthini tam əhatə edən və bölgələrin əhəmiyyətli bir hissəsi üçün çoxlu üst-üstə düşən çox böyük bir fond (100 milyondan çox) aerokosmik görüntülər toplanmışdır.

Geoinformatika coğrafiya, kartoqrafiya, coğrafi elmlərlə əlaqəli elm və mühəndislik sahələrinin problemlərini həll etmək üçün informasiya elmi infrastrukturunu inkişaf etdirən və istifadə edən elm və texnologiyadır.

Yer səthinin hava fotoqrafiyası üçün proqramların geniş yayılması ilə əlaqədar olaraq, yer səthinin peyk görüntüləri xüsusi əhəmiyyət kəsb edir. Kosmik görüntü kosmik aparatlardan, peyklərdən, balonlardan hazırlanır.

Prezidentin azad edilmiş ərazilərdə kəndlərin "Ağıllı kənd" konsepsiyası əsasında qurulması təşəbbüsü kənd təsərrüfatında artıq əl əməyindən istifadə minimuma enib, aqrar sektorda daha çox yeni texnologiyalardan istifadə olunmasını tələb edir. Bütün dünyada "Ağıllı kənd" layihələrinin




həyata keçirilməsində əsas məqsəd kənddən şəhərə axının qarşısını almaqdır. Yəni, kənd yerlərində insanlara elə şərait yaradılmalıdır ki, əhalinin şəhərdə əldə edə biləcəyi bütün xidmətlərə kəndlərdə də rahat çıxış olsun. Eyni zamanda, insanlara kənddə daha çox gəlir əldə etmək və məşğulluq imkanı yaradılmalıdır. Üçüncü məqam isə kənd sakinlərinin dövlət xidmətlərinə çıxışının təmin olunması üçün tam şəraitin formalaşdırılmasıdır. Yəni, "Ağıllı kənd" konsepsiyasında xidmət, qazanc və dövlət xidmətlərindən yararlanmaq baxımından kənd və şəhər fərqi faktiki olaraq aradan qalxmış olur... Yüksək məkan ayırdetməli (1.5m) "Azersky" peyk təsvirləri istifadə edilməklə işğaldan azad edilmiş ərazilərimizin monitorinqi əsasında düşmənin 30 il ərzində Tərtər, Ağdam, Xocalı, Xocavənd, Beyləqan, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarında eşalonlaşdırılmış müdafiə sistemi qurması və bu müdafiə sistemi daxilində çoxlu sayda hərbi obyekt və tikililər inşa etməsi, geniş sahələr üzrə səngər və xəndəklər qazması, əlaqə, təminat-təxliyyə yolları çəkməsi, atəş mövqeləri, sığınacaqlar, daldalanacaqlar və digər mühəndis fortifikasiya qurğuları hazırlaması nəticəsində torpaqlar ciddi deqradasiyaya məruz qalmışdır.

Kosmik sistemlər peyklərin müntəzəm olaraq - peyk sistemlərinin uzunmüddətli işinə əsaslanır ki, bunlara kosmik gəmi orbitinin işləməsini, məlumatların qəbulunu, onun saxlanmasını və yayılmasını təmin edən mürəkkəb infrastruktur daxildir. Xüsusiyyətlərinə görə, peyk şəkilləri həm praktik, həm də elmi sahələrdə geniş istifadə olunur. Kosmosdan yerin tədqiqatı materialları yer elmində geniş istifadə olunur. Kosmik görüntüləmə təbii ehtiyatların, təbiət hadisələrinin dinamikasının hərtərəfli öyrənilməsinə yönəlmiş tədqiqatlarda və ətraf mühitin qorunması vəzifələrində istifadə olunur. Peyk görüntülərindən atmosferin, litosferanın, hidrosferanın, biosferanın və regional, zonal və qlobal miqyaslı mənzərələrin əsas xüsusiyyətlərini öyrənmək mümkündür. Bölgələrin geoekoloji monitorinqi zamanı ətraf mühitin vəziyyətini gündəlik əməliyyat monitorinqi üçün kosmik məlumatların istifadəsinə xüsusi yer verilir. Təbii cisimlərin öyrənilməsi üçün uzaqdan görülən metodlar daha çox görmə qabiliyyətini, müəyyən fasilələrlə məlumatların yenidən əldə edilməsini, görüntülərin alınması və ötürülməsinin yüksək sürətini, habelə əməliyyat xəritəsinə əsaslanaraq fenomenin inkişaf dinamikasının hərtərəfli təhlilini  tətbiq etmə imkanı verir. Peyk görüntülərinin xəritəçəkmə məqsədləri üçün istifadəsi peyk şəkillərinin olduqca qiymətli xüsusiyyətlərinə bağlıdır: geniş ərazi əhatə dairəsi və nəticədə görüntülərin yüksək ümumiləşdirilməsi; bütövlükdə planetin əsas struktur, regional və zonal xüsusiyyətlərinin öyrənilməsi; bütün landşaft komponentlərinin əlaqəsini öyrənməyə imkan verən geniş ərazilərin eyni vaxtda vurulması; təbii hadisələrin - dövri (gündəlik, mövsümi) və epizodik (meşə yanğınları, vulkan püskürmələri və s.), habelə iqtisadi fəaliyyətin (əkin sahələri, yetişmə, məhsul yığımı, torpaq və dənizin çirk-



lənməsi) dinamikasını öyrənməyə imkan verən sorğunun müntəzəm təkrarlanması. CİS -in köməyi ilə Google Earth-dən götürülmüş foto görüntülər üzərində müşahidələr aparılarkən baş vermiş dəyişkənlik daha aydın nəzərə çarpır.

"Ağıllı kənd təsərrüfatı" özündə kooperativ idarəetmə sistemini, müasir texnologiyalar əsasında qurulmuş tarla, bağ və fermaları, dronlar vasitəsilə idarəetmə və nəzarəti özündə ehtiva edir. "Ağıllı" təsərrüfatlar kəndlərdə meyvə, tərəvəz, ət və süd məhsulları istehsalını artırmağa, emal prosesini müasir tələblərə uyğun qurmağa imkan verir. "Ağıllı kənd" təkcə kənd təsərrüfatı ilə bağlı deyil. Müasir şəhərsalma standartlarının tətbiqi, küçələrin "ağıllı" işıqlandırılması, isti və soyuğadavamlı ekoloji evlərin inşası, məişət tullantılarının idarə olunması, su elektrik stansiyalarının, günəş paneli stansiyalarının quraşdırılması, bioqaz enerjisindən istifadə kimi amillər bu konsepsiyanın əsas komponentləri sırasındadır. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzlərinin inşasını, turizm infrastrukturunun formalaşdırılacağını da nəzərə alsaq, mənzərə tam aydın olar. Bütün yaşayış evlərinin, sosial obyektlərin, kənd təsərrüfatı məhsullarının emalı və istehsalı prosesinin alternativ enerji mənbələri ilə təmin edilməsi "Ağıllı kənd"in nə dərəcədə üstünlüklərə malik olduğunu göstərir.

Ilk dəfə olaraq Ağıllı kənd layihələrinin həyata keçirilməsində Qarabağ ərazisində işğladan azad olunmuş ərazilərdə çirklənmiş, deqradasiyaya uğramış torpaqların dəqiq uçotunun aparılması və bərpasında müasir texnologiyanın tətbiqi dövrün tələblərindəndir. O cümlədən müasir qrafiki kompüter proqramlarının tətbiqi zəruridir.



GİS texnologiyası əsasında torpaq-tədqiqat işlərinin aparılması, müasir proqramlar, yüksəktutumlu qrafiki kompüterlər vasitəsilə aerokosmik məlumatlar əsasında elektron koordinata gətirilmiş torpaq - tədqiqat xəritələrinin, ekoloji qiymətləndirmə xəritələrinin hazırlanması, kartoqrafik və atributiv verilənlər əsasında bonitet kartoqramının tərtibi, verilənlər bazası əsasında (DataBase) ərazinin illər üzrə müqayisəli təhlilinin - monitorinqinin aparılması torpaqların kadastr, inzibati rayonlar, ekoloji landşaft rayonları üzrə torpaqların bonitirovkası və aqroistehsalat qruplaşdırılması aktuallıq kəsb edib, torpaq resurslarından səmərəli istifadənin təşkilində, əkinə yararlı torpaq sahələrinin ərazilərinin artırılmasında, təbiət-təsərrüfat münasibətlərinin optimallaşdırılmasında dəyərli vasitə ola bilər. CİS-in geniş istifadə olunması səbəbindən, onların tiplərə ayrılması da müxtəlif aspektlərdə olur, məsələn: əhatə etdiyi əraziyə və miqyasa görə, mövzuya görə, funsionallığa görə və s.

Əhatə etdiyi əraziyə görə CİS-in növ müxtəlifliyi aşağıdakı kimidir:

- qlobal;
- subkontinental;
- milli (dövlət səviyyəsində);
- regional;
- subregional;
- bələdiyyə;
- lokal və ya yerli CİS.

Bəhs olunan sistemlərin əhatə etdiyi ərazi və uyğun miqyasları aşağıda verilmişdir.

Modelləşdirmə predmetinə görə CİS-i aşağıdakı növ müxtəlifliyinə ayırırlar:

- şəhər üçün CİS (urban GIS);
- bələdiyyə üçün CİS (municipal GIS);
- ətraf mühitin mühafizəsi üzrə CİS (enviromental GIS) və s.

İşğaldan azad edilmiş ərazilərdə hərbi əməliyyatlar nəticəsində deqradasiyaya uğramış torpaqların sahəsi Ağdərə, Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Xocalı, Şuşa, Laçın və Kəlbəcər rayon əraziləri üzrə 14848.09 hektar təşkil edir. Bu torpaqların kənd təsərrüfatı dövriyyəsinə cəlb edilməsi vacib məsələlərdən biridir.




**Hərbi fəaliyyətlər nəticəsində deqradasiyaya uğramış torpaqlar**

Peyk şəkillərindən hazırlanan xəritələr daha müasir və etibarlıdır və hər bir aeroşəkil özündə obyekt haqqında müəyyən informasiya daşıyır ki, bunun da əldə edilməsi deşifrələmənin qarşısında duran əsas məsələdir. İnformasiya daşıyıcısı olan aero və kosmik şəkillər həm formal, həm də məzmunu analizə məruz qalırlar. Formal analiz informasiyanın məzmunu cəhətindən təcrid edilmiş şəkildə aparıla bilər. Aeroşəkilin məzmunun belə formallaşdırılması deşifrləmənin ölçmə xüsusiyyətləri üçün xarakterikdir. Belə görüntülər xəritəyə gətirilə bilməyən hadisələri əks etdirir. Yeni texnologiyalar istənilən mövzuda xəritələrin, o cümlədən, müxtəlif miqyaslarda torpaq xəritələrinin daha dəqiqi variantlarının hazırlamağa imkan verir. Müasir dövrdə məkan obyektlərinin, o cümlədən torpaq örtüyününün, landşaft komplekslərinin və təbiətdə müşahidə edilən digər obyekt və hadisələrin xəritələşdirilməsi üç əsas elementin olmasını tələb edir:

1) dəqiq coğrafi əsasın (müxtəlif miqyaslı topoqrafik xəritələrin);

2) aero və kosmik fotoşəkillərin ;

3) elektron xəritələrin tərtibinə uyğun CİS proqram təminatı.




Ağıllı kənd layihələrinin həyata keçirilməsində CİS-in tətbiqi vasitəsilə sahələrin dərmanlanması dronlar vasitəsilə həyata keçirilir, məhsul yığımı kompüterləşdirilmiş texnikalar vasitəsilə aparılır, su resurslarından qənaətlə istifadə üçün müasir suvarma sistemlərindən istifadə olunur.

Ən əsası bütün bu proseslər bir mərkəzdən idarə edilir, texnologiyaların tətbiqi resurslara qənaət etməyə, xərcləri optimallaşdırmağa, gəlirləri artırmağa imkan verir. "Ağıllı kənd" layihəsi bərpa olunacaq kəndlərimizə qayıdacaq insanların həyat şəraitinin yaxşılaşmasında, aqrar sahə ilə məşğul olacaq fermerlərimizin "ağıllı kənd təsərrüfatı" sisteminə inteqrasiyasında mühüm rol oynayacaq.

Tətbiq olunan agıllı kənd layihələrində sahələrin dərmanlanması dronlar vasitəsilə həyata keçirilir, məhsul yığımı kompüterləşdirilmiş texnikalar vasitəsilə aparılır, su resurslarından qənaət-







lə istifadə üçün müasir suvarma sistemlərindən istifadə olunur.

Həmin ərazilərin dəqiq uçotu, sahələrin ölçüsü, yüksəkliklərin təyini və s. müasir texnologiyaların CİS (Coğrafi İnformasiya Sistemlərinin) tətbiqi həyata keçirilməsi, bərpa tədbirlərinin hansı ərazidə tətbiq olunması və kənd təsərrüfatı təyinatlı torpaqların qorunması planlı şəkildə həyata keçiriləcəkdir.

Təqdim olunan məlumatlar dəymiş ziyanın qiymətləndirilməsi, ərazilərin mina və partlamamış sursatlardan təmizlənməsi, kənd təsərrüfatı təyinatlı torpaqlaraın rekultivasiyası və digər məqsədlərlə istifadə oluna bilər.

Aqrar Problemlər İnstitutunun əməkdaşları tərəfindən Ağdam rayonu Xındırıstan kəndi ərazisində bərpa olunmuş torpaqlarda əkin sahələri, pambıqaltı ərazilərdə, dincə qoyulmuş torpaqlarada tədqiqat işləri aparılmış. Ərazinin dəqiq koordinatları götürülmüş, çöl tədqiqatı zamanı torpaq kəsimləri qoyulmuş, laboratoriya şəraitində analiz edilmək üçün torpaq nümunələri götürülmüşdür. Tədqiqi zamanı MKT Cotton Agdam filialının iş prinsipi ilə, əkin sahələri ilə yaxından tanış olmuşlar. Doğurdan da Qarabağın, o cümlədən Ağdam rayonunun torpaqlarının nə qədər münbit olması, əkinəyararlı torpaq sahələrinn kənd təsərrüfatında intensiv istifadəsi zamanı məhsuldar ola biləcəyinin bir daha şahidi olduq.

Mina ilə zədələnmiş torpaqların yenidən təmizlənərək, qazılmış səngərlərin doldurularaq kənd təsərrüfatı dövriyyəsinə cəlb olunarkən müasir texnologiyaların tətbiqi ilə və sistemli idarə edilməsi həmin torpaqların daha da məhsuldar olmasına zəmin yaradar. "Torpaq deyər öldür məni, dirildim səni". İşğaldan azad olunmuş ərazilərimizin əkilib-becərilməsi və torpaq fondundan səmərəli istifadənin təşkili orada yaşayan vətəndaşların rifah halının, eyni zamanda, ölkə səviyyəsində kənd təsərrüfatı məhsullarının istehsalının yülsəlməsinə gətirib çıxaracaqdır. Bizi öz doğma torpaqlarımıza 30 il həsrət qoyan mənfur ermənilərə üzümüzü tutub ulu Dədə Qorqudun kəlamlarını xatırlatmaq istəyirik: "Torpağı əkib-becərmirsənsə, qorumağa dəyməz, qorumursansa, əkib-becərməyə dəyməz". Doğrudan da torpaq kimindirsə, o da qədrini yaxşı bilər, demişlər. Bizim Qalib xalqımız həm torpağını qorumağa, həm də əkib-becərməyə qadirdir. ●






**Ağdam rayonu üzrə nümunə**



**Rəşid FƏTƏLİYEV**
*ETN akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, geologiya-mineralogiya üzrə fəlsəfə doktoru, dosent*

# Böyük Qayıdışa dəyərli dəstək: Qarabağın qızıl yataqları

**Qarabağ Azərbaycanın təbii sərvətlərlə, o cümlədən mineral ehtiyatlarla zəngin olan bölgələrindəndir. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən alınan məlumata görə işğalaqədərki dövrdə bu ərazidə ehtiyatları təsdiq olunmuş müxtəlif növ 167 faydalı qazıntı yatağı mövcud olmuş və ümumiyyətlə, geoloqlarımız tərəfindən 561 yataq və mineral təzahürü aşkar edilərək qeydiyyata alınmışdır. Onlardan 5-i qızıl, 2-si mis, 7-si civə, 12-si bəzək daşları, 9-u gil, 20-si sement xammalı, 10-u mişar daşı, 4-ü qum, 11-i mineral su və s. yataqlardan ibarətdir. Amma təəssüf ki, uzun illər işğal altında olan torpaqlarımızın bu sərvətlərindən düşmənlər bəhrələnmişlər. Digər milli sərvətlərimiz kimi, geoloqlarımızın min bir əziyyətlə aşkar edib, üzə çıxardığı faydalı qazıntı, xüsusən də qızıl yataqlarımızı da xain qonşularımız və onların havadarları vəhşicəsinə istismar edərək talamışlar. Ən çox istismara məruz qalan isə Kəlbəcərdəki Söyüdlü (Zod), Ağdərə rayonundakı Qızılbulaq və Zəngilandakı Vejnəli qızıl yataqlarıdır.**

Mənbələrindən məlum olur ki, separatçı rejimin gəlirlərinin 70 faizdən çoxunu dağ-mədən sənayesində çalışan Ermənistanın və xarici şirkətlərin ödənişləri təşkil etmişdir. Bu haqda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır ki, işğal dövründə Qarabağ ərazisində qanunsuz fəaliyyət göstərmiş bütün şirkətlər taladıqları sərvətlərə və vurduqları ekoloji zərərə görə təzminat ödəməlidirlər, əks təqdirdə, onlar beynəlxalq məhkəmələr qarşısında cavab verməli olacaqlar.

Lakin dövran dəyişdi, 2020-ci ildə başda Ali Baş Komandan İlham Əliyev olmaqla, Müzəffər Ordumuzun misilsiz şücaəti sayəsində ərazimizin çox hissəsi işğaldan azad edildi, 2023-cü ildə isə bütün Qarabağ bölgəsində öz ərazi bütövlüyü və suverenliyimizi təmin etdik və sepatizmin kökü bu yerlərdən birdəfəlik kəsildi. İndi qurub-yaratmaq, bərpa etmək zamanıdır və bu istiqamətdə xeyli iş görülmüş və görülməkdədir. Artıq 5 mindən artıq keçmiş məcburi köçkün öz dədə-baba yurdlarına qayıdaraq beş yaşayış məntəqəsində məskunlaşmış və hörmətli Prezidentimiz bu rəqəmin yaxın illərdə 140 min nəfərə çatacağını bildirmişdir.

Bəli, düşmənlərimizin vəhşicəsinə dağıtdığı Qarabağımız tədricən dirçəlir, onun inkişafına hər il dövlət büdcəsindən təqribən 4 mlrd. manat vəsait ayrılır. Prezident İlham Əliyevin 2021-ci ildə imzaladığı Sərəncamla təsdiq edi-




lən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı sənəddə beş ən mühüm prioritet sırasında "İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış" adlı bəndin yer alması da dövlət başçısının bu bölgəyə xüsusi diqqətinin bariz nümunəsidir. Həmin sənəddə növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair yerinə yetirilməsi vacib olan məsələlərlə yanaşı öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı və qələbənin əbədiləşdirilməsi üçün onların həmin ərazilərdə layiqli yaşayışla təmin edilməsi, müasir infrastrukturun qurulması, rahat həyat tərzi və regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması xüsusi vurğulanır.

Aydındır ki, istənilən ərazinin, xüsusilə dağ regionlarının iqtisadi yüksəlişində yerli mineral - xammal mənbələrinin mövcudluğu və onlardan səmərəli istifadə önəmli amillərdəndir. Qarabağın iqtisadiyyatının inkişafında yaşıl enerji istehsalı, kənd təsərrüfatı, turizm və dağ-mədən sənayesi prioritet istiqamətlər hesab edilir.

İşğal dövründə sosial şəbəkələrdə ən çox söz-söhbətə səbəb olan mövzulardan biri Qarabağda mövcud olan qızıl və mis yataqları və onların işğalçılar tərəfindən talanması idi. Vaxtilə o yerlərdə işləmiş bir mütəxəssis geoloq kimi Qarabağda yerləşən qızıl yataqları haqqında bəzi məlumatları oxucularla bölüşmək istərdim.

Qızıl əlvan metallar qrupuna aid olan qiymətli metaldır və insanlara məlum olan ilk faydalı qazıntı növlərindən biridir. Qızıla təbiətdə adətən sərbəst, bəzi hallarda isə bitişik, yəni mineral şəklində rast gəlinir. Azərbaycanda sənaye ehtiyatlarına malik müxtəlif genetik tipli bir çox qızıl yataqları mövcuddur ki, onlardan beşi Qarabağ ərazisində yerləşir. Bu yataqlardan üçünün (Söyüdlü, Qızılbulaq və Vejnəli) ehtiyatları keçmiş SSRİ-nin Dövlət Ehtiyatlar üzrə Komissiyasında təsdiq edilmişdi, lakin ərazilərin Ermənistanın işğalı səbəbindən onların istismarı mümkün olmamışdır.

Söyüdlü (Zod) qızıl yatağı Kəlbəcər rayonunda dəniz səviyyəsindən 2300-2500 m hündürlükdə yerləşir və Azərbaycanla Ermənistan sərhədi boyu uzanan Şərqi Göyçə silsiləsinin suayırıcında Misqaynaq dağının yamaclarını əhatə edir. Yataqda ümumən 39 filiz cismi aşkar edilmişdi ki, onların da böyük əksəriyyəti - 29-u tamamilə Azərbaycanın ərazisindədir.

Söyüdlü yatağı, təsdiq olunmuş ehtiyatlarına görə, nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın ən böyük qızıl obyektidir. Yatağın təsdiq olunmuş ilkin ehtiyatları 112,5 ton olub, lakin uzun illər yatağı qanunsuz istismar etmiş Ermənistan mənbələrində ehtiyatların bundan xeyli artıq olduğu bildirilir. Bu nadir yatağın nüvəsini təşkil edən mərkəzi hissəsinin 90%-i, ümumi ehtiyatların isə 73%-i Azərbaycan Respublikasının ərazisinə düşür. Bütün bunlara baxmayaraq, hələ sovet dönəmində Söyüdlü yatağı heç bir hüquqi əsas olmadan Ermənistan Əlvan Metallurgiya İdarəsinin balansına verilmiş və 1977-ci ildən yatağın sənaye işlənməsinə başlanılmış və 1989-cu ilə qədər bu yataqdan 27,6 ton qızıl çıxarılmışdır. Sonralar, işğal dövründə yatağın istismarına




müxtəlif xarici ölkələrin, o cümlədən, ABŞ, Böyük Britaniya, Kanada və Hindistanın filizçıxarma şirkətləri cəlb edilmişdir. Onların qanunsuz fəaliyyətləri nəticəsində yataq vəhşicəsinə talan edilmiş və külli miqdarda qızıl əldə edilmişdir. Təkcə 2002-2006-cı illərdə "First Dynasty Mines" ("FED") şirkəti tərəfindən yataqdan 14,3 ton qızıl çıxarılmış, Ermənistan və separatçı rejimin büdcəsinə vergi qismində xeyli vəsait köçürülmüşdür. Üstəlik, yatağın açıq üsulla istismarı nəticəsində Kəlbəcər rayonunun 500 hektardan çox ərazisi tamamilə yararsız hala salınmış, filizin saflaşdırılmasında sianid üsulundan istifadə edilməsi isə torpaqların və su mənbələrinin çirkənmsinə səbəb olmuşdur.

İşğal dövründə yatağı qanunsuz istismar edənlərin sonuncusu Rusiyaya məxsus "GeoProMining" Ltd. şirkətidir ki, bu şirkət 2007-ci ildə "FED"-in bütün səhmlərini alaraq yatağa tam sahibliyi ələ keçirmişdir.

Qızılbulaq (Drmbon) qızıl yatağı Ağdərə rayonunda dəniz səviyyəsindən 700-1000 m hündürlükdə Qarabağ və Ağdam antiklinorilərinin qovşağında yerləşir. Yatağın sahəsi cəmi 0.5 kv. km təşkil edir və geoloji cəhətdən çox mürəkkəb quruluşa malikdir. Filizdə qızılın tutumu 4,0 q/t, gümüş - 5,4 q/t, mis - 1,41 % təşkil edir. Yatağın əsas faydalı komponentləri qızıl, gümüş və mis; yanaşı komponentlər isə selen, tellur və kükürddən ibarətdir.

Qızılbulaq yatağının ehtiyatları hələ sovet dönəmində -1990-cı ildə SSRİ-nin Dövlət Ehtiyatlar üzrə Komissiyasında 13.6 ton qızıl, 47,9 min ton mis və digər metallar (gümüş, selen, tellur) olmaqla təsdiq edilmişdi. Amma çox təəssüf ki, bu yataq da işğal illəri ərzində separatçı rejimin bölgəyə dəvət etdiyi "Base Metals" Ltd. (Avstraliya) şirkəti tərəfindən vəhşicəsinə istismara məruz qalmış və ehtimal ki, nəticə etibarılə ehtiyatları tam tükənmişdir.

Vejnəli qızıl yatağı Zəngilan rayonunda Ağbənd dəmir yolu sansiyasından 4-5 km məsafədə, eyniadlı kəndin yaxınlığında yerləşir. Yataq ərazisində 25 qızıllı damar aşkar edilmişdir, lakin sənaye əhəmiyyətli qızıl ehtiyatı kvars-karbonat-pirit-xalkopirit tərkibli 6 damarda toplanmışdır. Təsdiq edilmiş ehtiyatlar 6,5 ton qızıl və 3,0 min ton mis təşkil edir. Bundan əlavə, filizin tərkibində gümüş, tellur və bismut kimi metalların da sənaye əhəmiyyətli olması müəyyən edilmişdirVejnəli yatağı əlverişli dağ-texniki və hidrogeoloji şəraitə malikdir və 1980-ci ildə o artıq sənaye istifadəsinə tam hazırlanmışdı, lakin mərkəzin ermənipərəst mövqeyi buna imkan verməmişdi. İşğal dövründə bu yataq da Ermənistan tərəfindən qanunsuz olaraq amansızlıqla talan edilmişdir.

Qarabağ ərazisində qızıla perspektivli daha iki filiz sahəsi (Ağduzdağ və Tutxun) mövcuddur və hər ikisi Kəlbəcər rayonunda yerləşir.

Ağduzdağ filiz sahəsi bir neçə qızıl təzahüründən (Şirvan, Keti, Ağduzdağ və s.) ibarət olub, rayonun şimal-şərqində, Zarçay və Zəy-



**Ermənistanın talan etdiyi Vejnəli qızıl yatağı**

likçayın yuxarı hissəsində yerləşir. Qızıl əsasən kvars və kvars-karbonat damarları ilə əlaqədar olub orta tutumu 6,72 q/t təşkil edir. Filiz sahəsində 100-dən artıq belə damar aşkar edilsə də onlardan ancaq 5-i sənaye əhəmiyyətlidir və onların ümumi proqnoz resursları 17.5 ton hesablanmışdır.

Tutxun filiz sahəsi eyniadlı çayın yuxarı sağ qolları hövzəsində, Sarıbaba sinklinorisinin cənub-qərb cinahında yerləşir. Filiz sahəsi Ağzıbir, Qızılitən, Qazıxanlı, Qalaboynu və s. kimi bir neçə perspektivli qızıl təzahüründən ibarətdir. Qızıl filizi, uzunluğu 200-500 m, qalınlığı 0,2-0,7m olan kvars-sulfid və karbonat tərkibli damarlar və hidrotermal dəyişmiş zonalarla əlaqədardır. Sərbəst qızıldan başqa əsas filiz mineralları pirit, xalkopirit, molibdenit və antimonitdir. Filiz sahəsinin ümumi qızıl ehtiyatı və proqnoz resursu 30 tondan çox hesablanmışdır.

Dağ-mədən sənayesi qeyri-neft sektorunun önəmli sahəsidir və 2006-cı ildə Gədəbəy qızıl mədəninin işə salınması ilə ölkəmiz qızıl hasil edən ölkələr sırasına daxıl oldu. Daha sonra Çovdar qızıl yatağının istismara cəlb edilməsi Azərbaycanın dağ-mədən sənayesinin inkişafına güclü təkan verdi və bu gün qızılçıxarma sənayesinin gəlirləri ölkə büdcəsinin qeyri-neft sektorunda önəmli paya malikdir.

Son vaxtlar dünyada baş verən siyasi-hərbi qarşıdurmalar və gərginliklər fonunda dünya bazarında qızılın qiyməti sürətlə artmaqdadır. Hazırda bir ünsiya (31,1 qr) qızılın qiyməti təxminən 2000 ABŞ dolları və ya 3400 manat təşkil edir ki, bu da yeni qızıl yataqlarının hasilata cəlb edilməsini stimullaşdırır. Təxmini hesablamalar Qarabağ bölgəsinin yataqlarında 15-20 mlrd. manat dəyərində qızıl ehtiyatlarının olmasını deməyə imkan verir. Artıq AİMC və AzerGold şirkətləri bu istiqamətdə fəaliyyətə başlamışlar və ümid edirəm ki, bölgədəki qızıl və digər faydalı qazıntı yataqlarının tezliklə istismara cəlb edilməsi düşmən tərəfindən viran qoyulmuş bu ərazilərin bərpasında və sosial-iqtisadi inkişafında çox böyük rol oynayacaq və dövlət büdcəmizin gəlirlərinin artmasına, eləcə də bölgənin inkişafına xərclənən böyük həcmdə vəsaitlərin bir qisminin qarşılanmasına önəmli töhfələr verəcəkdir. Bu isə Böyük Qayıdışa dəyərli dəstək deməkdir.



**Məmməd SADIQOV**
*ETN akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru, dosent*



**Şahvələd ƏLİYEV**
*ETN akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, dosent*

# Ağdamda kəndlərin tipoloji, morfoloji və genetik quruluşunun formalaşması

**Qarabağ regionunun ən inkişaf etmiş və idarəçilik baxımından aktiv sayılan Ağdam iqtisadi rayonudur. Bu rayonun tərkibində 117 kənd məntəqəsi var idi (1989). Lakin 1990-cı illərdə erməni təcavüzündən sonra bu kəndlərin 80-ni və ya 70%-i işğal olundu. 37 məntəqə və ya 30%-i inzibati rayonun tərkibində fəaliyyət göstərdi. Ağdamda olan kənd məntəqələrinin əhalisi sovet dönəmindəki təsərrüfatçılığı davam etdirirdi və yeri gəldikcə qarışıq təsərrüfatçılıqla da məşğul olurdu. Kiçik Qafqazın mərkəzi və şərq-qərb yamaclarındakı kənd məskunlaşması formaca qonşu regionun Kəlbəcər, Laçın, Qubadlı, Füzuli rayonlarının kəndləri pilləkənvari, topa şəkilli və çay, meşə ətrafı lent şəkilli məskunlaşma sisteminə uyğun gəlir. Eyni tip və formalı kənd məskunlaşması Böyük Qafqazın Gədəbəy, Daşkəsən, Tovuz rayonları ilə eynilik təşkil edir. Burada kənd əhalisinin xarakterik məşğulluq forması, onun dərəcəsi və kəndlərin müxtəlifliyi, tipoloji, morfoloji və genetik quruluşu baxımından da diqqət çəkəndir.**

İnzibati rayonun dağlıq ərazilərində (800-1000 m) kənd məskunlaşması Quba-Qusar, Dağlıq Şirvan və qonşu Gürcüstan respublikasının Cavaxeti, Trialti, Böyük Qafqazın orta dağlıq ərazilərinin təbii şəraitinin müxtəlifliyi baxımından da eynilik təşkil edir. Qeyd etmək lazımdır ki, kəndlərin məskunlaşması xüsusiyyətləri Azərbaycanın digər dağlıq zonalarında olduğu kimi bu inzibati rayonda da əsasən kənd təsərrüfatı tipli olub (bir qrup məntəqəni çıxmaq şərti ilə) ərazidə pərakəndə məskunlaşma sistemini formalaşdırmışdır. Burada paralel çəkilmiş kəndarası torpaq və çınqıl yollar ətrafında trapesiya (b), topa (e), uzunsov, çaylar arasında lent formalı (9), üç yol ayrıcında topa şəkilli (d), dağınıq planlı (i) və s. böyük və orta ölçülü kəndləri göstərmək olar. Ağdam inzibati rayonunda kəndlərin qədimliyi, müasirliyi və işğaldan sonra 2020 perspektivliyi haqqında fikir söyləmək üçün (işğala qədər) kəndlərin tipoloji, morfoloji, genetik quruluşu və planlaşma işləri barədə tədqiqatın aparılması və bu zaman topoqrafik xəritələrdən istifadə edilməsi çox zəruridir. İşğaldan sonra (2020) region ərazisində kənd məntəqələrini təsərrüfat tiplərinə görə ayırmaqla yanaşı, onların funksional xüsusiyyətlərini, sosial-iqtisadi, tarixi-etnoqrafik və təbii-coğrafi vəziyyətini tədqiq edilməsi gündəmə gətirilir. Bu baxımdan tədqiqata cəlb olunan Ağdam inzibati rayonunun kənd məntəqələrinin (işğal olunmayan) bir neçə xüsusiyyətinə görə bölünməsi məqsədəuyğundur. Ümumiyyətlə, sosial-iqtisadi şərait məntəqələrin daxili və xarici görünüşünə (genetik), qədim və müasirliyinə (morfoloji) yanaşma da təsir edir. Buraya tikinti materiallarının növ müxtəlifliyi, onlardan istifadə, müasirliyə istiqamətlənmə, məntəqələrin ölçüləri və tipi və s. amillər daxildir.

Tarixi-demoqrafik şəraitin təsiri ilə müəyyən ərəfələrdə kənd məntəqələrinin ərazi üzrə salınması və onların ölçülərinin (böyük və kiçik) dəyişməsi Ağdam inzibati rayonunda özünü daha qabarıq göstərir. Bu baxımdan Ağdam inzibati rayonunun 500 m-dən yuxarı ərazilərində tarixi-etnoqrafik amillərin müxtəlifliyi, təbii fəlakətlər (sürüşmə, zəlzələ, sel

və s.), müharibə və çəkişmələr ərazinin kəndlərinin morfoloji-genetik quruluşuna və tikinti materiallarının növ müxtəlifliyi ərazidə məskunlaşmaya güclü təsir etmişdir. İnzibati rayonda kənd məskunlaşması, onun morfogenetik xüsusiyyətləri təbii-coğrafi mühitlə əlaqədardır. İnzibati rayonun kəndlərini coğrafi əraziyə görə iki qrupa bölmək olar.

1.Düzən və maili düzənlikdə yerləşən kəndlər - 85 və ya 72,6%;

2.Dağətəyi və alçaq dağlıq ərazilərdə salınmış kəndlər - 32 və ya 27,4%;

Hər bir kənd qrupu özündə bir sıra digər tip kəndləri landşaft-relyef baxımından birləşdirir. Rayonun çay və kanallar arasında, suayırıcılarda və maili düzənliklərdə salınmış kəndləri öz qədimliyi, tikinti materiallarının müxtəlifliyi və xarici görünüş baxımından daha cəlbedicidir. Bu tip kəndlər inzibati rayonun üzüm bağları, meyvə, dənli bitkilər və pambıq əkilən sahələrinin ətrafında mövcuddur.

İnzibati rayonun dağətəyi ərazilərində salınmış məntəqələr müxtəlif tipli və tərkibli olması ilə fərqlənir. Bunlar dəniz səviyyəsindən 100-500 metrdən hündürlükdə yerləşir. Bu baxımdan Ağdamın kənd məntəqələrinin 5-6-sı 500m-yüksəklikdə meşə və kolluqlar arasında salınmışdır. Tədqiqat zamanı müəyyən etdik ki, inzibati rayonun kəndlərinin tipoloji, morfoloji və genetikası aşağıdakı elementlərdən formalaşmışdır: 1.Kəndlərin əraziyə görə yerləşmə amplitudası; 2.Kəndlərin planlı quruluşu; 3.Kəndlərin genetikasının xüsusiyyətləri; 4.Kəndlərin əhali tutumu; 5.Kəndlərin təsərrüfat funksionallığı; 6.Kənd binalarının tikintisinin müxtəlifliyi.

Beləliklə, qeyd olunan amillərin hamısı birmənalı olaraq bu və ya digər formada məntəqələrin ərazidə formalaşmasında iştirak edirlər. Bunları nəzərə alıb deyə bilərik ki, Ağdamın kəndlərini (morfoloji və genetik baxımdan) üç qrupa bölmək olar 1.XVIII əsrin əvvəlindən XX əsrin başlanğıcına, yəni kapitalizmin son dövrünə qədərki illərdə salınmış maldarlıq, arıçılıq, meşəçilik tipli kəndlər; 2.Sovet dövründə salınmış qoyunçuluq, atçılıq və əkinçilik tipli kəndlər; 3.Birinci Qarabağ müharibəsindən sonra erməni işğalçıları tərəfindən zəbt edilmiş 80 kənd və ya ümumi kəndlərin 70%-ni təşkil edən




**Şək. 1. Ağdam rayonunun kəndlərinin tipoloji, morfoloji və genetik quruluşu (2019-ilin məlumatları əsasında)**




**Şək. 2. Ağdam rayonunun kəndlərinin tipoloji, morfoloji və genetik quruluşu (2019-ilin məlumatları əsasında)**

kəndlər hazırda azad edilmiş məntəqələrdə müasir tipli ağıllı kəndlərin salınması işlərinə start verilmişdir. Bu tip kəndlər qəsəbə tipinə daha yaxın olacaq. Bu tip kəndlərdə əhalinin məşğuliyyəti əsasən kənd təsərrüfatı və nisbətən sənaye yönümlü emaledici sahələr olacaqdır.

Yuxarıda adı çəkilən rayonların məntəqələrlə sosial-mədəni və iqtisadi əlaqələrin normal səviyyədə həyata keçirmək istiqamətində, yeni müasir tipli yol-nəqliyyat infrastrukturunun inşasına artıq 2 ildir start verilmişdir. Bölgüyə əsasən birinci qrup kəndlər özünün çox primitiv məhəlli planlı olması ilə, ikinci qrup kəndlər nisbətən relyefdən asılı olaraq müəyyən sistemli olması, üçüncü qrup kənd və qəsəbələr isə beynəlxalq səviyyədə kənd-şəhər salma planı üzrə həyata keçiriləcəkdir.

Planlaşmaya əsasən yeni məskunlaşma və bərpa işləri ilə yanaşı 2023-cü ildən etibarən inzibati rayonun ermənilər tərəfindən dağıdılmış, xarabazara çevrilmiş məntəqələrin yerində yeni tipli müasirliyə cavab verən. 3-5 məntəqələrin birləşməsi nəticəsində ağıllı kənd və qəsəbələr salınacaqdır. Əhalinin sağlam yaşaması və işləməsi üçün dövlətimiz tərəfindən böyük quruculuq və yaradıcılıq planları həyata keçirilir. Eyni zamanda, yeni atçılıq kompleksinin və məşhur çörək muzeyin bərpası həyata keçiriləcəkdir. Nəticədə qeyd etmək olar ki, Qarabağ regionunun Ağdam inzibati rayonu tərkibində olan 117 məntəqənin (1989) 80-ni və ya 70%-i hipsometrik hündürlüyü 500 m olan ərazilərdə, 37 məntəqəsi isə 500-800 m hündürlükdə yerləşir. Bu məskunlaşma forması onu sübut edir ki, bu tip kəndlər ərazinin əkinə yararlı torpaq sahələrində, əsasən hamar, düzən, su ilə yaxşı təmin olunan sahələrdə və nisbətən meşələrin talalarında salınmışdır. Bu ərazidə salınmış kəndlərin 70-75%-i perspektivlidir (Şək. 1). İnzibati rayonun 500 m-dən yuxarı və meşəlik hissəsinin ərazilərindəki məntəqələr isə planı müasirliyə cavab verməyən məntəqələrdir (Şək. 2). Yeni plana uyğun beynəlxalq səviyyəyə cavab verən 70 məntəqə salınacaq və keçmişdə olan məntəqələrin 40-45%-i perspektivli və iri kəndlər ətrafında birləşdiriləcəkdir.



**Nərminə HÜSEYNOVA**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun "Türk xalqlarının etnoqrafiyası" şöbəsinin böyük laborantı*

# Şuşa - Vesprem qardaşlaşmış şəhərlər

**Dünya şəhərləri arasında qardaşlaşmanın tarixi 1957-ci ildən başlayır. Həmin il Fransada Ümumdünya Qardaşlaşmış Şəhərlər Federasiyası yaradılmışdır.**

Şəhərlər arasında qardaşlaşma əsasən mədəni, iqtisadi, siyasi, təhsil, səhiyyə, ətraf aləmin mühafizəsi sahəsində əlaqələrin möhkəmləndirilməsi və inkişafı ilə müşayiət olunur. İndiyədək Ümumdünya Qardaşlaşmış Şəhərlər Federasiyasına 4000-dən artıq şəhər üzv olmuşdur. Onlar arasında Azərbaycanı təmsil edən şəhərlər də var. Bu şəhərlərdən biri də Şuşa şəhəridir.

2023-cü il yanvarın 30-da Prezident İlham Əliyevin Macarıstana səfəri zamanı Azərbaycanın Şuşa şəhəri və Macarıstanın Vesprem şəhəri arasında dostluq əlaqələrinin təsis edilməsi və mədəniyyət, turizm, şəhərsalma, elm, iqtisadiyyat və ictimai həyatın digər sahələrində əməkdaşlığa dair memorandum imzalanmışdır. Sənədi Azərbaycan Prezidentinin Şuşa rayonundakı xüsusi nümayəndəsi Aydın Kərimov və Vesprem şəhərinin meri Gyulya Porqa imzalamışlar.

Vesprem Macarıstanın ən qədim şəhərlərindən biri olub, keçmiş dövrlərin unikal atmosferini bu günə qədər qoruyub saxlamışdır. Tamamilə sıx meşə ilə örtülmüş Mərkəzi Dunay bölgəsinin zərif təpələri arasında, Şed çayının sahilində yerləşir. Qədim Vespremin bir neçə poetik ləqəbi var. Birincisi, "Küləklər şəhəri". Ona görə ki, şəhər hava kütlələrinin daim hərəkət etdiyi yüksəklikdə yerləşir. Vespremin digər adı "zənglər şəhəri"dir. Deyirlər ki, burada zəng səsi yalnız küləklər səngiyəndə aydın eşidilir.

Bu şəhər Macarıstanda xristianlığın yayılması ilə tanınan əfsanəvi Kral I Stefan tərəfindən təsis edilmişdir. I Stefan və onun həyat yoldaşı Kraliça Gisella burada ölkənin ilk yepiskopluğunu qurmuşdular. O vaxtdan bəri ona macar kraliçalarını taclandırmaq imtiyazı verilmişdir. Şəhərin başqa bir ləqəbi də var ki, bu da "Kraliçalar şəhəri"dir. Bu adı şəhərə ona görə veriblər ki, tamamilə bütün Macarıstan krallarının xanımlarını Vesprem yepiskoplar tərəfindən taclandırılırdı.

Vespremin tarixi erkən orta əsrlərdə tikilmiş "Krepostnoy xolm"- Qala təpəsi adlanan qala ilə başlayıb. Qədim "Qala təpəsi"nin ən yüksək nöqtəsində həmişə külək vıyıldayır, sanki uzaq zamanlar haqqında həyəcanlı hekayələr pıçıldayır. Təəssüf ki, 1706-cı ildə qala divarları Avstriya əsgərləri tərəfindən dağıdılmışdır və tikili dövrümüzə qədər gəlib çatmayıb. Lakin onun xatirəsi ən hündür şəhər təpəsinin adında qalıb.

Vesprem, orta əsrlərdən üzü bu yana çoxlu sayda maraqlı tarixi tikililərlə zəngindir. Bunların ən məşhurları Qala təpəsində - (Krepostnoy xolmda) yerləşir. Buraya gedən yol "Rakoçi utka" boyunca uzanır. Bu küçənin bir tərəfində ar-nuvo (Art Nouveau) üslubunda evlər ucalır.




Şuşa qalası



Qəhrəmanlar Darvazası

Arnuvo - memarlıq, dekorativ sənət, rəssamlıq və heykəltəraşlıqda bir üslubdur; XIX əsrin sonu və XX əsrin əvvəllərində Avropa və Amerika incəsənətində bəlkə də sonuncu vahid bədii üslubdur. Onların qəşəng cizgiləri və fasadlarındakı zərif bəzəkləri, köhnə tikililərin uclu nağıl kimi detalları ilə ziddiyyət təşkil edir. Qarşı tərəfdəki evlər Barokko və Rokoko üslubunun gözəl nümunələridir. Küçənin ən sonunda Ovaros ter meydanında bələdiyyə binası yerləşir. Bu bina XIX əsrin sonunda romantik üslubda tikilmiş şəhərin ən gözəl görməli yerlərindən biri hesab olunur.

Qala təpəsinin zirvəsinə gedən yolda daha bir maraqlı tikili olan Vespremin simvollarından biri olan "Yanğın qülləsi" yerləşir. Dərhal diqqəti çəkən ilk şey, bu binanın mayakları xatırladan qeyri-adi memarlıq görünüşüdür. 1810-cu ildə şəhərdə baş verən zəlzələ nəticəsində qüllə ciddi ziyan görmüşdür. Şəhər rəhbərliyi onun sökülməsi barədə əmr vermişdir. Lakin bu qərar, Vesprem sakinlərinin etirazına səbəb olmuşdur. Buna görə də yenidən yanğın qülləsinə çevrilməsinə qərar verilmişdir. Qüllənin yuxarı hissəsində şəhərə və Bakoni dağ silsiləsinin zirvələrinə gözəl mənzərə açılan kiçik bir müşahidə göyərtəsi var.

Qala təpəsinə giriş, "Qəhrəmanlar darvazası"ndan keçir. Bu darvaza günümüzə qədər gəlib çatmayan orta əsr darvazasının yerində tikilmişdir. Qəhrəmanlar Qapısı öz adını Birinci Dünya müharibəsi zamanı həlak olmuş şəhər əhalisinin şərəfinə almışdır. Qala təpəsinin memarlıq ansamblı daş içində donmuş Macarıstan dövlətinin tarixidir. Burada hər şey əsrlər əvvəl olduğu kimi qorunub saxlanılmışdır. Qala təpəsinin qayalı silsiləsi boyunca səliqəli sıra ilə uzanan zəngin şəhərlilərin evləri hələ də keçmiş sahiblərinin sirlərini saxlayır.

Qala təpəsinin ən gözəl binası - Müqəddəs Mixail Katedralı yerləşir. Bu, şəhərdə tikilən ilk katedraldı və 1001-ci ildə Roman üslubunda tikilmişdir. Sonrakı əsrlər ərzində bina bir neçə dəfə yenidən qurulmuş, bunun nəticəsində müxtəlif memarlıq üslublarının görünüş xüsusiyyətlərini özündə birləşdirmişdir. Məhz Müqəddəs Mixail Katedralında macar kraliçalarının tacqoyma mərasimləri keçirilirdi. Bunu məbədin zəngin bəzəyi - möhtəşəm tağlı tavanlar, parlaq vitrajlar, divarlardakı incə işlərin mürəkkəb naxışları və s. sübut edir. O cümlədən 1916-cı ildə kral I Karlın xanımı Macarıstanın sonuncu kraliçası Burbon-Parmalı Zitanın da tacqoyma mərasimi burada keçirilmişdir. Katedral 1910-cu ildə yenidən qurulduqdan sonra indiki görünüşünü almışdır. Orijinal katedraldan yalnız məbəd və qurbangah qalmışdır.

Müqəddəs Mixail Katedralı ilə üzbəüz Kraliça Gisellanın Yeparxiya Muzeyi yerləşir, burada 15-20-ci əsrlərdə Vesprem yepiskopluğunun



Yanğın qülləsi

kilsə dəyərləri: heykəllər, sikkələr, tekstil məmulatları, rəsmlər vardır. Arxiyepiskopun xəzinəsi də burada yerləşir.

Şimal tərəfdə katedrala bitişik Macarıstanın ən qədim dini tikililərindən biri sayılan Müqəddəs Dyorji kapellası yerləşir. Rəvayətə görə, Kral Stefanın oğlu I İmren bu kilsədə subaylıq andı içib. Bu hadisəyə bir əlində qılınc, o biri əlində zanbaq, ilanı tapdalayan süvari təsvir edən, xeyirin şər və pislik üzərində qələbəsini təcəssüm edən heykəl həsr olunub.

Qala təpəsinin ən hündür nöqtəsində, uçurumunun üstündə Vesprem şəhərinin başqa bir simvolu ucalır. Bu, Kral I Stiven və Kraliça Gisellanın sakit əzəmətində əbədi olaraq donmuş nəhəng heykəlləridir. Abidə 1938-ci ildə ucaldılıb.

Şəhərin bu hissəsindəki digər tikililər arasında Yepiskop sarayının barokko uslublu binası xüsusilə seçilir. Onun alınlığı yepiskop gerbi ilə bəzədilib: qanadlı mələklər nəhəng bir vazadan asılmış çələngləri dəstəkləyirlər.

Yepiskop Sarayının yaxınlığında Gisella Kapellası yerləşir. Bu, Arpad sülaləsi dövründə tikilmiş çox qədim tikilidir. Kapellada kraliça Gisella tərəfindən tikilmiş əfsanəyə görə, Macarıstandakı ən qədim yepiskop kilsəsinin kilsə sənəti sərgisini, ziyarətgahını və aşağı kilsəsini görmək olar. Abidənin yanındakı müşahidə qülləsindən şəhərin yerləşdiyi Var vadisinin valehedici mənzərəsi açılır. Uzaqdan açıq işlənmiş Müqəddəs Stefan körpüsünü, Benedik təpəsinin ağ massivini və qaranlıq Bakoni dağlarını görmək olur.

Vesprem musiqi festivalları ilə məşhurdur. Burada hər il klassik və xor musiqisindən tutmuş caz və küçə musiqisinə qədər maraqlı festivallar keçirilir. Vespremdə məşhur akademik, musiqiçi skripkaçı Leopold Auer tərəfindən ilk skripka məktəbi yaradılmışdır. Leopold Auerin adına hər il Rusiyada beynəlxalq gənc skripkaçıların festivalı da keçirilir. Vesperm 2019-cu ildə UNESKO-nun "Musiqi şəhəri" adına layiq görülmüş, 2023-cü ildə isə "Avropanın mədəniyyət paytaxtı" elan edilmişdir.

Şuşanı da Azərbaycan musiqisinin məbədi, "Qafqazın konservatoriyası" adlandırırlar. Şuşa qədim zamanlardan bütün Zaqafqaziyada xalq musiqi istedadlarının tükənməz bulağı kimi məşhur olmuşdur. Qarabağın incisi olan Şuşa, "Xarı Bülbül" musiqi festivalı ilə yanaşı, Üzeyir Hacıbəyov beynəlxalq musiqi festivalına da ev sahibliyi etmişdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın musiqi mədəniyyətinin, muğamın inkişafında misilsiz xidmətlərinin nəticəsində Azərbaycan muğamı UNESCO-nun "Xüsusi mühafizə edilən irs" siyahısına salınmış, "Şuşa UNESCO-nun musiqi şəhəri" nominasiyasına görülmüşdür.

2023-cü il - Şuşa şəhəri "Türk dünyasının mədəniyyət paytaxtı", Macarıstanın Vesprem şəhəri isə "Avropanın mədəniyyət paytaxtı" elan edilmişdir. Vesprem əzəmət və gözəlliyin birləşdiyi və hər daşın bir çox heyrətamiz hekayələri ehtiva etdiyi bir yerdir.

Bu gün erməni işğalından azad edilmiş gözəl Şuşada nadir tarix və mədəniyyət abidələrinin bərpası aparılır.



**Sübhan TALIBLI**
*AMEA Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi,*
*Quba "Soyqırımı Memorial Kompleksi"nin mütəxəssisi,*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

# Meşəli soyqırımı

**Çar Rusiyası və bir sıra dövlətlərin hərtərəfli dəstəyi ilə tarixi Azərbaycan torpaqlarında xristianlaşma siyasətinə uyğun olaraq məskunlaşdırılan ermənilər ərazilərimizdə zaman-zaman təcavüz, soyğunçuluq, qarət, etnik təmizləmə və soyqırımı həyata keçirib, xarici ölkələrin siyasətinə uyğun fəaliyyət göstəriblər. 1918-ci ildə regional və beynəlxalq güclərin hərtərəfli dəstəyi ilə tarixi Azərbaycan torpaqlarında yaratdıqları "Ermənistan" onların himayəsi ilə 1905-1907, 1918, 1920, 1948-1953, 1988-ci illərdə, eləcə də I Qarabağ müharibəsi dövründə türk-müsəlman xalqlarına qarşı deportasiya, soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirmişlər.**

Təcavüzkar Ermənistanın silahlı qüvvələri, hərbi birləşmələri və onları xaricdən dəstəkləyən qüvvələr tərəfindən Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd (20.11.1991-ci il tarixdə Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında erməni hərbi dəstələri tərəfindən Azərbaycana məxsus Mİ-8 hərbi helikopterin vurulması), Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Başgüneypəyə, Qaradağlı, Başlıbel kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilmişdir.

Azərbaycan Respublikası Baş Prokrorluğunun məlumatına əsasən, Ermənistan silahlı qüvvələri və hərbi birləşmələri tərəfindən 1988-94-cü illərdə azərbaycanlı mülki əhali hədəf alınmaqla törədilən 38 terror hücumu zamanı 10 sərnişin avtobusu, 11 minik avtomobili, 1 minik avtomobil karvanı, 2 yük avtomobili, 6 sərnişin qatarı, 2 metro qatarı, 2 helikopter, 1 təyyarə və 1 dəniz bərəsində törədilən partlayışlarda 1105 nəfər həlak olub, 1180-dən çox adam yaralanıb.

23 dekabr 1991-ci ildə Azərbaycan Respublikasının Xocalı rayonunun Meşəli kəndində törədilən Meşəli soyqırımında - 25 nəfər öldürülüb, 14 nəfər öldürülməyə cəhd edilib, 2 nəfər girov götürülüb, 41 yaşayış evi və digər tikili yandırılıb, 358 nəfər kənd sakini daimi yaşayış yerini tərk etməyə məcbur olub. Xocalı rayonun Meşəli kəndin 430 nəfər sakinləri Goranboy rayonunun eyniadlı qəsəbəsində məskunlaşıblar. Qətliam nəticəsində Meşəli kəndinə 5,496,900 manat məbləğində maddi ziyan dəymişdir.

Meşəli faciəsi Azərbaycan Respublikasının prokurorluq orqanları tərəfindən araşdırılıb, AR Cinayət Məcəlləsinin müxtəlif maddələri



ilə cinayət işləri başlanılıb, sübutlar toplanılıb, cinayət törətmiş şəxslərin bir qismi müəyyən edilməklə məhkəmə məsuliyyətinə verilib, barələrində ədalətli məhkəmə hökmləri çıxarılıb. Hadisələri törətmiş 9 nəfər silahlı şəxs barəsində təqsirləndirilən şəxs qismində cəlb edilmə haqqında, habelə qiyabi həbs qətimkan tədbirinin seçilməsi barədə qərar qəbul edilib.

Meşəlidə baş verən hadisələr zamanı kəndin müdafiəsində iştirak etmiş, keçmiş polis əməkdaşı, kənd sakini Ziyəddin Salmanov deyir ki, gözü önündə ermənilər əliyalın kənd sakinlərinə aman vermədən qətlə yetiriblər. "Mənim o vaxt polis iş yoldaşlarım Allahverdi və İsmayılı da vəhşicəsinə qətlə yetirmişdilər. Bu işlərin başında duranlardan biri də Vaqif Xaçaturyan idi. Qohumlarını başına yığıb silahlı dəstə yaratmışdı. Mən polis nəfəri kimi özünümüdafiə dəstəsində döyüşlərdə iştirak etmişəm. Yadımdadır ki, səs ucaldıcı mikrofonla Xaçaturyan Azərbaycan dilində "kəndi mühasirəyə almışıq, təslim olun" deyə qışqırdı. Qənimət dayı var idi onun başına təxminən avtomatın bir daraq gülləsini boşaltmışdılar. Bir dəfə Badara kəndində Xaçaturyan bizi "Niva" markalı avtomobilində yandırmaq istəyirdi..."

Xocalı rayon Meşəli kəndində ermənilər təkcə Novruzovlar ailəsinin 5 üzvünü işgəncə verərək öldürüb. Novruz Novruzov, onun həyat yoldaşı Adilə Novruzova və bir oğul iki qız övladı bir gecədə məhv edilib. Ailənin böyük övladı Zəminə Əliyeva həmin dəhşətli hadisə zamanı qardaşının, digər ailə üzvlərinin başına gətirlənlərdən danışaraq deyir ki, "Ermənilər ailə üzvlərimi öldürəndən sonra meyitlərə işgəncə verərək, yandırmışdılar. Bacımın birini ürəyindən vursalar da, ayağında 78 güllə yeri var idi. Hamısına işgəncə vermişdilər. Evimizi, zəhmətlə qurduğumuz təsərrüfatımızı tamamilə yandırmışdlar. Mən də təsadüfən sağ qalmışam. Onların məqsədi hamını qətlə yetirmək idi".

Meşəli soyqırımı ilə bağlı beynəlxalq axtarışda olan 29 iyul 2023-cü ildə Laçın sərhəd-keçid məntəqəsində saxlanılan Ermənistan vətəndaşı XaçaturyanVaqif Çerkezoviçin cinayət və terror əməllərinə gəldikdə isə, Birinci Qarabağ müharibəsindəki cinayətlərini əks etdirən çoxlu sayda fotofaktlar, yazılar, əsirlərin müsahibələri, V.Xaçaturyanın cinayət əməlləri ilə bağlı şahidlərin, zərərçəkənlərin verdikləri ifadələr də onun azərbaycanlılara qarşı qeyri-insani davranışını, vəhşi və qorxunc cinayətlərini sübutu haqda əsaslı, qanuni və faktlara söykənən məlumatlar mövcuddur. Belə ki, Vaqif Xaçaturyan 1991-ci il dekabrın 22-də Xocalı rayonunun Meşəli kəndində 25 nəfər azərbaycanlının öldürülməsi, 14-nün yaralanması, 358-nin isə didərgin salınmasında iştirakçısı olduğu qeyd olunur.

Bu səbəbdən V.Xaçaturyanın törətdiyi soyqırımı və əhalini deportasiya etmə və ya məcburi köçürmə cinayətləri haqqında Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı-hər hansı milli, etnik, irqi və ya

dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma) və 107-ci (Əhalini deportasiya etmə və ya məcburi köçürmə-əhalini qanuni yerləşdiyi yerlərdən başqa ölkəyə qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma) maddələri ilə, milli, etnik və dini zəmində törətdiyi əməlləri 1948-ci il 9 dekabr tarixli "Soyqırımın qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın, 1948-ci il 10 dekabr tarixli "İnsan hüquqları haqqında" Ümumi Bəyannamənin və 1966-cı il 10 dekabr tarixli qəbul olunmuş "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın da pozulması ilə cinayət işi açılıb.

12 noyabr 2013-cü il tarixdə Xaçaturyan Vaqif Çerkezoviç barəsində Cinayət Məcəlləsinin 103 və 107-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilməsinə dair qərar qəbul edilib, 14 noyabr 2013-cü il tarixdə Bakı şəhəri Nərimanov rayon məhkəməsinin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib və 21 noyabr 2013-cü il tarixdə axtarışı elan edilərək müvafiq sənədlər Daxili İşlər Nazirliyinin Baş Cinayət Axtarışı İdarəsinə və İnterpolun Azərbaycandakı Milli Mərkəzi Bürosuna göndərilib. 22 sentyabr 2023-cü ildə təqsirləndirilən şəxs V.Xaçaturyana Cinayət Məcəlləsinin müvafiq maddələri ilə yenidən ittiham elan edilib və sentyabrın 29-da isə cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib. İş üzrə zərərçəkmiş kimi 58 vətəndaş və Xocalı Rayon İcra Hakimiyyəti tanınıb. Bakı Hərbi Məhkəməsinin hökmü ilə V.Xaçaturyan 15 il müddətinə azadlıqdan məhrum edilib. O, cəzasının ilk 5 ilini həbsxanada, qalanını isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidir.

Qeyd edək ki, azərbaycanlılara qarşı törətdiyi cinayət əməllərinə və əhali içində təşviş yaratdığı üçün 1991-ci il iyunun 15-də Şuşa



polisi tərəfindən həbs edilib. Lakin həbsdə olduğunun 30-cu günündə Vaqif Xaçaturyan özünə xəsarət yetirib. Belə ki, o, dişi ilə öz damarını deşib və təcili olaraq Xankəndidə yerləşən xəstəxanaya aparılıb. Orada erməni milliyyətindən olan həkim və tibb işçilərinin köməyi ilə qaçmağı bacarıb.

Təcavüzkar Ermənistan hərbi-siyasi rəhbərliyi, silahlı qüvvələri və qanunsuz hərbi birləşmələri tarixi Azərbaycan torpaqlarında türk mili-mənəvi dəyərinə, tarixi abidələrə, mülki əhaliyə qarşı beynəlxalq səviyyədə təsbit olunmuş, xüsusilə də beynəlxalq humanitar hüquqda mülki şəxslərə zəruri olan müdafiə və humanist rəftarın edilməsi və müharibə qurbanlarının müdafiəsinə dair "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" 12 avqust 1949-cu ildə Cenevrə Konvensiyası (11 Qətnamədən ibarət 1949-cu il tarixli Cenevrə Diplomatik Konfrasının qətnamələri, 14 maddədən ibarət Tibbi yardım və təhlükəsizlik zonaları və əraziləri haqqında Saziş layihəsi (I Əlavə), 8 maddədən ibarət Kollektiv yardıma aid qaydalar layihəsi (II Əlavə), 12 avqust 1949-cu il Cenevrə Konvensiyası və onlara əlavə Protoklollar (I Əlavə. Əlavə Tibbi yardım zonaları və yerləri haqqında Saziş layihəsi) və 1977-ci ildə qəbul eidlən I və II Əlavə Protokollar, Hərbi əsirlər və rəftara dair 1949-cu il 12 avqust tarixli Cenevrə Kon-

vensiyası (I Əlavə. Yaralı və Xəstə hərbi əsrilərin birbaşa Vətənə qaytarılması və neytral ölkələrdə yerləşdirilməsi haqqında nümunəvi Saziş (110-cu maddə), II Əlavə. Qarışıq tibbi komissiyalar haqqında Əsasnamə (112-ci maddə), III Əlavə. Kollektiv yardıma aid qaydalar (73-cü maddə), 14 may 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması haqqında" Konvensiya və əlavə protokollar, "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının, BMT Baş Assambleyasının 1962-ci il 14 dekabr tarixli, 1803 (XVII) saylı bəyannaməsi və s. sənədlər qəbul edilib ki, saylı bəyannaməsinin tələblərinə zidd hərəkətlər ediblər.

Rəsmi məlimatlara əsasən, Ermənistan Azərbaycana hərbi təcüvüzü nəticəsində 1988-1994-cü illərdə 3890 nəfər itkin düşüb ki, onlardan 3171 nəfəri hərbçi, 719 nəfəri isə mülki şəxs olub.İtkin düşənlərin 872-sinin əsir-girov götürülməsi barədə məlumatlar mövcuddur. Əsir və girovluqdan azad edilmiş 1480 nəfər şəxsdən 378-i hərbi qulluqçu, 1102-si mülki şəxs olub. Mülki şəxslərdən isə 224-ü uşaq, 357-si qadın, 225-i qoca olub. Əsir və girovluqda ölmüş 552 nəfərdən 447-si kişi, 105-i qadın olub.17 fevral 2021-ci il tarixdə Şuşa rayonunun Daşaltı kəndi ərazisində aşkar edilmiş kütləvi məzarlıqdan 7 nəfərə məxsus meyit qalıqları, 28-29 mart 2022-ci il tarixdə Xocalı rayonunun Fərrux kəndi ərazisində aşkar edilən meyit qalıqları, 23-26.02.2022-ci il tarixlərində Xocavənd rayonunun Edilli kəndi ərazisində aşkar edilmiş kütləvi məzarlıqdan 7 nəfər şəxsə aid (biri qadın olmaqla) insan meyit qalıqları, 15-29 sentyabr 2022-ci il tarixlərində Xocavənd rayonunun Edilli kəndi ərazisində baxış zamanı aşkar edilmiş kütləvi məzarlıqdan 18 nəfər şəxsə aid insan meyit qalıqları çıxarılaraq götürülüb.

XX əsrdə ermənilər və onları dəstəkləyən qüvvələr tərəfindən Azərbaycan xalqına qarşı 1905, 1918, 1920, 1948-1953, 1988, eləcə də I Qarabağ müharibəsi dövründə törədilmiş bütün etnik təmizləmə və soyqırımlar, köçürülmə siyasəti Xocalı faciəsi kimi hadisələrin baş verməsinə, fakt, sənəd, elmi ədəbiyyat və s. olmalarına baxmayaraq, bugünə kimi bir sıra beynəlxalq təşkilatlar məsələyə ikili standartlardan və öz maraqları baxımından yanaşırlar. Fakt, sənəd, beynəlxalq hüquq, haqq Azərbaycanın tərəfində olsa da təəssüf ki, xarici qüvvələr zaman-zaman erməni kartından, erməni faktorundan Azərbaycan və Türkiyəyə qarşı istifadə etmişlər. Bu siyasət bu gün də davam etməkdədir.

Ermənistana tarixi Azərbaycan torpaqlarından yerləşdiyi gündən bugünə kimi, bütün köçürülmə, deportasiya, soyqırımı, işğalçılıq, silahlanma, təbliğat, informasiya, maliyyə və s. dəstəklər həmişə olmuşdur. I Qarabağ müharibəsi ilə bağlı istər yerli, istərsə də xarici KİV, elmi ədəbiyyat, Ermənistan ordusunun silahlanması və s. faktlara baxdıqca Ermənistana beynəlxalq və regional güclərin hərtərəfli dəstəyinin olduğu açıq-aydın görünür. Çünki heç bir zaman Ermənistan ordusu Azərbaycan üzərində qələbə qazana bilməzdi. Təbii ki, heç kimə sirr deyil ki, Ermənistan Qarabağ məsələsində SSRİ rəhbərliyi və Rusiya Federasıyanın hərtəfərli dəstəyi hər kəsə məlumdur. Bunun ən bariz nümanəsi kimi, Xocalı soyqırmı və Qaradağlı soyqırımı zamanı Rusiyanın 366-cı alayının dəstəyi də yerli və dünya ictimaiyyətinə də bəllidir.

Beləliklə, hər bir azərbaycanlı tutduğu məqamdan, olduğu məkandan asılı olmayaraq, Azərbaycanın həqiqət və faciələrini dünya ictimaliyyətinə çatdırılması istiqamətində həmişə fəal olmalı, onu daim beynəlxalq hüquqa, sənəd, fakt, mənbələrə istinad edərək təbliğ etməlidir.



**Mehman QARAXANOĞLU,**
*AMEA Lənkəran Regional Elmi Mərkəzinin direktoru,*
*filologiya üzrə fəlsəfə doktoru*

# Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsərində 31 Mart soyqırımı fəryadlarının əks-sədası

**Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsəri ilə tanışlıqdan sonra oxucunun şüurunda son illər dövriyyəni zəbt edən məlum postulat assosiasiya olunur: Tarix təkrarlanır. Biz isə bu fikirdəyik ki, tarix heç bir zaman təkrarlanmır, sadəcə, onun dərslərindən ibrət götürməyəndə o da ayrı-ayrılıqda fərdləri, hətta bütövlükdə xalqları da cəzalandıra bilir və nəticə etibari ilə belə bir qənaət hasil olur ki, biz də tez-tez təkrarlanan cəzalar səltənətindəyik. Bəs nə zaman oranı tərk edəcəyik? Sualın cavabını dahi Cəlil Məmmədquluzadənin "Tarix" felyetonundan (qənaətimizə görə, essesindən - M.Q) almaq olar: "İnsan üçün böyük dərslərdən biri də tarixdir. Aç qabağına tarixin səhifələrini və əgər gördün ki, bir vaxt insanlar bir para işlərdə səhv eləyiblər, - dəxi sən həmin səhvi eləmə". Dahi Mirzə Cəlilin digər bir essesindən - "Yol"dan çıxan ideya da budur ki, tarixin müdrik dərslərindən nəticə çıxarmayıb eyni yolu təkrar-təkrar gedən adam sonda gəlib çıxar qamışlığa və orada da qəddar qabanlara rast gələr.**

Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsəri ilk dəfə 1911-ci ildə Bakı milyonçusu Murtuza Muxtarovun ianəsi ilə çap olunmuşdur. Əsər ikinci dəfə nə az nə çox, düz 96 il sonra "Qanlı illər" adı ilə 2007-ci ildə Bakıda "Qafqaz" nəşriyyatında nəşr olunub. Kitaba önsöz yazan Əkrəm Bağırov haqlı olaraq qeyd edir: "Etiraf etməli və acınacaqlı bir haldır ki, biz yetmiş il ərzində bu və bu tipli əsərləri nəşr etməkdən çəkinmişik. Qorxmuşuq ki, bizim "Sovetlər birliyimizin" möhkəmliyinə xələl gətirə bilər. Çəkinmişik ki, bizim qonşularla olan dostluğumuzu poza bilər. Öz tarixi keçmişimizi - həqiqəti öz xalqımızdan gizlətməyə çalışmışıq".

Əsərin janr təyinatı bugünəcən dəqiqləşdirilməyib. Onu roman adlandıranlar da vardır. Zənnimizcə, əsəri tarixi, sənədli-informatik povest adlandırmaq daha doğru olar. Çünki gənc Məmməd Səid bədii əsər yazmaqdan daha çox yaşadığı epoxada baş verən qanı hadisələri real məktub-sənədlərə istinad edərək bir tarixçi kimi təhlil etmək istəyir, baş verənlərin kökünü araşdırır və ortaya tədqiqat xarakterli bir əsər qoyur. Müəllifin əsərin adı altında qeydi də fikrimizi sübut edir: "1905-1906-cı illərdə "Qafqazda baş verən erməni-müsəlman davasının tarixi fikrimizcə, əsərin emosional bir tərzdə qələmə alınması onun bədii əsər olması faktını şərtləndirir. Müəllif yazır: "Bu ol-



muş tarixi vücuda gətirmək üzrə qələmi əlimə aldığım zaman özümdə bir kədər, bir müsibət xatirələri hiss edirəm. Əcəba! Əlimdəki qələm hər zaman qanlı illərdə qəflətən baş verən faciələri yazmaq istəyir, vicdanım da bu ülvi vəzifəni ifa etməkdə qeyri-iradi bir həvəs göstərir". "Məqsədin ərzi" fəslində Ordubadi əsərin yazılma səbəbini göstərməklə hadisələrə qərəzsiz yanaşıb həm erməni, həm də müsəlman heysiyyətinə toxunmayacağını, "İrşad" və "Tazə həyat" qəzetlərində çap olunması üçün müxbirlər vasitəsilə ona çatdırılmış 245 məktubu tərəfsiz saf-çürük etdiyini diqqətə çatdırır: "Bunu da bütün Qafqaz millətləri bilməlidir: mənim bu əsəri yazmaqda məqsədim millətimizi məsuliyyətdən qurtarmaq, insanpərvər kimi tanıtmaq, həmçinin erməni qonşuları məsul tutmaq, vəhşi və insaniyyətdən uzaq bir varlıq kimi nişan vermək də deyil. Bəs nədir? Mənim məqsədim müsəlman və ermənilərin iki il ərzində törətdikləri səhv və xətalarını söyləməkdir..." Məmməd Səid Ordubadi açıq şəkildə bildirir ki, Rusiya, Qafqaz, Avropa və Amerika mətbuatı baş verən qanlı hadisəli düzgün təqdim etməyib çox ziddiyyətli fikirlər söyləmişdir.

Müəllifin gəldiyi qənaətlərdən 13 il sonra 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Lənkəran, Şamaxı, Quba, Xaçmaz, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə daşnak erməni silahlı dəstələri azərbaycanlıları kütləvi şəkildə vəhşicəsinə qətlə yetirmişlər. Tarixə 31 Mart soyqırımı kimi daxil olmuş qanlı hadisələr nəticəsində 12 minə yaxın azərbaycanlı amansızcasına öldürülmüş, on minlərlə insan itkin düşmüşdür. Ən dözülməz hal odur ki, hələ də mətbutımızda həmin qanlı hadisələri yalnız ermənilərin törətdiyi fikri tirajlanır. Sual olunur: Ermənilər haçandan müstəqil düşünüb qərar verə biliblər? Onlar tarixən icraçı qövm olmuş, böyük siyasi güclərin əlində alətə çevrilmiş və bu gün də belədir. Ötən əsrin əvvəllərində olduğu kimi, bugün də Rusiya Qafqaza şəxsi evi kimi baxaraq öz quduz şəxsi maraqlarını təmin etmək üçün "parçala, hökm sür!" siyasətini həyata keçirir. Hələ böyük Sabir "Beynəlmiləl" şeirində yazırdı ki, "iblisi-məlun nagah oldu aşikar." Həmin məlun iblis isə Rusiya idi.

Məmməd Səid Ordubadi iğtişaşların səbəbini axtarır və dörd səbəb üzərində xüsusi olaraq dayanır. O yazır: "1-ci səbəb erməni Daşnaksutyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdi-

yidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı... 2-ci səbəb məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. 3-cü səbəb və iğtişaşa gəldikdə, müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Dördüncü səbəbə gəldikdə ermənilərin avtonomiya - idarə muxtariyyəti həvəsində olmalarıdır." [səh: 8-10] İki və üçüncü səbəblərlə heç cür razılaşmaq olmaz. Müsəlmanların elmsizliyi və məhəlli hökumət məmurlarının müharibə dövründə etinasızlığı haqqında fikirlər haradasa gənc və ehtiyatlı Məmməd Səidin özünü tərəfsiz göstərəcəyi haqqında verdiyi vədlə bağlıdır. Yəni, iki səbəb bizdədirsə, ikisi də ermənilərdədir. Amma bir və dördüncü səbələr bütün zamanlar üçün aktualdır. Daşnaksutyun partiyasına kotəbii etiqat və avtonomiya xülyaları erməniləri əbədi olaraq məhvolmağa doğru sürükləyəcək. Göründüyü kimi, hələ XX əsrin əvvəllərində Məmməd Səid Ordubadi qanlı hadisələrin mahiyyətinə düzgün nüfuz edir və mövcud səbəbləri açıq-aydın göstərirdi.

Əsərin illərlə üzə çıxarılmamasının ictimai-siyasi və ideoloji səbəbləri məlumdur. Təbii ki, əsas səbəb "böyük" qardaşın total basqısından qorunmaq instinktinin önə keşməsi idi. Lakin heç bu səbəbin özü də zənnimizcə, əsas ola bilməz. Sovetlər dönəmində xalqlar dostluğunun təbliğinə həsr olunan yüzlərlə əsər əvəzinə tariximizin qanlı səhifələrini bir-bir açıb bizə göstərən "Qanlı sənələr" əsərinin zamanında yenidən nəşri və təbliği milli ideoloji fikrin aydınlanmasında daha çox fayda verər və daha böyük tarixi əhəmiyyət daşımış olardı. Amansız repressiya maşınının istənilən yeni düşüncənin üstündən keçəcəyini də bilirik. Amma bütün hallarda gizli və aşkar yenə nəsə etmək lazım idi. Bir başqa səbəb bizdəki kalonial təfəkkür ola bilər. İki yüz illik imperiya daxilində formalaşmış təfəkkürümüz hələ də qorxu və xofdan xilas olmamışdır. Əgər bədnam qonşularımızın yaxın və ya uzaq keçmişindən bəhs edən belə bir tarixi-informatik əsər yazılsaydı, onu nəyin bahasına olursa-olsun nəşr edib dünyaya çatdırar, hələ üstəlik ona yeni "qanlı" səhifələr də əlavə edərdilər. Biz isə çox işdə olduğu kimi bu məsələdə də lənglik nümayiş etdiririk. Heç bugün də əsərin araşdırılması və təbliği işi lazımi səviyyədə deyildir.

1905-1906-cı illərdə ermənilərin xalqımızın başına gətirdiyi miqyassız qətliamlar fonunda xalqımızın yenə də özünün insanlıq, mərhəmət və xeyirxahlıq duyğusunun itirmədiyi haqqında əsərdən oxuduqlarımız bizi çox həyəcanlandırır: "Müharibənin ən şiddətli getdiyi yerlərdən biri Malakan bağının ətrafı idi. Orada da bir çox erməni hifz edilmişdi. Ağadadaş Vəliyevin evində Arşak Durniyans adlı bir erməni iki nəfər gimnaziyada oxuyan çocuqları ilə hifz olunub yemək-içmək verilmişdir. Həmin erməni ailəsi öz qonşusu Hüseynqulu Mahmudov və Məşədi Hənifə Cəfərov tərəfindən mühafizə edilmişdi. Qeyd olunmalı hal burasıdır ki, həmən məhəllədə olan ərsiz, sahibsiz müsəlman övrətləri dəstələrin qarşısına çıxıb qonşu ermənilərin əmlak və canlarını hifzə çalışırmışlar. Arşak Durniyans bu barədə razılıq məktubu da yazmışdır. Məktubun tarixi 19 fevral 1905-ci ildir".

Aşağıdakı cümlələr isə erməni xislətini çox gözəl açır: "Küçələrdə o tərəf bu tərəfdə qan tökən ermənilər isə ələ keçən əlsiz-ayaqsız müsəlmanları qırıb-kəsməkdə idilər. Müsəlman övrətləri o tərəf, bu tərəfdə erməni qorxusundan titrəyib, çocuğunu unudurdu."

Ermənilərin öz sərsəm xülyalarından heç bir zaman əl çəkməyəcəyi haqqında Məmməd Səid Ordubadinin gəldiyi qənaətlər çox maraqlıdır. Söhbət heç də qonşu gürcü və azərbaycanlılara bu qəbilə təfəkkürlü xalqın torpaq iddiallarından getmir, sadəcə, bu qövmün mənəviyyatını alt-üst edən şəxsi eqolarından gedir; ermənilərdə belə bir xəstə düşüncə formalaşıb ki, onlar haraya düşürlərsə, oranın ağası olmalıdırlar. Başqa cür də ola bilməz! Məhz bu eqo onları saxta tarix, yalançı mədəni kimlik uydurmağa sövq edir. Otuz üç yaşlı Məmməd Səid də onlardakı bu mərəzi çox dəqiq hiss etmişdir. Müəllif yazır: "Zira, ermənilərin rəyincə, "bizim əlimizin üstündə Qafqazda gərək əl olmasın" - deyib hər tərəfə odlu silah və sair hərbi ləvazimat göndərməyə çalışırdılar..."

Qafqaqzda başqa bir qara əlin də olduğunu ermənilər bilməmiş deyillər. Bu, Rusiyanın qəddar

total əlidir. Rusiyanın həmişə ermənilərin yanında olması faktını Məmməd Səid Ordubadi də təsdiqləyir. O, çox dolaşıq hadisələri ustalıqla analiz edərək mövcud situasiyaya düzgün yanaşır və Rusiyanın ermənilərlə müştərək çəkildə bu soyqırımı törətməsi fikrini irəli sürür: "Müharibə vaxtı polis qulluqçusu naçalnik Angil qətlə mane olmayıb - "Tez vur, oğlum! tez ol, oğlum!" - deməklə könüllü cavanları (erməni cavanlarını - M,Q) cinayətə təşviq edirdi. Talan vaxtı - "Tez olunuz! Tez aparınız!" - deyib camaatı qızışdırırdı.

31 Mart 1918-ci il soyqırımı da 1905-1906-cı il erməni-müsəlman davası kimi tarixə düşmüş hadisələrin məntiqi davamıdır. Baxın, gənc Ordubadi necə ehtiyatla davranır: "Bu müharibədə ermənilərin şan-şöhrətinə ziyan vuran bir iş vardısa, o da müharibə vaxtında südəmər körpələri, qoca qarıları öldürmək idi."

Ermənilərin müharibə cinayətlərinin sakit bir ritorika ilə ört-basdır edilməsi özünüqoruma instiktinin saçmalarından başqa bir şeyin olmaması göz qabağındadır. Gənc Ordubadi maksimial bir həddə təmkinli davranmağa çalışır, amma dil onu ələ verir. Tarixən ermənilərə şan-şöhrət gətirə biləcək hərəkətlər mövcuddurmu? Bunu Ordubadi də çox gözəl bilirdi. Bilirdi ki, ermənilər yazılmış və yazılmamış bütün müharibə qanunlarını pozur, bütün humanitar dəyərləri alt-üst edir. Südəmər körpələri və qoca qarıları öldürən vəhşilərdən nə gözləmək olar? Lakin etiraf etməliyik ki, çox çətin bir tarixi şəraitdə gənc Ordubadi bunu dilə gətirirsə, ona minnətdar olmalıyıq. Məsələ orasındadır ki, biz onun yazdıqlarına məhəl qoymadan heç nə olmamış kimi 31 Mart soyqırımına doğru getməyə başladıq. Nəticədə ikinci ən böyük rus-daşnak birliklərinin soyırımına məruz qaldıq.

Biz hər şeydən əvvəl tarixi hadisələrə siyasi qiymət verərkən onların mahiyyətinə uyğun olaraq dəqiq sözlər, ifadələr və terminlər seçməliyik. Əvvala, 1905-1906-cı illədə baş verən total qətliama erməni-müsəlman davası demək doğru deyildir, bu, qətliamın bərabər paylaşması effektini yaradır və diqqət edirsinizsə, bu cür ifadə forması Rusiyanı avtomatik olaraq hadisələrin mərkəzindən tamamilə kənara tullayır. Yəni, Rusiyanın bu işdən xəbəri olmayıb. Eyni ritorika ilə 31 Mart 1918-ci il hadisələri haqqında söhbət açılarkən də rastlaşırıq. Diqqət edirsinizsə, 1918-ci il Şərqdə ilk demokratik Cümhuriyyətinin qurulmasına az bir müddət qalmış, demokratik düşüncənin tədricən hakim olduğu bir zamanda 31 Mart soyqırımının ermənilərin əli ilə Rusiya törətməklə xalqımızın ruhuna qorxu viruslarını yeridib onun milli qurtuluş əhvalını soyutmaq və istiqlaliyyət arzularını boğmaq istəyirdi. Məmməd Səid Ordubadinin reallığa söykənən təsvirlərində də bu həqiqət böyük ağrı və yanğı ilə diqqətə çatdırılır: "Zira, bu işlərin ümdə baniləri və başçıları polkovnik Krılov və naçalnik Angillər idi. Noyabrın 26-cı gecəsi müsəlmanlara böyük bir müsibət üz verib, hökumətin də hiyləsini hamıya bildirdi. Həmən gecəni Naxçıvanda müsibət gecəsi, odlu-alovlu gecə adlandırmışlar. Həqiqətən də, o gecə atəşli, ürəkdağlayan, yanğılı bir gecə idi. Həmən gecə saat yeddi radələrində böyük və dəhşətli sədalar eşidilirdi".

Yekun olaraq deməliyik ki, Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsəri erməni faşizminin antibəşəri mahiyyətini dəqiq tarixi faktlarla ortaya qoyan ilk tarixi əsər kimi çox qiymətlidir. Əsərin tarixi əhəmiyyətini şərtləndirən əlamətlərdən bir neçəsinə diqqət yetirək: 1. Erməni-müsəlman davası adı altında tarixə düşən 1905-1906-cı il qətliamı xalqımıza qarşı aparılan ilk böyük etnik təmizlənmənin başlanğıcı sayılmalıdır. Ermənilərin Rusiyanın əli ilə apardığı həmin siyasət bugün də öz ilkin istiqamətini dəyişməyib. 2. Əgər bu əsər zamanında geniş təbliğ olunub xalq arasında yayılsaydı və erməni hiyləgərliyinin gizlinləri göstərilsəydi, yəqin ki, 31 mart 1918-ci soyqırımının və başımıza gələn digər faciələrin masştabı bu qədər geniş olmazdı. 3. Əsərdə o zamankı demoqrafik vəziyyət, əhalinin etnik tərkibi, inzibati-ərazi bölgüsü, adı çəkilən yüzlərlə soydaşımız və coğrafi adlar haqqında məlumatlar vardır. Həmin coğrafiyanın kameral təsvirini yaratmaq üçün əsərə cəsarətlə istinad etmək olar. 4. Nəhayət, əsərdən çıxan ən böyük tarixi dərsin sədası "Dədə Qorqud" eposundan gələn çağırışla səsləşir: "Qarı düşmən dost olmaz!"



**Fəridə MİR-BAĞIRZADƏ**
*AMEA Memarlıq və İncəsənət İnstitutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika" şöbəsinin aparıcı elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

# İrəvan xanlığının tarixi abidələri

**Azərbaycanın keçmiş İrəvan xanlığının ərazisində - XVI əsrin əvvəllərində tikilmiş İrəvanın güclü qalası mövcud idi. XVII əsrdə fransız səyyahı J.Şarden İrəvan qalasını təsvir edərkən onun divarının uzunluğunun 4000 addım olduğunu, qalada isə 800 evin olduğunu göstərmişdir. Səyyahın dediyinə görə, qalanın əhalisi yalnız azərbaycanlılardan ibarət olub, ermənilər isə bura ticarət işi ilə gəliblər, qalada bir neçə erməni dükanı olub. Ermənilər gündüzlər şəhərdə ticarətlə məşğul olur, axşamlar isə oradan çıxıb gedirdilər. Qaladakı tikililər şərq şəhərsalma üçün səciyyəvi idi: evlərin hündür səsi keçirməyən divarları ilə üzbəüz olan, yaşayış binasının və həyətin görünüşünü kəsən dar küçələr.**

Rus ordusunun İrəvan xanlığına qarşı son yürüşündə iştirak etmiş dekabrist E.Laçınovun verdiyi məlumata görə, qalada iki məscid olub, digər mənbələrdə dörd məscid göstərilsə də, onlardan ən qədimi Qalanın özünün salınması zamanı - 1510-cu ildə Şah İsmayıl Səfəvinin göstərişi ilə tikilmişdir. Xan sarayının yaxınlığında I Şah Abbasın dövründə qurulmuş cümə məscidi yerləşirdi. Bu məsciddə kitabxana, mədrəsə və qonaq otaqları var idi.

Şübhəsiz ki, İrəvan qalasının memarlıq incisi xan sarayı - "Sərdar-saray" idi ki, onun təməli qalanın özü ilə eyni vaxtda qoyulsa da, sonrakı dövrdə xeyli dərəcədə yenidən qurularaq dövrünün ən möhtəşəm tikililərindən birinə çevrilib. Bu baxımdan memar Mirzə Cəfərin XVIII əsrin axırlarında Xan Hüseynəli və onun oğlu Məhəmmədin dövründə gördüyü işləri qeyd etmək lazımdır.

Bu yenidənqurma nəticəsində saray bütöv bir memarlıq ansamblına və Azərbaycan memarlığının parlaq nümunələrindən birinə çevrildi. Həmin E.Laçınov "Sərdar-saray"ının, o cümlədən rus zabitinin qeyd etdiyi kimi, sonsuz zövq və məharətlə bəzədilmiş "Sərdar-saray"ının parlaq təsvirini



**İrəvan şəhərinin görünüşü. Ferdinandın rəsmi, Gilberandın qravürü/oyması. XIX əsr**



**İrəvan xanlığı. Medal, 1823**

vermiş, divarlarında isə portret və rəsmlər asılmışdır. Qarşı tərəfdə xanın yay qəbul otağı mövcud idi, nəfis bəzədilmiş və əşyalarla təchiz olunmuşdu.

Bu Sarayın divarlarından birində taxtda oturan İran şahı Fətəlinin və şahzadə Abbas Mirzənin, digərində - sonuncu İrəvan xanı Hüseynin qardaşı ilə birgə rəsmləri asılmışdı. İrəvan şəhərinin özü qalanın şimal tərəfində, qala divarlarından bir qədər aralıda salınmışdır. Bu məsafə həm də müdafiə vəzifələrinə xidmət edirdi. İrəvan qalası



İrəvan qalasında yerləşən "Sərdar" ("Abbas-Mirzə") məscidi. Rəssam Dübua de Monpere. 1843



İrəvan qalasında məscid. Rəssam Dübua de Monpere. XIX əsr

olan bir vaxtlar əzəmətli və alınmaz istehkamdan bu gün heç bir dağıntı belə qorunmayıb. Bu bina digər memarlıq abidələrinin taleyini yaşayıb və bu onu göstərir ki, İrəvan indiki Ermənistanın bütün ərazisi kimi ilk növbədə Azərbaycan torpaqlarıdır.

İrəvanda Azərbaycan memarlığının ən qədim nümunələrindən biri olan Sərdar sarayının qalıqları aşkar edilib. Saray bu yaxınlarda rusiyalı jurnalist tərəfindən təsadüfən aşkar edilib, lakin Rusiya mətbuatında fars mədəniyyətinin nümunəsi kimi yanlış təqdim edilib. Bunu ekspert tədqiqatçı, Beynəlxalq Memarlar Akademiyasının Moskva filialının professoru, Azərbaycan Memarlar İttifaqının idarə heyətinin üzvü Faiq İsmayılov deyib. Onun sözlərinə görə, rusiyalı jurnalistin məlumatları ilə tanış olduqdan sonra müəyyən edib ki, bunlar Sərdar sarayının qalıqlarıdır. Saray İrəvan qalasının şimal-qərbində - keşikçi baxımından Zəngi çayının sıldırım sahilində yerləşirdi. Sərdar sarayının bünövrəsi İrəvan qalası ilə





İrəvan xanının iqamətgahında. Knyaz Q.Qaqarinin rəsmi əsasında. 1840-1853.



İrəvandakı Sərdar sarayının daxili bəzəyi

eyni vaxtda qoyulmuşdur. Saray Əmirgünə xan Qacar (1605-1625) tərəfindən tikilmiş, 1760-1770-ci illərdə İrəvan xanı Hüseynəli xanın (1762-1783) dövründə memar Mirzə Cəfər tərəfindən bərpa edilmişdir. 1791-ci ildə Hüseynəli xanın oğlu Məhəmməd xan (1784-1805) Şüşəbənd kimi tanınan Güzgülü zalını və Yay iqamətgahını tikdirir. Sərdar sarayının Böyük Qəbul otağının divarından görkəmli elm və dövlət xadimlərinin portretləri asılmışdı.

Faiq İsmayılov qeyd edib ki, Sərdar sarayı 1913-1918-ci illərdə ermənilər tərəfindən tutularaq dağıdılıb, portretlər Tbilisiyə aparılıb və hazırda Gürcüstan Dövlət İncəsənət Muzeyində saxlanılır.

1918-ci ildə ermənilər sarayı tamamilə dağıtsalar da, bəzi tikililərin qalıqları bu günümüzə qədər gəlib çatmışdır. İrəvanın memarlığı tipik şərq üslubuna, yəni digər Azərbaycan şəhərlərinin memarlığına uyğundur. Miniatürlərdən sarayın daxili interyerində və başqa məmurların evlərinin daxili bəzəyində istifadə olunurdu.

XIII-XIV əsrlərdə Azərbaycanın Marağa, Təbriz və digər şəhərlərində xəttatlıq və miniatür sənəti sürətlə inkişaf etmişdir. Təbriz şəhəri Şərqin kitab sənətinin, miniatür rəssamlığının və memarlığının ən güclü mərkəzinə çevrildi. XIV əsrin əvvəllərində Təbrizin Rəşidiyyə Akademiyası şəhərciyinin kitabxanasında yerli xəttat və rəssamlarla yanaşı, Şərqi Türküstan, Orta Asiya və Şərq ölkələrindən gələn ustadlar da çalışırdılar. Onlar dini, tarixi, elmi və poetik əsərlərin bədii əlyazmalarını yaratmış, evlərin və sarayların hündür divarlarını miniatürlərlə bəzəmişlər. Bu sənət növündən istifadə Azərbaycanın İrəvan şəhərindən də yan keçməmişdir. Belə ki Faiq İsmayılov bildirib ki, İrəvandakı Sərdar Sarayının interyerlərinin və digər imkanlı şəxslərin evlərinin interyerinin tərtibatında miniatür sənətindən istifadə olunub.



İrəvandakı Sərdar sarayının daxili bəzəyi



İrəvandakı Sərdar sarayının daxili bəzəyi

Memar Faiq İsmayılov qeyd edib ki, binanın fraqmentlərindən biri 1918-1920-ci illərdə İran konsulluğunun yerləşdiyi İrəvanın Anrapetyan küçəsində tapılıb. 1923-cü ildə bu binada Ermənilərə Yardım Komitəsi, 1930-cu ildə Ermənistan Kommunist Partiyasının axşam məktəbi, 1964-cü ildə isə Ermənistanın Tarix və Mədəniyyət Abidələrini Mühafizə Cəmiyyəti yerləşirdi.

Binanın yalnız bir otağında Azərbaycan miniatür sənətinə aid divar əsərlər gəlib çatıb. Ermənilər bu rəsmlərin fars mədəniyyətinə aid olduğunu iddia edirlər. Lakin bu miniatür sənətinin fars mədəniyyətinə aid olduğunu sübut etməyə ehtiyac yoxdur - deyə Faiq İsmayılov əlavə edib.



**Faiq İSMAYILOV**
*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Nəşriyyat şöbəsinin baş redaktoru*

# Qərbi Zəngəzur abidələri: Qarakilsə Məbədi

**Qərbi Zəngəzur regionunun Qarakilsə şəhəri, indiki Ermənistan Respublikasında rayon mərkəzi, inzibati yaşayış məntəqəsidir. Qarakilsə rayonu 1930-cu il sentyabrın 9-da yaradılıb. 1940-cı il martın 2-nə qədər Qarakilsə rayonu, həmin tarixdən etibarən isə Sisian rayonu adlandırılıb. Qarakilsə şəhərinin adı ərazidə yerləşən Alban dövrü memarlıq abidəsinin adından götürülüb.**

Coğrafi vəziyyətinə görə Qarakilsə rayonu dörd tərəfdən Zəngəzur və Bərgüşad silsilələri və Zəngəzur yaylası ilə əhatə olunub. Bazarçay çayı rayon ərazisindən axıb gedir. Qarakilsə Zəngəzur mahalının ən böyük rayonudur. Mahalın ərazisinin çoxu bu rayonun payına düşür.

Sahəsi 1719 kv.km-dir. Coğrafi yerləşməsi cənub-şərqdən Gorus rayonu, cənubdan Qafan rayonu, şimal-qərbdən Dərələyəz (Vayk) mahalı və Naxçıvan MR ilə sərhəddir. Rayon Zəngəzur və Bərgüşad dağ silsilələrinin arasında yerləşir, dəniz səviyyəsindən 1400-2300 m. hündürlükdə yerləşir.

Səfəvilər hakimiyyəti dövründə (XVII-XIX yüzilliklər) bu mahal ayrıca məliklik olmuşdur. 1813-cü ildə Rusiya-İran arasında bağlanılan Gülüstan müqaviləsinə əsasən, Zəngəzur (həm də Sisyan rayonunun ərazisi) Rusiyaya verilmişdir. 1922-30-cu illərdə İranın Xoy, Salmas və başqa qəzalarından çox sayda erməni gətirilərək, Qarakilsə rayonunun ərazisində məskunlaşdırılmışdır. XIX yüzilliyin ikinci yarısından XX yüzilliyin əvvəllərinə qədər Sisyan rayonu ərazisi Gəncə quberniyasının Zəngəzur qəzasının tərkibində olmuşdur.

1986-cı ildə əhalinin say tərkibi 34000 nəfər qeydə alındığı bildirilir. Hansıki onların 80%-dən çoxu azərbaycanlı olmuşdur. Qarakilsə rayonunda yaşayan azərbaycanlı əhalisi 1988-ci ildə erməni separatçılarının silahlı təcavüzü nəticəsində yaşadıqları ərazini tərk etməyə məcbur olmuşlar. Beləliklə, Qarakilsə şəhəri qismən, Qızılcıq, Sofulu, Murğuz, Şıxlar, Ağdü, Vağüdü, Urud, Ərəfsə, Comərdli, Dəstəyurd, Şəki, Qızılşəfəq (Şıxlar) kəndləri isə tamamilə boşaldılmışdır.

Qarakilsə rayonunun olduqca zəngin tarixi var. Burada alban mədəniyyətinə məxsus çoxsaylı memarlıq abidələri, antik qalalar, sujet xarakterli oymalar, bədii daş nümunələri, at qoç heykəlləri, qayaüstü təsvirlər mövcuddur. Təəssüf ki, ərazidə olan tarix və mədəniyyət abidələrinin demək olar ki, hamısı ermənilər tərəfindən mənimsənilərək ermənilərin mədəni-irs nümunələri kimi təbliğ edilir.

Alban dövrünün möhtəşəm abidələrindən olan Qarakilsə Bazilikası Qərbi Zəngəzur regionunun Qarakilsə şəhərinin şimal-qərbində yerləşir. Abidənin dəqiq tikilmə tarixi ilə bağlı rəsmi məlumat yoxdur. Kompleksin Memarlıq quruluşuna və litoqrafiyaların öyrənilməsinə əsaslanaraq VII əsrə aid olduğunu güman etmək

olar. Qeyri-rəsmi məlumata görə abidənin üzərində inşa tarixini əks etdirən divar yazısı giriş qapısının üstündə olub. Lakin bu yazı ermənilər tərəfindən silinərək yox edilib.

Erməni tarixçiləri abidəni XIII əsrə aid etsələrdə abidənin üzərində qalan bəzi ornamental bəzək nümunələri, abidə ətrafında sındırılaraq yararsız hala salınan bədii daş nümunələrinin qalıqlarından abidənin VII əsrdə tikildiyi ehtimalını yaradır.

Kompleksin mərkəzi bazilikası üçnefli divarları taxçalı, xaç formalı, mərkəzi günbəzli, dörd küncündə dördbucaqlı tağları olan kompozisiyaya malikdir. Günbəzin on ikinci novu tağlarla, xüsusi işlənmiş karnizlərlə bəzədilib, günbəz daşıyan tağlar əyri dayaqlar üzərində dayanır.

Məbədin cənub və qərb tərəfə açılan iki giriş qapısı var.

Abidə Plan həllinə görə, Vağüdü və Tatev monastırlarının əsas xüsusiyyətlərini təkrarlayır. Oxşar məbədlərdən fərqli olaraq burada günbəzin altındakı boşluq tam kvadrat formadadır, bütün apsislər bir-birinə bərabərdir. Bina üç böyük pəncərəyə malikdir.

Xarici fasadlar strukturun məkan inkişafının diqqətəlayiq elementləri olan enli, üçbucaqlı kəsikli, nazik taxçalarla işlənmişdir. Quruluşun bütün dekorativ elementləri (daxili, sütunların burulmuş başlıqları, pəncərələrin yuxarı hissələri və taxçalar, VII əsrin ikinci yarısında ümumiləşdirilmiş ornamentasiya formalarına uyğunlaşdırılıb.

Qarakilsə Monastır kompleksi divarlarına yerləşdirilən insan heykəlləri ilə digər monastrlardan seçilir. Məbədin daxili interyerindəki, günbəz yarımkürəsinin aşağı hissəsi nəfis bəzəklərlə bəzədilmişdir. Burada 39 oyma işarəsi indiyədək qorunub saxlanılmışdır.

Orta əsrlərin yadigarı olan Qarakilsə Alban monastırı ərazinin inzibati yaşayış məntəqələrinə uzaq olduğundan boş qalmış, heç bir tarixi dönəmdə burada heç vaxt erməni millətindən olanlar dini ibadətlə məşğul olmamışdır.

Ermənilər 1990-cı illərdə müstəqillik qazandıqdan sonra abidəni bərpa edərək öz orginal görkəminə uyğun olamayan başqa bir formaya salıblar. Beləki abidənin ümumi görkəminə və



**Qarakilsə məbədi**

lanşaftına əlavələr edilmiş, divar yazıları ornamental bəzəklər, bədii daş nümunələri sındırılaraq abidədən uzaqlaşdırılmış, abidəni erməni monastırı adlandırmışdılar.

Lakin bəzi pəncərələrin üstündəki eləcədə abidənin günbəzinin ətrafındakı haşiyələrin bəziləri dövrümüzə qədər saxlanmışdır.

Ermənistan hökuməti abidəyə turistlərin diqqətini çəkmək üçün abidə ətrafında monumental xaç qurğuları, yonulmuş daşlardan pilləkənlər və böyük xaç daşları inşa edərək, abidələrin bərpası qaydalarını pozublar. Ermənilər Azərbaycanın mədəni - irsinə aid tarix və mədəniyyət abidələrinə qarşı bütün bu vandallığa yol versələr də hal-hazırda türk totemlərindən sayılan at və qoç fiqurlarının bəzi nümunələri abidə ətrafında qalmaqdadır.

Albanların yaratdığı dini abidələrdən sayılan bu məbəd qara, yonulmuş bazalt daşdan tikildiyinə görə Qarakilsə adlandırılmışdır. Tarixi mənbələrə görə Qarakilsə məbədi xristianlıqdan əvvəlki dönəmdə mövcud olmuş, bütpərəst məbədinin yerində tikilmişdir. Bəlkə də bu baxımdan Qarakilsə məbədinin memarlığında xristianlıqdan əvvəlki memarlıq elementlərindən istifadə olunmuşdur ki, bu da digər alban məbədlərində çox nadir hallarda rast gəlinir.

Qarakilsə abidəsinin geniş şəkildə tədqiq olunmasına böyük ehtiyac vardır.

## Alimlər Saturnun peykində okean aşkar ediblər

**Paris Universitetinin (Fransa) tədqiqatçısı Valeri Laininin rəhbərlik etdiyi bir qrup avropalı və çinli astronom Saturnun ən yaxın peyki olan Mimasın buzlu səthinin altında 20-30 km dərinlikdə buzaltı okeanın olduğuna dair Cassini zondunun məlumatlarında sübut tapıb. .**



"Unikal" xəbər verir ki, alimlərin tədqiqatı "Nature" jurnalında dərc olunub.

Bildirilir ki, bu okean 25 milyon ildən az əvvəl əmələ gəldiyi üçün bu ayın səthində onun mövcudluğuna dair izlər hələ də yoxdur.

## Süni intellekt 2 min illik məqalənin gizli mətnini deşifrə etdi

**Tədqiqatçılar süni intellektdən istifadə edərək Vezuvi vulkanının püskürməsi zamanı yandırılmış 2 000 illik məqalənin gizli mətnini deşifrə ediblər.**



Yanmış papirusun yunan filosofunun dərin düşüncələrini ehtiva etdiyi və Epikür fəlsəfə məktəbinə dair heç vaxt görülməmiş fikirləri ortaya qoyduğu bildirilir.

Kömür parçasına bənzəyən vərəqi rəqəmsal skan etdikdən sonra tədqiqatçılar papirusu virtual olaraq açmaq və hərfləri müəyyən etmək üçün 3D xəritələrdən istifadə ediblər.

Tədqiqat "Freie Universit?t Berlin" universitetindən Youssef Nader, Nebraska-Lincoln və Sürix Universitetlərindən isə Luke Farritor tərəfindən aparılıb. Tədqiqatçılar daha çox məlumatı aşkar etmək üçün bu texnikadan istifadə etməyə ümid edirlər.

Qeyd edək ki, məqalələr 18-ci əsrdə bir fermer tərəfindən qədim Herkulaneum şəhərinin üstündə quyu qazarkən basdırılmış Roma villasını aşkar edərkən tapılıb.

## Alimlər elektrik əvəzinə işıq dalğalarından istifadə edən çip hazırlayıblar

**Pensilvaniya Universitetinin mühəndisləri hesablama və süni intellekt sahəsində yeni perspektivlər açan çip hazırlayıblar.**



"Nature Photonics" portalında dərc olunan məlumata görə, ənənəvi olaraq elektrikdən istifadə etmək əvəzinə, bu çip mürəkkəb riyazi əməliyyatları yerinə yetirmək üçün işıq dalğalarından istifadə edir.

Texnologiya elektromaqnit dalğalarından istifadə edərək analoq hesablamalar üçün səmərəli platforma təklif edən əks dizaynlı silikon fotonik metastrukturların istifadəsinə əsaslanır.

Bu, əhəmiyyətli bir irəliləyişdir, çünki adi metodlar böyük həcmdə verilənləri idarə etmək üçün miqyasını genişləndirərkən hesablama çətinlikləri ilə qarşılaşa bilər.

Bu texnologiyanın tibbdə də geniş tətbiq sahəsi olacaq.

## Bioloqlar CO2-ni havadan fotosintezdən daha səmərəli çıxarmaq üçün üsul hazırlayıblar

**Almaniyadakı Maks Plank İnstitutundan bir qrup alim havadan CO2 molekullarını tutmaq və onları fotosintezdən daha səmərəli olan digər faydalı molekullara çevirmək üçün üsul hazırlayıb.**



Alimlər bu yeni üsulu THETA dövrü adlanan təbii biokimyəvi üsuldur. Bu proses CO2-ni tutmaq və Asetil-KoA adlı başqa bir məhsula çevirmək üçün nəzərdə tutulmuş bir sıra kimyəvi və bioloji addımlardan ibarətdir.

Prosesdə 17 biokatalizator və iki ferment - Crotonoyl-CoA karboksilaza/reduktaza və fosfoenolpiruvat karboksilaza iştirak edir. Bakteriyalardan təcrid olunmuş bu fermentlər CO2-ni tez bir zamanda sekvestr etmək qabiliyyəti ilə tanınır.

Onlar, həmçinin bitki fotosintezində iştirak edən RuBisCO fermentindən qat-qat effektivdirlər. Lakin bu iki element canlı orqanizmlərdə təbii olaraq baş vermir. Buna görə də elm adamları onları süni şəkildə birləşdirərək dövrə yaratmalı oldular.

Bu üsul CO2-yə effektiv şəkildə bağlanmaq və onun digər kimyəvi birləşmələrə çevrilməsini kataliz etmək qabiliyyətinə malik olan aktiv mərkəzi komponentin - fermentin fəaliyyətinə əsaslanır.

Bu metodun xüsusiyyətlərindən biri onun fotosintezlə müqayisədə yüksək effektivliyidir. Fotosintez bitkilərin CO2-ni üzvi birləşmələrə çevirmək üçün işıq enerjisindən istifadə etdiyi prosesdir. Bu üsul işıq və yığılmış enerji tələb edir.

Yeni üsul isə işığın mövcudluğundan asılı olmayaraq CO2-nin tutulmasına və faydalı molekulların istehsalı üçün istifadə olunmasına imkan verir.

## Elmə məlum ən qədim qara dəlik kəşf edilib

**Kembric Universitetinin alimləri elmə məlum ən qədim qara dəliyi kəşf ediblər.**

Kəşf edilmiş qara dəliyin yaşı kainatın yaşına yaxındır. Mütəxəssislər əlavə analizlər apararaq bu qara dəliyin elmə məlum ən qədim qara dəlik olduğunu təsdiqləyiblər. Qeyd etmək lazımdır ki, qara dəlik James Webb kosmik teleskopu vasitəsilə kəşf edilib. Sözügedən qara dəlik GN-z11 adlı qalaktikanın mərkəzində yerləşir və o, qara dəliklərin yaranmalarına dair fərziyyəni şübhə altına atır. Belə ki, GN-z11 qalaktikasının mərkəzindəki qara dəlik Böyük partlayışdan təqribi olaraq 400 milyon il sonra formalaşıb. Bu isə o deməkdir ki, sözügedən qara dəliyin yaşı 13 milyard ildən bir qədər çoxdur. Həmin vaxt-



da isə GN-z11 qalaktikası cavan idi.

Mövcud fərziyyəyə əsasən qalaktikaların mərkəzlərində yerləşən yüksək kütləli qara dəliklərin sahib olduqları böyük ölçüləri əldə etmələri üçün milyardlarla il zaman lazımdır. Lakin GN-z11 qalaktikasının mərkəzində yerləşən yüksək kütləli qara dəlik ona işarə edir ki, bu cür qara dəliklər ya böyük ölçüdə formalaşa bilərlər ya da onlar ətraflarındakı materiyanı 5 dəfə daha sürətlə uda bilərlər. Lakin bunun digər bir izahı da ola bilər. "Digər qara dəliklər kimi bu qara dəlik də öz ölçüsünü stimullaşdırmaq üçün qalaktikasının materialını udub. Erkən qalaktikalar qazla zəngin olublar. Bu isə onları ilk qara dəliklər üçün ən yaxşı qida mənbəyinə çevirib" - deyə alimlər qeyd ediblər.



**Vaqif ABIŞOV**
*AMEA A.A.Bakıxanov adına*
*Tarix və Etnologiya İnstitutunun baş elmi işçisi,*
*tarix elmləri doktoru*

# Tarixin nəzəriyyələri haqqında təhlillər

**Məqalənin əsas hədəfi "Tarixin nəzəriyyəsi"nin mahiyyətinə nəzər yetirmək və mövcud nəzəriyyələr haqqında müəyyən təhlillər aparmaqdır.**
**Məlumdur ki, hər hansı bir nəzəriyyənin formalaşmasında dövrün sosial-iqtisadi və siyasi vəziyyətinin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, müəyyən dövrlərdə müxtəlif elmi sahələrin meydana gəlməsi və inkişafı, sinfi çarpışmalar, siyasi hakimiyyətlərin dəyişməsi, canlı hüceyrələr üzərində davamlı olaraq aparılan elmi tədqiqatlar və bu zaman əldə olunan nailiyyətlər, nəhayət, insanlıq cəmiyyətlərində məhsuldar qüvvələrin inkişafına və istehsal münasibətlərində baş vermiş dəyişikliklər və s. bu kimi mühüm hadisələr nəzəriyyələrin yaranmasında əhəmiyyətli rol oynadığı vurğulanmalıdır.**

Hazırda elm aləmində mövcud olan nəzəriyyələr ayrı-ayrı elmi sahələrin "xidmətindədir".

Araşdırma, düşünmə və tədqiq etmək mənasını özündə ehtiva edən nəzəriyyə, ümumiyyətlə, təbiətin və cəmiyyətin obyektiv qanunauyğunluqlarını əks etdirən elmi baxışlar, ideyalar sistemi kimi dəyərləndirilir.

Tarixi təcrübədən bəllidir ki, cəmiyyətin sosial-iqtisadi və siyasi vəziyyətinin dəyişməsi ilə nəzəriyyə də dəyişə bilər. Bununla bağlı 1917-ci ildə Rusiya imperiyasında baş vermiş hadisələri misal göstərmək olar. Məsələn, 1917-ci il Oktyabr "inqilabının" obrazını yaratmaq üçün sovet tarixçiləri tərəfindən hansı titanik səylər göstərildiyini xatırlayaq. Lakin 1991-ci ildə kommunist ideyasının dəyərdən düşməsi ilə həmin ideya da öz etibarlılığını itirmiş oldu.

Nəzəriyyədən məyus olan və onu reallığa təhrif olunmuş baxış kimi ideologiya ilə eyniləşdirən bəzi müasir tarixçilər nəzəriyyədən istifadədən imtina etməyə çalışmışdılar, lakin buna nail ola bilməmişdilər.

Heç şübhəsiz, XVIII əsrin sonu - XIX əsrlərdə Qərbi Avropanın sosial-iqtisadi və siyasi həyatında, eləcə də elm aləmində, xüsusilə fəlsəfə, tarix, coğrafiya, astronomiya, təbiətşünaslıq və s. sahələrdə elmi araşdırmaların aparılması və bunun müqabilində yeni-yeni nailiyyətlərin əldə olunması ilə yanaşı, nəzəriyyələrin yaranmasına da şərait yaratmışdı.

Nəzəriyyə bəşəriyyətin (insan cəmiyyətinin) inkişafının hərəkətverici qüvvələrini müəyyən etməkdə müstəsna rol oynayır. İngilis tarixçisi Con Toş "Həqiqət axtarışı..." adlı əsərində nəzəriyyəni dəyərləndirərkən yazırdı ki, "Tarixi dəyişiklikləri təhlil edərkən nəzəriyyə zəruridir. Tarixçilər vaxtlarının çoxunu dəyişiklik və ya onun çatışmazlığını izah etməyə sərf edirlər. Ən iddialı nəzəriyyələr təkcə tarixdə dəyişikliklərin necə baş verdiyini izah etməyə deyil, həm də bu dəyişikliklərin istiqamətini müəyyən etməyə çalışır. Bu nəzəriyyələrin məqsədi tarixə məna verməklə bəşə-

riyyətin taleyi haqqında təsəvvür yaratmaqdır **(Дж.Тош. Стремление к истине. Как овладеть мастерством историка. / Пер. с. англ. - М: Издательство "Весь Мир", 2000. 296 с. С. 187).**

G.İ. Gerasimov isə "Nəzəriyyə və tarix" adlı əsərində Elmi tarixdə nəzəriyyə də böyük rol oynadığını, keçmişin imicini formalaşdıran, onu faktiki materiallarla dəstəkləyən nəzəriyyə olduğunu yazmışdır. Onun fikrincə, burada nəzəriyyənin üstünlüyü qeyri-məhdud deyil və əgər faktlar nəzəri formaya inteqrasiyaya "müqavimət göstərirsə", nəzəriyyə dəyişdirilməlidir" **(Г.И. Герасимов. Теория и история, с. 136.**

**https://cyberleninka.ru › teoriya-i-istoriya PDF).**

Bu gün müxtəlif elmi sahələr üzrə dini baxışlar, Marksın tarixi materializmi, Hegelin idealist konsepsiyası, eləcə də XVIII əsrin sonu - XIX əsrin əvvəllərində günəş sistemi və Yer kürəsinin yaranması haqqında İmmanuel Kant və Pyer Laplas nəzəriyyələri, Təkamül nəzəriyyəsi, Sosial inkişafın sivilizasiya nəzəriyyəsi, Uolt Rostou (1916-2003) və O.Toffler tərəfindən hazırlanmış iqtisadi artımın Mərhələləri nəzəriyyəsi, Modernizasiya nəzəriyyəsi, Eynşteynin Nisbilik nəzəriyyəsi və sair nəzəriyyələr mövcuddur.

Yuxarıda qeyd olunan nəzəriyyələrdən bəzilərinin mahiyyətinə daha yaxından nəzər yetirək.

XVIII əsrin sonu - XIX əsrin əvvəllərində istər təbiət elmləri, istərsə də ictimai elmlər sahəsində əldə olunan biliklər Təkamülçülük ideyalarının formalaşmasına səbəb olmuşdur. Təbiət elmlərində əsas iki amil bu ideyaların inkişafına rəvac vermişdir. Bunlardan biri, XVIII əsrin sonu - XIX əsrin əvvəllərində günəş sistemi və Yer kürəsinin yaranması haqqında Kant və P.Laplas nəzəriyyəsidir; ikincisi isə, XVIII əsrin əvvəllərində Carlz Layel tərəfindən geoloji dövrlərin müəyyənləşdirilib əsaslandırılması və Yer kürəsi qabığının müəyyənləşdirilməsi olmuşdur. XIX əsrin əvvəllərində biologiyada canlı aləmin dəyişkənliyi haqqında Jan-Batist Lamarkın ideyaları da dünyagörüşün müəyyən qədər dəyişməsində rol oynamışdır. O, ətraf mühitin dəyişməsinin canlı aləmin dəyişməsinə səbəb olduğunu əsaslandırmışdır.

Faktiki olaraq təbiətşünaslıqda təkamül təliminin formalaşması, özünə yer tapması Çarlz Robert Darvinin adı ilə bağlıdır.

Darvinizm yer kürəsində üzvi aləmin təkamülü nəzəriyyəsidir. Təkamülün əsas hərəkətverici qüvvəsi təbii seçmədir. Təbii seçmə isə yaşamaq uğrunda mübarizənin nəticəsidir. Çarlz Darvinin elmə əsas xidməti bu hərəkətverici qüvvənin kəşf etməsi olmuşdur.

Hazırda elm aləmində İnsanın mənşəyi ilə bağlı bir-birindən fərqli iki əsas nəzəriyyəyə - Təkamülçü (insanların əcdadlarının insanabənzər meymunlardan təbii seçmə və təkamül prosesi nəticəsində yaranmasının qəbul edilməsi) və Dini (həmin nəzəriyyənin tərəfdarları ilk insanlar kimi Adəm və Həvvanın Allah (Tanrı) tərəfindən yaradıldığının qəbul olunması) nəzəriyyələrə daha çox önəm verilir.

Belə bir faktı da qeyd etmək lazımdır ki, Azərbaycanda çağdaş dövrdə tarixi əsərlər, xüsusilə ümumtəhsil və Ali məktəb dinləyiciləri üçün hazırlanmış dərsliklər, eləcə də 7 cildlik "Azərbaycan tarixi" əsəri daha çox Marksist və Təkamülçü nəzəriyyələrin üzərindən yazıldığını qeyd etmək mümkündür. Lakin Qərbi Avropa tarixçilərinin bir çoxu belə fikirdədirlər ki, Makrsist nəzəriyyədən imtinalar artıb və onun yerini liberal baxışlar üstünlük qazanmaqdadır.

Çağdaş dövrümüzdə Avropa ölkələrinin elmi mərkəzlərində bütün canlıların, xüsusilə insanın yaranmasını öyrənən təkamülçülük baxışlar aparıcı baxışlardan biri hesab olunsa da, "neo-təkamülçülük" baxışlarının tərəfdarları yeni fikirlər irəli sürməkdədirlər. Bunun da əsas səbəbi texnologiyaların inkişaf etməsi ilə bəşəriyyətin yaranması haqqında yeni elmi versiyaların irəli sürülməsidir.

"Neo-təkamülçülük XX əsrin ortalarında xarici sosial (mədəni) antropologiyada ən təsirli cərəyanlardan biridir. Neo-təkamülçülük xarici antropologiyaya (etnologiyaya) və arxeologiyaya böyük təsir göstərmişdir". **(Теория и методология истории: учебник для вузов / Отв. ред. В. В. Алексеев, Н. Н. Крадин, А.В.Коротаев, Л.Е.Гринин. - Волгоград: Учитель, 2014. - 504 с. Ъ.90).**

Hegel ilk dəfə olaraq bütün təbii, tarixi və mənəvi aləmi proses halında, yəni daim hərəkət, dəyişilmə, bir şəkildən başqa şəklə keçmə və inkişaf halında olan bir proses kimi göstərmiş, bu hərəkət və inkişafın daxili əlaqəsini aşkara çı-

xarmağa çalışmışdır. XIX əsr fəlsəfəsinə və siyasi nəzəriyyələrə Hegelin təsiri olduqca böyük olmuşdur. Hegelin mütləq (obyektiv) idealist sistemində təbiət və cəmiyyətin bütün hadisələrinin əsasında "mütləq ideya", "dünya zəkası" və yaxud "dünya ruhu" durur. İctimai inkişafın Marksist nəzəriyyənin dünyada şöhrətlənməsində isə sovet ictimaiyyətşünasları - filosofları, tarixçiləri, iqtisadçıları, sosioloqları mühüm rol oynamışdır. Marks cəmiyyət haqqında elmi "tarixi materializm" adlandırmışdır. Marks və Engelsə görə, onlara qədər tarix və siyasət məsələlərindəki baxışlarda hökm sürən hərc-mərclik və özbaşınalığın yerini elə bir nəzəriyyə tutdu ki, o, məhsuldar qüvvələrin artması nəticəsində bir ictimai həyat tərzindən digərinin, daha yüksək bir ictimai həyat tərzinin necə yetişib əmələ gəldiyini göstərirdi.

Formasion yanaşma mərhələnin sonrakı inkişafının ətrafında cərəyan edən istehsal münasibətlərindən başlayaraq cəmiyyətləri təhlil etmək üçün aydın məntiqə malik olduğunu qeyd edən O.İ.İşşenko, "Sosial inkişaf nəzəriyyələrinin müqayisəli təhlili" əsərində yazırdı ki, Formasiya dəyişdikdə, dəyişikliklər ilk növbədə mülkiyyət anlayışında olur" **(О.И.Ищенко. Сравнительный анализ теорий развития общества. Вестник ИрГТУ №10 (57) 2011, сящ. 307).**

Formasion yanaşmanın baniləri K.Marks və F.Engelsin fikrincə, sosial dəyişikliyin müəyyənedici səbəbi cəmiyyətin məhsuldar qüvvələrinin və istehsal münasibətlərinin dialektikasıdır ki, onların böyüməsi istehsal metodunun dəyişməsinə, bu isə öz növbəsində formasiyanın dəyişməsinə səbəb olur.

Heç şübhəsiz, XVIII əsrin sonu - XIX yüzillikdə insanlıq cəmiyyəti ilə əlaqədar olaraq yaranmış müxtəlif baxışlar marksist baxışın yaranmasına səbəb olan əsas amillərdən hesab edilməlidir. Təsadüfi deyil ki, V.İ.Lenin marksist baxışın yaranmasının "üç mənbəsini" qeyd etmişdir: birincisi, Alman fəlsəfəsi (ilk növbədə, Q.V.F.Hegelin tarixşünaslıq konsepsiyası və L.A.Feyerbaxın materializmi); ikincisi, Britaniya siyasi iqtisadiyyatı (ilk növbədə A.Smitin "əmək dəyər nəzəriyyəsi" və Riçard Consun iqtisadi determinizmi) və üçüncüsü, fransız utopik sosializmi (J.Melye, J.J.Russo, Q.Baböf, K.A.Sen-Simon, Ş.Furye və başqaları) idi. Bu sıraya bəşəriyyətin mütərəqqi ideyalarını inkişaf etdirən maarifçi xadimlərinin, eləcə də cəmiyyətin sinflərə bölünməsini və sinfi mübarizəni üzə çıxarmış fransız tarixçiləri A.Tyeri, F.Minye və F.Gizonun fikirlərini də əlavə etmək lazımdır.

Marksın tarixi materializminə əsaslanan ictimai-iqtisadi formasiyalar sisteminin sonuncu kommunizm mərhələsində də insanların firavan yaşayacağı, mütləq bərabərlik olacağı və əsl, xoşbəxt insanlıq yaşayışının, yəni azadlıq bütün mənası ilə məhz həmin mərhələdə dərk olunacağı vədi verilirdi. Marksın kommunizm cəmiyyəti Hegelin mütləq Ruhunu başqa formada özündə əks etdirdiyini görmək olar.

Mövcud olan nəzəriyyələrin bir qismi haqqında ümumi bilgilərin qısa xülasəsi qeyd olunduqdan sonra, "Tarixin nəzəriyyəsi" nədir sualına konkret cavab verməyə çalışaq.

Beləliklə, "Tarixin nəzəriyyəsi" nədir:

**1.** Tarixin nəzəriyyəsi çoxşaxəli keçmişi ümumiləşdirmək, sadələşdirmək, əsas şeyi vurğulamaq və keçmişin inandırıcı obrazını yaratmaq üçün başqa üsullarla insan şüuruna əlçatan formada təqdim etmək üsuludur. Tarixin nəzəriyyəsi bəşəriyyətin keçmişinin ideal bir təsviridir.

"Tarixin nəzəriyyəsi" bütövlükdə tarix və ya ayrı-ayrı tarixi hadisələr və proseslər haqqında ümumi təsəvvürlər sahəsidir. Nəzəriyyə tarixin reallıq (ontologiya) və tarixi bilik (qnoseologiya) kimi öyrənilməsinin ümumi problemləri ilə məşğul olur.

**2.** "Tarix nəzəriyyəsi"ndə tarixi materializm də mühüm əhəmiyyət kəsb edir. İngilis müəllifi Con Toş yazırdı: "Marksizmin güclü cazibəsinin əsl səbəbi onun nəzəri cəhətdən tarixçinin ehtiyaclarını mükəmməl şəkildə ödəməsidir.

Materialistlərə görə, dünyanın başlanğıcı, əsası materiyadır. Marksist əsas - bazis və üst quruluş - üstqurum modeli hər hansı bir cəmiyyətdə sosial münasibətlərin məcmusunu başa düşmək üçün çox faydalı bir üsuldur.

Beləliklə, "Tarixin nəzəriyyəsi" probleminin təhlili sübut edir ki, tarixlə nəzəriyyə arasındakı əlaqə zəruridir. Bu baxımdan faktları axtarmağa, toplamağa, seçməyə və təhlil etməyə başlayan tarixçinin müəyyən istinad etməli olduğu nəzəriyyə olmalıdır.



**Arzu HACIYEVA**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun "Azərbaycan fəlsəfə tarixi" şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru*

# Millət və insaniyyət naminə

**Nəriman Nərimanovun adı çəkiləndə gözlərimiz qarşısında böyük humanist, maarifpərvər şəxsiyyət, əsərlərində dövrünün mühüm problemlərini qaldıran və həll etməyə çalışan görkəmli yazıçı, nasir, dramaturq, publisist, ictimai-siyasi və fəlsəfi fikrimizi təmsil edən böyük mütəfəkkir və siyasi xadim obrazı canlanır. İxtisasca həkim olduğunu da bilirik, lakin onun təbabət, xüsusilə tibb maarifçiliyi sahəsində müstəsna xidmətləri çox vaxt kölgədə qalır. Halbuki doktor Nərimanın Həştərxandakı "Bürhani-tərəqqi", "Prikaspiyskiy kray", "İdel", Bakıda "Həyat", "Açıq söz", "Yeni iqbal" qəzetlərində nəşr etdirdiyi "Tibb və islam", "Xolera", "Hamilə arvadlara nəsihət", "Tibb, nəzafət və islam", "Traxoma", "Qadın və onun nəsillərə təsiri", "Vərəm", "Vəba", "Yatalaq", "Dizentriya" və s. kimi tibbi mövzularda yazdığı, məşhur təbiblərə həsr etdiyi ictimai-publisistik səciyyə daşıyan əsərləri, "Tibb və islam" (1910), "Xolera-Vəba" (1910), "Aləmi-nisvan" (1911), "Həmli arvad" (1924) və "Traxoma" ("Göz ağrısı") (1924) kimi elmi-populyar kitabçaları, eyni zamanda kütləvi mühazirələri Azərbaycanda müasir tibb elminin bünövrəsini qoymuşdur.**

Nəriman Nərimanovun tibbə dair əsərləri təkcə məzmunu ilə deyil, həm də oxucusuna yanaşma, fikirlərini çatdırma tərzi ilə də diqqəti cəlb edir. Bu özünəməxsus şərh metodu və üslubunda özünü göstərən məntiq onun ümumi metodoloji konsepsiyasına söykənir. Həmin konsepsiyanın əsas prinsiplərini isə o, artıq gənc yaşlarından, ilk bədii və publisistik əsərlərini yazmağa başlayarkən müəyyən etmişdi. Bunlara görə, cəmiyyətə aid müzakirəyə çıxarılan məsələyə qərəzsiz yanaşılmalı və irəli sürülən fikirlər cəmiyyətin əsas kütləsi üçün aydın, anlaşıqlı olmalıdır, vəz xarakteri daşımamalı, real səmərə verməlidir. Bir sözlə, hər hansı bir mövzuda kitab və ya məqalə yazmağa girişən şəxs, bu işi, öz sözləri ilə desək, "kimin üçün və nə məqsədlə" etdiyini bilməlidir (Kaspi" qəzeti № 25, 1 fevral 1896-cı il).

N.Nərimanov əslində bütün əsərlərində olduğu kimi, "Tibb və İslam" da daxil olmaqla tibbə dair kitabça və məqalələrində, həmçinin mühazirələrində bu prinsiplərdən çıxış edir, müraciət etdiyi və bələd olduğu müsəlman auditoriyasının psixologiyasını, mental xüsusiyyətlərini, dini baxışlarını, sosial-mədəni və məişət özəlliklərini, bilik səviyyəsini həmişə nəzərə alırdı. Məqsədi isə epidemiyaların tüğyan etdiyi, cürbəcür ağır yoluxucu xəstəliklərin geniş yayıldığı bir zamanda onların qarşısını almaq üçün xalqı tibbi cəhətdən savadlandırmaq idi. Maraqlıdır ki, N.Nərimanovun tibbi maarifləndirmə sahəsində işi əməli fəaliyyəti ilə şəxsi nümunə göstərməsi ilə bitmir, biz eyni zamanda, onun yazılarında tibbi maarifləndirmə necə olmalıdır barədə mülahizələrinə də rast gəlirik. Burada, hər şeydən əvvəl, tənqid, nöqsanları aşkara çıxardığına görə mühüm əhə-



miyyətli metod kimi təqdim olunur. "Nicat" maarif cəmiyyəti hələ 1914-cü ilin sonlarından Nərimanovun təşəbbüsü ilə "Tənqid gecələri" keçirmək, müəyyən qayda əsasında nəşr edilmiş və ediləcək kitabların "tənqidi nəzərdən keçirilməsi"nə qərar vermişdi. Bunların arasında tibbə dair kitablar da vardı. Tənqid gecələrindən birində uşaqlara gigiyena öyrədən "Şagirdlərin səlaməti" adlı kitab müzakirəyə qoyulmuşdu. "Avropa lisanlarından osmanlıcaya, osmanlıcadan dəxi bizim şivəmizə nəql edilmiş" bu kitabda tərcümə (sadə türkcələri olduğu halda uşaqların anlamadığı söz və ifadələrdən istifadə edilməsi, mənanın təhrifi, qrammatik qaydaların pozulması kimi), həmçinin faktlarla bağlı xeyli xəta üzə çıxarılmışdı. Bunlardan da müzakirə iştirakçıları fənni kitabların mənəvi dəyərini yüksəltmək üçün onların mütəxəssislər tərəfindən yazılması, qeyri-peşəkarların yazdığı və ya tərcümə etdiyi təqdirdə isə mütləq mütəxəssislərə göstərilməsinin vacib olması qənaətinə gəlmişdilər ("İqbal" qəzeti, 25 noyabr 1914-cü il).

Doktor Kərimbəy Sultanovun 166 səhifəlik "Hifzül-səhhət" (Gigiyena) adlı kitabı haqqında "elmi felyeton" da "idarənin" təklifi ilə yazılmışdı. Söhbət N.Nərimanovun "Yeni iqbal" qəzetində dərc edilən tənqidi səciyyəli resenziyasından gedir ("Yeni iqbal" qəzeti, 11 yanvar 1916-cı il). Məqalənin artıq ilk cümlələrindən, o, tənqidi inkişaf və tərəqqi amillərindən biri kimi, yaradıcılığı stimullaşdıran vasitə kimi səciyyələndirir. Bu xüsusda Firudin bəy Köçərlinin bir vaxtlar onun "Nadanlıq" (1894) dramını kəskin tənqid etdiyini xatırlaması, "Nadir şah"ın meydana gəlməsinin səbəbini məhz ilk dramının "çubuqlanmasın"nda görməsi tənqidin yaradıcı gücünə inamdan xəbər verirdi. Həmin məqalə N.Nərimanovun tibbi məlumatları xalqa anlatmağın üsul və vasitələri haqqında mülahizə-düşüncələrinin ümumiləşdirilmiş yığcam ifadəsi kimi də xüsusi maraq kəsb edir.

Əvvəla, burada anlatmada, şərhdə metodun vacibliyi fikri irəli sürülür. N.Nərimanov bilməyin, xüsusilə elmdə, birinci dərəcəli əhəmiyyətini vurğulayır, lakin eyni zamanda, nəzərə çatdırır ki, təkcə bilmək, yəni öz-özlüyündə bilik hələ yetərli deyil, bildiklərini başqalarına ötürmək bacarığına malik olmaq lazımdır. Bu mənada müəllimin yaxşılığı tədris etdiyi fənni bilməsində deyil, şagirdlərinin çətin dərsi asan və tez qavrayıb mənimsəmələrindədir. Elə bunun kimi, əsər yazan şəxs oxucusunu gözünün qabağına gətirməli, onun hazırlığı barədə təsəvvürü olmalıdır ki, çatdırmaq istədiyini necə, hansı yolla anlatmaq barəsində düşünsün.

N.Nərimanova görə, elmi, tibbi populyar ədəbiyyatda ən əsas tələblərdən biri mətləbdən uzaqlaşmamaqdır: kütləvi oxucunun anlamadığı və maraqlanmadığı əhəmiyyətsiz izafi informasiya ilə onları yormamalısan. Oxucu, məsələn, "diaqnostika", "anamnez", "simptom" kimi həkim olmayan üçün gərəksiz terminləri uzun-uzadı izah edən əlavə məlumatlarla yüklənməməlidir. Digər tərəfdən, elmi-populyar ədəbiyyatda pedantlıq yolverilməzdir, oxucunu müşkülə salmaq, fikrini qarışdırmaq düzgün deyil. Hətta N.Nərimanovun fikrincə, anlaşıqlı olmaq naminə bakte-

riyanın yerinə mikrob da işlətmək mümkündür. Bunun səbəbini şərh edərək o yazır: "…ədəbiyyatımızda ən məşhur söz mikrobdur. Bu barədə türk və tatar dilində kitabçalarımız da vardır. Bu barədə çoxluca leksiyalar da oxunubdur. Doğru, elmi cəhətdən bakteriya, basil və ya mikrob bir-birindən fərqli olmuş olsa da, bakteriya yerinə mikrob işlətsək, dünyalar qara geyinməz, zənn edirəm". Xüsusilə ona görə ki, doktor Sultanovun bakteriyanın təsvirinə həsr etdiyi iyirmi səhifədən oxucunun əxz etdiyi yalnız bu olacaq ki, dünyada zərrəbin, yəni mikroskopik ölçülü canlı heyvanlar vardır. Nərimanovun "heyvanlar" sözünün yanında qoyduğu sual işarəsi, görünür, dürüstlük arxasınca qaçan müəllifin mikroskopik canlını heyvana bənzətməsinin qəribəliyinə işarədir. Onun fikrincə, elmi səhvlər yalnız professionallar, alimlər, həkimlər üçün əhəmiyyətlidir.

Şərhdə əsas tələblərdən biri də "yavuqdan başlayıb uzağa getmək"dir, yəni asan məsələlərdən başlayıb tədricən çətin məsələlər üzərinə keçmək lazımdır. Bu nöqteyi-nəzərdən, N.Nərimanov Sultanovun kitabında bakteriya haqqında ən çətin məsələnin qabağa, toz, su, hava və s. kimi əsl hifzül-səhhətə dair məsələlərin axıra düşdüyünü tənqid edir. Göstərir ki, su, hava, toz, torpaq, işıq, kanalizasiyalar, su boruları, suyun filtrdən keçirilib təmizlənməsi gigiyenaya birbaşa aidiyyəti olan birinci dərəcəli məsələlərdir.

N.Nərimanov oxucunun problemi aydın təsəvvür etməsi üçün lazım gəldikdə statistikaya və müqayisələrə müraciət etməyin rolunu vurğulayır. Gigiyenadan bəhs edən əsərdə Avropada və Rusiyada vodoprovodların (su kanallarının), kanalizasiyaların çəkilməsi və s. haqqında statistik məlumatların verilməsinin faydasını onların "çılpaq sıfırlar ilə xalqın beynini oyat"masında görür. İnanır ki, əgər məlumatları olsaydı, "Bakı camaatı, xüsusən müsəlmanlar" vəziyyətdən xəbərdar olub, bu vaxtadək içdikləri suyun nə olduğunu bilər və onun zərərini düşünərdilər, onda "şorlar suyu indi Bakının küçələrində sel kimi axırdı".

Təbiidir ki, N.Nərimanovun doktor Kərimbəyin "Hifzül-səhhət" əsəri haqqında tənqidi qeyd-


علمی فلیه‌تون

ləri XXI əsrin, internet əsrinin təbiblərinə, həkimlərinə deyil, yaşadığı dövrdə Azərbaycanda fəaliyyət göstərən tibb xadimlərinə, həkimlərə ünvanlanmışdı. Onlar XX əsrin əvvəllərində mədəni geriliyin, sosial və siyasi zülmün hökm sürdüyü, cəmiyyətdə insanların müxtəlif xəstəliklərdən əzab çəkdikləri halda hətta elementar tibbi biliklərdən belə məhrum müsəlman əhalisinə xidmət etməli idi. Məhz buna görə o, xalqın geniş kütləsi üçün yazılan elmi-populyar əsərlərin xalqın ana dilində, sadə anlaşıqlı şəkildə və qrammatikanı bilərəkdən yazılmalı olduğunu vurğulayırdı. Buna görə, onun doktor Sultanov kimi "hal-hazırda" tibbin "hifzül-səhhət" kimi çətin şöbəsini bütövlükdə əhatə etməyə çalışmasındansa, bu şöbənin ayrı-ayrı məsələlərinə dair kiçik kitabçalar yazmağın daha yaxşı və daha tez səmərə verəcəyini bildirməsi təsadüfi deyildi.

N.Nərimanov özü tibbə dair əsərlərində göstərdiyi bütün şərt və tələblərə əməl edirdi. Müasirlərinin dəfələrlə qeyd etdikləri kimi, "çox açıq və gözəl türk dili"ndə, "sadə türk lisanı - Azərbaycan şivəsi"ndə və söhbət formasında yazılan bu yığcam əsərlər, kitabça və məqalələr şərhin sadəliyi, aydınlığı, elmi müddəaların izahında oxucunun bilik və məlumatına, təsəvvürlərinə arxalanması, statistik rəqəmlərə istinadı, xüsusilə də islam dininə, şəriət qanunlarına müraciətlə aparılan müqayisələri ilə seçilir.

Bütün bu xüsusiyyətlər onun tibbi mövzularda etdiyi kütləvi mühazirələrinə də xas idi. Hətta bir

nümunədə belə bunu əyani şəkildə təsəvvür etmək mümkündür. "Prikaspiyskiy kray" qəzetinin 4 fevral 1911-ci il tarixli məqaləsində doktor Nərimanovun alkoqolizm haqqında mühazirəsinin dərc edilmiş proqramı, yaxud planı onun problemə necə ciddi yanaşdığını, mövzu ilə bağlı əvvəldən müəyyən etdiyi məsələləri sistemli şəkildə, sadədən (insan orqanizmindən) başlayıb mürəkkəbə (irsiyyət, mənəviyyat probleminə) doğru ardıcıl olaraq tədricən necə açdığını göstərir: "1) İnsan orqanizmi; 2) həyatı davam etdirməkdə maneələr: travma, zəhər və i.a.; 3) ümumi iş və zərərli maddələrlə mübarizədə daxili orqanlar arasında harmoniya: əsas orqanların (mədə-bağırsaq, qara ciyər, ürək, böyrəklər, əsəb sistemi) fiziologiyası; 4) spirt zəhər kimi; a) onun təsiri ilə əsas orqanlarda baş verən dəyişikliklər; b) orqanizmin sistematik olaraq zəhərlənməsi və nəticələri; 5) spirtli içkilərin təsiri altında bəzi xəstəliklərin gedişatı; 6) irsiyyət: a) sərxoşluq güclü psixoloji pozğunluğun səbəblərindən biri kimi; b) Morelin müşahidələri; 7) Nəticə: a) sağlam bədəndə sağlam ruh; b) mənəviyyatın ümumi çöküşü".

Yuxarıda gətirdiyim mühazirə proqramı N.Nərimanovun elmi-populyar ədəbiyyatın anlaşıqlı və sadə ana dilində olması, kütlənin hazırlıq səviyyəsinin nəzərə alınması barəsində dediklərinin əsla bəsitlik anlamına gəlmədiyini göstərir. Göründüyü kimi, o, tibbi-elmi əsərlərində olduğu kimi, mühazirələrində də dövrünün tibbi kəşf və nailiyyətlərinə arxalanırdı. Alkoqolizm haqqında mühazirəsində də fransız psixiatrı Benedikt Morelin (1809-1873) tədqiqatlarına müraciət etmişdi. Degenerasiya, yəni insanın normal vəziyyətdən uzaqlaşması haqqında nəzəriyyəsi ilə məşhur olan Morelə görə, alkoqolizm əqli geriliyə, güclü psixoloji pozğunluğa, mənəvi düşkünlüyə səbəb olur, ən əsası irsiyyətə mənfi təsir edir, nəslin cırlaşmasına və nəhayət, məhvinə gətirib çıxarır. N.Nərimanov Morellin "müşahidələri"nə - təcrübələrinə istinadla dinləyicilərini alkoqolizmin təkcə insanın özü, mənəviyyatı üçün deyil, eyni zamanda, nəsilləri üçün necə böyük təhlükə olduğunu dinləyicilərinə anlatmağa, onları xəbərdarlıq etməyə, bu dəhşətli bəladan saqındırmağa çalışırdı.

Təsadüfi deyil ki, onun mühazirələri böyük təsir gücünə malik idi. Həştərxanda keçirilən, 500 nəfərin iştirak etdiyi bir böyük tədbir barədə "Bürhani-tərəqqi" və "Prikaspiyskiy kray" qəzetlərinin 4 fevral 1911-ci il tarixli, "Edil"in 8 mart 1911-ci il, "Musulmanin" jurnalının (№ 3) 15 fevral tarixli saylarında yer alan məlumatlar bunu təsdiq edir. Bunlardan öyrənirik ki, 1911-ci il yanvarın 31-də axşam "Ayıqlıq" cəmiyyətinin xahişi ilə "xalqın sevimlisi möhtərəm doktor" Nərimanbəy Nərimanov "Şurayi-islam" binasında alkoqolizm barədə "müsəlman dilində leksiya" oxumuşdur. Zal tamam dolduğundan bir çoxları geri qayıtmalı olmuşlar. Gələnlərin arasında mollalar və axundlar da vardı. "Prikaspiyskiy kray" mühazirənin əhəmiyyətini vurğulayaraq yazırdı: "Dinləyicilər Nərimanovun leksiyasını Allah neməti kimi qəbul etdilər. Müsəlman arasında sərxoşluq (bu şübhəsizdir) vətəndaşlıq hüququ qazanır. Belə leksiyalara çox ehtiyac var. Dinləyicilər sərxoşluğun zərəri haqqında sözləri eşitdikdə: "Allah göstərməsin!..." deyə dad edirdilər. Doktoru sürəkli alqışlarla qarşıladılar... Çox arzu olunur ki, Nərimanov bu leksiyanı başqa müsəlman cəmiyyətlərində də təkrar oxusun…"...

N.Nərimanov tibbi maarifçiliyin yayılmasını, bu işdə kütləvi mühazirələrin, o cümlədən mühüm tibbi mövzularda əsərlər yazılmasını vacib sayır, buna həvəsləndirirdi. Bu nöqteyi-nəzərdən, tənqid etməsinə baxmayaraq, "tibbin idealı", "müqəddəs", "ali məsləyi" adlandırdığı "Hifzül-səhhət" haqqında "müsəlmanlar üçün gərəkli bir kitab" yazmaqla "müqəddəs yola" - tibbi maarifçilik yoluna qədəm basdığı üçün doktor Kərimbəy Sultanovu təbrik edir, "Böylə qeyrətli cavanlarımızın artması millətimizin xoşbəxtliyidir" deyə sevinirdi. "Ağır vəzifə" olan tənqidə və onun nəzərə alınmasına gəlincə, bunların da "millət və insaniyyət naminə" olduğunu vurğulayırdı. Əslində, tibb sahəsində gördüyü işlər Nəriman Nərimanovun "millət və insaniyyət naminə" bütün çoxşaxəli gərgin fəaliyyətinin mühüm tərkib hissəsi idi.



**Məsud MAHMUDOV**
*AMEA Nəsimi adına Dilçilik İnstitutunun Kompüter dilçiliyi şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor*

# Milli dil korpusları

**Milli dil korpusu hər hansı bir milli dilin elektron variantda hazırlanmış modelidir. Bu baxımdan, Azərbaycan dilinin milli korpusu Azərbaycan dilinin elektron variantda hazırlanmış modelidir. Bu model dili tam əhatə və təmsil etməlidir. Burada dilin bütün üslubları, lüğətləri fonetikası, morfologiyası, sintaksisi, semantikası, şifahi nitq özəllikləri və s. öz əksini tapmalıdır. Konkret dilin milli korpusunda müəyyən zaman kəsiyində həmin dil tam şəkildə bütün janrları, üslubları, ədəbi dili, dialektləri, qrammatikası, lüğətləri və s. ilə təmsil olunmalıdır. Başqa sözlə, korpus elektron daşıyıcıda saxlanılan müxtəlif dil hadisələri və faktları ilə bağlı tədqiqatçılara operativ və dəqiq məlumat verən, müəyyən nizamla düzülmiş təbii dil mətnləri çoxluğudur.**

Korpus dilçiliyi hər hansı konkret dili təmsil edən mətnlərin qabaqcadan müəyyənləşdirilmiş qaydalar üzrə sistemli şəkildə elektron formatda toplanmasına istiqamətlənmiş məlumat axtarışı sistemlərinin yaradılması və onların tədqiqat prosesində istifadəsi məsələlərini öyrənir. Konkret dilin milli korpusundan istifadə etməklə həmin dilin mükəmməl, elmi cəhətdən əsaslandırılmış izahlı və orfoqrafiya lüğətlərini hazırlamaq olar. Bu, qabaqcadan elektron formatda hazırlanmış korpus mətnlərindən istifadə etməklə əldə oluna bilər. Məsələn, biz "tale" sözünü yazıb korpusda axtarışa versək, həmin sözün işləndiyi bütün cümlələr (kontekstlər) işləndiyi mənbə dəqiq göstərilməklə ekranda görünəcək. Məlum olduğu kimi, hər hansı bir sözün semantikası işləndiyi cümlələrdə, konkret kontekstlərdə öz əksini tapır. Bu baxımdan, biz "tale" sözünün bütün semantik mənalarını əldə etmiş olarıq. Bu isə, izahlı lüğətin mükəmməl, elmi cəhətdən əsaslandırılmış variantını hazırlamaq imkanı yaradacaq. Korpus materialı dildə ən çox işlənən, istifadə olunan sözlərin tezliyi barədə də istifadəçiyə dəqiq və etibarlı məlumat verə bilər. Milli dil korpusunun elektron lüğətlər korpusunun son hədəfi isə sözün tam leksikoqrafik təsviridir. İstənilən sözü, məsələn, "qohum" sözünü axtarışa versək, həmin sözün orfoqrafiya lüğətində stastusu (təmsil olunub-olunmaması), izahlı, tarixi, etimoloji, dialektoloji, terminoloji və s. lüğətlərdəki mənaları üzə çıxacaq. Dilin fonetik, qrammatik, semantik quruluşu, digər linqvistik (ekstralinqvistik) məlumatlar da sorğudan asılı olaraq istifadəçiyə təqdim oluna bilər.

Korpusların yaradılması sahəsində örnək kimi istifadə olunan Britaniya Milli Korpusu (BNC - British National Corpus) təxminən 100 milyon sözü (söz-formanı) əhatə edir. BNC sahəsində əsaslı işlərə 1991-ci ildən başlanıb. 1994-cü ildə ilkin versiya hazırlanıb. Britaniya

Milli Korpusu üç nəhəng nəşriyyat - Oksford Universiteti nəşriyyatı (aparıcı həmmüəllif olmaqla), Lonqman və Çambers nəşriyyatları, iki universitet - Oksford və Lankaster universitetləri və Britaniya kitabxanasının iştirakı ilə təsis olunmuş konsorsium tərəfindən yaradılmışdır. Britaniya Milli Korpusu ilə yanaşı Milli Amerikan İngiliscəsi Korpusu da uğurla istifadə olunmaqdadır. Amerika Milli Korpusu (American National Corpus - ANC) yazılı və şifahi nitq mənbələrindən götürülmüş 22 milyon sözü (söz-formanı) əhatə edir. 1990-cı ildən başlayaraq ən son texnoloji mənbələrdən (elektron poçt, veb-səhifələr, tvitlər, sms-lər və s.) götürülmüş materiallar korpusa daxil edilmişdir. Həcminə və işlənmə dairəsinə görə Rus Dilinin Milli Korpusu da dünya miqyasında uğur qazanmış və örnək kimi istifadə olunan korpuslardan hesab olunur (ruscorpora.ru; ru. Wikipedia wiki/naüionalğnıy korpus russkoqo əzıka). Rus Dilinin Milli Korpusunun həcmi 07 aprel 2018-ci ilin məlumatına görə 283 milyon sözişlətmə (söz-forma) hesab olunur. Korpusun ümumi həcmi (bütün altkorpuslar nəzərə alınmaqla) təxminən 600 milyon sözişlətmə hesab olunur. Korpus mətnlərinin 15%-i morfoloji və semantik işarələnib. Omonimlik əl ilə müəyyənləşdirilib işarələnmişdir.

Rus Dilinin Milli Korpusu 29 aprel 2004-cü ildə istifadəçilərə təqdim olunmuşdur. Rus Dilinin Milli Korpusunun yaradılmasında aşağıdakı elmi-tədqiqat müəssisələri və universitetlər iştirak etmişlər: Rusiya Elmlər Akademiyasının V.V.Vinoqradov adına Rus Dili İnstitutu (İRƏ RAN); Rusiya Elmlər Akademiyasının Dilçilik İnstitutu (İƏ RAN); Rusiya Elmlər Akademiyasının A.A.Xarkeviç adına İnformasiyanın Ötürülməsi Problemləri İnstitutu (İPPİ RAN); Rusiya Elmlər Akademiyasının Sankt-Peterburqdakı Linqvistik Tədqiqatlar İnstitutu (İLİ RAN) - Sankt-Peterburq Dövlət Universiteti (SPQU) ilə birlikdə; Voronej Dövlət Universiteti.

Şübhəsiz, türk dilləri üçün milli korpusların yaradılması zamanı artıq hazır olan korpusların yaranma ənənəsindən istifadə etmək olar. Amma bu da nəzərə alınmalıdır ki, fərqli dil ailələrinə, fonetik-qrammatik quruluşa malik dilləri əhatə edən milli dil korpusları eyni ilə türk dillərinə tətbiq oluna bilməz. Linqvistik işarələnmə və təhlil alqoritmləri bu dillərdə fərqli mahiyyət kəsb edir. Türkcə Ulusal Derlem (TUD) mövcud ingilisdilli korpusların layihələndirilməsi və qurulması qaydalarına uyğun hazırlanmışdır.

TUD 50 milyon sözdən (söz-formadan) ibarətdir və 24 illik bir dönəmi əks etdirir. 2013-cü ildə istifadəyə verilmiş TUD 1990-2009-cu illərdə yayımlanan yazılı və şifahi mətn nümunələri əsasında qurulmuşdur. Türkiyə Respublikasında türk dilinin milli korpusu olan Türkçe Ulusal Derlem (TUD) - Turkish National Corpus (TNC) yaradılması və lahiyələndirilməsi sahəsində işlər Türkiyə Universitetlərində ayrı-ayrı yaradıcı qruplar tərəfindən aparılır (araşdırmaçılar (yaradıcı qrup): prof.dr Yeşim Aksan (Mersin Universiteti); prof. dr. Mustafa Aksan (Mersin Universiteti); prof. dr. Selma Ayşa Özel (Çukurova Universiteti); Bilg. Yüks. Müh. Hakan Yılmazer (Çukurova Universiteti); Ögr. Gör. Yasin Bektaş (Mersin Universiteti); Ögr. Gör. Ümit Mersinli (Mersin Universiteti); dr. Gülsüm Atasoy (Mersin Universiteti); Arş. Gör. Umut Ufuk Demirhan (Mersin Universiteti) və bu işlər TUBİTAK (Türkiye Bilimsel və Teknolojik Araştırma Kurumu) tərəfindən dəstəklənir. Hazırda istifadəçilərə təqdim olunmuş Qazax dilinin milli korpusu (http://qazcorpus.kz) 30 milyon sözişlətmədən (söz-formadan) ibarətdir (http://qazcorpus.kz). Özbək Dilinin Milli Korpusunun yaradılması işlərində Əlişir Nəvai

adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universiteti, Fərqanə Dövlət Universiteti, Namanqan Dövlət Universiteti, Özbəkistan Milli Universiteti və başqa təşkilatlarından ibarət yaradıcılıq qrupu iştirak edir (http://uzbekcorpus.uz).

Artıq qeyd olunduğu kimi, Azərbaycanda indiyə qədər bu sahədə bir çox işlər görülmüş, ən əsası isə bu işin nəzəri bazası hazırlanmışdır. Bununla yanaşı "Azərbaycan dilinin tezlik lüğəti"nin birinci cildi çap edilmiş, Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət proqramına uyğun "Azərbaycan dilinin informasiya bazası" (http://azerbaycandili.az/) yaradılmışdır. "Elmin inkişafı fondu"nun dəstəyi ilə hazırlanan "Elektron lüğətlər korpusu"nda (http://korpus.azerbaycandili.az/) isə bir sıra lüğətlərin elektron variantları qoyulmuşdur. Bütün bunlar Azərbaycan dilinin milli korpusunun yaradılması üçün ilkin baza rolunu oynaya bilər. Azərbacyan dilinin milli korpusunun yaradılması sahəsində artıq zəmin yaradıldığından hazırda daha geniş miqyasda işlərə başlamaq olar. Bunun üçün isə daha böyük mətnlər korpusuna ehtiyac duyulur. Belə ki, korpusa daxil edilən mətnlər Azərbaycan dilinin bütün üslublarını eyni səviyyədə və həcmdə ehtiva etməlidir. Məlum olduğu kimi. korpusun həcmi nə qədər böyük olsa, bir o qədər etibarlı və əhatəli hesab olunur.

Azərbaycan dilinin milli korpusuna aşağıdakı mətnlərin daxil edilməsi məqsədəuyğun hesab edilir (təxminən 50 milyon söz-forma):

1. Bədii mətnlər (nəsr əsərləri, nəzm əsərləri, dramaturgiya mətnləri, folklor mətnləri, klassik Azərbaycan ədəbiyyatı, müasir Azərbaycan ədəbiyyatı), publisist mətnlər, rəsmi və işgüzar üsluba aid mətnlər, elmi mətnlər, elmi-texniki mətnlər, humanitar elmlərə aid mətnlər, dini və fəlsəfi mətnlər, dialekt mətnləri;
2. Azərbaycan dilinin elektron lüğətlər altkorpusu (izahlı, orfoqrafiya, terminoloji, omonimlər, sinonimlər, antonimlər, dialektoloji, tezlik, əks əlifba, ikidilli, çoxdilli, frazeologiya, orfoepiya, statistik və s.);
3. Şifahi mətn altkorpusları (məişət- danışıq dili, rəsmi çıxışlar, dialekt mətnləri və s.);
4. Paralel altkorpuslar (ikidilli, çoxdilli, ingilis-Azərbaycan, Azərbaycan-ingilis, rus-Azərbaycan, Azərbaycan-rus, alman-Azərbaycan, Azərbaycan-alman və s.);
5. Çoxdilli və birdilli mətnlər;
6. Linqvistik analizatorlar - dilin müxtəlif səviyyələri (fonetik, morfoloji, sintaktik, sözdüzəltmə, semantik) üçün nəzərdə tutulmuş təhlil və axtarış proqramları;
7. Yazılı mətnin səsə (nitqə), səsin (nitqin) mətnə çevrilməsini təmin edən proqram sistemləri;
8. Tədris altkorpusları;
9. Konkordanslar;
10. Korpusun istifadəsi üçün mükəmməl proqram təminatı (axtarış proqramları).

Azərbaycan dilinin milli korpusunun yaradılması və onun portal kimi internetdə yerləşdirilməsi ümummilli, dovlət əhəmiyyətli məsələdir. Bu işdə Azərbaycan Milli Elmlər Akademiyasının müvafiq elmi-tədqiqat institutları, Elm və Təhsil Nazirliyinin elmi-tədqiqat institutları və onun tabeliyində olan aparıcı tədris müəssisələri, Azərbaycan Respublikası Prezidentinin yanında Elmin İnkişafı Fondu və digər əlaqədar qurumlar fəal olmalıdırlar. Yalnız belə olduqda, Azərbaycan dilinin milli korpusunun yaradılması ilə bağlı aparılan işlərin real nəticəsi ola bilər, Azərbaycan dili dünyanın aparıcı dilləri ilə eyni cərgədə internet məkanında layiq olduğu yerini tutacaq, beynəlxalq aləmdə yüksək səviyyədə təmsil olunacaq.



**Sima CƏFƏROVA**
*Bakı Avrasiya Universiteti,*
*Kitabxana və informasiya mərkəzinin müdiri*

# "Xavərnamə" dastanında samit səslərin müasir dilimizdə fərqli işlənmə məqamları

**Şifahi xalq ədəbiyyatı mənsub olduğu xalqın tarixini, dil quruluşunu, mədəniyyətini, coğrafi arenasını, hətta məişətini özündə ehtiva edən abidədir. Xüsusilə, bu istiqamətdə dastanların tədqiqinin böyük əhəmiyyəti var. Şərq aləminin öyrənilməsində dastanların özünəməxsus çoxsahəli faktlarla zəngin olması diqqət çəkir. Türkiyə alimi prof. Necati Dəmir dastanların mədəniyyət tarixindəki rolunu qiymətləndirərək yazır: "Destan edebi mehsul olmakla bərabər tarihin kırık dökük aynalarıdır. Konuları çoğunluqla tarihi gerçekliklere dayanmaktadır." (2.9)**

Kökü çox qədimlərə dayanan dastanların yazıya alınması X-XI əsrlərə aid edilir.

Türkdilli xalqların ədəbiyyatında "Koroğlu", "Kitabi-Dədə Qorqud" kimi qəhrəmanlıq dastanları daim diqqət mərkəzində olmuş, araşdırılmışdır. "Qəhrəmannamə", "Xavərnamə", Türkiyədə qələmə alınmış "Kitabi-Seyyid Battal Qazi" və digər dini-qəhrəmanlıq dastanları isə Avropa alimlərinin diqqətini hələ XIX əsrdən cəlb etsə də, məlum hakim dövlətin ideologiyasına zidd olduğuna görə öz vətənində boğulub arxa plana keçmək məcburiyyətində qalmışdır. Əslində, zamanında din yolunda mücadilə də qəhrəmanlıq sayılır, bu yolda mübarizə aparanların da əməli qəhrəmanlıq hesab edilirdi. "Xavərnamə" yüksək insanpərvərliyi, gücü və qüdrətilə şöhrət tapmış Hz. Əli ibn Əbu Talibin İslam dini yolunda şücaətlərindən bəhs edən, islam mədəniyyətini özündə əks etdirə bilən, sirf dini-qəhrəmanlıq dastanıdır. Digər qəhrəmanlıq dastanlarından fərqli olaraq burada hadisələr qoşma ilə müşayət olunmur, abidədə vətənsevərlik, elinə-obasına sədaqət, kökə bağlılıq diqqəti cəlb edir. Dastanda xalq yaradıcılığının bütün sahələrində olduğu kimi mifologiya özünə yer almışdır. Dini-qəhrəmanlıq dastanı kimi seçilməsinə baxmayaraq, türk xalqlarının dilini, mədəniyyətini, İslam tarixini öyrənmək üçün xüsusi əhəmiyyətə malik olan böyük coğrafi məkanı əhatə edir.

"Xavərnamə" dastanı Yaxın Şərqdə çox geniş yayılmış, XIII-XIV yüzilliklərdə yazıya köçürülməsi təxmin edilən, mükəmməlliyi ilə diqqəti cəlb edən, İslamın yayılmasının ilk çağlarının tarixini əks etdirən şifahi xalq ədəbiyyatı nümunəsidir. Dastan "Hazreti Ali cengleri", "Xavərnamə" adı altında da yayılmışdır, mütəxəssislərin rəyinə görə hər biri "Xavərnamə"nin nüsxələridir.

Abidənin həm fars, həm də türkcə əlyazmaları mövcuddur. AMEA Əlyazmalar İnstitutu-

nun xəzinəsində üç əlyazma, iki əsgi çap nüsxəsi saxlanılır. Türkdilli əlyazmalar şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Aybəniz Rəhimova mövcud nüsxələr arasından seçilmiş müstəqil, xalq təxəyyülünə yaxın türkcə yazılmış dastan abidəsi üzərində elmi-paleoqrafik müqayisələr aparmışdır. Nəticə etibarı ilə elmi mənbələr əsasında dini-qəhrəmanlıq dastanlarıyla tipoloji təhlil və mətnin müasir Azərbaycan dilinə transfoneliterasiyası oxuculara ilk dəfə A.Rəhimova tərəfindən təqdim olunmuşdur.

Abidədə dil vahidləri, leksemlər, sintaktik uyuşmalar öz araşdırıcılarını gözləyir. Məqaləni yazmaqda məqsədimiz qismən də olsa dilimizin inkişaf yoluna nəzər salmaq və bu önəmli obyektə tədqiqatçıların diqqətini çəkməkdir.

Əsas hissə:

Məqalədə həmin transfonoliterasiya mənbə kimi götürülərək abidənin dili müasir dil baxımından samit səslərin işlənməsi istiqamətindən araşdırılmışdır.

Müasir dilimizlə müqayisədə "Xavərnamə" də işlənən sözlərdə cingiltili səslərin öz kar qarşılığı ilə və ya əksinə əvəzlənmiş olduğunu görürük:

Ğ – X əvəzləməsi - loĞma - loXma;

Divlər duymasun bundə yavuz ifritlər kəhrəbalar vardır. Səni bir loĞma idər.(1. 112)

G - K əvəzləməsi - çəyirtGə - çəyirtKə; eşiG-eşiK; gərəGi - gərəKli

Hər kim, qəpunun eşiGinə (eşik) bassa qapu yuqarudan boşanub eşiGə basan kişiyi həlak idərdi və qapuyə dəmürdən əksərilər mıHlamışlar idi.(1.120)

B - V əvəzləməsi – karBan - karVan

Məgər kim, Əxzərzəmindən bir ulu karBan görükən.(1.75)

D – T əvəzləməsi - Dəpə - Təpə; gürulDi - gurulTu

Qalqanı ilə cübbəsilə Dəpəsindən çalub əgər qaşinə varuncə iki barəqıldı, canın cəhənnəmə göndərdi. (1.81)

T – D əvəzləməsi - Tağ -Dağ; Təban-Daban;




Təvar -Davar; Tönüb -Donub; Tolu - Dolu; Toquz - Doqquz;

Ol səhranın bir tərəfində bir ulu Tağ var idi. Tağın üzərində bir möhkəm qələ var idi.(1.98)

Pəs, Şahi-Turanı üç oğli ilə və qızları ilə və övrətlərin və Toquz vəzirin cümləsin əsir eylədilər.(1.230)

Bəzən yaxın məxrəcdə səslənən samitlər də öz yerini güzəştə getmiş, nəticədə nümunələrdə cingiltili səslər tələffüz zamanı yaxın məxrəcdə daha yumşaq səslənən samitlərlə əvəz olunmuşdur. Bu, tələffüz zamanı sait səslərdən samit səsə və ya samitdən saitə keçidi asanlaşdırır. Bu hal müasir dilimiz üçün tələffüz uyğunluğu, ahəngdarlıq yaradır.

Q - X əvəzləməsi – baQuşub - baXışıb; çuQa - çuXa; çıQarıb - çıXarıb; çıQub - çıXıb; oQuyub - oXuyub; sərvəQt - sərvaXt; soQdi - soXdu; yəQın - yaXın; yaQasən -yaXasın;

Həmandəm, Həzrəti-Əli bunlar baQuşub dururkən bir kəz cigərindən öylə nərə urdi kim, sarayın içi çini tas kibi gümləməgə başladı.(1.203)

Şahi-Mərdan "İsmi-əzəm" oQuyub batil eylədi.(1.120)

Q - K əvəzləməsi - Qəftan -Kaftan

Safi-mücəvhər, mürəssə, qiymətli taşlar ilə müzəyyən Qəftanlar geymiş, adam yüzünə baqmaz və kəndüsi dəxi sərvi-dilavərdirki, əqillər xeyran olur. (1.131)

Q - H əvəzləməsi - Qandəndir -Haradandır; Qanı -Hanı;

Yenə xatirinə təsəlli virüb ayıtdı: "Ey yigit, nə kişisən və gəlişün Qandəndır və qanda gidirsən?" - dedi. (1.76)

Həzrəti-Əli ayıtdı: "Qanı Səd, Qandadır?" (1.118)

B - P əvəzləməsi – Barə - Para(yarı mənasında); Busu - Pusqu;

Ol meydanə girdi. Həzrəti-Əli bunu dəxi bir həmlə də ötə keçürmədi. İki Barə eylədi. (1.168)

Anıgördi iki bin kişi bir yerdən, Busudən çıqub Malik Əjdərün üzərinə həmlə qıldılar. (1.134)

Ğ – K əvəzləməsi - köĞs - köKs dilarxası

Andən sonra Malik Əjdər dəxi qılıca quşanub və atə səvar olub əl köĞsə qoyub bunları vida eyləyüb, tiz yola rəvanə oldı. (1.127)

Bəzən isə cingiltili səs tələffüz incəliyi üçün daha uyğun səslənən digər cingiltili ilə əvəzlənir.

Ğ – Y əvəzləməsi - getdiGün - getdiYin; söĞdülər - söYdülər; söĞrünərək -söYlənərək .

Pəs, Düldül Həzrəti-Əlini göricək uğrayub səĞirdi (səyirtdi). (1.78)

Ğ - Q əvəzləməsi - Ğayət -Qayət; Ğayətlə - Qayətlə; Ğəzəb - Qəzəb; Ğeyz -Qeyz; Ğovğa - Qovğa; Ğul - Qul; iraĞdə - iraQda (uzaqda) rızĞınuzi - rizQinizi yaraĞ - yaraQ.

Zira qatı iraĞdəydim. (1.180)

Əgər ol eybi olmasa, bən anı Ğayət xoş dutardum. (1.80)

Bu tərəfdə, Şahənşah Ğəzəbindən qudurmuş kəlbə döndi. (1.169)

G -Y; M - B; F - P əvəzlənməsi də bu qəbildəndir.

G - Y əvəzləməsi - böGrinə - böYrünə; ciGər - ciYər; diGildür - deYildir; döGə-döGə - döYə-döYə; əGləndim-əYləndim (dayandım); ərliGinə-ərliYinə (igidliyinə); ürəGimdən - ürəYimdən; yüGrək - yüYrək, səGirdi-səYirdi; getdiGün - getdiYin

Bir kərə ciGərindən "ya Allah!", deyü nərə urdi. (1.154)

Şahənşah dəxi hünərlər, afərinlər eyləyüb canu-dildən Malik Əjdərin ərliGinə və ba-hadırlığınə və qüvvətinə və zuri-bazusinə aşiq oldı. (1.133)

F - P əvəzləməsi – Filad - Polad; Pil -Fil. Piruzə - Firuzə;

...bu əzim sarayı dört səfə Süleymanı tərtib eyləmişlər və orta yerində ləlü-yaqut və zəbərcətdən və Piruzədən mürəssə və müzənnə bir təxti-ali bəzənmişkim, hərgiz vəsfə qabil degil... (1.76)

Bəzən samit özündən əvvəlki saitin dəyişməsindən asılı olaraq öz məqamını dəyişir, uzaq məxrəclı saitlə əvəzlənir. Yəni diş-dodaq samiti dodaqlanan saitin tələbinə görə arxa tələffüzlü samitlə əvəzlənir:

V – Y əvəzləməsi - saVuq - soYuq

Əmma ğayət yüksək olmağın, əcib saVuq yellər əsdi. (1.216)

Dastanda boğazarxası samıtlərin də bir-birini əvəz etdiyini görürük. Burada məqam fərqlidir. Müasir dilimizdən fərqli olaraq abidədə sözün tərkibindəki saitlər incədir, müasir dilimizdə qalın saitlə işləndikə tələffüzün tələbi ilə səs dəyişir.

H – X əvəzləməsi – mıHlamışlar - mıXlamışlar boğazarxası

Hər kim, qəpunun eşiginə bassa qapu yuqarudan boşanub eşigə basan kişiyi həlak idərdi və qapuyə dəmürdən əksərilər mıHlamışlar idi. (1.120)

X – H əvəzləməsi – Xəlqə - Halqa (xalq mənasında deyil); boğazarxası

Pəs, Həzrəti-Əli Şiri-Xuda qələ qəpusinəgəlüb iki əlilə Xəlqələrinə yapışdı. (1.198)

Dastanda elə sözlər var ki, onlar saitlə başlanır, amma müasir dilimizdə həmin sözlərin ilk səsi samitlə işlənir. Məs.: urdi -vurdu, uruşdilər - vuruşdular, ur -vur, uxu - yuxu,

Ğürab qaqdı, birinin başinə bir yumruq urdi (vurdu) başi və beyni dağıldı. (1.190)

Nərələr urub ara yerlərinə girdilər. (1.205)

Uyğun olaraq elə sözlər də var ki, abidədə samitlə başlanır, səs düşümünə uğrayaraq müasir dilimizdə ilk samiti düşür və saitlə başlanan formada işlənir. Məs.: yıl -il; yıllıq -illik; yirpənirsən -ürpənirsən; yıraq -iraq; yucasından -ucasından; yücə -uca.

Bir Yiraq (iraq) vilayətə gidəm. Zira, bunun əlindən çigərim qan dolubdur. (1.166)

Gördilər bir yuca (uca) yerdir ki, qülləsi asimana irmiş. (1.219)

Maraqlı haldır ki, dastanda {e} səsi işlənir, amma ahəng qanununun tələbinə baxmayaraq, həmin səs söz əvvəlində və ya sözün ilk hecasında {İ} səsi ilə ifadə olunur. Məs.: İrkək - Erkək (kişi); İrtəsi -Ertəsi; pİşə - pEşə; tİz -tEz; İdüb - Edib; yİnə - yEnə

Daima ol ətrafları iki bin kəndü kibi kafir ilə düşüb yüz qazini kənduyə pİşə edənmiş idi. (1.73)

Müvafiq rüzugar olmaq ilə ol gün ol gecə gidüb irtəsi (ertəsi) Kamkarə, qələsinə yetişdilər. (1.206)

Varun, ol atə əyər urun, qətümə gətürün, təmaşa idəlüm, dedi. (1.77)

Səslərin əvəzlənməsi hec bir samitin arxaikləşməsi demək deyil, hansısa səsin artıq işlənmədiyinə də dəlalət etmir, əksinə həmin samitlər müasir dilimizdə də fəal səslərdir.

Abidədə elə sözlər var ki, bu gün tam əks mənada işlənir. Məsələn, "qatil" sözü bu gün ölümə bais olan mənada işlənir, amma "Xavərnamə"də "igid", "cəngavər" mənasında. Abidədə ahəng pozuntusu da diqqəti cəlb edir Bu barədə, əlbəttə, bu məqalədə geniş məlumat vermək fikrimiz yoxdur, çünki mövzumuz fərqlidir.

Transfoneliterasiyanı oxuduqca aydın olur ki, bütün bu fərqlərə baxmayaraq, abidənin dili müasir dilimizlə yüksək dərəcədə uyğundur və hər hansı oxucu onu oxuyub sərbıst anlaya bilər. XIII-XIV əsrlərdə yazıya köçürülmüş, kökü çox-çox əvvəllərə gedib çıxan "Xavərnamə" dastanının üslub, cümlə quruluşu, ehtiva etdiyi insan adları, toponimlər baxımından günümüzlə bu qədər səsləşməsi, uyğunluq təşkil etməsi Türk - Turan mənşəli dillərin öz kökünə bağlılığını bariz şəkildə təcəssüm etdirir.

Qeyd etməyi lazım bilirik ki, yazılı ədəbiyyatda dahi Azərbaycan şairi Məhəmməd Füzuli yaradıcılığında da müasir dillə müqayisədə samit səslərin əvəzlənməsinə rast gəlirik.

"Rəhm edib aşiqini həşr günü yaQmayalar,

Ki bu dünyada əsiri-qəmi-hicran olmuş." (6, s.163)

yaQmayalar - yaXmayalar.

(Rəhm eləyib məhşər - qiyamət günü yandırmayalar. Axı bu dünyada o, qəm və hicran əsiri olub.)

Abidə xeyli sayda arxaizmləri də qorumaqdadır.

Zənnimizcə, cox qədim və zəngin bir kökə malik dilimizi yad ünsürlərdən qorumaq, yeni sözlərin yaradılmasında ehtiyatlı olmaq, öz düşüncələrini qələmə alarkən dilimizin zəngin söz ehtiyatlarından sevə-sevə istifadə etmək, tədqiqata ehtiyacı olan qədim Türk-Turan dil abidələrimizin araşdırılmasını daim diqət mərkəzində saxlamaq günümüzün vacib məsələsidir.

***Ədəbiyyat siyahısı:***


1. "Xavərnamə" - Bakı: "Elm və təhsil", 2017, səh. 530
2. "Battal-name" (hazırlayanlar: Prof.Dr.Necati Demir, Yrd. Dos.Dr. Mehmet Dursun Erdem). Ankara, "Hece yayınları" 2006, səh.430
3. "Xavərnamə" dastanının B-6117 şifrli əlyazmasının transliterasiyası. Bakı: "Elm və təhsil" 2017, səh.72-235.
4. Dəmirçizadə Ə. "Müasir azərbaycan dili" ( Fonetika orfoepiya orfoqrafiya) Bakı "Şərq-Qərb" -2007, səh. 256
5. Əfəndiyev P. Şifahi xalq ədəbiyyatı. Bakı: "Asiya" 2012, səh.600
6. Məhəmməd Füzuli. Əsərləri, altı cilddə, I cıld, Bakı "Şərq-Qərb" -2005, səh.400



**Tanrıverdi PAŞA**
*ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, iqtisad elmləri doktoru*

# Nobel mükafatçısının töhfələri

## Goldinin həyat və yaradıcılığının əsas məqamları

**10 oktyabr 2023-cü ildə Harvard Universitetinin professoru Claudia Goldin "Qadın əməyinin öyrənilməsində görkəmli töhfələrinə görə" İqtisadiyyat üzrə Alfred Nobel Mükafatını aldı. Claudia Goldin tarixdə iqtisadiyyat üzrə Alfred Nobel mükafatını alan üçüncü qadın oldu.**

1968-ci ildə İsveç Riksbankı tərəfindən təsis edilən İqtisadiyyat üzrə Alfred Nobel Mükafatı əksər hallarda, təkcə bir kəşfə deyil, laureatların müəyyən bir sahədə onlarla, hətta yüzlərlə işini tanıdıqdan sonra verilir. Claudia Goldinlə də belə olub: o, 1970-ci illərin sonlarından qadınların məşğulluğunu araşdırır və təkcə onun ən mühüm nailiyyətləri haqqında Nobel sertifikatında iyirmidən çox elmi məqalə qeyd olunur, onların mövzuları 19-cu əsrin sonunda ABŞ-da Afroamerikalıların əməyindən tutmuş, Amerika universitetlərində MBA dərəcəsi almış kişilər və qadınlar arasındakı maaş fərqinə qədər problemləri əhatə edir.

Klaudiya Goldinə ən böyük şöhrəti onun ABŞ iqtisadiyyatında qadınların rolu ilə bağlı araşdırması və gender maaş fərqinin səbəbləri sualına elmi əsaslandırılmış cavabları qazandırmışdır. Claudia Goldin müntəzəm olaraq dünyanın ən nüfuzlu iqtisadçılarının siyahısında yer alır. Yarım əsr əvvəl o, faktiki olaraq iqtisadiyyatda qadınların rolunun öyrənilməsinin əsasını qoydu və gender iqtisadiyyatının elmdə hamılıqla tanınan istiqamətinə çevrilməsi üçün çox işlər gördü.

Əmək bazarında qadınların mövqeyinin dəyişməsi, əsasən həm tələb tərəfində (məsələn, qadınların işə götürülməsinə qanuni qadağaların aradan qaldırılması), həm də təklif tərəfində müxtəlif məhdudiyyətlərin aradan qaldırılması ilə bağlıdır. Çox vaxt bu dəyişikliklər son dərəcə ləng baş verir - və bu, həm də bu gün bu proseslərin baş verdiyi ölkələr üçün də vacib praktiki nəticədir. Tamamilə mümkündür ki, məsələ yanlış sosial və ya iqtisadi siyasətlə bağlı olmasın, sadəcə olaraq nəsillərin dəyişməsini gözləmək lazımdır.

İnsanlar gənclik illərində harda və nə qədər oxuyacaqları, hara işə gedəcəkləri, ailə həyatı quracaqları və s. qərarlar verirlər, ancaq valideynlərinin təcrübələrinə və ya ətraflarına baxmaqla nəyəsə əsaslanaraq öz gələcəkləri ilə bağlı gözləntilər formalaşdırırlar. Əgər onlar gələcək dəyişiklikləri düzgün qiymətləndirmirlərsə, qeyri-adekvat seçim etmək - məsələn, universitetdə çətin bir ixtisa-

sa daxil olmaq və karyera qurmaq üçün yerinə yetirilməsi çətin olan risklərlə üzləşirlər. Belə ki, 1967-ci ildə sorğuda iştirak edən 20-21 yaşlı amerikalı qadınların yalnız 35%-i 35 yaşında da işləyəcəklərinə inanırdılar. Onların öz gələcəkləri haqqında təsəvvürləri analarının təcrübəsinə əsaslanaraq formalaşıb: o nəslin məşğul qadınlarının payı o zaman təxminən 30% təşkil edirdi. Ancaq qızlar perspektivlərini səhv qiymətləndirdilər - onların ancaq 65% -i 35 yaşdan sonra işlə təmin edilmişdi.

Son 100 ildə bir çox inkişaf etmiş ölkələrdə qadınların işçi qüvvəsində iştirak səviyyəsi üç dəfədən çox artsa da, qadınlar Cənubi Asiya, Şimali Afrika və Yaxın Şərqdə əmək bazarlarında ciddi şəkildə təmsil olunmurlar. İnkişaf etmiş ölkələrdə maaşda gender bərabərsizliyi davam edir: İƏİT ölkələrində qadınlar kişilərdən orta hesabla 13% az qazanır. Goldinin araşdırması, tarixi perspektiv də daxil olmaqla, kişilər və qadınlar arasında əmək haqqı bərabərsizliyinin arxasında hansı amillərin dayandığını anlamağa kömək edir.

1960-cı ildə ABŞ-da ilk oral kontraseptiv dərman Enovid qeydiyyata alınmışdı. İngilis dilli ölkələrdə həm bu dərman, həm də sonrakı bütün oral kontraseptivlər sadəcə olaraq "həb" adlandırılmağa başladı, bu həmin həbin adı ilə bağlı müəyyən "incəliklə" deyil, həm də qadın azadlığında bu "həb"in populyarlığı və əhəmiyyəti ilə bağlı idi. Goldin "həb"in iqtisadi təsirini sübut edən və kifayət qədər dəqiq ölçən ilk şəxs olmuşdur; tədqiqatçının ən çox istinad edilən bəzi əsərləri məhz ona həsr edilmişdir. 2000-ci illərin əvvəllərində Goldin əri, eyni zamanda Harvard iqtisadçısı Lourens Katsla birgə "Həbin gücü: oral kontraseptivlər və qadınların karyera və evlilik qərarları" adlı bir məqalə yazmışdı. Bu məqalədə müəlliflər göstərdilər ki, qadınların karyera inkişafına artan sərmayələri əsasən 1960-cı illərin əvvəllərində qadınlar üçün oral kontra-




septiv olan noretinorelin bazara çıxarılması ilə başlamışdı. 1999-cu ildə The Economist jurnalı doğuşa nəzarət həbini "XX əsri təyin edən ixtira" adlandırmışdı. Goldin və Kats (həm də ekonometrik olaraq) göstərdilər ki, amerikalı qadınlar arasında bu cür dərmanların sürətlə qəbulu "qadınlara hamiləlik haqqında daha çox əminlik təmin edərək, onların uzunmüddətli karyera inkişafına investisiya etmək xərclərini birbaşa aşağı salmışdı".

Qadınlar öz hüquqları uğrunda mübarizə apardıqca, sosial və qanunvericilik normaları getdikcə dəyişdi, ümumən tibb inkişaf etdi və daha əlçatan oldu, abortla bağlı qaydalar yumşaldıldı, qadınlar təhsil sisteminə getdikcə daha çox çıxış əldə etdilər və nəhayət, texnoloji tərəqqi, imkanlar sayəsində getdikcə ağır fiziki əməyin tələb olunmadığı daha çox iş yerləri meydana çıxdı.

Daha sonra, 2006-cı ildə yazdığı bir məqalədə Goldin doğuşa nəzarət həblərinin yaranmasını "sakit inqilab"ın bir hissəsi kimi təsvir etdi: 1970-ci illərin əvvəllərindən etibarən gənc subay amerikalı qadınlar bu kontraseptivlərə çıxış əldə etdilər, ilk nikahların vaxtını gecikdirdilər və qızlara təhsil və karyera perspektivlərini asanlıqla planlaşdırmağa - "evlənmədən və ailə qurmazdan əvvəl şəxsiyyətini-



zi formalaşdırmağa" başlamağa daha çox imkan verdilər. Buna, qadınlar üçün "iqtisadi müstəqillik" dəyərini artıran boşanmanın asanlığı da, kömək etdi.

1960-cı illərin sonunda "həb"in bütün yetkin qadınlara satılmasına icazə verildi (əvvəlcə onu yalnız evli qadınlar ala bilirdi), lakin 1970-ci illərin əvvəllərində bəzi ştatlarda yaş həddini 21-dən 18-ə endirməyə başladılar. Bunun uşaq dünyaya gətirməklə heç bir əlaqəsi yox idi: Vyetnamda müharibə gedirdi və Amerika ordusuna daha çox çağırışçı lazım idi. Yetkinlik yaşının hər yerdə və eyni zamanda azalmaması səbəbindən təbii bir təcrübə yarandı. Tədqiqatçılar gəncliyində oral kontrasepsiyaya çıxışı olan və məhdudiyyətlərlə üzləşmiş qadınların karyera yollarını müqayisə edə bildilər və beləliklə, qadınlar üçün eyni şərtlər daxilində "həb"in iqtisadi təsirini ölçərək, onu digər amillərin təsirindən azad etdilər.

Nəticələr heyrətləndirici idi: oral kontrasepsiyaya çıxış 1970-1990-cı illərdə əvvəllər ancaq "kişi"lər üçün hesab edilən və daha uzun təlim-təhsil tələb edən sahələrdə tələbə qızların sayının artmasına səbəb olan əsas amil idi. ABŞ-da bunlar, ilk növbədə hüquqşünas və həkim, o cümlədən baytarlıq ixtisasları ilə bağlı idi. Hamiləliklərini "idarə etmək" fürsətini nəzərə alaraq, gənc qadınlar evliliyi təxirə saldılar və karyeralarına səy və vaxt sərf etməyə başladılar. Üstəlik, qadınların əmək bazarındakı rolu nöqteyi-nəzərindən, oral kontrasepsiya effektinin abortun leqallaşdırılmasının təsirindən qat-qat güclü olduğu ortaya çıxdı.

Təhsilə çıxışın yaxşılaşdırılması təkcə işçi qüvvəsində iştirakın daha da artmasına səbəb olmadı, həm də amerikalı qadınların obyektiv bilik və bacarıqları yaxınlaşmağa başladığı üçün kişilərlə əmək haqqı fərqini daha tez aradan qaldırmağa kömək etdi. Hələ 1960-cı illərdə ABŞ-da qadınların qazancı kişilərin qazancının orta hesabla 55%-ni təşkil edirdi və bu nisbət 19-cu əsrin sonlarından bəri demək olar ki, dəyişməz qalmışdır. Lakin 1980-ci illərin sonunda o, 70%-i keçdi və sonra dəyişikliklər yenidən yavaşladı. 2000-ci illərin əvvəllərində qadınların və kişilərin əmək haqqı nisbəti hələ də 75% civarında idisə, bu gün ABŞ-da təxminən 80%, İƏİT ölkələrində isə 87% təşkil edir.

Goldin bu arqumentləri müasir məlumatlarla sınaqdan keçirdi - indi tədqiqatçılar əmək bazarında qadınlar haqqında çoxlu məlumat əldə edə bilirlər, bu, artıq tozlu arxivlərdə detektiv işi deyil. Alim sübut etdi ki, qadınların qeyri-rəqabətli olması ilə bağlı arqument çox vaxt işə yaramır: Amerika universitetlərinin MBA proqramlarının məzunları kişi sinif yoldaşları ilə eyni vəzifə və maaş alırdılar. Sonra onlar karyera yüksəlişində də eyni dərəcədə uğurlu oldular - ilk bir neçə ildə gəlir fərqi minimal idi və ya yox idi. Lakin karyerasının beşinci ilində bu fərq bir qədər artdı və onuncu ilində fərq artıq iki dəfə idi. 10-cu ilə qədər qadınlar kişilərə nisbətən işdən yayınmaları daha çox günlə hesablansa da, onların gəlir itkisi işlədikləri saatlardakı fərqdən yüksək idi. ●



**Səmirə MİR-BAĞIRZADƏ**
*AMEA Memarlıq və İncəsənət İnstitutunun*
*"Kulturologiya və incəsənətin nəzəriyyəsi" şöbəsinin aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Sumer/ Şumer sivilizasiyası prototürk mədəniyyəti kimi

**Eramızdan əvvəl IV-III minilliklərdə yaşayan dünyanın ilk sivilizasiyası Sumer/Şumer - sonrakı türkdilli xalqların və türk dilləri qruplarının əsas dili olan prototürk dili sayılır. Sumer dili - aqqlütinativ dil (suffiksal - yəni, söz şəkilçidən ibarət olan) hesab olunur. Sumer dilində söz sırası belədir: mübtəda-tamamlıq-xəbər. Sumerlərdən sonra türkdilli xalq qrupları meydana gəldi: etrusklar, turanlar/tirenlilər, xəzərilər, hunlar, türklər (Altay türkləri, Amerika hinduları və s.).**

**Bəşəriyyətin ən qədim yazısını - Sumerlər** (Şumerlər) əvvəlcə piktoqrafik yazı ilə (piktoqrafik yazı - rəsmlərdən istifadə etməklə, məsələn, yağış kimi bir anlayışı ifadə etmək üçün yazan\katib səmanın simvolunu - ulduzu və suyu (dalğalar rəmzi) birləşdirməli idi - bu yazı hərfi-ideoqrafik olaraq - rebus adlanırdı), **sonralar - mixi yazısı, yəni, əşyaların tam və kifayət qədər təfərrüatlı təsvirindən - onların tam, sxematik və ya simvolik / rəmzi təsvirinə keçirlər.**

Yazılar gil plitələrə və ya lövhələrə çəkilirdi: yumşaq gil düzbucaqlı çubuq və ya qamışın küncü ilə sıxılırdı (Gilqamış - yəni yazını bacaran, təhsilli olan). Ümumiyyətlə, yazı - üçbucaqlı, mıx şəkilli  qısa xətli kütləsi idi və buna görə də sumer yazısına mixi yazılar deyilirdi. Sonradan şəkil yazısı prinsipi sözün səs tərəfinin ötürülməsi prinsipi ilə əvəz olunmağa başladı. Saitlərə uyğun gələn yüzlərlə işarə meydana çıxdı. Onlar köməkçi sözləri və hissəcikləri təmsil etmək üçün istifadə edilmişdir. Yazı - Sumer mədəniyyətinin yüksək və böyük




nailiyyəti idi. Bu yazı akkadlar, babillilər (samit mədəniyyətinin nümayəndələri) tərəfindən götürülmüş və sonralar Qərbi Asiyada geniş yayılmışdır: mixi yazısı - Suriyada, qədim Farsda və digər dövlətlərdə istifadə edilmişdir. Era-







mızdan əvvəl II minilliyin ortalarında mixi yazısı- beynəlxalq yazı sisteminə çevrildi: hətta Misir fironları da bunu bilirdilər və istifadə edirdilər. Eramızdan əvvəl 1-ci minilliyin ortalarında *mixi yazısı - əlifba* yazısına çevrilir.

**"Kur"** ("kur " sözü sumercə "dağ" mənasını verir; bu sözün kökündən olan "kurqanlar" sözü - dağcıq, yanı təpəcik formada məzarlardır (an/van-məkan mənasını verir); həmçinin Kür çayı - dağdan gələn Türkiyə ərazisindəki Allahuəkbər dağının şimal-şərq yamacından, 2740 m. hündürlükdən başlanan dağdan süzülən yerüstü və ya yeraltı sular və çaylardır -S.M. qeydi) və ***"mektep"*** (türkcə "mekteb/məktəb") ***sözlərindən nümunə götürərək isimlərin hallanmasını izləyək ((6.MahametdinovR.F.*** "Dünya sivilizasiya tarixində türklər" monoqrafiyanın sumer və türk qrammatikasına aid nümunələri əsasında misallar, s.46-47.):

| **Sumer dili isminin hallanması:** | **Türk dili isminin hallanması:** |
|---|---|
| Yerli-yönlük hal: kurre (dağa doğru) | Yönlük hal: mekteb**e** (məktəbə) |
| Çıxışlıq: kur**ta** (dağdan) | Çıxışlıq: mektep**ten** (məktəb**dən**) |
| Yiyəlik :kur**gin** (dağın) | Yiyəlik: mekteb**in** (məktəbin) |

| **Miqdar sayları:** | | |
|---|---|---|
| | Sumer | Türk |
| 3 (üç) | Eş | өч\öç (tatar dili), üç (azərb. turkçəsi) |
| 10 (on) | U | Ун/un (tatar dilində); On (azərb.) |

| **Şəxs əvəzliklər** | |
|---|---|
| Sumer dilində: | Türk\azərbaycan dilində: |
| menden (1 şəxs, cəm) - biz | mən (1 şəxs, tək) |
| ze (2 şəxs , tək) - sən | sen (2 şəxs, tək) - sən |
| ane (3 şəxs, tək) - o (kişi) | onu (3 şəxs, tək., təs. hal) |

**Sual əvəzliyi "Nə?"**
Sumercə-**"A-na?"** - Türkçə- **"Ne?"**

Sumerlər - akkad, babil (samitdilli qrup və mədəniyyəti) mədəniyyətlərinin əsasını qoyanlardan olmuşlar. Sumerlərin mədəniyyəti - bütün mədəniyyətlərin bünövrəsini qoyan böyük sivilizasiyadır, o - bütün digər qədim mədəniyyətlərə təsir etmişdir. Sumerlər bəşər tarixində ilk şeiri - "Qızıl əsr"i yaratdılar, ilk elegiyaları, himnləri yazdılar və dünyanın ilk kitabxana kataloqunu tərtib etdilər. Sumerlər dünyanın ilk tibbi kitablarının və reseptlər məcmualarının müəllifləridir. İlk olaraq, onlar altı onluq sistemı, əkinçilərin təqvimini hazırlayıb yazmışdılar və qoruyucu əkinlər haqqında ilk məlumatları gələcək nəsillərə çatdırmışdılar. Hətta bəşər tarixində ilk balıq qoruğunun yaradılması ideyası ilk dəfə yazılı şəkildə sumerlər tərəfindən qeydə alınmışdır.

Memarlıqda - zikkurat - yüksək pilləli qala (piramida) - ( En - məbədin baş kahini, Ensi- məbədin təməlini qoyan kahin) və gümbəz, divar və tavan tağları yaratmışdılar.

Sumerlər öz əcdadlarının cənub-şərqdən, yəni Hindistanın cənubundan gəldiyinə inanırdılar (Etrusk mətnlərində Hindu ölkəsi - "ğörüntülü (ğözəgörünən) ölkə" mənasını verir). Həqiqətən







də Hind okeanının dibində yerləşən Proto-Harrap şəhərləri - Sumer şəhərlərindən 2 min il yaşlıdır. *Arxeoloji məlumatlara görə, Harrap sivilizasiyasının ərazisində bir neçə mədəni subregionlar seçilir. Mesopotamiyada və Dilmunda - harrap dilində danışan və yazan insanların yaşadığı da məlumdur, hətta meluh dilindən tərcüməçisinin sumer möhürü (eme-bal me-luh-ha) tapılmışdır. Mesopotamiya və Dilmun Harrap yazılarında - Harrap sivilizasiyasının əsas mərkəzləri üçün naməlum olan işarələrin regional variantları rast gəlir.* (3. Dünya dilləri: Qərbi Asiyanın qədim relikt dilləri / REA. Dilçilik İnstitutu. Redaksiya qrupu : N.N.Kazanski, A.A.Kibrik , Yu.B.Koryakov.- M.: Academia, 2010, A.Davletin, D.Belyaev Harrap dili//s.196).

Erkən Sumer tanrıları/mələkləri- eramızdan əvvəl IV-III minilliklərdə ilk növbədə həyat nemətləri və bolluq bəxş edənlər, eləcə də böyük şəhərlərin himayədarları kimi çıxış edirdilər. Məhz buna görə insanlar onlara hörmət edirdilər, onlar üçün məbədlər tikilir və qurbanlar verilirdi. Bütün tanrıların ən qüdrətlisi - bu tanrı idi: **An** (Akkadca - **Anu**) - Göy tanrısı (sumerlər onu həmçinin **- "Din Gir (Dingir)"**  yazıb tələffüz edirdilər - Asiya türkləri arasında isə - **"Tenqri"/"Tanrı"/" Taarı"** kimi tanınırdı); o - bütün tanrıların/ mələklərin atası sayılırdı ; mələklər, insanlar kimi, lazım gələrsə ondan (An-dan/ Dengir-dən) kömək istəyirdilər; sonralar o (An) - güclü hakimiyyət ideyasını təmsil etdi. **An - Uruk** şəhərinin himayədarı sayılırdı.

**Enlil** - (müsəlmanlar arasında - baş mələk Cəbrayıl - Allahın ən yüksək mələyidir) - küləyin, havanın və yerdən göyə qədər bütün məkanın tanrısıdır\mələyidir, o - yer çapanı icad edərək , onu bəşəriyyətə bəxş etdi və yerin, məhsuldarlığının himayədarı kimi sayılırdı və hörmət edilirdi, daha sonra bu tanrı/mələk güc ideyasını təcəssüm etdirdi. Onun əsas məbədi - **Nippur** şəhərində idi.

**Enki - Eredu** şəhərinin qoruyucusu, o - okeanın və şirin suların tanrısı/mələyi kimi tanınırdı (müsəlmanlarda onun prototipi- Mikail mələyidir). Ümumiyyətlə, Su kultu - Mesopotamiyanın qədim sakinlərinin inanclarında böyük rol oynamışdır. Suya münasibət birmənalı deyildi: su - xeyirxahlıq mənbəyi, məhsul və həyat gətirən, məhsuldarlıq simvolu hesab olunurdu; digər tərəfdən isə - dağıntılara və dəhşətli bədbəxtliklərə səbəb olan su - güclü və mərhəmətsiz bir element kimi çıxış edirdi. Sonralar Enki - bütün sənətkarlıqda və incəsənətlərdə bilikli olan müdriklik və bilik tanrısını/mələyini təmsil etdi və falçıların və sehrbazların himayədarı elan edildi.

Gil lövhələrdə yazılmış qədim Sumer-Akkad ədəbiyyatının bir çox abidələri qorunub saxlanılıb və XIX əsrdə alimlər, demək olar ki, hamısını oxuyub deşifrə etməyi bacarıblar. 1802-ci ildə alman müəllimi Georq Fridrix Qrotefend ikidilli mütəxəssisi (bilinqva) olmadan, kombinator metodundan istifadə edərək, qədim fars mixi yazısını qismən deşifrə etdi; 1851-ci ildə isə mixi yazı elminin "müqəddəs üçlüyü" **Hinks, Ravlinson və Oppert** - nəinki **qədim azəri/fars dili** (yanı **Avesta dili** - farslardan əvvəl - azəri (protofars) dilində yazılmış müqəddəs İbrahim peyğəmbərin dilində yazılmış müqəddəs kitabonu Meri Boys öz tədqiqatlarında azəri-İbrahim peyğəmbərin dilinin tarixi qrammatikası əsasında yazıb) üçün möhkəm təməl qoydular, həm də **akkad və sumer** dillərinin deşifrənin yolunu aç-



**Nuh peyğəmbərin məzarüstü türbəsi. Naxçıvan**

dılar. Onlar bununla Yaxın Şərqin geniş torpaqlarında basdırılmış gil "kitabların" tozlu səhifələrini açdılar. İndi müəyyən edilmişdir ki, mətnlərin əksəriyyəti - tanrıların himnləri, dualar, dini miflər və əfsanələr, xüsusən də dünyanın yaranması, bəşər sivilizasiyası və kənd təsərrüfatı haqqındadır. Çar sülalələrinin siyahıları uzun müddət məbədlərdə yazılıb, saxlanılırdı. **Ən qədim siyahılar -Ur şəhərinin kahinləri tərəfindən sumer dilində yazılmış siyahılardır.**

**Daşqın haqqında əfsanələr** də dünya ədəbiyyatına müstəsna dərəcədə güclü təsir göstərmişdir. "Gilqamış haqqında dastan"-Uruk şəhərinin şahı Gilqamış (e.ə.XXVIIIə.) və onun sülaləsi haqqında tarixi yazılardır. Gilqamış-adi insanın və Ninsu xanım-tanrının/mələyin oğludur. O ölməzliyin sirrini tapmaq üçün bütün dünyanı gəzir və Enkid adlı insan ilə dostlaşır. Burada həmçinin dünyanın sel haqqında əfsanəsi var: Allahlar\mələklər bütün yer üzündə bütün canlıların və insanların günahlarına görə məhv etmək istəyirlər. Əfsanədə deyilir ki, tanrılar öz aralarında mübahisə etdirdilər ki, bəşəriyyəti məhv etməyə dəyərmi? Onların bəziləri inanırdılar ki, insanları - günahlarına görə cəzalandırmaq və onların günahlarına görə sayını azaltmaq, öldürmək üçün, insanları yanğınlarla, eləcə də vəhşi heyvanları göndərməklə azaltmaq olar. Yalnız bir insana-Ziusudraya/Ziusudsudraya (Nuh peyğəmbərə) Allah\mələk kömək edir. O (yənı mömin Zausudra (Nuh/Noy peyğəmbər) onun məsləhəti ilə böyük gəmi tikir, başqa yerə gəmi ilə üzür və məskən salır. Bu paraleli Nuh/Noy haqqında rəvayətlərdə də görmək olar.

**Nuh Peyğəmbər** - Azərbaycanda - **NUH**-Cİ-VAN-DA - Qəmiqaya ilə məskən salan Allahın elçisidir. Bibliyada onun adı -"Noydur"- "Ağlamaq" mənasını verir, ərəbcə "növhə" də bu sözlə bir kökdəndir. Musəvilərin hesabına görə, Nuh Peyğəmbər - Adəmin yaranmağından hesablanan tarixlə 729-cı ildə (m.ö.4490-cı il) dünyaya gəlib, 950 il yaşayıb, miladdan öncə 3540-cü ildə Naxçıvanda vəfat edib. **Sim** (samitdilli xalqların mədəniyyətinin əsasını qoyub(bunlar - akkad, babil, nabatilər və b.-qeyd S.M.)), **Xam** (afrikadilli xalqların mədəniyyətinin əsasını qoyub (misir və başqa afrika mədəniyyətləri-qeyd S.M.)) və **Yafəs** (türkdilli xalqların mədəniyyətinin əsasını qoyub.-qeyd S.M ) - Bu üç oğlundan irqlər və qövmlər törənib. **Yafəs** (ivritcə יפת Yafət, latınca Iapheth, ərəbcə يافث Yafis, yunanca Ιάφεθ ) - türklərin ulu babası sayılır. Bu məntiqlə, ilkin türklərin Azərbaycanın Naxçıvan bölgəsindən çıxdığını deməyə tam haqqımız var. Naxçıvanda (Nuhçivanda) Nuh Peyğəmbərin məqbərəsi yerləşir. (4.F.Qurbansoy "Azərbaycana göndərilən peyğəmbərlər", monoqrafiya,-Bakı,-2017,- s.56; Bakıxanov A.Q.Gülistan-i-İrəm,-Bakı,-1991).

Azərbaycanda sumerlərın, türkdilli xalqların davamçıları - xəzərlər olub. Burada olan Xəzər peyğəmbərin adı və toponmlər - Xəzər dənizi,





**Xızır dağı Xəzər/Xızır dənizi**

Xızır (sonralar Xızı) dağları (Xəzər peyğəmbərin dağı) ona işarə və istiqamətdir. Xızır peyğəmbərdən sonra türkdilli xəzərlər - yəhudi, xristian və islam dinini qəbul etdilər.

Sumer mədəniyyəti -yazını və onun birinci forması - mixi yazısını, metalları emal etmək bacarığını, çarx və dulus çarxını bəşəriyyətə təqdim etdi.

Sumer astronomiyası və riyaziyyatı bütün Yaxın Şərqdə - ən dəqiq idi və dünyada birinci idi. Biz bu günə gədər sumerlər kimi ili - dörd fəsilə, on iki aya və on iki bürc işarələrinə bölürük, altı onluqda - bucaqları, dəqiqələri və saniyələri ölçürük. Sumerlər - heliosentrik sistemdən istifadə edərək, görünən planetlərin və ulduzların doğuşunu və enişini yerin üfüqü xətti ilə ölçürdülər. Bu xalq - yaxşı inkişaf etmiş riyaziyyata sahib idilər, onlar astrologiyanı bilirdilər və onu geniş istifadə edirdilər. Maraqlıdır ki, sumerlər bugünki kimi astroloji sistemə malik idilər: onlar kürəni hər biri 30 dərəcə olan 12 hissəyə (Bürcün 12 evi) bölürdülər. Sumerlərin riyaziyyatı - çətin bir sistem idi, lakin o, kəsrləri hesablamağa və milyonlara qədər ədədləri vurmağa, kökləri çıxarmağa və dərəcəni yüksəltməyə imkan verirdi və bu gündə istifadə olunur.

Sumerlərin inkişaf etmiş dövlət sistemi var idi - onların münsiflər heyəti, xalq seçkilərinə əsaslanan demokratik idarəetmə orqanları mövcud idi, hər bir qədim sumerin hələ Roma və Qədim Yunanıstandan əvvəl, özünü qoruyan hüquqları olmuşdur. Dünyanın ilk kərpicləri - məhz Sumerdə yapılıb - bişirilmiş və onlardan çoxmərtəbəli binalar, saraylar və məbədlər tikilmişdir.



Sumerlər - əla səyyahlar və tədqiqatçılar idilər - onlar dünyanın ilk gəmilərini icad etmişdilər. Akkad lüğətində - Sumer sözlərindən ibarət olan müxtəlif növ gəmilər üçün - onların ölçüsünə, təyinatına və yükün növünə görə ən azı 105 sözlər, işarlər var idi.

Daha heyrətamiz olan - sumerlərin müxtəlif metallardan ərintilərin alınması üsulları var idi, burada metallar qızdırıldığı zamanı birləşirdilər.

Sumerlər bəşər tarixinin bütün gedişatını dəyişdirən sərt, lakin asanlıqla emal olunan metalı - bürünci istehsal etməyi öyrəndilər.



Sumer kahini

Sumerlər - tarix səhnəsindən itib və Babilistanda sumer dili danışılmasa da, şumer yazı sistemi (mixi yazısı) və bir çox dini elementləri - Babil və sonrakı Assuriya mədəniyyətlərinin, eləcə müasir dünyada böyük bir ərazisini əhatə edən türk mədəniyyətinin tərkib hissəsini təşkil edirdi. Uzun əsrlər boyu Sumer dili Yaxın Şərqdə (xüsusilə ədəbiyyat və din sahəsində) beynəlxalq dil olmuşdur.

Sumerlər - Yaxın Şərqin böyük ərazilərində sivilizasiyanın əsasını qoydular və onların genetik olan davamçısı - türk mədəniyyətinə (xüsusilə İkiçayarası və Qafqaz regionunda yaşayan türkdilli xalqların mədəniyyətinə) böyük töhfələr verdilər. Onlardan miras qalmış təsərrüfatın təşkili üsulları, texniki bacarıqları və elmi məlumatları - onların davamçılarının həyatında son dərəcədə mühüm rol oynamışdır. ●

***Ədəbiyyat:***


1. Markova A.N. Kulturologiya. Dünya mədəniyyətinin tarixi. Moskva,-Uniti,-2000.
2. Mir-Bağırzadə S.Kulturologiya. Dərs vəsaiti, Bakı, 2020.
3. Dünya dilləri: Qərbi Asiyanın qədim relikt dilləri / REA. Dilçilik İnstitutu. Redaksiya qrupu: N.N.Kazanski, A.A.Kibrik , Yu.B.Koryakov.- M.: Academia, 2010, A.Davletin, D.Belyaev Harrap dili//s.196.
4. Qurbansoy F. "Azərbaycana göndərilən peyğəmbərlər", monoqrafiya, -Bakı,-2017,- s.127. 5. 5. Bakıxanov A. "Gülüstan-i-İrəm",- Bakı,-1991, s. 394.
6. Muhametdinov R.F. Dünya sivilizasiya tarixində türklər, 2017.
7. İnternetdə ensiklopediyalar, lüğətlər.



**Fəridə QULİYEVA**
*AMEA Memarlıq və İncəsənət İnstitutunun*
*“Təsviri və dekorativ-tətbiqi sənətlər” şöbəsinin aparıcı elmi işçisi,*
*sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent*

# Hüseyn Cavid pyeslərinin səhnəqrafiyasının tərəqqisi

**Romantizm üslubunda yazılan Hüseyn Cavid pyeslərində mütləq həqiqətə bağlı olan ali bir əqidə və onun öz bətnində tükənməz qüdrət mənbəyi kimi gizlətdiyi kamil bir hürriyyət vəsf olunub. Müəllif, əsərdə qoyduğu ideya vasitəsi ilə pyeslərində ətraf mühitə öz münasibətini bildirir. O, əsərlərində son dərəcə sadə və doğru, lakin qeyri-adi bir təfəkkür tərzi ilə qəhrəmanlarına əsl həqiqəti dərk etdirir, onların əsərdə təsvir edilmiş əməlləri və həyat yolları vasitəsi ilə humanizmin, saf niyyətlə sağlam düşüncənin vəhdətini mədh edir, ədalətsizlik və korkoranə zahiri sui-itaətkarlığa qarşı etiraz fəryadını ucaldır. Dramaturqun ideyası əsərə ustalıqla sirayət etdirilərək, onun (yəni əsərin) müxtəlif hissələrini və detallarını vahid ana xətt ətrafında birləşdirir. Etalon fikirdən məhrum olan, yəni ideyasız pyesin tamaşa variantında tamlıq yaratmaq qeyri-mümkündür. İdeya, bütün personajları və bütün süjet xəttini vahid konfliktdə (xeyir-şər qarşıdurmasında), "ümumi düyündə" birləşdirir.**

Hüseyn Cavid yaradıcılığı AMDT-nın fəaliyyətində silinməz iz qoyub. Onun bütün əsərləri ilk dəfə bu teatrda tamaşaya qoyulmuşdur (3, s. 27).

AMDT-nın adı yarandığı vaxtdan müxtəlif zamanlarda bir neçə ad altında fəaliyyət göstərib. AMDT-ı 1919-cu ildən 1920-ci il aprelin 28-dək teatr - Dövlət teatrı, 1920-ci ilin aprelindən sonra - Müstəqil Azərbaycan Hökumətinin Teatr Truppası, 1921-ci il 1 martdan etibarən Dadaş Bünyadzadə adına Dövlət Malı teatrı, 1924-cü ildən sonra D. Bünyadzadə adına Dövlət Türk Akademik Dram Teatrosu, 1929-cu ildən sonra D. Bünyadzadə adına Türk Bədaye Teatrı, 1933-cü ildən sonra Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı, 1959-cu ildən sonra M. Əzizbəyov adına Azərbaycan Dövlət Akademik Dram Teatrı adlandırılıb. 1991-ci ildən etibarən Azərbaycan Akademik Milli Dram Teatrı adlandırılıb. Hal-hazırdada teatr bu ad altında fəaliyyət göstərir (2, s. 6, 7, 8).



XX əsrin əvvəllərində AMDT-da səhnə dekorasiyası sahəsində peşəkar rəssamlar çox az idi. "Teatro tamaşasının kuruluşçu-avtorları həm rəssam, həm də rejissor"lar idi (1, s. 52). 1920-ci illərin əvvəllərinin afişalarını və tamaşalar haqqında yazılı məlumatları izlədikdə, görürük ki, əksər tamaşalarda rəssam-dekorator mövcud olmayıb. Ümumiyyətlə, tamaşalar barədə yazılarkən onun tərtibatı haqqında məhdud məlumatlar verilib. Buna baxmayaraq, mövcud olan foto şəkillər, eskizlər və yazılı mənbələr əsasında AMDT-da gedən H. Cavid tamaşalarının səhnə tərtibatı haqqında mümkün olan məlumatlar vermək və bunun əsasında obyektiv təssəvvür yaratmaq mümkündür.

Azərbaycan teatr tarixində böyük bir dövrü əhatə edən H. Cavid teatrının tarixi 1920-ci ildən başlayır. H. Cavid teatrını tədqiq edən Tamila Təhmasib onun tarixini 3 dövrə bölüb (4, s. 44). I dövrdə 1920-26-cı illərdə dramaturqun "İblis", "Şeyda", "Şeyx Sənan", "Afət", "Uçurum", "Topal Teymur" pyesləri tamaşaya qoyulub. II dövr 1929-cu ildən 1935-ciilədək davam edir. Bu dövrə xas olan məhdudiyyət şəraitində "Knyaz", "Şeyx Sənan" və "Səyavuş" əsərləri oynanılıb. 1937-1956-cı illər ərzində H. Cavidin yaratdığı əsərlərdən heç biri siyasi səbəblərə görə tamaşaya qoyulmayıb. Yalnız 1956-cı ildən H. Cavid teatrı tarixinin III dövrü başlayır. Bu ildən sonra AMDT-da H. Cavidin "Şeyx Sənan" (1956), "Səyavuş" (1959), "Xəyyam" (1970), "Knyaz" (1974), "İblis" (1982) pyesləri tamaşaya qoyulub.

Bu tarixi dövrlərdə Azərbaycan səhnə tərtibatı da müəyyən mərhələlərdən keçib. 1920-ci illərin əvvəllərində teatr tamaşaları ayrı-ayrı miniatürlərdən təşkil olunurdu. Tamaşanın təsvir hissəsi illüstrativ xarakter daşıyırdı. Azərbaycan teatrı 1920-ci ildən əvvəl Azərbaycan xalq teatrı, dini teatr, həvəskar teatr kimi tərkib hissələrdən təşəkkül tapmasını nəzərə alaraq, qeyd etmək lazımdır ki, həmin dövr üçün səciyyəvi olan bu tamaşalarda məzmuna-mövzuya uyğun şərti, dekorativ, simvolik rəng çalarlarına



malik tərtibat üsullarından istifadə olunub. Bu haqda Dilarə Səfərəliyevanın kitabında geniş məlumat verilir (7).

Professional səhnə tərtibatı işi 1920-ci ildən başlayaraq tədricən inkişaf edib. 1924-cü ilin yay ayında teatra dəvət alan Aleksandr Tuqanovun fəaliyyəti dövründə, ona xas olan üslub - "konstruktivizm tərtibatı şəkilləri" (1, s. 53) tətbiq olunmağa başlayıb. Ümumiyyətlə, o illərdə Bakı teatrlarında pyeslərin tərtibatı 3 plan üzrə gedirdi: "1) naturalizm, 2) həcmi-tərsim, 3) konstruktivizm (mücərrəd və realist)". (1, s. 52). 1927-ci ildə Vsevolod Yemelyeviç Meyerxoldun teatrının Bakıya gəlişi ilə əlaqədar olaraq, Meyerxold sisteminin üslub izi Azərbaycan teatr incəsənətində özünü göstərib. Tamaşa əksərən boş səhnədə qoyulur, aktyorlar rollarını pilləkanlar üzərində ifa edirdilər. (5, s. 88). Səhnə dekorasiyasında eyni zamanda, realistik mövqe tamaşanın ictimai məzmununun açılışı meylini möhkəmləndirirdi. Bu illərdə teatrda rəssam-dekorator kimi Nikolay Kuleş, Vyaçeslav İvanov, Əzim Əzimzadə, Rüstəm Mustafayev və s. kimi rəssamlar fəaliyyət göstərib. Ümumiyyətlə, XX əsr səhnə tərtibatı tarixində gedən üslub dəyişkənliyi müəyyən mənada Azərbaycan incəsənətində də müşahidə olunmaqdadır. XX əsrin II yarısının teatr dekorasiyasının vəziyyətini Bella Erenqross belə şərh edir: "müasir tamaşaların bədii tərtibatında il-



lüstrasiyalılıqdan daha çox qaçılmış, səhnədə nəqledici detalların sayı azaldılmaqdadır, tamaşalar daha çox dinamikləşir, dekorasiyalarda daha çox lakonikliyə meyl artmışdır" (8, s. 77). Lakin XX əsrin 60-cı illərinin II yarısından başlayaraq incəsənətdə gerçəkliyin yeni baxımdan dərk edilməsi artıq bədii formaların müsbət mənada dəyişməsinə gətirib çıxarmışdır. Yəni bu zamanda əşyanın, insanın və ya ictimai münasibətlərin gizli mənasının izharı məsələsi ön plana çıxaraq məcbur edir ki, yeni prinsiplər qəbul edib, gerçəkliyin (bu və ya digər) daxili qanunauyğunluğunun və məna dərinliyinin açılışına əsas yer verilsin. Həm rəngkarlıq, həm də teatrın "vərdişedilmiş zahiri məişət əlaqələri dünyasından gerçəkliyin gizli strukturu aləminə çıxan yolu tapmaq" (6, s. 223) cəhdini qeyd edərək, Yuriy Lotman XX əsrə xas olan mədəniyyətin səciyyəvi xüsusiyyətlərindən olan bu prosesi nəhəng elmi-texniki sıçrayışla və sosial münasibətlər sferasının birdən-birə genişlənməsi ilə izah edir. Müasir teatrda səhnə dekorasiyası qeyd edilmiş prinsip üzrə təcəssüm edərək - pyesin batini mənasını aşkarlama texnologiyası kimi çıxış edən, daima hərəkətdə olan yeni bir elmi-təcrübi sahənin - səhnəqrafiya predmetinin səviyyəsinə qalxıb. Xüsusilə dramatik konfliktli tamaşanın daxili mövzusunun açılmasına səhnəqrafiya vasitələri müstəsna şəkildə xidmət edib. Həmin "texnoloji" prinsiplər əsasında səhnə dekorasiyasına quruluş verməkdən ötrü, ilk növbədə tamaşaya qoyulan pyesin ümumi obrazı aşkar edilir.

Beləliklə, XX əsr H. Cavid teatrının tarixi dövrlərində səhnə tərtibatı sahəsində gedən üslub dəyişikliyini konkret olaraq belə şərh etmək olar:

I dövrdə (1920-1926) dekorasiyalar illüstrativ-nəqledici xarakter daşıyır, səhnə realistik təsvirlər ilə tərtib olunurdu;

II dövrdə (1929-1934) dekorasiyalar içərisində konstruktivizm (mücərrəd və realist) üslubu özünü göstərirdi;

III dövrdə - 1956-cı ildən 1970-ci ilə qədər oynanılan tamaşaların dekorasiyalarında real mühiti lakonik, bir qədər simvolik mahiyyət daşıyan təsvirlər vasitəsi ilə təqdim etmişlər. 1970-ci ildən sonra isə artıq yuxarıda qeyd etdiyimiz kimi pyesin batini mənasının açılması məqsədi qarşıya qoyulmuş ideyaya əsasən, pyesin "ümumi obraz"ı tapılıb təqdim edilmiş və beləliklə, səhnəqrafiya ideya-fəlsəfi xarakter daşımışdır.

***Ədəbiyyat***


1. Əfəndiyev M.S. Proletar teatrosu uğrunda. Bakı, Azərnəşr, 1931,140 s.
2. Rəhimli İ. Füzuli meydanında sənət məbədi. Bakı, Sabah, 1996, 168 s.
3. Səfərov Ç., Babayev A. Şərəfli yol. Bakı, Azərnəşr, 1974, 153 s.
4. Təhmasib T. H.Cavid və teatr. Bakı, İşıq, 1988, 132 s.
5. Миклашевская Н.М. Становление и развитие искусства социалистического реализма в Советском Азербайджане (1920-1945г.) /живопись, графика, скульптура, театрально-декоративное искусство\. Баку, Элм, 1974, 178 с.
6. Лотман Ю.М. Стихотворение раннего Пастернака и некоторые вопросы структурного изучения текста. "Труды по знаковым системам", т. 4, Тарту, ТГУ, 1969, 236.
7. Сафаралиева Д.А. Театрально-декоративное искусство Советского Азербайджана, 1920-1941. Баку, Азгосиздат, 1968, 120 с.
8. Эренгрос Б. Художник в театре. М., Всероссийское театральное общество, 1962, 96 с.



**Эллада АББАСОВА**
*Научный сотрудник Отдела культурологии и теории искусства Института архитектуры и искусства НАНА*

# Архитектура средневекового Азербайджана в исследованиях Рены Эфендизаде

**Значительный вклад в развитие архитектурной науки внесла книга замечательного ученого, заслуженного архитектора Азербайджана, ведущего научного сотрудника НАНА Рены Эфендизаде "Архитектура Советского Азербайджана", выпущенная в 1986 году в издательстве "Стройиздат" (Москва). Она занимает особое место в научном творчестве ученого. Эта книга - ценный труд по изучению архитектуры и градостроительства родного края. Она осветила весь спектр архитектурной жизни республики в советский период.**

В книге исследуются основные периоды и критерии развития архитектуры советского Азербайджана. В пяти частях подробно рассказывается об истоках и развитии архитектуры:

1. Истоки азербайджанской архитектуры;
2. Архитектура Азербайджана 1920-1930-х годов;
3. Архитектура послевоенного периода (1940-1950-е годы);
4. Архитектура конца 1950-1960-х годов;
5. Современный этап развития архитектуры.

В книге рассматриваются наиболее интересные архитектурные и градостроительные сооружения средневековья. Особый интерес привлекла первая часть книги, посвященная древнему зодчеству. В этой части ученый охватила почти всю архитектурную деятельность периода древнего Азербайджана. Рена Эфендизаде анализирует древнее архитектурное наследие азербайджанского народа, исследует классические традиции национальной архитектуры.

Азербайджан обладает древней и богатой культурой. Архитектура как монументальная часть нашей культуры представляет собой интересное и самобытное явление. Многочисленные историко-архитектурные памятники придают Азербайджану своеобразный и величественный вид.

В книге приводятся ценные сведения о различных памятниках культуры страны. Автор скрупулезно исследует архитектурные источники. Ученый отмечает, что своими корнями зодчество Азербайджана уходит в глубокую древность, когда на территории современного Азербайджана существовали такие государственные образования, как Манна, Мидия, Кавказская Албания. Дошедшие до наших дней величественные оборонительные



сооружения - образцы зодчества того периода. Автор свои исследования начала с архитектурных сооружений Дербента. Вот как она их описывает: "Древний Дербент был заключен между двумя параллельными крепостными стенами, которые пересекали узкий проход у самого побережья Каспия. Укрепления Дербента соединялись с гигантской системой оборонительных сооружений, тянувшихся вглубь страны более чем на 40 км".

Рена Эфендизаде также отмечает, что с распространением христианства на территории Кавказской Албании азербайджанские зодчие возводят храмовые комплексы. Наиболее интересные среди них - это построенные в VI в. круглый храм в селении Лекит и базилика в селе Кум.

Город Габала - наиболее изученный памятник градостроительства того периода, руины которого сохранились по сей день в селе Чухур. Габала была крупным городом, имевшим оборонительную систему, значительное число крупных зданий, развитую систему благоустройства, включая водопровод. Автор справедливо отмечает, что с распространением ислама на территории Азербайджана появляются новые типы сооружений - мечети, медресе, бани, крытые рынки, караван-сараи.

Ученый подробно описывает среднестатистический средневековый азербайджанский город; в городах существовали крепости, обнесенные мощными стенами, вокруг которых возникали поселения: "Из них образовывался шахристан - городской район, где обычно сосредотачивались наиболее крупные административные и общественные сооружения, за ними располагались городские предместья - рабады, населенные простым ремесленным и торговым людом. Как правило, города были защищены системой оборонительных рвов и стен, за которыми в случае необходимости скрывалось окрестное население. Ограниченные городскими стенами жилища теснились друг к другу, образуя скученную застройку с запутанной сетью узких улочек и тупиков. Узкие ломаные улицы-коридоры при полном отсутствии уличного озеленения, отбрасывая тень, способствовали защите пешеходов от палящих лучей солнца". Автор описывает такие средневековые города, как Баку, Габала, Барда, Нахчыван, Гянджа, Тебриз, Султание, Дербент, Шамахы и др.

Памятники архитектуры средневекового Азербайджана, которые исследуются в книге: Шамхорский минарет XII в. в Барде (Барда считалась центром наиболее ранней Арранской архитектурной школы средневекового Азербайджана), мавзолей Момине-хатун в Нахчыване, комплекс архитектурных сооружений XIV века в селении Карабаглар, а также оборонительные замки и башни Ширвано-апшеронской школы XII-XV вв., Девичья башня, минарет Сыныг-кала, комплекс Дворца Ширваншахов в Баку, Дворец Шекинских ханов, мавзолей Олджейту в Султание, построенный в XIV в., Голубая мечеть в Тебризе XI в.

Ичеришехер - уникальный памятник градостроительного искусства, донесший до наших дней почти без изменений планировочную структуру, характер застройки и образ средневекового города. В комплексе Дворца Ширваншахов нашли свое отражение луч-

шие традиции восточной архитектуры, обогащенные спецификой Ширвано-апшеронской школы зодчества. Как поэтично характеризует комплекс Рена ханум, "это подлинная симфония камня. Богатая пластика лоджий и аркад, филигранная резьба по камню, украшающая стройные порталы, особенно эффектны в сочетании с некоторой суровостью и аскетичностью гладких каменных поверхностей".

Подробно автор рассказывает и про средневековый Тебриз. Тебриз был одним из красивейших городов Азербайджана, он являлся центром архитектурно-художественной деятельности. По праву, современники называли его "столицей Востока". В XIV в. здесь был построен архитектурный комплекс, состоящий из медресе, завие, мавзолея, бани и базаров. Центральное место в комплексе занимала большая соборная мечеть Али-шаха. Описание этого грандиозного архитектурного сооружения можно встретить в записях арабских путешественников. В отделке мечети использовались лучшие сорта мрамора, глазурованные плиты и даже золото и серебро. Автор причисляет к лучшим образцам мирового зодчества Голубую мечеть в Тебризе, мечеть Али-шаха и мавзолей Олджейту.

Если учесть, что в Азербайджане было несколько архитектурных школ, развивающихся в определенные периоды, то расцвет Нахчыванской школы пришелся на XII в. Сооружения этой школы занимают особое место в архитектуре Азербайджана. Сохранившиеся до наших дней, памятники зодчества Нахчыванской школы, работы выдающегося зодчего Аджеми ибн Абубекра поражают высокой степенью мастерства. Аджеми создал три монументальных архитектурных произведения - два мавзолея и портал с минаретами. Один из мавзолеев построен в 1162 году в честь Юсуфа ибн Кусейра. Это небольшое восьмигранное сооружение, построенное из обожженного кирпича. Из описаний автора: "Четкая архитек-



турно-композиционная система мавзолея создает иллюзорное представление о каркасной системе с заполнением. С высоким мастерством и артистичностью исполнено орнаментальное заполнение, причем каждая грань имеет свой оригинальный рисунок. По верху мавзолея проходит широкая фризовая полоса с куфической надписью изречений из Корана. Тонко выверенный пропорциональный и масштабный строй мавзолея, изящество в прорисовке декора придают этому небольшому сооружению особую торжественность и красоту".

Рассказывая о творениях Аджеми, будет несправедливо не отметить его самое красивое творение - мавзолей Момине-хатун. Мавзолей Момине-хатун является величественным архитектурным памятником, который оказал значительное влияние на целый ряд мавзолеев Азербайджана. Этот мавзолей - самое красивое доказательство любви, памятник любимой женщине, жене правителя Азербайджана. В мавзолее прослеживается та же иллюзорно-каркасная система, присущая творчеству Аджеми. Все грани мавзолея



покрыты сложным, но красивым орнаментом, отдельные детали покрыты голубой глазурью. Куфическая надпись на фризовой полосе выделена оригинальным начертанием и покрыта превосходной бирюзовой поливой. Вытянутые пропорции и филигранная обработка граней придают особое изящество сооружению.

Высокую оценку мавзолею Момине-хатун дал академик М.В.Алпатов: "Такое развитое чувство формы, такая классическая законченность композиции и совершенство выполнения не встречаются в эти годы в архитектуре Средней Европы. От нахичеванского мавзолея веет человечностью как от лучших произведений литературы Востока, вроде поэмы "Шах-наме" Фирдоуси (X-XI вв.) или "Лейли и Меджнун" (XII в.)".

Расположенный на южных склонах Большого Кавказа, древний город Азербайджана Шеки издревле славился своеобразной красотой. Пушкин называл Нуху чудесным городом, а Дворец ханов считал очень красивым, даже лучше, красивее Бахчисарайского дворца. Сам город застроен одно- и двухэтажными жилыми домами усадебного типа. Жемчужиной Шеки по праву считается Дворец шекинских ханов. Из описания Рены Эфендизаде: "Дворец шекинских ханов - редкий пример сочетания народного зодчества с традицией дворцовой архитектуры средневекового Азербайджана. Он представляет собой двухэтажное, прямоугольное в плане здание, сооруженное из красного обожженного кирпича в сочетании с речным булыжником... Архитектура здания решена на контрасте глубоких, богато декорированных ниш входной группы со сплошным ажуром цветных витражей - шебеке, заменяющих остекленения основных залов дворца. Великолепно выполнены обрамления шебеке, виртуозен их геометрический рисунок, сочен цвет". Город Шеки с древней историей и оригинальными, красивыми архитектурными сооружениями и по сей день является одним из красивых городов Кавказа.

Рена Эфендизаде с присущим ей профессионализмом и рвением исследовала средневековую школу зодчества, архитектуру древних городов Азербайджана. Она является автором ряда книг, научных трудов, многочисленных статей. Ученый также является автором ряда жилых домов, она принимала участие в разработке первых серий типовых жилых секций и домов. Исследуя памятники зодчества родного края, Рена ханум Эфендизаде провела огромную работу, эта книга заняла достойное место среди трудов по архитектуре в научной литературе.



**Şakir ALBALIYEV**
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# İlaxır çərşənbə

**Axır çərşənbə İlaxır çərşənbələrin mərasim, ayin, etiqad, oyun və şənliklərlə ən zəngin olanıdır. Burada əvvəlki çərşənbələrdə icra olunan bütün ayin və mərasimlər daha şən, kütləvi xalq şənlikləri kimi qeyd olunardı. Bu çərşənbənin şənlik və mərasimləri özünəməxsusluqlarla daha çox seçilərdi. Şənliklər sübh tezdən suya tapınma ayini ilə başlayardı. Adamlar su üstünə çıxar, su üstündən atlanar, dərdini, arzusunu suya danışar və ondan imdad dilərdilər, xalqa qarşı ədalətsiz iş görənləri, ədavət salanları, nahaq qan tökənləri suya tapşırma xalq arasında geniş yayılmışdı. Bu çərşənbədə bir sıra başqa ayinlər də keçirilər, xalq günortaya qədər ayinləri icra edər, sonar isə havarçalar (yelləncəklər) asılar, başqa şənliklər başlardı.**

Axır çərşənbənin axşam şənlikləri daha gur keçirilərdi. Üzərlik yandırılar, tonqallar alovlanar, bacalardan torbalar sallanar, qurşaq atılar, qulaq falları qurulardı və s.

Axır çərşənbədə yeni əkiləcək torpaq sahələrində, əkin yerlərində kütləvi şənliklər keçirilərdi. Bir çox hallarda isə sayaçıların, cütçülərin nəğmələri, mərasimləri yada düşərdi. Ümumilikdə, axır çərşənbədə torpaq əzizlənər, adamlar torpağı təmizləməyə çıxar, bostan və dirriklərdə müxtəlif ayinlər icra edərdilər.

Odla bağlı şənliklər, əsasən, axşamtərəfi, qaş qaralanda başlar və gecəyarıya qədər davam edərdi.

Selə, Atəşə, Yelə və Torpağa tapınmanı bütövlükdə özündə əks etdirən Axır çərşənbə, İlaxır çərşənbələrin islamdan və zərdüştilikdən əvvəlki görüşlərlə daha çox bağlı olduğunu göstərir".

Prof A.M.Nəbiyev "Torpaq çərşənbəsi" oçerkində İlaxır çərşənbə mərasiminin Selə, Atəşə, Yelə və Torpağa tapınmanı bütövlükdə özündə



yaşatdığını göstərir. Bu fikir əslində İlaxır çərşənbəyə məntiqi baxımdan obyektiv elmi yanaşmanı əks etdirir. Özündən əvvəlki digər üç çərşənbənin ayin və mərasimlərini də özündə cəmləşdirməklə müşayiət olunan axır çərşənbə mahiyyətcə həm də bu çərşənbələr sıralanmasının yekun aktı, çərşənbələr silsiləsinin pik nöqtəsidir. Hər biri müvafiq olaraq yaradıcı təbiət stixiyasının qışın ağır çilləsindən xilasolma bayramı



kimi keçirilən bu çərşənbə şənlikləri nəticədə öz yekun akkordunu Novruz bayramına təhvil-təslim edir. Bu təhvil-təslim coşqusu qışın ağır çillələri üzərindəki qələbə sevincini estafet olaraq Novruz bayramına ötürür. Kədər paylaşanda - bölüşəndə azaldığı kimi, sevinc hissləri də bölüşəndə çoxalır. Özündən əvvəlki üç çərşənbənin sevincini də öz üstünə qalaqlayan İlaxır çərşənbənin sevincin kulminasiya həddi kimi yüksək təmtəraqla müşayiət olunması təbiiliyi əks etdirir. Üstəgəl İlaxır çərşənbə də bu bayram coşqusuna estafet olaraq Novruz bayramına həvalə edir. Təbiətin sevinci ilə cəmiyyətin sevinci də bu məqamda üst-üstə düşməklə, necə deyərlər, M.Müşfiq demişkən, "qiyamət üstündən qiyamət olur". Təbiətin sirri budur: insan da təbiətlə həmrəy olanda, təbiətlə özün bütöv görəndə səmimiyyət və xoşbəxtlik yaşanır. İlaxır çərşənbə (eləcə də Novruz bayramı) mahiyyətcə təbiətlə cəmiyyətin bir araya gəlməsi, bütövlük nümayiş etdirməsi bayramıdır. İnsanlar bu bayramlarda sanki təbiətlə dil tapıb ünsiyyət qura bilirlər, təbiətin dili ilə danışmağı bacarırlar: "Adamlar dan yeri söküləndə bulaq başına gedər, axar suda əl-üzlərini yuyar, sonra arxın üstündən atlanardılar. Qız-gəlinlər səhənglərinin dibinə yeddi balaca daş salardılar. Özü də həmin daşları bulağın gözündən götürərdilər. Kişilər isə üç böyürtkən qanadı qırıb evə gətirər, qapının, darvazanın başına, ya da astanasına keçirərdilər. Səhəngə salınan yeddi daş, eləcə də böyürtkən qanadları o biri ilin son çərşənbəsinədək orda qalardı. Yeniyetmələr və cavanlar özləri gəzib qapı ağzına dəsmal, ya da papaq atardılar. Ev sahibləri onların papağına şirni, qoz, fındıq, qovurğa qoyub qaytarardılar. Əgər dəsmal atan oğlan birinin qızını istəsəydi, onda dəsmalın qırağını düyünləyərdi. Ata-ana qızlarını ona nişanlamağa razı olsa, dəsmalın, düyününü açar və qızın belinə bağlayardı. Razı olmasalar, dəsmala şirni qoyub geri qaytarardılar.

Tədqiqatçı Kəmalə Osmanovanın təqdimatından gətirdiyim bu folklor örnəyində adamların dan üzü bulaq başına getmələri və s. kimi ayin və hərəkətlər icra etməyi fonunda sanki insanların təbiətlə - bulaqla, səhəngə bulağın gözündən yeddi daş götürüb atmaqla, habelə yeniyetmələrin qapılara dəsmal və ya papaq atmaq-

ları ilə simvol dilində ürəklərində niyyət tutmaqla sorğu-suallarına həmin əşyalarla davranışın müqabilində cavab almaqları və s. bu kimi amillər elə bil ki, insanların təbiət dilində danışmalarıdır. Magik davranışlarla, rituallar vasitəsilə arzu-niyyətlərini ifadə etmələri social ünsiyyətin bioloji-təbii əsaslarla baş tutmasıdır. Buna bəlkə də "lal dili" də demək olar. Lal adamlar bir-birlərini hərəkət və mimikalarla anladıqları kimi, ilaxır çərşənbələrdə də tutulan niyyətə müvafiq olaraq görülən tədbirin nəticəsi - dəsmal atan oğlanın istədiyi qızla bağlı verdiyi üstörtülü işarəyə aldığı rəmzi cavabın timsalında - təbiətin dilində əşyalar vasitəsilə aldığı cavab idi.

Bəli, İlaxır çərşənbənin (eləcə də Novruzun) sirli-sehrli əlamətlərindən biri də bu bayram(lar)da insanların təbiətlə bir aurada nəfəs almaları, hətta Süleyman peyğəmbərin bildiyi "quş dilinə" vaqif ola bilmələridir. Bizim üçün adi günlərdə edə bilməyəcəyimiz qeyri-adi hərəkətlərimizin məhz bu bayram günlərində təbiiliklə, adiliklə qarşılanması özü də "quş dili"ndən xəbər verən əlamətdir. İlaxır çərşənbə ilə bağlı mövcud olan bir sıra ayinlərə və s. diqqət etməklə bir daha dediyimizin şahidi olarıq: "İlin axır çərşənbəsi keçirilən fallar ən çox su kultu ilə bağlıdır. Novruz suyu ilə bağlı bir neçə falı nümunə göstərək: "İlin axır çərşənbəsində su dolusu kasa götürüb onun ucuna pambıq dolanmış iki iynə atırlar. Əgər iynələr bir-birlərinə yaxınlaşır, görüşürlərsə, onda ürəyinizdə tutduğunuz niyyətə çatacaqsınız". İnama görə "Novruz bayramı axşamı qızlar axar su yanına bir yumurta, iki (qara, qırmızı) karandaş qoyurlar. Səhər tezdən yumurtanı götürüb baxırlar. Əgər yumurtada qırmızı yazı varsa onun taleyi yaxşı, qara yazı varsa, taleyi qara, pis olacaq. İlkin su əgər iynələr bir-birlərinə yaxınlaşır, görüşürlərsə, onda ürəyinizdə tutduğunuz niyyətə çatacaqsınız". İnama görə "Novruz bayramı axşamı qızlar axar su yanına bir yumurta, iki (qara, qırmızı) karandaş qoyurlar. Səhər tezdən yumurtanı götürüb baxırlar. Əgər yumurtada qırmızı yazı varsa onun taleyi yaxşı, qara yazı varsa, taleyi qara, pis olacaq. İlkin su insanların təkcə taleyini müəyyənləşdirmir, eyni zamanda onları təmizləyir: "Axır çərşənbə gejəsinin səhəri sübh tezdən duruf axar su üstünə getmək, suya salam verif, üstünnən üç dəfə atdanmaq sonar da həmən sudan bir qab gətirib həyət-bacaya, evin dörd bucağına səpmək gərəkdi. Deyirlər ki, belə edəndə ilin xoş gələr, ağrı-acı görməzsən".

Ayrı-ayrı bölgələrə məxsus olan bu folklor nümunələrindən xalqımızın bayramla bağlı mifik inanclara söykənən xoş diləkləri, pak arzu və niyyətləri özünün parlaq ifadəsini tapmışdır.

El-obada addanar,<br>
Şirin olar, daddanar.<br>
Gah attanar, yellənər,<br>
Gah alışar, oddanar.

Açması Axır çərşənbə olan bu tapmacada da xalqımızın bayramla bağlı bədii-poetik düşüncələri ifadə olunmuşdur. Yaxud:

Mal etsən malın olar,<br>
Şanında balın olar.<br>
Yazda, yayda çullanar,<br>
Qış fəsli yalın olar.

Cavabı torpaq olan bu tapmacada isə xalqımızın torpaqla bağlı metoforik düşüncələri əksini tapmışdır. Torpaq çərşənbəsinin keçirilməsindən əsas niyyət isə "qış vaxtı yalın olan" torpağın əzizlənməsi hesabına əyninə baharın yaşıl libasının geyindirilməsi - tapmacalarda deyildiyi kimi, "yazda, yayda məxməri otlarla, rəngbərəng təbii örtüklə çullanmasıdır". İlin sonuncu çərşənbəsini torpaq ünsürü ilə əlaqələndirən tədqiqatçılara görə, məhz torpaq çılpaq - yalın əyninə yaşıl libas geyinməklə qışın ağır çiləsindən qurtulmuş olur və beləliklə, təbiət öz Bahar adlı zərli-zibalı, təravətli taxtına oturmuş olur. Tapmacaların ifadə olunduğu metaforik dil də əslində "quş dili" kimi möcüzəvi - əsrarəngiz bir dildir və insanlar bu füsunkar dillə də torpağı əzizləyib-öyməklə onu qışın ağır soyuq çilləsindən çıxarmağı düşünmüşlər. Beləliklə, torpağın payızda və qışda əynindən çıxartdığı yaşıl libasını təzədən əyninə taxmaqla onun məhsuldar olmasını və bol ruzi-bərəkət verməsini arzulamışlar. İlaxır çərşənbədən sonar gələn Novruz bayramı da özlüyündə elə barlı-bəhərli yaz fəslinin gəlişini simvollaşdırır.



**Sadıx NƏBİYEV**
*AMEA Rəyasət Heyəti aparatının elmi katibi*

# Azərbaycanın ilk qadın akademikləri

**2000-ci ildə, yeni minilliyin astanasında Birləşmiş Millətlər Təşkilatında dünya liderlərinin toplantısında (Minilliyin Sammiti) bəyan edilmiş səkkiz hədəfdən biri "gender bərabərliyinin təşviqi və qadınların rolunun gücləndirilməsi" idi. Bundan beş il əvvəl isə BMT Baş Assambleyası dünya ictimaiyyətinin diqqətini qadınların elmlə məşğul olmasının vacibliyinə cəlb etmək üçün dekabrın 22-i "Qadınlar və Qızlar Elmdə" Beynəlxalq Günü təsis etmişdi.**

Lakin bu hadisələrdən xeyli əvvəl Azərbaycanda ölkəmizə, dünya elminə böyük töhfələr vermiş onlarla qadın alim yetişmiş, onlar ictimai həyatın müxtəlif sahələrində öz samballı sözünü demiş, elmin ən yüksək zirvələrini fəth edə bilmişdilər.



Botanik Validə Tutayuq (1914-1980) Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş ilk Azərbaycan qadınıdır (1968). Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda təhsil almış **Validə Tutayuq** 1934-cü ildə aspiranturaya qəbul olunmuş və elmi tədqiqatlara başlamışdır. O, 1949-cu ildə, 35 yaşında doktorluq dissertasiyası müdafiə edərək biologiya elmləri doktoru elmi dərəcəsi alan ilk azərbaycanlı qadındır. Validə xanım 1939-cu ildən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda botanika kafedrasına başçılıq etmiş, 1957-ci ildə Azərbaycan SSR EA Botanika İnstitutuna direktor təyin olunmuşdur. 250-dən artıq elmi əsərin, 9 monoqrafiyanın, o cümlədən, botanika və biologiya üzrə Azərbaycan dilində ilk dərsliklərin müəllifi olan V.Tutayuqun milli elmi kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur.



Milli incəsənət tariximizə ilk azərbaycanlı kino aktrisası, elm tarixinə isə kimya sahəsində ilk azərbaycanlı qadın alim kimi daxil olmuş **İzzət Orucova** (1909-1983) ölkəmizdə yaradılan bir sıra aşqarların və onların əsasında alınan motor yağlarının müəlliflərindəndir. O, 1962-ci ildə "Bakı xammalından aşağı temperaturlu yağların alınması texnologiyasının işlənib hazırlanması və aşqarların köməyi ilə onların keyfiyyətinin yaxşılaşdırılması" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək SSRİ-də neft texnologiyaları sahəsində ilk qadın elmlər doktoru olub. Elmi fəaliyyətinə görə bir sıra orden və medallarla təltif edilmiş İzzət Orucova 1964-cü ildə Azərbaycanın Əməkdar elm və texnika xadimi adına, 1970-ci ildə Azərbaycan Dövlət Mükafatına layiq görülmüş, 1972-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.



Tarixçi alim **Püstəxanım Əzizbəyova** (1929-1998) 1951-ci ildə Azərbaycan Dövlət Universitetini bitirmiş və bir müddət babası, 26 Bakı komissarlarından olan Məşədi Əzizbəyovun ev-muzeyinin direktoru, 1955-ci ildən Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri kimi çalışmışdır. 1961-ci ildən muzeyin direktoru təyin olunan Püstəxanım Əzizbəyova ömrünün sonunadək bu vəzifədə işləmişdir. Bir neçə monoqrafiya və 300-ə yaxın məqalənin müəllifi olan alim 1961-ci ildə "Azərbaycandakı sosialist dəyişikliklərində (1921-1923) Leninin rolu" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.



Ümummilli Lider Heydər Əliyevin həyat yoldaşı, Azərbaycan Prezidenti İlham Əliyevin anası, görkəmli oftalmoloq-alim **Zərifə Əliyeva** (1923-1985) Azərbaycanın tanınmış dövlət xadimi Əziz Əliyevin ailəsində dünyaya gəlmiş, 1949-1950-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1969-cu ildən isə Ə. Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, 1982-1985-ci illərdə görmə orqanlarının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır. O, Azərbaycan Elmlər Akademiyasının Fiziologiya İnstitutunda görmə orqanının peşə patologiyasının öyrənilməsi üzrə ixtisaslaşdırılmış elmi-tədqiqat laboratoriyasında tədqiqatlar aparmış, 1960-cı ildə tibb elmləri namizədi, 1977-ci ildə tibb elmləri doktoru elmi dərəcəsini almışdır. Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. Yüksək ixtisaslı oftalmoloqların hazırlanmasına böyük əmək sərf etmiş Zərifə xanım 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi, görmə orqanının fiziologiyası və peşə patologiyası tədqiqi üzrə SSRİ-də ilk ixtisaslaşmış elmi-tədqiqat laboratoriyasının təşəbbüskarı və təşkilatçısı olub. Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, habelə oftalmologiyanın müasir problemlərinə dair sanballı tədqiqatlarına görə Zərifə Əliyeva 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. O, yüksək elmi nailiyyətlərinə görə 1980-ci ildə Azərbaycan əməkdar elm xadimi adına, 1981-ci ildə isə SSRİ Tibb Elmləri Akademiyasının M. Averbax adına mükafatına layiq görülmüş ilk qadındır.



Azərbaycanın pediatriya sahəsində ilk qadın alimi **Ədilə Namazova** (1926-2020) 1949-cu ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş və əmək fəaliyyətinə Ağdam rayon mərkəzi xəstəxanasında başlamış, 1965-ci ildən Azərbaycan Dövlət Tibb İnstitutunun klinik pediatriya kafedrasının müdiri vəzifəsində çalışmışdır. Ədilə Namazova SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü seçilmiş (1971) ilk azərbaycanlı qadındır. Azərbaycanın yalnız iki görkəmli tibb xadimi - Mustafa Topçubaşov (1960) və Mirməmməd Cavadzadə (1974) bu akademiyanın üzvü olmuşlar. 300 elmi əsərin, 8 monoqrafiya və dərsliyin, 5 ixtiranın müəllifi olan Adilə Namazovanın elmi tədqiqatları uşaqlarda revmatizmin fəal dövründə ürəyin funksional vəziyyətinin, ürək arakəsmələrinin anadangəlmə qüsurlarının öyrənilməsinə yönəlmişdir. O, uşaqlarda ürək üzərində cərrahi əməliyyata göstəriş və əks-göstərişi müəyyənləşdirmiş, ilk dəfə olaraq ürəkdə aparılmış cərrahi əməliyyatların yaxın və uzaq dövrlərdə nəticələrini qiymətləndirmişdir. 1976-cı ildən Azərbaycan Pediatrlar Cəmiyyətinin sədri olan Adilə xanım

1982-ci ildə Azərbaycan SSR Dövlət Mükafatına layiq görülmüş, 1983-cü ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.



2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmiş **Siddiqə Məmmədova** (1925-2017) Gəncə Kənd Təsərrüfatı Texnikumunu və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmiş, bitki mühafizəsi sahəsində elmi tədqiqatlar aparmışdır. Toxumluq yoncanın, çay və sitrus bitkilərinin zərərvericiləri ilə mübarizəyə həsr olunmuş dissertasiyaları müdafiə etmiş, 1963-cü ildə Azərbaycan Elmi Tədqiqat Bitki Mühafizəsi İnstitutuna direktor təyin edilmiş və uzun illər bu elmi müəssisəyə rəhbərlik etmişdir. Xanım akademik iki dəfə (1971, 1978) "Qırmızı Əmək Bayrağı" ordeninə, müstəqil Azərbaycanın "Şöhrət" və "Şərəf" ordenlərinə layiq görülüb.

Uzun illərdir Milli Azərbaycan Tarix Muzeyinin direktoru olan görkəmli tarixçi alim Nailə Vəlixanlı (1940) Bakı Dövlət Universitetini bitirib, Azərbaycanın orta əsrlər tarixi üzrə mənbələrin tədqiqi, həmin dövrdə sosial-iqtisadi münasibətlər, Azərbaycanın siyasi-mədəni tarixi və tarixi coğrafiyası üzrə bir sıra elmi əsərlərin, o cümlədən "IX-XII əsr ərəb coğrafiyaşünas-səyyahları Azərbaycan haqqında", " Ərəb Xilafəti və Azərbaycan", "Azərbaycan dövlətçiliyi və onun atributları", "Naxçıvan - ərəblərdən monqollaradək" mövzularında dəyərli elmi əsərlərin müəllifidir. Əməkdar elmi xadimi, "Şöhrət" ordenli Nailə Vəlixanlı 2007-ci ildən AMEA-nın həqiqi üzvüdür.

Azərbaycan tarixində müstəsna xidmətləri olan böyük bir nəslin parlaq nümayəndələrindən biri, Ulu Öndər Heydər Əliyevin bacısı **Rəfiqə Əliyeva** (1932-2017) Azərbaycanda analitik kimya ixtisası üzrə ilk qadın akademikdir (2014). O, 1956-cı ildə Azərbaycan Dövlət Universitetini bitirmiş, 1970-ci ildə namizədlik,1999-cu ildə doktorluq dissertasiyasını müdafiə etmişdir. Bakı Dövlət Universitetinin " Analitik kimya" kafedrasının professoru olmuş Rəfiqə Əliyeva 2001-ci ildən BDU-nun "Ekoloji kimya və ətraf mühitin mühafizəsi"elmi-tədqiqat laboratoriyasına rəhbərlik etmişdir. Qarışıq liqandlı kompleks birləşmələrin tədqiqi sahəsində geniş işlər aparmış Rəfiqə xanım 2 monoqrafiyanın, 20 dərs vəsaiti və 17 patentin müəllifidir. Onun rəhbərliyi altında metalların sorbsiya imkanları, bir sıra metal və fenol tipli birləşmələrin qatılaşdırılmasının optimal şəraiti oyrənilmiş, belə sorbentlərdən neftayırma prosesində yaranan çirkab sularında, axıntı və lay sularında metalların qatılaşdırılması üçün istifadə edilməsi təklif olunmuşdur.



Elmimizin fəxri olan qadın alimlərimizin şərəfli yolunu Azərbaycan alimlərinin yeni nəsil davam etdirir. AMEA tarixinin ən gənc akademiklərindən olan, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, biokimya ixtisası üzrə AMEA-nın həqiqi üzvü seçilmiş (2014) İradə Hüseynova, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, AMEA-nın Vitse-Prezidenti, Oksford Universitetinin Nizami Gəncəvi adına Azərbaycan və Qafqazşünaslıq Elmi Mərkəzinin Azərbaycan tərəfdən rəhbəri, ədəbiyyatşünas Nərgiz Paşayeva (2017), AMEA-nın Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, İctimai Elmlər Bölməsinin sədri, şərqşünas Gövhər Baxşəliyeva (2017), qırx ildən çox AMEA-da "Azərbaycan musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsinə rəhbərlik edən sənətşünas alim Zemfira Səfərova (2017), AMEA İctimai Elmlər Bölməsinin akademik-katibi olmuş tarixçi alim Nərgiz Axundova (2017) kimi alimlər Azərbaycanda elmin, təhsilin, mədəniyyətin inkişafı yolunda çalışır, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Azərbaycanın çiçəklənməsi və inkişafı uğrunda çalışıb ömrünü sərf edən bütün qadınlarımızın gözəl Yaz bayramları - Qadınlar günü və Novruzu mübarək, yolları açıq, həyatları sevinc, fərəh və uğurlarla bol olsun!



**Ayşən MƏMMƏDOVA**
*ETN akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun elmi işçisi*

# Azərbaycanda gələcək vəd edən elm sahəsi - tibbi coğrafiya

**Təbii şərait ilə insan sağlamlığı arasında birbaşa əlaqənin mövcudluğu, xəstəliklərin səbəbləri və yayılmasında fiziki, sosial, iqtisadi və mədəni faktorların təsirinin olduğu eramızdan əvvəl III əsrdən bugünə qədər məlumdur. Hələ e.ə. 400-cü ildə Hippokrat yazdığı "Hava, Su və Yer" adlı kitabında xarici faktorlar ilə insanların xarici görünüşü və müxtəlif irqlərin etnik xüsusiyyətini nəzərdən keçirmişdir.**

Adı çəkilən əsərdə bu əlaqə: "Tibbi düzgün başa düşmək istəyən hər kəs burada yazılanları öyrənməlidir. İlkin olaraq il ərzindəki bütün mövsümlərin təsirləri və onlar arasındakı fərqləri nəzərə almalıdır. Həm bütün ölkələr, həm də tək bir əraziyə təsir edən küləkləri, isti və soyuğu diqqətə almalıdır. Nəhayət, suyun fərqli xüsusiyyətlərini, insan bədənindəki fərqli təsirlərin bilməlidir. Eyni zamanda, insanların necə yaşadıqlarını, nələri xoşladıqlarını, nə yediklərini, nə içdiklərini, fiziki idmanla məşğul olub olmadıqlarını, işsiz və artıq çəkili olub olmadıqlarını müşahidə etməlidir. Regional olaraq xəstələrin şikayətlərini başa düşmək və uyğun reseptlər yazmaq üçün bütün həkimlər bunu bilməlidir." kimi ifadə olunmuşdur.

Bir çox tədqiqatçı insan və onun yaşadığı ətraf mühitlə olan əlaqəsini sağlamlıq baxımından araşdıran tədqiqatlar aparmışdır. Tibbi coğrafiya olaraq qiymətləndirə biləcəyimiz belə tədqiqatlar müasir mənada coğrafiyanın bir qolu olaraq Beynəlxalq Coğrafiya Birliyinin (İnternational Geography Union) Tibbi Coğrafiya Komissiyası tərəfindən 1952-ci il tarixli ilk hesabatı ilə başlamışdır. Bu tarixdən sonra tibbi-coğrafi tədqiqatlar bir stimul qazanmış və müasir dövrdə ən çox müraciət olunan coğrafiya sahələrindən biri olmuşdur.

Tibbi coğrafiya insan sağlamlığı və tibbi xidmətlərin coğrafi tərəfi ilə maraqlanan bir elm sahəsidir ki, o mikrobiologiya, parazitologiya, immunologiya elmlərinin işığında xəstəliklərin və epidemiyaların meydana gəlməsində məkan-zaman əlaqələrini və təbii-şəraiti araşdırır. Tibbi coğrafiyadakı tədqiqatlar və önə çəkilən fikirlər ənənəvi olaraq iki əsas istiqamətdə birləşir. Bunlardan birincisi və daha əvvəl formalaşanı "coğrafi epidemiologiya", "coğrafi patologiya", ya da "xəstəlik ekologiyası" olaraq adlandırılır. İkincisi isə sağlamlıq planlamalarında və tibbi xidmətlərin ayrılmasında ərazi və məkan yönümlü dəyərləndirmələrdir. Bu ənənə tibbi xidmətlərin yeri, bu xidmətlərə əlçatanlıq, tibbi xidmətlərin planlanmasına aid tədqiqatları əhatə edən sağlamlığın mühafizəsi coğrafiyası və ya tibbi xidmətlərin göstərilməsi coğrafiyası olaraq adlandırılır (Şəkil 1) 7 .




**Şəkil 1. Tibbi-coğrafi tədqiqatların əsas istiqamətləri**

XVIII əsrin sonlarından etibarən tədqiqatlarda yolxucu xəstəliklərin yayılma arealını müəyyən etmək məqsədi ilə xəritələşdirmə geniş vüsət almışdır. Tibbi xəritələrin ən məhşurlarından biri 1844-1854-cü illərdə Londonun Soho Qızıl Meydan bölgəsindəki (Golden Square) deyilən ərazidə yayılmış vəba (kolera) xəstəliyi ilə bağlı olan xəritədir. Tibbi coğrafiyaya aid klassik tədqiqatları olan Jhon Snow o tarixlərdə bugün hamımızın bildiyi bir həqiqətə - vəbanın sudan keçən bir xəstəlik olduğuna diqqət çəkərək bu ərazideki küçələrdə mövcud olan su quyularından su içənlərlə ölüm halları arasında əlaqəni göstərmək məqsədi ilə hər vəfat edən insanın yaşadığı ünvanı bir xəritə üzərində işarələdi (Şəkil 2). Nəticədə hazırlanan bu xəritəyə əsasən, ölüm hadisələrinin böyük bir qisminin Broad Street üzərindəki bir su nasosu ətrafında cəmləşdiyi görüldü. Tədqiqatı əsas götürərək şəhər idarəçilyi tərəfindən xəstəliyi dəf etmək üçün yeni nasos quraşdırıldı və vəba problemi bir-neçə gün içində həll olundu [6]. Daha sonra aparılan müasir statistik analizlər doğurdan da xəstəliyin mənbəyinin bu quyunun ətrafındakı təxmini 1 kilometrlik məsafədə olduğunu sübut etmişdir.

Doktor Karleton Qayduşek və Vinsent Ziqasın kuru xəstəliyi ilə bağlı tədqiqatları etnoloji məlumatların həkimlər tərəfindən hər hansı bir xəstəliyin epidemiologiyasında və səbəblərinin araşdırılmasında istifadəsinin

əhəmiyyətini gösərir. Kuru xəstəliyi Avstraliya və Yeni Qvineyanın şərq dağlıq ərazisində yerli xalq Fore qəbiləsi (melaneziyalılar) arasında yayılmış endemik nevroloji xəstəlikdir. Ölümlə nəticələnən bu xəstəliyə tutulan insanlar ani qəhqəhələr çəkdikləri üçün yerli xalq arsında "gülmə xəstəliyi" olaraq da adlandırılır. Tədqiqatçılar tərəfindən xəstəliyin yayılmasına təsir göstərən coğrafi, etnolojik və demoqrafik faktorlar tədqiq edilmiş və müəyyən edilmişdir ki, kurunun yerli əhali arasında belə geniş yayılmasının səbəbi ölülərin yeyilməsi (xüsusilə beyin hissələri) ənənəsidir 1,2 . Hannibalizmdən başqa etiologiyasının göstərilməməsi və bu adət ləğv olunduqdan sonra xəstəliklə rastlaşılmaması xəstəliklərin ram edilməsində tibbi-coğrafi yanaşmanın əhəmiyyətini vurğulayır.

Dünyada olduğu kimi ölkəmizdə də tibbi-coğrafi tədqiqatlara maraq vardır. Azərbaycanda coğrafiyaçı alimlərin bu sahəyə marağı tibbi coğrafiyanın inkişafında əhəmiyyətli rol oynamışdır. Ə.C.Əyyubov tərəfindən aparılan iqlim və insan səhhətinin qarşılıqlı əlaqəli sistemlərinin tədqiqinin nəticələri mühüm əhəmiyyət kəsb etmişdir. 1997-ci ildə Ə.C.Əyyubovun rəhbərliyi və Z.F.Musayev, A.Ə.Kərimov, G.Y.Hacıyev, V.T.Mustafayevanın işti-




**Şəkil 1. John Snow tərəfindən tərtib olunmuş Londonun Soho bölgəsində vəba xəstəliyinə bağlı ölüm hadisələrinin coğrafi yayılması xəritəsi. (mənbə: https://www.nationalgeographic.org/activity/mapping-london-epidemic)**

rakı ilə "Bakı və Abşeron yarımadasının iqlimi və insan səhhəti" adlı kitab ərsəyə gəlmişdir. Kitabda insan orqanizminə təsir edən havanın (Abşeron yarımadası üzrə) beş meteopatik effekt pilləsinin təhlükəsiz, indifferent, az riskli, riskli, kəskin riskli halları üzrə təsnifatı aparılmışdır ki, bu da tibbi coğrafiya elminin proqnoz istiqamətlərinin dəyərli metodikası hesab edilir.

C.N Əhmədova tərəfindən 1997-ci ildə "Şəki şəhərində ürək-damar xəstəlikləri ağırlaşmalarının hava şəraitindən asılılığı", 1999-cu ildə "Şəki-Zaqatala zonasında ürək-damar sistemi xəstəlikləri ilə əlaqədar ekometreoloji şəraitin öyrənilməsi" haqqında konfranslarda məruzələr edilmişdir. Q.Y.Məmmədov, İ.M.Xəlilovun 2006-cı ildə "Ekologiya, ətraf mühit və insan" əsəri cap olunmuşdur. S.İ.Rzayevanın 2008-ci ildə "Landşaft kompanentlərinin keyfiyyətinin insan sağlamlığına təsiri", "Ətraf mühitin keyfiyyət göstəricilərinin insan sağlamlığında rolu", 2012-ci ildə "Şəhərlərdə insan səhhətinə təsir göstərən mühit amillərinin təsnifatı", "Bakı və Sumqayıt şəhərlərində atmosfer havasının müasir ekoloji vəziyyəti və onun əhalinin sağlamlığına təsiri" adlı məqalələri çap olunmuşdur. S.İ.Rzayevanın "Azərbaycanda onkoloji xəstəliklərin yaranması və yayılmasına ekocoğrafi mühitin təsiri" (Bakı, 2016. Avtoteferat) adlı əsərində ekoloji-coğrafi mühitin təsiri ilə onkoloji xəstəliklərin yayılmasına dair təhlillər aparılmışdır. İ.Ə.Ağayev, X.İ.Xələfli, X.İ.Tağıyev, F.Ş.Tağıyeva "Epidemologiya" (Bakı, 2012) monoqrafik tədqiqat əsərində tibbi coğrafiya elminin aktual problemlərinə dair məzmunlu ideyalar təklif olunur. X.Ş.Rəhimov və C.N.Əhmədovanın "Azərbaycan Respublikasında malyariyanın yayılmasını müəyyən edən təbii və ictimai-iqtisadi amillər" (2012-ci il), "Bakı şəhərində yay istilərinin əhalinin sağlamlığına təsiri" (2013-ci il), X.Ş.Rəhimov, C.N.Əhmədova və U.R.Tağıyevanın "İqlim dəyişmələrinin insan sağlamlığına təsirinin qiymətləndirilməsi" (2013-cü il) adlı tədqiqat işləri işıq üzü görmüşdür. Ş.İ.Məmmədovanın "Azərbaycanın iri şəhərlərində atmosfer havasının çirklənməsinin əhalinin sağlamlığına təsirinin qiymətləndirilməsi" adlı məqaləsində bədxassəli xəstəliklərin sayının AÇİ - dən (Atmosferin Çirklənmə İndeksindən) asılılığı təhlil olunmuşdur 3 .

Bildiyimiz kimi, Qeyri İnfeksion Xəstəliklər (QİX) dünyada əsas ölüm səbəblərini təşkil edir ki, bunlar arasında ürək - damar sistemi xəstəlikləri həm dünyada, həm də ölkəmizdə birinci yerdədir. Ümumdünya Səhiyyə Təşkilatının 2013-2020-ci illər üçün QİX-in qarşısının alınması və bu xəstəliklərə nəzarət üzrə Qlobal Fəaliyyət Planında bu təşkilatın üzvü olan ölkələrin üzərinə bu xəstəliklərin qarşısının alınması və müalicəsi üçün yüksək səviyyəli tədqiqat və araşdırmaları inkişaf etdirmək və dəstəkləmək öhdəliyi qoymuşdur. Göstərilmişdir ki, bu tədqiqatlara biomedikal və sosial elmlər də inteqrasiya edilməlidir. Burada qeyri-infeksion xəstəliklərin və onların risk faktorlarının çox sektorlu, makroiqtisadi və sosial müəyyənedicilərini başa düşməyə və onlara təsir etməyə, həmçinin tətbiqə yönəlmiş tədqiqatların inkişaf etdirilməsinə öncəlik verilmişdir.

Azərbaycanda da tibbi-coğrafi tədqiqatların inkişafı üçün AR Elm və Təhsil Nazirliyi akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunda 2016-cı ilin aprelində "Tibbi coğrafiya" şöbəsi yaradılmış və kompleks tədqiqatların aparılması hədəflənmişdir. Şöbənin əməkdaşları tərəfindən tədqiqatlar aparılmaqdadır 1,5,9 və s. .

Azərbaycanın tibbi-coğrafi şəraitini öyrənmək, yaranmış hər hansı bir xəstəliyin areallarını müəyyən etmək, onlara qarşı mübarizə üsullarını işləyib hazırlamaq mühüm elmi əhəmiyyət daşıyır və bu sahədə tədqiqatları genişləndirməyə böyük ehtiyac vardır.



**Nəzakət MƏMMƏDOVA**
*BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin müəllimi, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent*

# Hilbert probleminin yaratdığı suallar və Gödel teoremi

*Bildiklərimiz bilmədiklərimizlə müqayisədə heç nədir.*
*P. Laplas*

**Avstriyanın paytaxtı Vyana şəhərində çox məşhur və əsası XIV əsrdə (1365) qoyulmuş qədim bir universitet var - Vyana Universiteti. Keçən ilin mart tətili günlərində 20 ildən çoxdur ki, ailəsi ilə bərabər Vyanada yaşayan bibim qızı Yaqut xanımın təşəbbüsü ilə həmin universiteti gəzdik. "Ziyarət etdik" demək daha doğru olardı, çünki bura memarlıq baxımından bir sənət incisi və dünyaya dahi zəkalar bəxş etmiş müqəddəs elm məbədidir. Universitetin həyət tərəfində tələbələrin rahatlıqla oturub dərslərə hazırlaşa biləcəkləri çox gözəl bağçası, bu bağçada isə Universitetdə təhsil almış və ya dərs demiş Nobel mükafatçılarının, görkəmli alimlərin, ictimai xadimlərin büstlərindən ibarət qalereya var.**

Burada vaxt keçirmək insana xüsusi bir zövq verir. K. Dopler, Z. Freyd, Q. Maler, Q. Mendel, S. Sveyq, L. Bolsman, E. Şredinger, K. Gödel...daha kimlər, kimlər var burada... Bir də öyrəndim ki, Vyana universiteti nəzdində Kurt Gödel adına Riyazi məntiq üzrə tədqiqat mərkəzi, Universitetin yaxınlığında isə Gödel alleyası yerləşir. Bizim ali məktəblərdə gec-gec yada düşən, amma dünya elmində özünün natamamlıq teoremləri ilə ad çıxarmış bu alim kimdir? Əminliklə deyə bilərəm ki, riyaziyyatın heç bir başqa teoremi filosofların diqqətini bu qədər cəlb etməmiş, marağını bu qədər çəkməmişdir. Niyə, nə üçün? Anladığım qədər anlada bilsəm, yəqin ki, məqalənin sonuna yaxın bu suallara cavab tapa biləcəyik.

Kurt Gödel (1906-1978) - Avstriya məntiqçisi, riyaziyyatçısı, riyaziyyat filosofudur. XX əsrin ən dahi mütəfəkkirlərindən hesab olunur, müasir məntiq nəzəriyyəsinin qurucusudur. O, Avstriya-Macarıstan imperiyasının Brün (Brno) şəhərində alman ailəsində anadan olmuşdur. Tez-tez xəstələnməyinə rəğmən qavramasına və bacarıqlarına görə yaşıdlarından xeyli fərqlənirdi. Xüsusilə, riyaziyyat, xarici dil və din dərslərində mükəmməl idi. Gödel 1924-cü ildə Vyana universitetinin tələbəsi olur və iki il fizika öyrəndikdən sonra ədədlər nəzəriyyəsi üzrə müəllimi Furtvenglerin təkidi ilə riyaziyyat fakültəsinə keçir. Əlbəttə, Gödel çox istedadlı və zəhmətsevər idi, amma belə bir insanın uğurlu ola bilməsi, əsl alim kimi yetişməsi üçün uyğun elmi mühit vacib idi və belə bir mühit də burda



var idi. Gödel Vyana universitetində F.Furtvengler (ədədlər nəzəriyyəsi), X. Xan (funksional analiz, sonralar onun elmi rəhbəri), V. Virtenger (həndəsə), K. Menger (qraflar və oyunlar nəzəriyyəsi), V. Mayer (topoloq, Eynşteynin "kalkulyatoru"), Y. Lens (xüsusi nisbilik nəzəriyyəsi), E. Helli (funksional analizin yaradıcılarından biri), L. Vitoris (son məqaləsini 103 yaşında yazmış topoloq) kimi güclü mütəxəssislərdən, tanınmış riyaziyyatçılardan dərs alır. Artıq tələbəlik illərində onun qeyri-adi riyazi bacarıqları özünü biruzə verirdi və Gödelin dahi riyaziyyatçı olacağına inananlar çox idi. O, 1930-cu ildə, 24 yaşında olarkən elmlər doktoru, professor adlarını alır və həmin ildən də məzunu olduğu universitetdə, riyaziyyat kafedrasında dərs deməyə başlayır. Amerikanın Prinston Universitetindən dəvət alan Gödel orada da mühazirələr deyir. 1938-ci ildə Avstriya Nasist Almaniyasına birləşdirilir. Gödel 1940-cı ildə ölkəsində yaranmış vəziyyətlə bağlı Amerikaya köçür, Prinston Universitetində işə düzəlir, on il sonra Amerika vətəndaşı, 1953-cü ildə Prinston Universitetinin professoru olur. Müharibə bitdikdən sonra Vyana Universiteti onu təkidlə dəvət etsə də, o, bir daha geri qayıtmır. Hələ cavanlıq illərindən psixoloji sağlamlığı normal deyildi. Daim təhlükə hiss edən və zəhərləndirilməkdən qorxan Gödel ömrünün son illərində ancaq həyat yoldaşı Adelin hazırladığı yeməkləri yeyirmiş. Adelin xəstəxanada müalicə aldığı dövrdə qidadan imtina etmiş və aclıqdan ölmüşdür. Ölərkən çəkisi 29 kq idi...

Gödel teist olub. Öz fəlsəfəsini "rasionalist, idealistik, optimistik və teoloji" adlandırır, düşünürdü ki, dünya rasional qurulubsa ölümdən sonra həyatın olması da labüddür, kainatda hər bir şeyin səbəbi və anlamı var. Həyat yoldaşı Adelin sözlərinə görə, Gödel kilsəyə getməsə də bazar səhərlərini Bibliyanı oxumaqla açarmış. Həyatını əsasən 14 prinsip üzərində qurmuşdu. Bunların içində - dünya şüurlu şəkildə qurulub; insan öz əqli imkanlarını müəyyən texnikaların köməyilə daha yüksək səviyyəyə çatdıra bilər; başqa dünyalar və şüurlu varlıqlar (həmçinin, daha yüksək) var; indiki dünyamız bizim gələcəkdə yaşayacağımız və ya keçmişdə yaşadığımız yeganə dünya deyil; insan cəmiyyətinin şüuru bütün istiqamətlərdə inkişaf edəcək; materializm yalandır və s. kimi prinsiplər var idi.

Gödel istənilən elmi nəzəriyyənin məntiqi əsaslarının olmasını vacib sayırdı. Məhz buna görə Ç.Darvinin təkamül nəzəriyyəsinin inandırıcı olmadığını deyir, sadə orqanizmlərin mürəkkəbə çevrilməsi səbəblərini ciddi qəbul etmirdi.

Gödel teoremlərinin mahiyyətini başa düşmək üçün bir az riyaziyyat tarixinə nəzər salaq.

XIX əsrin axırlarında riyaziyyat artıq bir çox sahələrdə tətbiqini tapan güclü və qüdrətli elmə çevrilirdi. Ədədlər nəzəriyyəsi, cəbr və riyazi analiz xeyli inkişaf etmiş, çoxluqlar nəzəriyyəsinin və riyazi məntiqin əsasları qoyulmuş,

müxrəlif qeyri-Evklid həndəsələri yaradılmışdı. Riyaziyyatın gələcəyi bu elmlər üzərində qurulmalı, fundamenti sarsılmaz olmalı idi.

1900-cü il, Paris, Riyaziyyatçıların II Beynəlxalq konqresi. Konqresin sədri olaraq A.Puankare seçilir. Burada Ş.Ermit, V.Volterra, F.Lindeman, Q.Minkovski, J.Adamar, Q.Darbu, D.Hilbert kimi dahilər seksiyalara rəhbərlik edirdilər. Konqresin əsas hadisəsi Hilbertin "Riyazi problemlər" adlı məruzəsi oldu. Dövrünün bütün riyazi problemlərini əhatə edə bilən və buna görə də universal adlandırılan dahi alman riyaziyyatçısı David Hilbert (1862-1943) əsrin əvvəllərində dünya riyaziyyatçılarının lideri hesab olunurdu. O, həmin konqresdə XX əsr nəzəriyyəçi alimləri qarşısında həll olunması vacib olan və riyaziyyatın bütün sahələrini əhatə edən 23 problem qoyur. Birinci yerdə Kantorun 1877-ci ildə irəli sürdüyü "gücü hesabidən böyük, kontinuumdan kiçik olan çoxluqların olmaması" haqqında kontinuun hipotez idi. İkinci yerdə isə ilk baxışda sadə görünən "hesab aksiomlarının ziddiyyətsiz olması" problemi dururdu. Bu problemin həlli, əslində, "riyaziyyat öz-özünə yetərlidirmi?" sualına cavab verəcəkdi və onun müsbət həllinə Hilbertin zərrə qədər də şübhəsi yox idi, "Riyaziyyatçı üçün bilinməz (ignorabimus) deyilən bir şey yoxdur və düşünürəm ki, bütün təbiət elmləri üçün də bu belədir və buna görə də "Bilməliyik və biləcəyik (We must know-we will know)"-deyirdi Hilbert çıxışında. Sonralar bu kəlam alman dilində onun qəbir daşına yazıldı, epitafiyasına çevrildi. Hilbert elmin qüdrətinə inanır, digər pozitivistlər kimi belə düşünürdü ki, bütün ciddi elmlərin əsasında duran riyaziyyat vasitəsilə bütün doğrulara nə vaxtsa çatmaq, dünyanı dərk edə bilmək, Yaradanın mahiyyətini başa düşmək olacaq. Beləliklə, ikinci problemin həlli özündə aşağıdakıları ehtiva edirdi:

1. *Riyaziyyat tamdır - yəni, mövcud aksiomatika daxilində istənilən təklifin doğru və ya yalan olduğunu isbat etmək olar.*
2. *Riyaziyyat ziddiyyətsizdir- yəni, bir-birini təkzib edən iki təklifi eyni zamanda isbat etmək olmaz.*
3. *Riyaziyyatda hər məsələnin həll üsulu var.*

"Hər bir təbiət elmində orada riyaziyyatın olduğu qədər həqiqət var" - deyirdi İ. Kant. Deməli, söhbət həqiqi elmdən gedirsə, o, mütləq riyaziyyata əsaslanmalıdır. Bəs riyaziyyat nəyə əsaslanır? Qədim zamanlardan bəri hər bir riyazi nəzəriyyənin özəyini teoremlər təşkil edib, bu teoremlər isə müəyyən aksiomlar sistemindən məntiqi çıxarışların köməyilə müxtəlif üsullarla isbat olunub. Aksiomlar intuitiv, sübutsuz qəbul edilən fikir, isbatsız qəbul edilən düşüncə, dəlilə ehtiyacı olmayan həqiqətlərdir. Riyazi aksiomlar bir-birilə ziddiyyət təşkil etməməli və tam olmalıdırlar, yəni bu aksiomların köməyilə aksiomların aid olduğu sistem daxilində istənilən hökmün doğru və ya yalan olmasını isbat etmək mümkün olmalıdır. Bəs aksiomlar necə və kim tərəfindən verilir? İlk aksiomlara qədim yunan filosofu, klassik həndəsənin "atası" sayılan Evklidin eramızdan üç əsr əvvəl yazdığı, antik riyaziyyatın şah əsəri sayılan və 13 kitabdan ibarət "Başlanğıclar" əsərində rast gəlirik. O dövrdə həndəsə aksiomları şübhə doğurmurdu və intuitiv qəbul olunurdu. Zaman keçdikcə Evklidin paralellər haqqında 5-ci postulatının o qədər də aşkar görünmədiyi məlum oldu. Əvvəlki aksiomlardan onu almaq və ya əvvəlki aksiomların köməyilə onu inkar etmək mümkün deyildi. Düz xəttin xaricində yerləşən nöqtədən həmin düz xəttə ancaq bir paralel düz xəttin olması haqqında aksiom əməlli-başlı düşündürdü düşünməyi sevənləri - kim deyə bilərdi ki, onlar çox-çox uzaqlarda kəsişməyəcəklər və belə bir düz xətt bir dənədir? İki min ildən artıq ən tanınmış həndəsəçilər ( o cümlədən Əl-Xarəzmi, Ö.Xəyyam, N.Tusi, J.Vallis, K. Qaus) bu problemli aksioma aylarını, illərini həsr etdilər. Ancaq onu nə təsdiq, nə də inkar edə bildilər, bu aksiomun isbatının mümkün olmadığını isbat edənlər də oldu. XIX-cu əsrin iyirminci illərində iki cəsarətli riyaziy-

yatçı - macar Y.Boyyayi və rus N.Lobaçevski başa düşdülər ki, paralellər haqqında aksiomu alternativ bir aksiomla- verilən düz xəttin üzərində yerləşməyən nöqtədən həmin düz xəttə paralel olan sonsuz sayda düz xətt keçirmək olar - aksiomu ilə əvəz etsələr, yeni - qeyri-Evklid həndəsəsi alınacaq. K.Qaus bu nəticəyə onlardan əvvəl gəlsə də, işini dərc etməyə cəsarəti çatmamış, bununla riyaziyyatın sütunlarının dağıla biləcəyini düşünmüşdü. Beləliklə, bir aksiomu dəyişməklə yeni bir həndəsə qurulur. Bu artıq bizim öyrəşdiyimiz, üçbucaqlarının bucaqları cəminin həmişə 180 dərəcə olduğu bir həndəsə deyildi, amma məntiq baxımından Evklid həndəsəsi qədər doğru idi. Beləliklə, kainatın həndəsəsini izah edə biləcək bir həndəsə (bunlar bir neçədir) yarandı. Yeni qurulmuş həndəsə onu göstərdi ki, aksiomlar və teoremlər insan intuisiyası ilə izah olunmaya da bilər və abstrakt təfəkkür artdıqca elm bizim dərk edə biləcəyimiz çərçivələri aşmağa başlayır.

II konqresdən 30 il keçir. Hilbertin tezliklə həll olunacağını gözlədiyi II problem hələ də həllini gözləyirdi. Vyana elm çevrəsində başda L.Vitgenşteyn olmaqla pozitivistlər çox idi. Gödelin bir alim kimi yetişməyində neopozitivistlərin Vyana fəlsəfi dərnəyinin az rolu olmamışdı. Onlar belə düşünürdülər ki, riyaziyyatda paradokslara yer yoxdur, bütün həqiqətlərə çatmağın yeganə yolu riyaziyyatdır və riyaziyyatla izah oluna bilməyən gerçəklərin heç bir anlamı yoxdur. Bu mənada riyaziyyatın tam və ziddiyyətsiz olması pozitivistlərdə heç bir şübhə doğurmurdu. Amma Gödel onların bəzi fikirlərinə qatılmır və əlində tutarlı dəlillər olmadığından onlarla polemikaya girmirdi. O, riyaziyyatın zəif yerini görür, insan ağlının nə vaxtsa hər şeyi bilmək iddiasını ciddi qəbul etmir, bilirdi ki, həmişə elə həqiqətlər olacaq ki, onları isbat etmək, sistem daxilindəki ziddiyyətlərdən çıxış yolu tapmaq mümkün olmayacaq. Yalançının "bu fikir yanlışdır" paradoksu kimi.

1931-ci ildə Gödel isbat edir ki, "İstənilən ziddiyyətsiz aksiomlar sistemi həllolunmaz məsələlərə malikdir" (birinci teoremin ümumiləşməsi). Bu teoremə görə hər bir aksiomatik nəzəriyyə üçün doğruluğu isbat edilə bilməyəcək təkliflər mütləq mövcuddur. Məsələn, Evklidin 5-ci postulatı kimi. Başqa bir misal əkiz ədədlər hipotezi ola bilər. Natural ədədlər üçün D.Peanonun yaratdığı (1889) aksiomatika əsasında bu günə qədər bu hipotezi - aralarındakı fərq ikiyə bərabər olan sadə ədədlərin sonsuz olması hipotezini nə inkar, nə də isbat etmək mümkün olmayıb. Hilbertin siyahısında 8-ci yerdə duran problemi - Qoldbaxın binar problemini (1742) yadımıza salaq. Dörddən böyük istənilən cüt ədədi iki sadə ədədin cəmi şəklində göstərmək olar. Bu hipotez də nə təsdiq, nə də təkzib olunmayıb hələ. Fermanın böyük teoremi (1637) 360 ildən sonra Endryu Uayls tərəfindən (1996) isbat olundu. Bu isbat isə hesabın məlum aksiomatikası və metodları çərçivəsini tamamilə aşır və Peano - Hilbert aksiomları ilə isbat oluna biləcəyi sualı bu gün də cavabsızdır. Gödel Kantorun kontinuum hipotezini (1877) təkzib edəcək hipotezin isbat edilə bilməyəcəyini də söylədi. Bunun dəqiq isbatını 1963-cü ildə amerikalı riyaziyyatçı Pol Koen verdi. Koen göstərdi ki, nə kontinuum hipotez, nə də onun inkarı çoxluqlar üçün qəbul olunmuş aksiomatika daxilində isbat oluna bilməz. Əgər sistemimizi tam hala gətirmək üçün doğru olduğunu bildiyimiz, amma isbat edə bilməyəcəyimiz təklifi sistemə bir aksiom olaraq əlavə etsək sistemi tamamlaya bilərikmi? Gödel bunun da imkansız olduğunu göstərdi. Əlavə olunacaq aksiomlardan asılı olmayaraq hər zaman doğru olan, amma isbat oluna bilməyəcək bir hökmün olacağını göstədi. Bu, pozitivistlər üçün çox acı bir həqiqət oldu. Onlar üçün riyaziyyatın və deməli, həm də bütün dəqiq elmlərin natamamlığını qəbul etmək, "riyaziyyat öz-özünün əskikliyini sübut etdi" fikri ilə razılaşmaq asan deyildi. Az sonra Gödel daha güclü bir teorem isbat edir - "Heç bir aksiomatik sistem öz ziddiyyətsizliyini öz daxilində isbat edə bilməz " (II teoremin ümumiləşməsi). Deməli, riyaziyyatçılar ümu-

miyyətlə desək, tam olmayan və ziddiyyətsiz olduğunu isbat edə bilməyən bir sistemə sahibdirlər və sistem xaricinə çıxmadan onun nə tamlığı, nə də ziddiyyətsizliyi haqqında bir şey deyə bilmirlər. Hər iki teoremin ciddi məntiqi isbatı var idi və onları inkar etmək Pifaqor teoremini inkar etmək qədər gülünc olardı. Bertran Rassel ziddiyyətli sistem haqqında zarafatla deyirdi ki, belə sistemdə hər şeyi, hətta mənimlə Roma papasının eyni kişi olduğunu isbat etmək olar. Rasselin Bərbər paradoksunu da yada salmaq yerinə düşər: Bir kişi bərbərin olduğu bir qəsəbə var. Burada bərbər yalnız özünü təraş edə bilməyən kişiləri təraş edir. Bəs bərbəri kim təraş edir? Özü? Bu adam özünü təraş edirsə, bərbər tərəfindən təraş edilməməlidir, əksinə, özünü təraş etməzsə, bərbər (özü) tərəfindən təraş edilməlidir. Əlbəttə, variantlardan heç biri keçərli deyil. Çoxluqlar nəzəriyyəsinin dili ilə desək, bərbər nə özünü təraş edənlər çoxluğuna, nə də təraş etməyənlər çoxluğuna daxil deyil. Halbuki, qəsəbənin bütün kişiləri bu, ya digər çoxluğa daxil olmalıdırlar. Ziddiyyətdən çıxış yolu varmı? Çoxluqlar üçün Zermelo-Frenkel aksiomatikası daxilində yox! Deməli, daha üst sistemə, daha üstün zəkaya ehtiyac var.

Natamamlıq teoremləri pozitivistlər tərəfindən uzun müddət qəbul edilmədi və Gödel, deyilənə görə, bir çox işlərinin dərc olunmasını ləngitdi, bəzilərini isə ümumiyyətlə, dərc etdirmədi. Bunlardan biri, onun gizli saxladığı Tanrının varlığının ontoloji isbatı idi. Gödel bu işi haqqında kiməsə bəhs etmiş və xəbər tezliklə Prinstona yayılmışdı. Tanrının varlığı üzərində çalışmaq o elmi mühitdə ciddi qəbul edilmirdi və qınanılmaq üçün yetərli idi. Amerikan filosofu, publisisti, Prinstonda təhsil almış Rebeka Goldşteyn Gödelə həsr etdiyi kitabında ona edilən psixoloji basqılardan, onun elmi işlərinin böyük müzakirələrə səbəb olmasından danışır, Gödeldən bəzən rişxəndlə, dedi-qodularla bəhs edildiyini təsvir edir.

Eşitdiyimə görə, Gödel islam dini ilə bağlı suala -"islamı sevirəm, ziddiyyətsiz bir dini düşüncə və açıq fikirlidir" - deyə cavab veribmiş. Məntiqi və rasionallığı hər şeydən üstün tutan və heç bir sistemin öz ziddiyyətsizliyini göstərə bilməyəcəyini deyən Gödelin islam üçün ziddiyyətsiz deməsi, sözsüz ki, böyük maraq doğurur.

Gödeli çox yaxşı anlayan bir dostu var idi. Bu, Albert Eynşteyn idi. Onlar Prinstonda bir yerdə xeyli vaxt keçirər, elmi işlərini müzakirə edər, siyasətdən, fəlsəfədən danışardılar. İnstituta da çox vaxt bir yerdə gedib gələrdilər. Bu söhbətlər nəticəsində Gödelin nisbilik nəzəriyyəsinə həsr olunmuş üç məqaləsi nəşr olunur. Eynşteyn deyirmiş ki, Prinstonda etdiyim ən vacib iş Gödellə birgə gəzintilərimdir. Eynşteynin ölümü (1955) onsuz da psixoloji durumu yerində olmayan Gödeli çox sarsıdır, 60-cı illərdə o, mühazirələrini dayandırır.

Gödel teoremlərini ilk anlayanlardan biri, dahi Con fon Neyman yazırdı ki, "zaman və məkanı aşan unikal və monumental" Gödel teoremlərindən sonra elmi məntiq daha əvvəlki kimi olmayacaq. Alan Türinq isə etiraf edirdi ki, Gödel teoremlərindən sonra isbat və hesablama alqoritmlərinə baxışları dəyişib. O, 1936-cı ildə dərc olunmuş elmi işində isbat edir ki, riyaziyyatda həqiqəti isbat etmək üçün universal üsul yoxdur və ola da bilməz, riyaziyyat daim həll olunması mümkün olmayan məsələlərə malik olacaq.

Hilbert Gödelin teoremlərinin dərc olunduğu ildən sonra daha 12 il yaşayır. O, Gödel teoremlərini qəbul etsə də, onların elmi əhəmiyyətini etiraf etsə də, ona heç vaxt rəsmi cavab vermir. Hilbertin 23 probleminin elan edilməsindən 100 ildən çox keçib, onların bir qismi (15) tam, bir neçəsi qismən həll olunub, ikisinin korrekt qoyulmadığı sübut olunub. Onun özünün çox vacib saydığı Riman hipotezi hələ də həllini tapmayıb və "Minilliyin problemləri" içərisindədir. Paul Erdöşün irəli sürdüyü onlarla hipotez də öz həllini gözləyir.

Əslində insan da, cəmiyyət də müəyyən sistemdir və həyatı müəyyən aksiomlar- cə-

miyyətin, ailənin, mənəviyyatımızın diktə etdiyi prinsiplər əsasında yaşayırıq. Amma heç bir qaydalar sistemi insanı yarımçıqlıq hissindən qurtarmır, bütöv etmir, həyatla tam harmoniyada saxlamır və içimizdəki ziddiyyətlərdən, dilemmalardan qurtarmır. Daxilimizdə daim doğrularımızla yanlışlarımızın mübarizəsi gedir. Əsas doqmalarımızdan biri "yaxşılıq et"-dir. Yaxşılığı kimə və nə qədər etmək isə mübahisə doğurur və cəmiyyətdəki ziddiyyətlərdən xəbər verir. Hər hansı yeni hökmün doğruluğuna inanmaq üçün, ziddiyyətlərdən çıxmaq üçün bəzən baxış bucağımızı dəyişməli, düşüncəmizdəki çərçivələri aşmalı, yeri gələndə prinsiplərimizi dəyişməli, yeni sistem yaratmalıyıq. Başqa sözlə, dərkolunma prosesi sonsuzdur. Deyirlər, həyatımızı qanunlar- hüquqi sistem idarə edir. Amma həyatın bütün tərəflərini nəzərə alan, hamı üçün ədalətli olan hüquq sistemi varmı? Mütləq həqiqətlər varmı? Bütün zamanlar üçün doğru olan Konstitusiya varmı? Deyilənə görə, Gödel Amerika vətəndaşlığı alarkən (1940) müsahibə vaxtı Amerika Konstitusiyasının məntiq baxımından natamam və ziddiyyətli olduğunu və burada- dünyanın ən demokratik ölkəsində nə vaxtsa diktaturanın olma ehtimalının istisna olmadığını sübut etməyə çalışırmış. Söhbət "yaxşı" istiqamətdə getmədiyindən onu yarımçıq saxlayırlar. Gödel ona zamin duran Eynşteynin məsləhətilə gələcəkdə siyasi diskussiyalardan uzaq durmaq qərarına gəlir. Maraqlıdır ki, Gödelin bu düşüncələri illər sonra amerika iqtisadçısı, Nobel mükafatçısı K. Errounun "diktatordan qaçılmazlıq teotemi"ndə öz əksini tapır. Hüquq kiməsə ifadə azadlığı verir, amma o, rasist ya da homofob çıxış edir, kiminsə müqəddəs saydığı nələrisə təhqir edir, bununla da kimlərinsə hüququ pozulur. Bəs məhdudiyyətlər hansı həddə qədər olsun? İnsanlar bəzən daxil olduqları sistemdə problemlərinin həllini görmür, qarşılaşdıqları ziddiyyətlərin və ya öz daxili ziddiyyətlərinin həllini daha üst sistemdə- meta sistemdə, sonsuz ağıl sahibi Yaradanda axtarırlar.

Gödel teoremlərinin kəşfindən 90 ildən çox keçir. Onlar elmdə, fəlsəfədə nəyi dəyişdi? Bu teoremlər müasir riyazi məntiqin formalaşmasına böyük təsir etsə də , kardinal dəyişikliklər olmadı - riyaziyyatçılar əvvəlki kimi teoremlər irəli sürür, onları isbat edir, mürəkkəb məsələlər həll edirlər. Teoremlər riyaziyyatın fundamentini sarsıtdı - deyənlərə Gödel cavab verirdi ki, bu teoremlər insan zəkasının, məntiqinin və intuisiyasının yenidən qiymətləndirilməsi baxımından əhəmiyyətlidir.

1994-cü ildə ingilis riyaziyyatçısı və fiziki R. Penrouzun "Zehnin kölgələri " (Shadows of the mind) adlı elmi-populyar kitabı dərc olunur. Kitabın birinci yarısı Gödel teoremlərinə həsr olunub. Teoremlərə istinad edərək müəllif göstərir ki, kompüter üsulları ilə insan şüuru tam modelləşdirilə bilməz. Penrouz hesab edir ki, Gödel teoremlərindən insan beyni ilə kompüter arasındakı ciddi fərqləri, daha doğrusu, insan zəkasının kompüterdən üstünlüyünü göstərmək üçün istifadə etmək olar və bunu isbat edir. Kompüter formal məntiqlə düşünür və hər hansı təklif aksiomatikadan kənara çıxırsa onun doğru ya yalan olduğunu təyin edə bilmir. Gödel teoremlərinə görə isə aksiomatikadan kənara çıxan təkliflər mütləq mövcuddur. İnsan isə öz intuisiyasına, apriori biliklərinə və təcrübəsinə əsaslanaraq təklifin doğru və yalan olması haqqında mühakimə yürüdə bilər.

Gödel teoremlərindən çıxan əsas nəticə fikrimcə, budur: İnsan nə qədər öyrənsə də, elmi biliklərə sahib olsa da natamamlıq bitməyəcək, sonsuza qədər davam edəcək və o, daim "tam" olana ehtiyac duyacaq. "Bildiklərimiz damla, bilmədiklərimiz okeandır"- deyirdi İ. Nyuton. Bu gün də belədir, heç nə dəyişməyib -yenə bildiklərimiz damla, bilmədiklərimiz okeandır. Dünyamızın içində, onun xaricinə çıxmadan onu izah edən elmi nəzəriyyə qurmaq mümkün deyil. Burda dahi Sokratın daha bir paradoksal ifadəsi yada düşür: "Bircə onu bilirəm ki, heç nə bilmirəm".



**Нигяр АХМЕДЛИ**
*Главный специалист Отдела инновации и образовательных программ Национального музея истории Азербайджана*

# Проблемы музейного образования в обучении студентов

**Современные изменения в организации процессов музейного образования выдвигают на передний план кардинально иные требования к организации процесса обучения студентов - равные права, максимальное удобство и комфорт, обеспечение постоянного интереса и мотивации к деятельности, потребность в отборе и структурировании информации.**

Известно, что информация о музейных экспонатах передается через экспозицию и выставки посетителям, которые воспринимают их через призму субъективности, исходя из собственных интересов и знаний. На особенности восприятия влияют: индивидуальное содержание каждого предмета; манера, благодаря которой музейный предмет захватывает внимание посетителя; расположение предметов в пределах экспозиции.

Национальный музей истории Азербайджана - ведущий музей страны. Музей проводит обширную работу со всеми категориями посетителей, при этом уделяя особое внимание работе с учебными заведениями. Не становится исключением и студенческая аудитория. Именно студенты составляют наиболее интересный с точки зрения музееведения "объект" исследования.

Современное поколение, во многом лишенное идеологических штампов, присущих поколению их родителей, гораздо легче усваивает новую информацию и новые интерпретации исторических событий. При этом студенты обладают весьма слабыми знаниями как в области истории, так и в сфере нахождения причинно-следственных связей в историческом процессе.

Следовательно, одной из проблем современного обучения студентов в музее являются слабые знания студентов, посещающих музей. Таким образом, на передний план выходит функция ознакомления с новыми знаниями и дополнения уже полученных в средних образовательных учреждениях знаний посредством ознакомления с музейной экспозицией.

В настоящее время все плотнее становится связь образования со сферой культуры, когда на передний план выходит формирование личности, готовой к восприятию новых, совершенствующихся форм знания. Пространство музея в глобальном измерении создает особую среду развития и общения, что предусматривает широкое моделирование в различных контекстах обучения.

Во-первых, речь идет об объединении целей академического и неформального образования; расширении наглядности учеб-



ного материала; широком привлечении политического, общественного, исторического и культурного дискурсов, которые представляют и популяризируют направленность музея, и непосредственно взаимосвязи образования со сферой культуры.

Во-вторых, культура участия акцентирует внимание на активном развитии музейной коммуникации путем постоянного формирования образа музея как важного социокультурного центра общественной жизни, создавая, таким образом, оптимальные условия для репрезентации образа музея в качестве социокультурного центра современной жизни, а также развития музейной коммуникации. Следовательно, посетители могут обмениваться опытом, высказывать собственное мнение, создавать необходимые условия для организации индивидуальных стратегий обучения, моделировать, воспроизводить и прогнозировать учебные ситуации [1, с. 107].

В результате можно видеть, что персональная среда обучения в музее расширяет содержание и пространственные границы деятельности человека в информационном и ресурсном пространстве. Коммуникация оказалась системообразующим звеном, которое позволило в определенной степени систематизировать основные составляющие процесса общения между создателем музейного пространства (музеологом) и посетителем, и параллельно выявить специфику актуализации культурных смыслов [2, с. 29].

Появилась необходимость в музейных специалистах, помогающих посетителям вступать в диалог с музейными предметами и обладающих для этого необходимыми знаниями в сфере истории искусства, материальной и художественной культуры, психологии, а также владеющими педагогическим мастерством, - музейных педагогах [4, с. 21]. К сожалению, в этом направлении музейное дело Азербайджана ещё отстаёт от общепризнанных мировых стандартов и требует к себе пристального внимания.

Вместо простого ознакомления с экспонатами - живая беседа со студентами, в основе которой лежат непосредственные наблюдения, зрительные и эмоциональные ассоциации, называемые художественным образом. Большую пользу может принести использование связей различных видов искусств, в частности - включение музыкаль-



ных и поэтических фрагментов в процесс зрительного восприятия детьми на уроках. Практика Национального музея истории Азербайджана показала свою эффективность в данном направлении деятельности. Студенты высших учебных заведений, в первую очередь, безусловно, студенты исторических факультетов, регулярно обогащают свои знания.

Претерпели изменения и формы презентации музейных ценностей и наследия страны, и методы работы с посетителями, включившие живые формы общения вплоть до приемов театрализации событий истории и культуры [3, с. 88]. Разнообразные квесты, использование визуальных материалов значительно расширили возможности музеев, в первую очередь Музея истории.

По мнению известного исследователя музейного дела Туминской О.А., студентам можно предоставить возможности личного участия посредством ведения дневниковых записей и ответов на возникающие вопросы и проведения фрагмента музейно-педагогического занятия [5, с. 128].

Ещё один вопрос требует более подробного рассмотрения. Этот вопрос связан с обучением в стенах музея будущих сотрудников данных научных учреждений - студентов исторического факультета и факультета музееведения. На наш взгляд, принципиально важно, чтобы студенты, получающие диплом по программам, связанным с музейным делом, оканчивая обучение, имели определённый набор знаний и умений в нескольких различных областях музейной практики.



Таким образом, можно констатировать, что, несмотря на трудности в деле приобщения студентов к музейному делу, эволюция взглядов на этот процесс приводит к положительным результатам.



**Список использованной литературы:**


1. Караманов, А.В. Организация персональной виртуальной среды обучения для студентов в музее: возможности и перспективы // Вопросы музеологии, № 1 (15), 2017, с. 105-113.
2. Сапанжа, О.С. Основы музейной коммуникации: учебное пособие для студентов высших учебных заведений, обучающихся по направлению 050600 "Художественное образование". СПб., 2007, 116 с.
3. Смирнова, Э.В. Трансформация функций музея в современном социокультурном пространстве // Magister Dixit, № 2, 2014, с. 84-89.
4. Троянская, С.Л. Музейная педагогика и ее образовательные возможности в развитии общекультурной компетенции: учебное пособие. Ижевск: Научная книга, 2007, 139 с.
5. Туминская, О.А. Пространство художественного музея как учебная аудитория // Вестник СПбГУКИ, № 1 (34), 2018, с. 122-128.



**Tofiq SADİQOV**
*ETN Dendrologiya İnstitutu, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent*



**Xəyalə ƏLİBƏYLİ**
*ETN Dendrologiya İnstitutunun elmi işçisi*

# Ruta graveolens l. növündən alınan efir yağı

**Azərbaycanın zəngin və rəngarəng bitki örtüyündə 800-ə qədər efir yağlı bitki formalaşmışdır. Efir yağları bitkilərin vegetativ və generativ orqanlarında toplanır. Efir yağları əsasən, tibbdə, aromaterapiyada, parfumeriyada, kosmetologiyada, qida sənayesində geniş istifadə olunur.**
**Tədqiqatlar Dendrologiya İnstitutunun eksperimental təcrübə sahəsində becərilən Ruta graveolens L. növü üzərində aparılmışdır.**





**Şəkil 1. Ruta graveolens L.**

Ruta graveolens L. tünd spesifik iyə malik olan efir yağlı bitkilər arasında özünəməxsus yer tutur. Sədokimilər fəsiləsinə aid olan Ruta graveolens L.- Ətirli sədo Ruta L. cinsinə aiddir.

Azərbaycanda mədəni halda əkilib becərilir. Ətirli sədo efir yağlı, dekorativ, həmişəyaşıl kol bitkisidir.

Bitki çoxillik, bozumtul-göy rəngli olub, bütün hissələri nöqtə şəklində efir yağlı vəziciklərlə örtülmüşdür. Abşeronun quru subtropik iqliminə introduksiya olunan Ruta graveolens L. növünün zoğ və yarpaqları toplanaraq laboratoriya şəraitində hidrodistillə üsulu ilə efir yağı alınmışdır. Alınan efir yağının komponent tərkibi "Kristal"M markalı qaz xromotoqrafiyasında öyrənilmişdir. Analizin nəticəsinə əsasən, növün efiryağının tərkibində olan alfa pinen- 65,722 % , 1,8-cineol- 1,479 % , terpinen- 0,759% , cariophyllene-

0,667% , citronellol- 1,085% , nerol- 2,017% , geraniol- 3,105% , geraniol- oleate- 0, 268% , 2-phenylethyl- tiglate- 0,128% , maddələri müəyyən edilmişdir.

**Cədvəl 1.**

| Komponent | Vaxt | Sahə, % |
|---|---|---|
| alfa-pinen | 8,492 | 65,722 |
| 1,8-Cineol (Evkaliptol) | 10,509 | 1,479 |
| terpinen | 12,701 | 0,759 |
| Cariophyllene | 14,599 | 0,667 |
| citronellol | 15,596 | 1,085 |
| Nerol | 16,691 | 2,017 |
| geraniol | 16,835 | 3,105 |
| Geranyl Oleate | 18,211 | 0,268 |
| 2-phenylethyl tiglate | 21,855 | 0,128 |




**Şəkil 2. Ruta graveolens L.- Ətirli sədo növündən alınan efir yağının xromotoqrafiyası**

Ruta graveolens L.- Ətirli sədo növünün yerüstü hissəsində 0,5% - dən 1% - ə qədər efir yağı vardır. Bundan başqa tərkibində rutin, aşı maddələri, qatanlar, furokumarinlər və s. müəyyən edilmişdir. Efir yağının tərkibində Valerian və sirkə turşularının efirlərə, sineol, limonen və başqa terpenlər vardır. Alınan efir yağı açıq rəngli olur. Bitki zəhərli olduğu üçün toplayarkən ehtiyyatlı olmaq lazımdır.



**Şəkil 3. Təcrübə sahəsində Ruta graveolens L. - Ətirli sədo növü üzərində müşahidə**

Xalq təbabətində bitkinin yerüstü çiçəkli hissələrini toplayıb qurudulur və çay dəmləyib mədə xəstəliklərində, sinir sistemini sakitləşdirici, ürək döyüntülərində, qan damarları xəstəliklərində geniş istifadə olunur. Bitki müalicəvi xüsusiyyətlərə malik olan dərman pereparatlarının tərkibinə daxildir. Ruta graveolens L. - Ətirli sədo bitkisinin yerüstü hissəsi və ondan alınan ətirli efir yağı ətriyyatda, kosmetika məmulatlarının hazırlanmasında, əczaçılıq sənayesində , konyak istehsalında istifadə olunur. Efir yağı sporosid və bakterosid xüsusiyyətə malikdir.

Araşdırmalar nəticəsində məlum olmuşdur ki, Abşeron şəraitinə uyğunlaşmış Ruta graveolens L. - Ətirli sədo növündən alınan efir yağlarının sənayedə geniş istifadəsi məqsədəuyğundur.

## NASA şimşək çaxması zamanı meydana gələn qamma şüalarını aşkar edib

**Şimşək çaxması və göy gurultusu. Bunlar hər birimizin alışdığı mənzərələr və səslərdir. Ancaq bəzən buludların üstündə qəribə hadisələr də baş verir. NASA-nın Fermi qamma şüaları kosmik teleskopu ildırımlardan gələn qamma şüalarını - kainatın ən yüksək enerjili işıq formalarından bəzilərini aşkar edib. Qamma şüaları adətən neytron ulduzlarına və qara dəliklərə bənzəyən çılğın ekstremal fizikaya malik obyektlərdən gəlir. Bəs niyə Fermi onların tufandan gəldiyini görür?**



Yerin səthi üzərində ılıq, nəmli hava yuxarı qalxmağa başlayanda və daha soyuq hava ilə qarşılaşanda, tufan əmələ gəlir. İsti hava yüksəldikcə, su damcıları yaranır. Yuxarıya doğru hərəkət edən su damcıları aşağıya doğru istiqamətlənən buz kristallarına çarparaq elektronları çıxarır və buludda statik yük yaradır. Bu halda fırtınanın üstü müsbət, alt hissəsi isə batareyanın iki ucu kimi mənfi yüklənir. Nəhayət, əks yüklər ətrafdakı havanın izolyasiya xüsusiyyətlərini aradan qaldırmaq üçün şimşək çaxmaları yaradır.

Alimlər ildırımın buludun elektrik sahəsini yenidən konfiqurasiya etməsindən şübhələnirlər. Bəzi hallarda bu, elektronların təxminən işıq sürəti ilə fırtınanın yuxarı hissəsinə doğru hərəkətinə imkan verir və şimşək çaxmaları Yerdəki ən güclü təbii hissəcik sürətləndiricisinə çevrilir. Həmin elektronlar hava molekullarına daxil olduqda, onlar yerüstü qamma şüaları saçır, bu da o deməkdir ki, ildırım tufanları kainatda ən yüksək enerjili işıq formalarını yaradır. Ancaq bu hələ hamısı deyil onlar antimaddə də yarada bilər. Bəzən qamma şüası bir atoma daxil olur və bir elektron və onun əksi olan pozitron meydana gətirir.

Müəyyən edilib ki, Yerin qamma şüaları kosmik gəminin birbaşa altında olan məkandan 800 kilometrlik məsafədə yanıb-sönür. Bu fenomen kainatdan gələn qamma şüalarının möhtəşəm parıltılarını izləmək üçün istifadə edilən "Burst" monitorinq alətindən istifadə edərək qeydə alınır.

NASA bildirir ki, Yer kürəsində hər an təxminən 1800 ildırım çaxması baş verir. Kosmosda keçirdiyi ilk 10 ildə Fermi teleskopu 5 minə yaxın yerüstü qamma şüaları müşahidə edib. Alimlər hesab edirlər ki, bu hadisələrin daha dəqiq tədqiqi kosmik gəmilərin və təyyarələrin qəzalardan qorunmasına da kömək edəcək.

## Venera Yeri nadir və güclü günəş fırtınasından qoruyacaq

**Venera Yeri müəyyən ehtimalla fevralın 18-də planetimizi vura biləcək günəş fırtınasından qoruyub.**



"Spaceweather.com" portalı xəbər verir ki, fevralın 16-da Günəşdə ən güclü X sinifli alışma, ardınca tac kütləsinin atılması (TKA) - böyük miqdarda ulduz plazmasının püskürməsi baş verib.

NASA-nın proqnozlarına görə, TKA fevralın 18-də Veneranı vuracaq və çox güman ki, onun yuxarı atmosferinin bir hissəsini məhv edəcək. Venera Yerdən fərqli olaraq qlobal maqnit sahəsi ilə qorunmadığı üçün onun qazlı qabığı günəş aktivliyinə qarşı həssasdır.

Astronomların fikrincə, sonuncu günəş alışması ulduzun cənub qütbü ərazisində baş verib. Bu qeyri-adi bir hadisədir, çünki günəş partlayışlarının əksəriyyəti ekvatorun yaxınlığında baş verir.

## Saturnun peykində buz təbəqəsi altında okean aşkarlanıb

**Həyat mənbəyi olan suyun kainatda axtarışlarında Saturnun peyki Mimas ön sıralarda olmasa da, alimlər onun cansız buz qabığının altında yeni formalaşmış okeanın olması qənaətinə gəliblər.**



N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasından verilən məlumata görə, 2004-2017-ci illərdə Saturn və onun peyklərini tədqiq edən NASA-nın Kassini kosmik gəmisinin materiallarının təhlili ilə məşğul olan Paris Rəsədxanasının alimləri Mimasın orbitində yırğalanmaların gözləniləndən iki dəfə güclü olduğunu aşkar ediblər. Tədqiqat qrupu peykin buz qabığının altında okean olması və ya nüvəsinin reqbi topu şəklində uzunsov olması ehtimallarını irəli sürüblər.

Son araşdırmalar göstərib ki, peykin fırlanması zamanla dəyişib. Kassinidən alınan materialları Mimasın daxili quruluşunun və orbitinin modelləri ilə birləşdirən qrup bu nəticəyə gəlib ki, həqiqətən də Mimasın səthinin 20-30 km dərinliyində okean var və bu onun həcminin yarıdan çoxunu təşkil edir.

Okeanın yaşı 25 milyon ildən çox deyil, ola bilsin ki, cəmi 2 milyon il əvvəl formalaşmışdır. Çünki peykin qabığında okeanın varlığının izləri hələki görünmür. Günəş sisteminin digər peykləri Enselad və Avropada olduğu kimi su səthə çıxaraq kraterləri doldurmayıb.

Okeanın varlığı Mimasın buzları suya çevirən güclü istilik mənbəyinə dəlalət edir. Hesab olunur ki, okeanın nüvəyə yaxın aşağı təbəqələri isti olsa da, üst təbəqələri donma temperaturuna yaxındır. Müəlliflər bildirirlər ki, hal-hazırda peykin hərəkətində yırğalanmalar müşahidə olunmur və bu okeanın donmasına səbəb ola bilər. Əgər okean donarsa, o zaman biz onu səthində qabığı yararaq üzə çıxmış hissələri görəcəyik.

Sözügedən kəşf Miması həyatın yaranmasına səbəb ola biləcək şərtlərin araşdırılması üçün yeni bir obyektə çevirir, çünki Yerdəki ilk canlı orqanizmlər milyardlarla il əvvəl planetimizin ilkin dənizlərində yaranıb.

Qeyd edək ki, tədqiqat işinin nəticələri "Nature" jurnalında çap olunmuşdur.

## Havadan su əldə etməyin yeni iqtisadi yolu öyrənilib

**Rusiyanın Cənubi Federal Universitetinin alimləri havadan içməli su əldə etməyə imkan verəcək qənaətcil texnologiya hazırlayırlar.**



Yeni texnologiya ilə hətta quraq səhraların atmosferindən də su əldə etmək mümkün olacaq.

Bu proses üçün rusiyalı mütəxəssislər gecələr nəm toplayan və gündüzlər buraxan xüsusi sorbentli cihazdan istifadə ediblər. Alimlər artıq cihazın prototipinə malikdirlər və hazırda çöl sınaqları aparılır. Qurğu enerji mənbəyi tələb etmir və avtonom işləyir.

Metal-üzvi çərçivə polimeri yüksək məsaməli strukturu sayəsində suyu tutur. Havanın rütubəti gecə artır və bu anda material nəmi udur. Gün ərzində günəş işığının təsiri altında qızdırılır və nəm verir. Metal kondansatör lövhəsi elm adamlarına onu adsorbsiya etməyə kömək edir.

Alimlər qeyd ediblər ki, onların inkişafı rütubət və temperaturda gündəlik böyük dəyişikliklərin baş verdiyi regionlarda effektiv olacaq.

## Yeni kəşf insanlarda müxtəlif görmə qüsurlarının müalicəsində istifadə oluna bilər

**Hollandiya Neyrologiya İnstitutunun alimləri kəşf ediblər ki, beynin kiçik və tez-tez diqqətdən kənarda qalan, superior kollikulus kimi tanınan hissəsi görmə və qavrayışda mühüm rol oynayır.**



Tədqiqat "eLife" elmi jurnalında dərc olunub.

Məlumdur ki, beynin xüsusi bir sahəsi, vizual korteks vizual məlumatın işlənməsindən məsuldur. Eyni zamanda, görmə korteksi daha az inkişaf etmiş, lakin funksional görmə qabiliyyətinə malik heyvanlar var.

Bu müşahidələr mütəxəssisləri görmə qabiliyyətinin beynin digər hissələrindən asılı olduğu fikrinə gətirib çıxarıb. Neyroloqlar üstün kollikulusa diqqət yetiriblər, çünki bu, onurğalıların bütün siniflərində mövcud olan təkamül baxımından qədim bir quruluşdur.

Tədqiqatçılar siçanlar üzərində eksperimentlər aparıblar, çünki onların insana anatomik oxşarlığı və həm görmə qabığının, həm də üstün kollikulusun olmasıdır. Testlər gəmiricilərə müxtəlif fonlarda formaları tanımaq və onlara cavab vermək üçün öyrədilmiş 16 sınaqdan ibarət olub.

Elm adamları daha sonra superior kollikulu müvəqqəti olaraq deaktiv etmək üçün işıqdan istifadə ediblər. Məlum olub ki, bu vəziyyətdə heyvanlar hələ də rəqəmlərə cavab verə biliblər, lakin təqdim olunan görüntüləri tanımaq onlar üçün xeyli çətinləşib.

Beyin fəaliyyətinin təhlili beynin müəyyən sahələrində neyronların xarakterik aktivləşməsini göstərib. Neyroloqların fikrincə, bu, obyektlərin aşkarlanmasına xidmət edən ixtisaslaşmış sinir kodunu göstərir. Bundan əlavə, təcrübə beyində vizual məlumatın işlənməsi üçün paralel yolların olduğunu da göstərib.

Mütəxəssislər qeyd ediblər ki, onların kəşfi insanlarda müxtəlif görmə qüsurlarının müalicəsində istifadə oluna bilər.

## Alimlər həyəcan təbili çaldı: "Dünyanın ağciyəri" məhv olur

**"Daily Mail" qəzetinin məlumatına görə, elm adamları yeni araşdırmada Amazon meşələrinin təxminən yarısının 2050-ci ilə qədər yox olmaq təhlükəsi ilə üzləşdiyini bildiriblər.**



Alimlər ağacların kəsilməsi, yanğınlar və həddindən artıq quraqlıq səbəbiylə Amazonun 38 faiz hissəsinin pisləşdiyini bildiriblər. Onlar 2050-ci ilə qədər tropik meşələrin 47 faizinin məhv ola biləcəyini düşünürlər.

Ekosistemi əsasən yağışdan asılı olan Amazon meşələri dünyadakı oksigenin çox hissəsini istehsal etdiyi üçün "dünyanın ağciyərləri" olaraq xarakterizə edilir. Rütubət səviyyəsi bu cür düşməyə davam edərsə, Amazonun quraq əraziyə çevriləcəyi proqnozlaşdırılır.

Araşdırmanın təfərrüatı "Nature" jurnalında dərc olunub.

## Beş saniyə ərzində xərçəng xəstəliyini aşkar edən test yaradılıb

**Tüpürcək nümunəsi əsasında süd vəzisinin xərçəngi üçün ucuz test yaradılıb.**



Qeyd olunur ki, bu test beş saniyə ərzində xəstəliyi aşkar etməyə kömək edəcək.

Florida və Tayvanda tədqiqatçılar ovucun içi boyda, təkrar istifadə edilə bilən cihaz hazırlayıblar. Test zolağında (qlükometrdə istifadə olunanlara bənzər) döş xərçəngi biomarkerlərinə qarşı anticisimlər var.

Tədqiqatçılar bildiriblər ki, bu cihaz döş xərçəngini aşkar etmək üçün mamoqrafiya və ultrasəs kimi xəstəxanada aparılan prosedurlara ucuz alternativ ola bilər. Analiz müddəti hər nümunə üçün beş saniyədən az təşkil edir.

## Yüz minlərlə insanı ölümdən qurtaracaq dərman tapıldı

**Harvard Universitetinin amerikalı kimyaçıları mikrob əleyhinə dərmanlara güclü müqavimət göstərən bakteriyaların müdafiəsinə qalib gələ bilən yeni antibiotik yaradıblar.**



Tədqiqat "Science" elmi jurnalında dərc olunub.

"Kresomisin" adlanan dərman bir çox patogenlərə, o cümlədən qızıl stafilokok və Pseudomonas aeruginosa kimi məşhur superböcəklərə qarşı təsirli olub.

Mütəxəssislər deyirlər ki, yeni molekul zülal sintezini idarə edən biomolekulyar mexanizm olan bakterial ribosomlara bağlanma qabiliyyətini nümayiş etdirir.

Ribosom funksiyasının pozulması bir çox antibiotiklərin əlaməti olaraq qalır. Amma bəzi bakteriyalar preparatın komponentlərini bloklayan fermentlər ifraz etməyi öyrəniblər.

## İlk dəfə insan beyninə çip yerləşdirilib

**Tesla və X-in sahibi, ABŞ-ın "Neuralink" neyrotexnologiya şirkətinin qurucusu İlon Mask ilk dəfə olaraq insana beyin çipinin yerləşdirildiyini açıqlayıb.**



X sosial media hesabındakı paylaşımında Mask ilk dəfə insan implantının "Neuralink" tərəfindən hazırlandığını bildirib.

Sağalma prosesinin yaxşı getdiyini bildirən İlon Mask, ilk nəticələrin "ümidverici" olduğunu deyib. O, "Neuralink"in "Telepatiya" adlı bu məhsulunun insana düşüncə gücü ilə telefonu və kompüteri idarə etməyə imkan verəcəyini qeyd edib.

"Neuralink" neyrotexnologiya şirkəti 2023-cü ilin may ayında beyin çipi layihəsinin insan sınaqlarına başlamaq üçün ABŞ Qida və Dərman İdarəsindən (FDA) razılıq alıb. "Meymunlar üzərində sınaqdan keçirilən çiplər beyindəki siqnalları uğurla şərh edərək cihazlara ötürür. 2016-cı ildə qurulan "Neuralink" şirkəti beyinə yerləşdiriləcək mikroçiplər sayəsində iflic və korluq kimi nevroloji xəstəlikləri müalicə etmək və əlillərin həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədi daşıyır", - deyə İlon Mask paylaşımda bildirib.

## Redaksiyaya göndərilən məqalələrə dair tələblər

1. Məqalələr redaksiyaya həm kağız, həm də elektron formada təqdim olunmalıdır;
2. Məqalələrin əvvəlində müəlliflərin soyadı, adı, atasının adı, elmi dərəcəsi, elmi rütbəsi, iş yeri, vəzifəsi, telefon nömrəsi, elektron ünvanı göstərilməlidir;
3. Material və ona aid şəkillər (şəkillər ayrıca fayl olaraq, böyük ölçüdə) redaksiyanın elektron ünvanına göndərilməli, yaxud da disk və ya yaddaş kartı ilə təqdim edilməlidir;
4. Məqalələr elmi-populyar janrda, Azərbaycan, rus və ingilis dillərindən birində təqdim olunmalıdır;
5. Məqalələr Microsoft Word mətn redaktorunda A4 formatında, TimesNew Roman şrifti ilə 14 pt ölçüdə, 1.5 intervalda işlənilməli, həcmi 4 səhifədən artıq olmamalıdır (məqaləyə aid şəkillər və müəllifin şəkli əlavə edilməlidir);
6. Təqdim olunmuş materiallarda səhifələr, cədvəl və şəkillər nömrələnməlidir;
7. Ədəbiyyat siyahısı verildikdə hər bir istinad olunan mənbənin adı tərcümə olunmadan, məqalədə istifadə olunma ardıcıllığına uyğun olaraq nömrələnməlidir;
8. Məqalələrdə göstərilən məlumat və faktlara görə redaksiya məsuliyyət daşımır;
9. Redaksiyaya daxil olan məqalələr rəyə təqdim edilir və müsbət rəy almış yazılar çapa tövsiyə olunur. Əlyazmalar geri qaytarılmır.

**Ünvan: AZ 1073, Bakı şəhəri, Hüseyn Cavid prospekti, 115**
**"Elm və həyat" jurnalının redaksiyası.**
**Tel: ( + 994 12) 538-71-33; 050-353-05-21**
**E-mail: elm.heyat.jurnal@gmail.com**

**Çapa imzalanmışdır: 27 mart 2024-cü il**
**Tiraj: 300**

*Jurnal **"Elm"** nəşriyyatında çap olunmuşdur.*